ResearchGate

See discussions, stats, and author profiles for this publication at: https://www.researchgate.net/publication/389649048

# DİSSERTASİYA YAZILMASI Və MÜDAFİəSİ

**Book** · March 2025

CITATIONS
0

READS
762

**1 author:**



Farhad Rahmanov
Azerbaijan State University of Economics
**74** PUBLICATIONS **130** CITATIONS

SEE PROFILE

All content following this page was uploaded by Farhad Rahmanov on 07 March 2025.

The user has requested enhancement of the downloaded file.

**Ə.B.ƏLİYEV, F.P.RƏHMANOV**

# DİSSERTASİYA

## YAZILMASI VƏ MÜDAFİƏSİ

***Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Tədris Metodik" Şurasının "11" oktyabr 2024-ci il Protokol №1 qərarı ilə iddiaçılar üçün vəsait kimi çap olunmasına icazə verilmişdir.***

**BAKI-2025**

**Rəyçilər:** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun "Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsinin müdiri, i.e.d., professor
***Sultanova Rəna Polad qızı***

Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın İqtisadiyyat üzrə ekspert şurasının sədri, Azərbaycan Dövlət Neft Şirkətinin maliyyə üzrə məsləhətçisi, i.e.d., professor
***Qasımov Süleyman Mehralı oğlu***

**Ə.B.Əliyev, F.P.Rəhmanov. Dissertasiya: yazilması və müdafiəsi. İddiaçilar üçün vəsait; Bakı: "MSV NƏŞR", 2025, 225 səh.**

Kitabda dissertasiya mətninin yaradılması və müdafiə prosesinin ümumi problemləri öz əksini tapmışdır. İddiaçılara və elmi işçilərə dissertasiyanın yazılması və müdafiəsi prosesində faydalı ola bilən texnoloji üsullar, metodik və praktiki tövsiyələr, həyati məsləhətlər xarakterizə olunur.

Dissertasiyanın yazılması və müdafiəsi prosedurları izah edilmiş, doktorantura təhsili prosesinin ayrı-ayrı məzmunlu tərəfləri, dissertasiya mövzusunun seçilməsi məsələləri ətraflı şəkildə nəzərdən keçirilmişdir.

Müəlliflər giriş hissəsindəki dissertasiyanın mövzusun2un aktuallığı, problemin öyrənilmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, elmi yenilik, müdafiəyə çıxarılan müddəalar, işin nəzəri və praktiki əhəmiyyəti kimi bölmələrin (bəndlərin) mahiyyəti və əhəmiyyəti barədə geniş açıqlamalar vermişlər ki, bütün bunlar bəzi iddiaçılar üçün maneəyə çevrilir.

Kitabda həmçinin namizədlik imtahanları, elmi dərəcə almaq üçün dissertasiyalara qoyulan tələblər, dissertasiyaların və avtoreferatların tərtibi, onların müdafiəyə təqdim olunması, müdafiə qaydaları, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında dissertasiyaların müzakirəsi, elmi adların verilməsi qaydaları barədə məlumatlar verilmişdir.

Kitab elmi dərəcələrin iddiaçıları, doktorantlar, magistrlər və dissertasiya mətninin yaradılması və müdafiə prosesi ilə maraqlanan hər kəs üçün nəzərdə tutulmuşdur.

Ümid edirik ki, bu vəsait sizin əvəzolunmaz məsləhətçiniz, köməkçiniz və ən vacib məlumat mənbəyiniz olacaqdır.

© Ə.B.Əliyev
©F.P.Rəhmanov

# MÜNDƏRİCAT

**ÖN SÖZ** 5
**GİRİŞ** 6
**FƏSİL I. DİSSERTASİYANIN HAZIRLANMASI VƏ MÜDAFİƏSİ PROBLEMİNİN TƏHLİLİ**
1.1. Elmi dərəcə almaq üçün dissertasiyaların bir alət kimi yaranma və inkişafının tarixi 10
1.2. Elmi dərəcənin alınması üçün dissertasiya müdafiəsinə dair rəsmi sənədlər 12
1.3. Elmi dərəcələr və elmi adlar haqqında 14
1.4. İnsanlar nə üçün və nəyə görə elmi dərəcələr və elmi adlar əldə etmək istəyirlər 20
1.5. Dissertasiyalarin yazilmasina və müdafiəsinə təkan verən amillər 24

**FƏSİL II. DİSSERTASİYA ÜZƏRİNDƏ İŞİN BAŞLANĞICI**
2.1. Kimlərə elmi dərəcə almaq imkanı açılır 26
2.2. Doktoranturanın üstünlükləri 29
2.3. Dissertasiya üçün elmi sahə və ixtisasın seçilməsi 31
2.4. Dissertasiya tədqiqatının sahəsi və mövzusunun iddiaçının praktiki fəaliyyəti ilə əlaqəsi 37
2.5. Elmi rəhbər 42
2.6. Qəbul imtahanları və referat 45

**FƏSİL III. DİSSERTASİYA MÖVZUSU VƏ PLANI, NAMİZƏDLİK İMTAHANLARI**
3.1. Dissertasiyanın adı (mövzusu) 50
3.2. Planın hazırlanması və işçi qrafikin tərtibi 56
3.3. Namizədlik imtahanları 66

**FƏSİL IV. DİSSERTASİYANIN YAZILMASI**
4.1. Dissertasiya işinin parametrləri 71
4.2. Dissertasiyanın tərkibi və məzmunu 76
4.3. Dissertasiyanın əsas hissəsinin (fəsillərin və altfəsillərin)

hazırlanması 120
4.3.1. Dissertasiya işinin əsas məzmununun strukturlaşdırılması 120
4.3.2. İlkin məlumatların toplanması və emalı 126
4.4. Dissertasiya yazılmasının texnologiyası və təşkili 130
4.4.1. Dissertasiya bölmələrinin yazılması ardıcıllığına yanaşmalar 130
4.4.2. Mənbələr və informasiya materialları ilə iş 132

**FƏSİL V. DİSSERTASİYA İŞİNİN MÜDAFİƏYƏ HAZIRLANMASI**
5.1. Dissertasiyanın müdafiəyə hazırlanmasının prosedur tərəfi 140
5.2. Dissertasiyanın tərtibatı 144
5.3. Dissertasiyanın avtoreferatı 151
5.4. Dissertasiya işinin ilkin ekspertizası 158
5.5. İşin Dissertasiya şurasına təqdim edilməsi və şurada ilkin baxışı 165

**FƏSİL VI. DİSSERTASİYANIN MÜDAFİƏSİ**
6.1. Rəylərin toplanması 174
6.2. Dissertasiya müdafiəsinin təşkili 180
6.3. İddiaçının özünün müdafiəyə hazırlanması 182
6.4. Dissertasiya müdafiəsinin proseduru 158

**SÖZARDI** 195

**ƏDƏBİYYAT** 196

**TERMİNOLOJİ LÜĞƏT** 203

**ƏLAVƏ 1. DİSSERTASİYA HAZIRLANMASI VƏ MÜDAFİƏSİ ÜZRƏ İŞ PLAN-QRAFİKİ** 212

**ƏLAVƏ 2. ELMİ TƏDQİQATLARDA İSTİFADƏ OLUNAN METODLAR** 221

## ÖN SÖZ

***Dahilərin dahiliyi ilk növbədə elmə bağlıdır.***
***Məhz bu bağlılıq ölkə inkişafını sürətləndirir***
***və vətəndaşlarının rifahını yüksəldir.***
***Ə.B.Əliyev***

Həyat, o cümlədən dissertasiya həyatı, yerində saymır. Dissertasiya tədqiqatlarına olan tələblər dəqiqləşdirilir, müəyyən edilmiş qayda və normalara riayət olunmasına nəzarət gücləndirilir, dissertasiyaların müdafiə qaydasını tənzimləyən bəzi müddəalar yenidən nəzərdən keçirilir.

Ən mühüm dəyişikliklərə elmi dərəcələrin verilməsi qaydaları haqqında Əsasnamənin, elmi dərəcə almaq üçün fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının əsas elmi nəticələrinin dərc edilməsi tələb olunan aparıcı resenziyalaşdırılan elmi jurnallar və nəşrlər Siyahısının dövri olaraq dəyişdirilməsi daxildir.

Oxuculara təqdim olunan bu vəsait, ümumi qaydalarla yanaşı, iddiaçının praktiki fəaliyyəti sahəsinə uyğun dissertasiya mövzusunun seçilməsinin təsvirini də ehtiva edir. Ayrı-ayrı fəsillərdə dissertasiya işinin hazırlanması və müdafiəsi üçün zəruri olan prosedurlar və bu prosedurları yerinə yetirməli olan şəxslər göstərilmişdir.

Vəsaitdə yer alan məlumatlar prosedurların tərkibi və məzmununun təkmilləşdirilməsi, onların qaydaya salınması və mövcud qaydalara uyğun olaraq ünvanlı şəkildə təyin edilməsi, həmçinin dissertasiya tədqiqatının aparılması məntiqi və nəticələrinin tərtibi ilə bağlı məsələlərin əhəmiyyəti ondan ibarətdir ki, iddiaçı tez-tez dissertasiyanın yazılması və müdafiəsi məsələlərində tək, dəstəklənməmiş qalır. Yazma texnologiyasını və dissertasiya işinin müdafiəsini təşkil etmə qaydasını bilməməsi səbəbindən iddiaçı nə qədər sadə səhvlər, uğursuzluqlar və məyusluqlar yaşayır.

Oxucuların diqqətinə təqdim olunan bu kitab həmin boşluqları aradan qaldırır. Onu oxumuş iddiaçı elmi dərəcəyə daha tez və inamla nail ola biləcəkdir.

# GİRİŞ

*“Elmdən qiymətli bir şey yoxdur:*
*padşahlar insanların hökmdarlarıdır,*
*alimlər isə padşahların hökmdarıdır”*
***Əbu əl-Əsvəd***

Bu kitabı yazmağa müəllifləri əsasən yüzlərlə və minlərlə naşı iddiaçıların qayğısı sövq etmişdir. Bu naşı iddiaçılar coşğun və təkidli istəklə, qibtəediləcək inadkarlıqla bir-birinin ardınca elmin, dəqiq desək, elmi dərəcələrin və adların zirvələrinə yol açırlar.

Tam başa düşmək vacibdir ki, elmi zirvələrə daha sadə və daha asan yol ilə çatmaq üçün, tədqiqat sənətini dərk etmək gərəkdir.

Müəlliflər hələ yolun başlanğıcında olanlarla öz təcrübələrini bölüşmək istəyirlər. Çox da çətin olmayan xeyli sayda həqiqətləri bilmək elmi dərəcəyə gedən yolu daha qısa, inamlı və eyni zamanda daha xoşagələn edə bilər, lazımsız əziyyətlərdən qaçmağa imkan verər. Hər bir halda yol həmişə çətin olmuşdur və elə də qalacaq, lakin onu yüngülləşdirmək mümkündür və vacibdir ki, dəyərli vaxt boş yerə itirilməsin.

Bu kitabı oxuduqdan sonra potensial oxucu – doktorant, elmi dərəcəyə iddiaçı və ya sadəcə maraqlı bir şəxs, dissertasiya işinin necə qurulduğu və yazıldığı haqqında əyani təsəvvür əldə edə bilir.

Müasir elmə gedən geniş bir yol var – onu tanımaq və onunla irəliləməyi bacarmaq lazımdır. Bunun üçün isə bütün bəşəriyyətin əldə etdiyi, qazandığı biliyin yükünü daşımağa ehtiyac yoxdur. Bu gün bu, sadəcə mümkün deyil. Elmi tədqiqat sahəsi ilə əlaqəli olan biliklər, bacarıqlar və vərdişlər iddiaçı üçün bilavasitə kifayət edər.

Elmi dərəcəyə gedən yol axtarışında olanlar bu yolu qət etmək üçün zəruri olan biliklər toplusunu, o cümlədən

dissertasiya işini necə yerinə yetirmək və müdafiə etmək lazım olduğunu bilməlidirlər.

Elm sahəsinə daxil olmaq, elmi dərəcə və ad almaq istəyənlərin axını daim yeni iddiaçılarla güclənir.

Açıq danışaq – elmə, yalnız, həyat amalı və taleyi elmi fəaliyyət olduğu istedadlı insanlar can atmır. Məsələn, maraqlı və istedadla yazılmış bir elmi məqaləni və ya monoqrafiyanı oxumaq onlar üçün həqiqi bir zövqdür. Elmə, həmçinin, arzuları və ambisiyaları bilik və bacarıqlarından xeyli yüksək olan insanlar da can atır.

Amma iddiaçıların ümumi problemi istedadın çatışmazlığında deyil. Artıq qeyd olunduğu kimi, problem başqa yerdədir. Əksər hallarda, onlar elmi irəliləyişin qaydalarını öyrənməklə, əvvəlki nəsillərin təcrübələrindən istifadə etməklə və dissertasiyanın hazırlanmasına dair tələbləri bilməklə elmə doğru yol açmaq bacarığına malik olmadığından, çətinliklərlə üzləşirlər.

Səbəb nədir? Arzulanan attestatları və diplomları əldə etmiş alimlər, elmi dərəcə almaq istəyində olan yenicə gələnləri öyrətmək, onlara öyrəndikləri üsulları ötürmək həvəsində olmurlar. Respublikada hələ də iddiaçıların arzusunda olduqları məqsədlərə nail olmaq yolları və üsulları haqqında işgüzar məsləhət formasında təqdim olunan vəsaitlər kitablar məcmusu sırasında layiqli yer tuta bilməmişdir.

Rəsmi qaydalara, təlimatlara gəldikdə isə, onlar, təbii ki, heç bir məsləhət vermək məqsədi güdmür. Onlar tövsiyə deyil, göstərişlərdir.

Bu vəsait məhz təcrübəsiz iddiaçıya etibarlı və praktik fəaliyyət resepturası vermək məqsədi ilə yazılmışdır.

Bu kitab yazılarkən zəngin xarici təcrübədən istifadə edilmişdir, və onu diqqətlə oxuyub məsləhətlərə əməl edən hər bir kəs uğur qazanmağa iddialı ola bilər.

Müəlliflər öz rəyçiləri professor Sultanova Rəna Polad qızına və professor Qasımov Süleyman Mehralı oğluna.

verdikləri dəyərli təklif və şərhlərinə görə dərin minnətdarlıq bildirməyi özlərinə borc bilirlər.

Bu kitabın yazılmasında əvəzsiz köməyinə görə Lətifov Hikmət Şakir oğluna müəlliflər səmimi minnətdarlıqlarını bildirirlər.

# FƏSİL 1. DİSSERTASİYANIN HAZIRLANMASI VƏ MÜDAFİƏSİ PROBLEMİNİN VƏZİYYƏTİNİN TƏHLİLİ

## 1.1. Elmi dərəcə almaq üçün dissertasiyaların bir alət kimi yaranma və inkişafının tarixi

*Qüvvət etmdədir, başqa cür heç kəs,*
*Heç kəs üstünlükləyə bilməz.*
*Hər uca rütbədən biliniz, fəqət,*
*Alimin rütbəsi ucadır əlbət.*
*Nizami Gəncəvi*

"Dissetasiya" sözü latın "**dissertation**" sözündən irəli gəlir, hərfi mənada mülahizə, tədqiqat anlamında istifadə olunur.

Dissertasiyalar, elmi dərəcə almaq üçün iddiaçının universitet divarları arasında baş tutan açıq şifahi müzakirələr zamanı müdafiə etməli olduğu, əlyazma şəklində hazırlanmış xüsusi elmi işlər kimi meydana gəlmişdir.

Tarixçilərin bildirdiyinə görə, ilk doktorluq dərəcəsi açıq dissertasiya müdafiəsi əsasında on ikinci əsrin əvvəllərində Bolonya Universitetində verilmişdir. Təbii ki, ilk elmlər doktorları universitet müəllimləri olmuşlar.

XVI yüzilliyə qədər dissertasiyaların hazırlanması və açıq müdafiəsi prosesi daha da nizama salınmış, dissertasiyalar artıq yalnız əlyazmalar şəklində deyil, həm də çap əsərləri formasında tərtib olunmağa başlamışdır.

Elmi və ədəbi mövzularda elmi dərəcə almaq üçün məcburi yazılı əsərlərin açıq şəkildə müdafiəsi sistemi tədricən formalaşır.

Dissertasiyaların hazırlanmasına dair tələblər universitetlərin nizamnamələrində təsbit olunmağa başladı. Artıq o dövrdə dissertasiya barəsində müstəqil yazılı əsər kimi

təsəvvürlər formalaşmağa başladı. Bu əsər elmi dərəcəyə iddiaçının özü tərəfindən çap etdirilib yayılmalı, bu sahədə səlahiyyətli alimlərə təqdim olunmalı idi ki, onlar dissertasiyanın müdafiəsində açıq müzakirələrdə iştirak edə bilsinlər.

Elmi dərəcə almaq üçün şifahi və yazılı imtahanlar verilməli, daha sonra universitetin fakültələrindən birində dissertasiya açıq şəkildə müdafiə edilməli idi.

Müdafiə zamanı bir opponentin çıxışı nəzərdə tutulurdu, sonradan opponentlərin sayı üçə qədər artırıldı.

XIX yüzillikdə dissertasiyaların hazırlanması və müdafiəsinə aid bəzi xüsusiyyətlərə və detallara diqqət yetirmək istərdik:

1) Dissertasiya yalnız çap edilmiş nəşr şəkildə müdafiəyə təqdim olunurdu;

2) Tezislər dissertasiyaya əlavələr şəklində bir neçə səhifəlik həcmdə tərtib edilirdi;

3) Dissertasiya fakültənin açıq iclasında, həm fakültə şurasının üzvlərinin, həm də istənilən şəxsin iştirakı ilə müdafiə olunurdu;

4) Rəsmi opponentlər müdafiə prosesi həyata keçirildiyi fakültənin professor və ya müəllimləri arasından təyin olunurdu və onların elmi dərəcəyə malik olması məcburi deyildi. Digər universitetlərdən opponentlər müdafiəyə dəvət olunmurdu;

5) Opponentlərdən sonra çıxış etmək istəyən hər kəsə bu imkan verilirdi;

6) Fakültə tərəfindən qəbul edilmiş elmi dərəcənin verilməsi haqqında qərar universitetin elmi şurası tərəfindən təsdiq olunmalı idi və bu, prosedurun yekunu sayılırdı.

## 1.2. Elmi dərəcənin alınması üçün dissertasiya müdafiəsinə dair sənədlər

*Problemin düzgün qoyuluşu onun həllinin yarısıdır.*
*Əbu Turxan*

Fəlsəfə doktoru elmi dərəcəsi almaq niyyətində olan iddiaçılara dissertasiya yazmaq və onu uğurla müdafiə etmək üçün kömək məqsədi daşıyan nisbətən azsaylı nəşrlər rəsmi normativ, tənzimləyici sənədlərə və məqsədə çatmaq üçün necə hərəkət etməli olduqları barədə mütəxəssislərin, təcrübəli insanların tövsiyə və məsləhətlərinə bölünür.

Rəsmi sənədlərdə dissertasiyalara dair tələblər, onların tərtibat və müdafiəyə təqdim olunması qaydaları, dissertasiya şurasında dissertasiyaların keçirilməsiməsi və müdafiəsi prosedurları öz əksini tapır.

Təəssüflə qeyd etmək lazım olur ki, çoxsaylı iddiaçılar (dissertantlar) elmi dərəcələrin verilməsi qaydaları və bunun üçün tələb olunan sənədlərin tərtibatı ilə bağlı çox da iri həcmli olmayan qaydaları və təlimatları bilmirlər və onlara yetərli diqqət ayırmırlar.

İddiaçılar çox vaxt öz elmi rəhbərlərinə arxayın olurlar, lakin rəhbərlər də mövcud qayda və normalara kifayət qədər önəm vermirlər, onlarla tam tanış deyillər və bütün bunları əziyyətli və lazımsız bürokratiya hesab edirlər. Lakin formal məsələlər və prosedurlara əməl olunmadığı təqdirdə, çoxlu çətinliklər yarana bilər. Əslində, hər hansı bir qayda məhz ona əməl edilməsi üçün müəyyən olunur. Qaydaların bilməməzliyi səbəbindən pozulması isə məsuliyyətdən azad etmir. Bu konkret halda məsuliyyət iddiaçı üçün vaxt itkisi və gərəksiz, lüzumsuz əsəb gərginliyi şəklində geri dönür.

Ona görə də, söhbəti elmi dərəcə iddiaçıları, onların rəhbərləri, məsləhətçiləri, aşkar və üstüörtülü köməkçiləri

tərəfindən riayət olunmalı olan əsas qaydaları xatırlamaqla başlamağı lazım bilirik.

"**Elmi dərəcə iddiaçısı**" termini iki mənada istifadə olunur:

1) dissertasiya üzərində işləyən və onu müdafiəyə təqdim edən istənilən şəxs, istər doktorant olsun, istərsə də elmi müəssisəyə bağlı olan iddiaçı – bu halda uyğun termin "dissertant"dır (bu mənada biz əsasən məhz həmin termindən istifadə edəcəyik);

2) dissertasiyanın hazırlanması, müdafiəsi üçün konkret elmi təşkilata təhkim edilmiş, doktorant statusuna malik olmayan, yəni doktoranturada təhsil almayan, lakin bu təşkilatda dissertasiya yazmaq qismində çıxış edən şəxs kimi rəsmi surətdə qəbul edilən fərd.

Bilmək lazımdır ki, elmi dərəcə almaq üçün dissertasiya yazılması və müdafiəsi yolu ilə hərəkət etmək Azərbaycan Respublikasında doktorantura təhsili və ya elmi təşkilatlara elmi dərəcə iddiaçısı kimi bağlı olmaqla sıx şəkildə əlaqəlidir. Başqa sözlə ifadə etsək, elmi dərəcəyə gedən yol Azərbaycan Respublikasında elmi kadrların yetişdirilməsi üçün nəzərdə tutulmuş ali təhsildən sonrakı peşə təhsili sistemindən keçir.

Elmi dərəcə almaq məqsədilə elmi kadrların hazırlanması üçün nəzərdə tutulmuş ali təhsildən sonrakı peşə təhsili sistemində fəaliyyət göstərən hazırlıq alt-sisteminə nüfuz etmək, orada öz yerini tutmaqla üzvi surətdə daxil olmaq zəruridir.

Məhz bu səbəbə görə də, ilk növbədə, doktoranturaya qəbul və təhsil qaydalarını, iddiaçılıq şəklində dissertasiya hazırlığını, namizədlik imtahanlarının verilməsi prosedurlarını müəyyən edən rəsmi qaydaların mövcudluğunu qeyd edək.

Bu qaydaların məzmunu ilə tanış olmaq hər bir doktorant, elmi təşkilata təhkim edilmiş elmi dərəcə iddiaçısı üçün olduqca vacibdir ki, o, öz hüquq və vəzifələrini bilsin, müəyyən olunmuş qaydalara riayət etsin və ya ən azı

qaydaların harada, nə vaxt, kim tərəfindən və nədə pozulduğunu başa düşsün.

**Bu qaydalar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) rəsmi saytında dərc olunmuşdur və hər bir elmi dərəcə iddiaçısı dissertasiya yazmağa başlamazdan əvvəl mütləq şəkildə onlarla tanış olmalıdır.**

Bu təlimatların əsas hissəsi dissertasiyanın müdafiəsi və müdafiə nəticələrinin təsdiqi prosesində rəsmiləşdirilməsi vacib olan sənədlərin siyahısını, doldurulma qaydalarını və formalarını əhatə edir.

Dissertasiyalar və onlara əsasən elmi dərəcələrin alınması ilə bağlı rəsmi qaydalara əməl etmək lazımdır, lakin nəzərə almaq vacibdir ki, mövcud qaydalar zamanla dəyişə bilər və məhz bu qayda hal-hazırda müşahidə olunmaqdadır.

### 1.3. Elmi dərəcələr və elmi adlar haqqında

*Hər şeyin bir yolu vardır Cənnətin yolu elmdir.*
*Hz. Məhəmməd (s.ə.v.) (peyğəmbər)*

"Alim" sözü, öz məntiqinə görə, "öyrədilmiş", "biliklərlə zəngin" mənasını verməlidir.

Bu gün isə "alim" dedikdə, biz elmi yaradan, yeni biliklər və elmi həqiqətlərin üstünü açan, elmi dərəcəyə malik, dissertasiya müdafiə etmiş şəxsi nəzərdə tuturuq. Ümumiyyətlə, "alim" sözünün mənası, əgər ona "tanınmış", "formalaşmış", "görkəmli", "dünya şöhrətli" kimi epitetlər də əlavə olunarsa, daha anlaşıqlı olur.

Misal üçün, "tanınmış alim" söz birləşməsini bütün ölkəyə və ya dünyaya tanınmış bir şəxs kimi sözün hərfi mənasında qəbul etmək lazım deyil. Çünki daha kiçik miqyasda, məsələn, universitet səviyyəsində də tanınmaq mümkündür.

Statistika nöqteyi-nəzərindən elmi yaradıcılıq fəaliyyəti ilə məşğul olan hər hansı bir vətəndaş özünü alim adlandıra bilər. Lakin alim hesab olunmaq istəyirsinizsə, bununla bağlı sənəd təqdim etməlisiniz.

Bu sənədlər elmi dərəcənin və ya elmi adın mövcudluğunu təsdiq edən diplomlar və attestatlardır.

Məhz buna görədir ki, ilk öncə həmin dərəcə və adların nə olduğunu, onların mövcudluğunun elmi hakimiyyətin səlahiyyətli orqanları tərəfindən sənədlərlə təsdiq edildiyini anlamaq lazımdır.

Azərbaycan Respublikasında təsdiq edilmiş vahid elmi dərəcələr və elmi adlar reyestrinə əsasən, iki **elmi dərəcə** mövcuddur: ilkin elmi dərəcə - **fəlsəfə doktoru**, və daha yüksək dərəcə - **elmlər doktoru**. Hər bir fəlsəfə doktoru elmlər doktoru dərəcəsinə yüksəlmir. Yalnız təxminən hər beş-altı nəfərdən biri.

Fəlsəfə doktoru dərəcəsindən elmlər doktoru dərəcəsinə (fəlsəfə doktoru elmi dərəcəsinin müdafiəsindən elmlər doktoru elmi dərəcəsinin müdafiəsinə qədər) keçən dövr müxtəlif səbəblərə görə adətən 5 ildən 25 ilə qədər davam edə bilər.

Prinsip etibarilə, elmi dərəcə müvafiq dərəcəyə iddiaçının öz **dissertasiyasını** açıq şəkildə müdafiə etməsi əsasında verilir.

İndi isə, dissertasiyanın nə olduğu və onun necə müdafiə edildiyi barədə daha ətraflı məlumat verək.

Formal olaraq, təsdiq edilmiş qaydalara əsasən, fəlsəfə doktoru elmi dərəcəsi Dissertasiya şurası, yəni müvafiq elmi dərəcəyə dissertasiyaları müdafiəyə qəbul etmək hüququna malik ixtisaslaşdırılmış şura tərəfindən verilir.

Eyni zamanda, arzu olunan doktorluq diplomu yalnız AAK-da attestasiya işinin nəzarət yoxlamasından keçdikdən sonra əldə edilə bilər.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnaməni AAK-ın rəsmi saytında tapa bilərsiniz.

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün, hər şeydən öncə, dissertasiyanı hazırlamaq və müdafiə etmək lazımdır. Bu isə heç də kiçik olmayan, kifayət qədər iri həcmli bir elmi işdir, təxminən 150-dən 180-200 səhifəyə qədər mətn ehtiva edir.

Bəs çox səhifəli dissertasiya yazmadan, ancaq məhz qanuni əsaslarla elmi dərəcə almaq mümkündürmü? Məlum olur ki, mümkündür, lakin bu o qədər də sadə və sıradan biri olan məsələ deyil. Elmi dərəcələrin verilməsi qaydasına uyğun olaraq, dissertasiya iddiaçının apardığı tədqiqat və işləmələrin nəticələrinin qısa ümumiləşdirilmiş təqdimatını əks etdirən **elmi hesabat** formasında da təqdim oluna bilər (bu barədə daha ətraflı məlumat aşağıda veriləcəkdir).

Təlimata əsasən, fəlsəfə doktoru elmi dərəcəsi ali təhsilli iddiaçılara verilə bilər.

Elmi dərəcələr barədə ilkin məlumat verdikdən sonra **elmi adlara** keçək.

Azərbaycan Respublikasında vahid elmi dərəcələr və elmi adlar reyestrinə əsasən, aşağıdakı elmi adlar nəzərdə tutulmuşdur:

a) ixtisaslar nomenklaturasına uyğun olaraq, elmi işçilər üçün ixtisas üzrə və ya təhsil müəssisəsinin kafedrası üzrə **dosent**;

b) ixtisas üzrə və ya kafedra üzrə **professor**.

Elmi adlar sistemi elmi dərəcələr sistemindən daha qarışıq və mürəkkəbdir. Bunun səbəbi yalnız ixtisas üzrə və kafedra üzrə adların fərqlənməsi deyil, həm də elmi dərəcələrin yalnız elmi olmasıdır, halbuki elmi adlar həm elmi, həm də pedaqoji, yəni tədrislə, müəllimliklə əlaqədardır.

Elmi adlar haqqında məlumatları sistemləşdirmək məqsədini qarşıya qoymadan, biz yalnız "elmi dərəcə" və "elmi ad" anlayışlarını ayırmağa çalışaraq onlara toxunuruq. Bu sahədə tez-tez rast gəlinən qarışıqlığın qarşısını almağa cəhd edirik.

Elmi adlar barədə danışarkən, **vəzifə üzrə adı** ilə **elmi adı** fərqləndirmək lazımdır ki, həmin elmi ada analoji vəzifəni

tutmadan belə layiq görülmək mümkündür. Belə ki, insan müvafiq attestatla təsdiq olunan ada malik olmadan belə, kafedrada professor və ya dosent vəzifəsini tuta bilər.

Ancaq elmi ad, misal üçün, professor və yaxud dosent adını əldə etmək, müvafiq rəsmi attestata malik olmaq mümkündür və belə şəxslər bəzən istehsalatda sex rəisi vəzifəsində işləyə bilər və ya ümumiyyətlə belə şəxslər işsiz də ola bilərlər. Bu barədə təkcə professor adını daşıyan, lakin təəssüf ki, professor vəzifəsində deyil, daha aşağı vəzifədə işləyən şəxslərə olan təəssüf hissindən yazmaq lazım gəlir.

Məsələ ondadır ki, professor vəzifəsində çalışan, lakin bu elmi ada malik olmayan şəxslər özlərini professor adlandırırlar, halbuki əslində onlar sadəcə olaraq professor vəzifəsini tuturlar.

Bilmək lazımdır ki, "dosent" və "professor" attestatları ilə təsdiqlənmiş elmi adlarla yanaşı, elmi adla birbaşa əlaqəsi olmayan **vəzifə** adları da mövcuddur.

**"Elmi işçi" elmi adı** elmi təşkilatlarda elmi-tədqiqat fəaliyyəti göstərən şəxslərə, "**dosent" elmi adı** isə ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət göstərən şəxslərə verilir.

**"Professor" elmi adı** ali təhsil müəssisələrində və elmi təşkilatlarda elmi-pedaqoji fəaliyyət göstərən şəxslərə verilir.

Elmi ad verilmiş şəxslərə müvafiq **attestatlar** təqdim olunur ki, bu da **fəlsəfə doktoru və yaxud da elmlər doktoru diplomu** ilə analogiyaya əsasən şəxsin alimlər dünyasına aidiyyətini təsdiq edən rəsmi "arayış" dır.

Elmi dərəcələr dissertasiyaların müdafiəsi nəticəsində verilir, elmi adlar isə elmi-pedaqoji fəaliyyətin nəticələrinə görə təqdim olunur.

"Verilmə" və "təqdim olunma" qaydası və proseduru fərqlidir. Elmi dərəcə almaq istəyən iddiaçı dissertasiya şurası formasında bir növ "məhkəmə"də dissertasiyasını müdafiə

edərək tələb olunan dərəcəni almaq üçün əsaslarının olduğunu sübuta yetirir.

Elmi ad isə AAK tərəfindən, iddiaçının bu adı almaq üçün tələb olunan şərtləri yerinə yetirdiyini təsdiq edən vəsatət əsasında verilir.

**“Verilir”** sözü yalnız elmi dərəcələrə aid olan, **“təqdim edilir”** sözü isə yalnız elmi adlarla əlaqəli olan anlayışlardır və bu iki məfhumu qarışdırmamaq olduqca vacibdir. Bu, tez-tez rast gəlinən bir yanlışlıqdır. Yeri gəlmişkən, elmi işçiyə elmi adın verilməsi ilə bağlı vəsatət qaldırılıbsa, deyirlər ki, o, elmi ada təqdim olunub. Amma elmi dərəcə üçün isə təqdimat verilmir, onu, əvvəlki izahatlardan da göründüyü kimi, dissertasiya müdafiəsinin nəticələrinə əsasən səlahiyyətli dissertasiya şuraları verir.

Elmi dərəcənin mövcudluğunu fəlsəfə doktoru və ya doktorluq **diplomu** təsdiq edir, elmi adın mövcudluğunu isə dosent və ya professor **attestatı** təsdiqləyir. Bu isə o deməkdir ki, həmin sənədlərin adları fərqli olur.

Adəti üzrə, dosent elmi adının verilməsindən əvvəl fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi, professor elmi adının verilməsindən əvvəl isə elmlər doktoru elmi dərəcəsinin verilməsi baş verir. Yəni, əvvəlcə elmi dərəcə almaq, sonra isə ona uyğun elmi ad əldə etmək lazımdır. Bununla əlaqədar olaraq, elmi dərəcəni almaq adətən elmi adı almaqdan daha çətin olur, çünki dərəcə əldə edildikdən sonra ada bir neçə ildən sonra nisbətən asanlıqla sahib olmaq mümkün olur.

Buradan aydın olur ki, elmi ad almaq üçün elmi dərəcəyə malik olmaq məqsədəuyğundur.

Bir daha qeyd edək ki, **elmi adlardan** danışarkən, onları **vəzifədən** fərqləndirmək lazımdır. Müvafiq elmi ada malik olmadan da dosent və yaxud professor vəzifəsini tutmaq olar.

Elmi ad həmişəlik, ömürlük verilir, vəzifə isə müəyyən müddət üçün təyin edilir.

Elmi vəzifələrin diapazonu elmi adların diapazonundan daha genişdir. Belə ki, iki elmi ada uyğun gələn bir çox vəzifələr mövcuddur. Ali təhsil müəssisələrində bu, assistent, müəllim, baş müəllim, dosent, professor vəzifələridir. Elmi təşkilatlarda isə kiçik elmi işçi (k.e.i.), elmi işçi, böyük elmi işçi (b.e.i.), aparıcı elmi işçi, baş elmi işçi vəzifələridir.

Bundan əlavə, kafedra, şöbə, laboratoriya, sektor müdirləri və daha yüksək vəzifələr – rektorlar, prorektorlar, direktorlar kimi yüksək vəzifələr də mövcuddur. Ümumilikdə, bizdə elmi vəzifələr kifayət qədərdir. Hər hansı bir belə vəzifəyə malik olan şəxs özünü alim hesab edə bilər.

Elmi, dəqiq desək, "əməkdar" sözləri ilə başlayan elmi adlardan da bəhs etmək lazımdır. Məsələn, "Əməkdar elm xadimi", "Əməkdar müəllim", "Əməkdar artist" və s.

Elm sahəsində xüsusi xidmətlərə və nailiyyətlərə görə ayrı-ayrı professorlara **Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü və həqiqi üzvü (Akademik)** adları verilir.

Azərbaycan Milli Elmlər Akademiyasının böyüklüyü onun tərkibinə ən görkəmli alimlərin daxil olması ilə ölçülür.

Azərbaycanın elmi dərəcələr və elmi adlar sistemi ilə tanış olduqdan sonra, oxucu **xaricdə** bu məsələlərin necə olduğunu soruşa bilər.

Xarici ölkələrdə fəaliyyət göstərən universitetlər özlərinə məxsus "yerli" elmi dərəcələrini müstəqil şəkildə vermək imkanına malikdir.

Onlarda da doktor və professor dərəcələri verilir. Bizim elmi adların tam dəsti onlarda mövcud deyil. Ancaq professorlar müxtəlif dərəcələrə malikdirlər: kiçik professorlar, sadəcə professorlar və böyük yaxud tam professorlar (bilik və xidmətlərin tanınma dərəcəsinə görə).

Bununla belə, elmi sistemlərin, elmi irəliləyiş yolları və üsullarının zahirən fərqlənməsinə baxmayaraq, onlarda çoxlu ortaq və oxşar cəhətlər də mövcuddur. Əvvəllər belə ifadə işədilirdi: "elm – Afrikada da elmdir". Alimlər də belədir. Və

hər hansı bir sistemdə, hər hansı bir quruluşda elmə nüfuz etmək, daxil olmaq üçün dissertasiya müdafiəsi üzrə ümumi qanunlar və qaydalar mövcuddur. Elm beynəlmiləldir.

## 1.4. İnsanlar nə üçün və nəyə görə elmi dərəcələr və elmi adlar əldə etmək istəyirlər

***Elmlə ədəblə tapılar şərəf***
***Mirvari olmasa nə lazım sədəf.***
***Nizami Gəncəvi***

Həyatın məqsədi, insan arzuları və ehtiyacları, onların əhəmiyyət və vaciblik baxımından bölüşdürülməsi problemi həmişə insanları düşündürüb və düşündürəcək. Filosoflar və sosioloqların bütün səylərinə baxmayaraq, bu problemi heç kimin və heç vaxt tam həll edə bilməyəcəyi də aydın məsələdir. Buna görə də, “İnsanlar nə üçün və nəyə gösrə elmi dərəcələr və adlar əldə etməyə çalışırlar, bunun üçün çoxlu vaxt və səy sərf edirlər?” sualına hərtərəfli cavab axtarmaq lazım deyil. Axı, insan nəyisə axtarırsa, deməli, buna ehtiyacı var.

Tələbat – insanların ehtiyac duyduğu bir şeydir. Buna görə də, belə bir tələbatın təbiəti haqqında deyil, onu necə daha az xərclə daha tam və dolğun şəkildə təmin etmək barədə düşünmək lazımdır. Amma elmi dərəcə əldə etmək istəyənlərin arzularının mahiyyətini anlamaq vacibdir, çünki iddiaçının məqsədinə çatmaq üçün göstərdiyi səylər onun arzularından asılıdır.

Amerikalı sosioloq və psixoloq A. Maslounun təsəvvürlərinə uyğun olaraq, iyerarxik şəkildə qurulmuş insan ehtiyacları beş pillədən, səviyyədən ibarət özünəməxsus “piramida” təşkil edir. Ehtiyacların sıralanması aşağıdakı strukturu təşkil edir:

1. Özünü reallaşdırma, özünü təsdiqləmə tələbatı.

2. Başqalarının hörmətini qazanmaq və özünə hörmət tələbatı.

3. Ünsiyyət, dostluq və sevgi tələbatı.

4. Təhlükəsizlik və dəstək tələbatı.

5. Fizioloji tələbatlar.

İndi isə bu ehtiyacların təmin olunmasının insanın elmi dərəcə və elmi ada malik olması ilə necə əlaqəli olduğunu nəzərdən keçirək.

Alim, dissertasiyanı uğurla müdafiə etdikdən, elmi dərəcə aldıqdan və yaxud da ona elmi ad verildikdən sonra gəlirlərin və maddi nemətlərə əlçatanlığın artması nəticəsində öz fizioloji ehtiyaclarını daha dolğun təmin edə bilər. Belə şanslar mövcuddur. Bu barədə daha sonra danışacağıq.

Alimin təhlükəsizliyi sıravi vətəndaşdan bir qədər yüksəkdir, çünki Azərbaycanda alimlərə tarixi ehtiram mövcuddur. Gənc doktorantlar olan kişilərə təhsil aldıqları üçün hərbi xidmətdən möhlət verilir. Fəlsəfə doktorları isə ümumiyyətlə, hərbi xidmətə çağırılmırlar. Tanınmış alimlər xüsusi poliklinikalara təhkim olunurlar. Bütün bunlar bəlli şeydir.

Alimlər klubuna daxil olmaq, şübhəsiz ki, ünsiyyəti və dostluğu inkişaf etdirir. Alimlər arasında əlavə əlaqələr yaranır, onlar özünəməxsus cəmiyyətlər təşkil edirlər. Onlar universitetlər, müxtəlif elmi cəmiyyətlər və fondlar tərəfindən təşkil olunan konfranslarda, seminar və tədbirlərdə görüşürlər. Alimlər tez-tez xaricə gedir və xarici həmkarları ilə ünsiyyət qururlar.

Ətrafda olan insanların alimlərə hörməti, artıq qeyd edildiyi kimi, Azərbaycan tarixində mövcud olan ənənələrdən qaynaqlanır. Son zamanlar belə hörmətin müəyyən dərəcədə azaldığı, pul qazanmağı bacaran iş adamlarına hörmətin artdığı müşahidə olunsa da, alimlərə hörmət hələ də müəyyən dərəcədə qorunub saxlanılır.

Elmi dərəcə və elmi adlar əldə edildikdən sonra isə özünə hörmət ehtiyacı olduqca yüksək həddə təmin olunur. Heç özün də hiss etmirsən ki, necə özünə daha çox hörmət etməyə başlayırsan, özünə daha çox dəyər verirsən.

Və əlbəttə ki, dissertasiya yazmaq və müdafiə etmək, elmi dərəcələr və adlar əldə etmək və onlardan gələcəkdə istifadə etmək özünüreallaşdırmanın, özünüifadənin ən yüksək formalarından biridir.

Bu baxımdan alimləri, bəlkə də, yalnız aktyorlar, məşhur idmançılar və siyasi xadimlər üstələyə bilər.

Beləliklə, A. Maslounun təklif etdiyi ehtiyaclar “piramidası”na əsaslansaq, elmə nüfuz etmək istiqamətində doğru irəliləmək, elmi dərəcələr və adlar əldə etmək elmi cəhətdən əsaslandırılmış ehtiyacların təmin olunma şanslarını artırır.

Alimlər nisbətən uzun ömür sürürlər, ən azından digər bir çox fəaliyyət sahələrində çalışan insanlara nisbətən daha çox yaşayırlar. Ekspertlərin qiymətləndirmələrinə görə, fəlsəfə doktoru dərəcəsi və dosentlik elmi adı olmayan insanlarla müqayisədə həmin dərəcə və ada layiq görülmüş insanların ömürləri iki-üç il çox olur.

Doktorlar və professorlar isə təxminən beş-yeddi il daha uzun ömür sürürlər, müxbir üzvlər və akademiklər isə səkkiz-on il daha çox yaşayırlar. Ətraflı və etibarlı statistikanın olmaması bu fərziyyənin daha dəqiq rəqəmlərlə təsdiqlənməsinə imkan vermir.

Alimlər maddi baxımdan da az qazanmır. Əlbəttə, gəlirlərinə və maddi rifahlarına görə onlar uğurlu sahibkarlarla, yüksək vəzifəli şəxslərlə müqayisə oluna bilməzlər. Hətta bir akademik belə bu yarışmada qalib gələ bilməz.

Amma fəlsəfə doktoru bir fəhlə, qulluqçu, mühəndis, həkim və ya müəllimlə müqayisə edilə bilər.

Pul ifadəsində elmi dərəcələr və adlar həm əməkhaqqı dərəcəsinin bir qədər yüksək olması, həm də əlavə işlərə

(dissertasiya şuralarında fəaliyyət, opponentlik və s.) görə daxil olan maddi vəsaitlər hesabına əlavə gəlir əmələ gətirir.

Çox şey elmi dərəcələr və elmi adları istifadə etmə bacarığından asılıdır. Bu, belə bir düstura uyğun olaraq həyata keçirilir: “elmi dərəcə – vəzifədə irəli çəkilmə – daha yüksək maaş almağa imkan verən mövqeyin əldə edilməsi”.

Etiraf etmək lazımdır ki, keçmiş SSRİ-də müşahidə olunmuş elmi-intellektual məhsula olan tələbat bu gün xeyli azalıb. Çox vaxt elmi, mənəvi məhsul tələb olunmamış qalır. İnsanlar getdikcə daha çox istehlakçılıq mərəzinə tutulurlar. Onlar geyim, zinət əşyaları və bunlara bənzər digər maddi nemətlər və zövqlər istəyirlər, buna görə də mənəvi dəyərləri təmsil edən elmi tədqiqatların nəticələrinə olan tələbat yüksək deyil.

Eyni zamanda, müəyyən elmi, təhsil və informasiya məhsulları müasir əmtəə və xidmətlər bazarında yüksək qiymətləndirilir.

Elmi zəmin üzərində maddi və pul rifahı ideyasının uğursuzluğu haqqında tələsik və birtərəfli nəticələr çıxarmaq lazım deyil. Alimlərin digər işçilərlə müqayisədə daha çox olan boş vaxtı da pul dəyərindədir. Bu vaxtı əlavə elmi və pedaqoji fəaliyyət üçün tam şəkildə istifadə etmək olar.

Hətta elm maddi zənginləşmənin ən yaxşı və ən səmərəli üsulu olmasa belə, bu, mənəvi zənginliyə gedən etibarlı yoldur. Etiraf etmək lazımdır ki, elm də, incəsənət kimi, bu sahədə tükənməz imkanlar təqdim edir. Kainatın gizli sirlərini kəşf etmək və elm yaradan, Biliklər Sarayını inşa edən insanlarla ünsiyyətə girmək, heyrətamiz və bənzərsiz hisslər bəxş edir.

Şəxsi töhfənin Əbədi Elmin xəzinəsinə əlavə edilməsi insanı ucaldır, özünü təsdiq etmənin, məşhurluq qazanmanın və şöhrətə yaxınlaşmanın güclü mənbəyi qismində xidmət edir.

Xalq arasında alimlər yazıçı və şairlərə, rəssamlara, bəstəkarlara bənzədilərək, çox vaxt ziyalı, intellektual baxımdan istedadlı və hətta ən ağıllı insanlar kimi tanınır.

Həyatın çətinliklərinə baxmayaraq, elm mənəvi xoşbəxtlik bəxş edir, hətta elmlə çox məşğul olmayan və onun xəzinəsinə çox da böyük töhfə verməyənlərə belə minnətdarlıqla cavab verir.

## 1.5. Dissertasiyaların yazılmasına və müdafiəsinə təkan verən amillər

***Elm sərvətdən daha qiymətlidir.***
***Çünki, sərvəti qoruyursan, elm isə səni qoruyur.***
***Hz. İmam Əli (ə.s.)***

İndi isə dissertasiyaların yazılmasına və müdafiəsinə təkan verən hərəkətverici qüvvələri araşdırmağa çalışaq.

Belə təkanverici səbəblərin olduğunu həyatın özü sübut edir. XX əsrin 90-cı illərinin əvvəllərində baş vermiş tənəzzüldən sonra, XXI yüzilliyin başlanğıcından etibarən Azərbaycanda dissertasiya müdafiəsinə və elmi adların alınmasına marağın artması müşahidə olunur. Bu artım nə ilə şərtləndirilib və kimlərə təsir göstərməkdədir?

Sevindirici haldır ki, bazar dövrü vətənimizin bəzi gənclərində elmi axtarışlara marağı, müxtəlif elmlərdə öz qabiliyyətlərini və həyatlarını yaradıcı tədqiqatlara həsr etmək arzusunu öldürməyib. Prioritetlər bir qədər dəyişir. Hərdən bir önə çıxan, bəzən riyaziyyat, maliyyə, bəzən biologiya, iqtisadiyyat və hüquq, bəzən isə informatika, rəqəmsallaşma və süni intellekt olur. Lakin kainatın, maddi və mənəvi həyatın sirlərini öyrənmək arzusunda olanların axtarışı, bazar istehlak psixologiyasının təsiri altında azalsa da, yenə də tükənmir. Elə insanlar var və hər zaman olacaq ki, elm onlar üçün elmin özü naminə, ali səadət, xoşbəxtlik, zövqün mənbəyi, öz imkan və istedadlarını tətbiq edə biləcəkləri sahə kimi lazımdır.

Gənc praqmatiklərin sayı artır ki, onlar müasir həyat şəraitində elmi ən yaxşı və gəlirli fəaliyyət sahəsi hesab

etmirlər, lakin yaxşı anlayırlar ki, elmi biliklərin ehtiyatı, elmi dərəcə ilə dəstəklənərsə, nəinki mane olmaz, hətta faydalıdır.

Belə gənclər az və ya çox gəlir gətirən bir işdə, sahibkarlıq fəaliyyətlərində iştirak edərək və ya belə bir iştirakı planlaşdıraraq, orta təbəqəyə aid olmaq üçün çalışaraq, eyni zamanda dərk edirlər ki, qiyabi doktoranturaya daxil olmaq, iddiaçı olmaq və dissertasiyanı müdafiə etmək cəmiyyətdə, həyatda öz statuslarını möhkəmləndirmək üçün faydalıdır. Onlar elmi dərəcədən dərhal fayda və üstünlüklər gözləmirlər, ancaq inanırlar ki, zamanla bütün bunlar öz bəhrəsini verəcək.

Belə elmi dərəcə iddiaçılarına uzaqgörənlik yad amil hesab oluna bilməz.

Daha bir iddiaçı kateqoriyasını da qeyd edək. Onlar dərin hörmətə layiqdirlər, çünki illərlə öz vaxtlarını gözləyib, böyük səy və əziyyətlər hesabına dissertasiyalarını hazırlayıblar.

Söhbət böyük istedad və mübarizlik qüvvəsinə malik olmayan institut və universitet müəllimlərindən, elmi-tədqiqat və layihə-konstruktor təşkilatlarının işçilərindən gedir. Bu insanlar damla-damla öz elmi nailiyyətlərini və ya elmi ədəbiyyatda tapdıqları fikirləri bir araya gətirib, toplayıb, illər, bəzən isə onilliklər boyu öz sadə dissertasiya "evini" inşa edirlər.

Belə iddiaçıların böyük əksəriyyəti fəlsəfə doktoru dərəcəsi ilə kifayətlənir, amma bəzi hallarda daha yorulmaz, gücü-qüvvəti tükənməz olanlar da tapılır ki, 50 yaşında doktorluq dissertasiyası haqqında düşünürlər, 60 yaşına yaxın isə onu tamamilə öz əlləri, gücləri sayəsində ərsəyə gətirərək müdafiə edirlər.

# FƏSİL 2. DİSSERTASİYA ÜZƏRİNDƏ İŞİN BAŞLANĞICI

## 2.1. Kimlərə elmi dərəcə almaq imkanı açılır

*Elm məclisi cənnət bağçasıdır.*
*Hz. İmam Əli (ə.s.)*

Tutaq ki, öz inamlarınız və maraqlarınızın, valideynlərinizin, yaxınlarınızın və tanışlarınızın təsiri altında elmi xoşbəxtliyin üstünlüklərinə əmin olaraq alim olmağa can atırsınız. Ancaq bunu reallaşdırmaqdan sizi öz qabiliyyətlərinizə və imkanlarınıza olan inamsızlıq saxlayır. Və ya dissertasiyanın hazırlanması və müdafiəsi metodikasını və texnologiyasını bilmədiyiniz üçün elmi zirvələrin sizə əlçatan olduğuna şübhə edir və naməlum yollardan qorxursunuz.

Bu zərərli şübhələri bir kənara qoyun. Çünki, dissertasiyaları heç də həmişə dahilər yox, adi insanlar hazırlayır. Bunu orta və hətta bəzən orta səviyyədən aşağı qabiliyyətli adi insanlar edirlər.

Qabiliyyət və səriştələr, az və ya çox, eyni bərabərdə bölüşdürülür. Demək olar ki, hamı eyni dərəcədə istedadlı doğulur. Məsələ anadangəlmə qabiliyyətlərdə deyil, məsələ **əzmkarlıqda və çalışqanlıqdadır**. Bunların ikisi birlikdə elə qabiliyyət deməkdir.

Boşuna deməyiblər: "Bir faiz istedad və doxsan doqquz faiz səbr – budur sizin üçün bir dahi". O bir faiz istedad isə, demək olar ki, hər kəsdə var. İstedadlar və dahilər məsələsinə gəldikdə isə, onlar elmi dərəcəyə iddia edən ümumi kütlədən o qədər fərqlənirlər ki, dissertasiyalar vasitəsilə öz müstəsnalıqlarını sübut etməyə ehtiyac duymurlar. Ancaq istedadlı insanlar da dissertasiya müdafiə edirlər, lakin çox vaxt bunu artıq tanınmış alim olduqdan sonra və ya bu mərhələyə yaxınlaşdıqda həyata keçirirlər.

Qeyd etmək lazımdır ki, istedad çox vaxt qəfil, gözlənilmədən ortaya çıxır. Ayrı-ayrı dahi alimlər məktəbdə və universitetdə müvəffəqiyyət nümayiş etdirə bilməyiblər. Niyə də sizin də bu qrupa aid olduğunuzu düşünməyək?

İndi isə elmi dərəcələrin kimə və hansı əsaslarla verildiyini müəyyən edən rəsmi qaydalara keçək. Elmi dərəcələrin verilməsihaqqında Əsasnamədə iddia olunur ki, fəlsəfə doktoru elmi dərəcəsi Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya şurasının vəsatətinə əsasən, ali peşə təhsili olan iddiaçının dissertasiyasının açıq müdafiəsinin nəticələrinə görə verilir.

Əsasnamədən göründüyü kimi, elmi dərəcəyə iddia edən şəxsdən tələb olunan yeganə şərt – ali təhsilə malik olmaqdır, sonra isə dissertasiya yazmaq və onu uğurla müdafiə etməkdir.

Əslində, bu ilkin baxışdan sadə kimi görünən bu şərtlərin arxasında çox şey durur. İlk növbədə, namizədlik imtahanlarını vermək və dissertasiya işini yaratmaq üçün peşəkar biliklərə sahib olmaq lazımdır. İkinci növbədə isə dissertasiyanı müdafiə etmək bacarığı tələb olunur.

Əsasnamədə təhsilin keyfiyyəti barədə heç nə deyilmir. Diplomun qırmızı olub-olmaması, qiymətlərin əla yaxud da orta olması, təhsilin gündüz, qiyabi və ya distant olması, yaxud təhsilin ekstern üsulla başa çatdırılması əhəmiyyət kəsb etmir – əsas ali təhsilin olmasıdır.

Peşə təhsili ilə bağlı vəziyyət isə daha mürəkkəbdir. Əsasnaməyə uyğun olaraq, ali təhsili dissertasiyanın hazırlandığı elm sahəsinə uyğun olmayan fəlsəfə doktoru elmi dərəcəsinə iddia edən şəxs, dissertasiya şurasının qərarı ilə bu sahəyə uyğun ümumi elmi fənn üzrə əlavə namizədlik imtahanı verir[1].

---

[1] Oxucuya (iddiaçıya) belə bir məqama diqqət yetirməyi tövsiyə edirik ki, hazırda ali təhsilin olması və s.-lə bağlı deyilənlərin hamısı Ali Attestasiya Komissiyasının rəsmi saytında daha ətraflı işıqlandırılır. Səbəb ondadır ki,

Həmçinin qeyd etmək lazımdır ki, əgər iddiaçı tamamilə başqa bir ixtisas üzrə dissertasiya müdafiə etmək istəyirsə və bu ixtisas onun ali təhsil aldığı sahədən fərqlənirsə, o, daha bir ali təhsil müəssisəsini bitirə bilər. Hazırda insanlar, zərurət yarandıqda, ikinci ali təhsil alırlar.

Ancaq Əsasnamədə daha bir bənd mövcuddur ki, ona əsasən dissertasiya yeni elmi nəticələr və müddəaların cəmini əks etdirməli, daxili vəhdətə malik olmalı və müəllifin elmə şəxsi töhfəsini nümayiş etdirməlidir. Bununla belə, bu bənd heç bir halda elmə gedən yolda aşılmaz maneə kimi qəbul edilməməlidir və o şəxslərin yolunu kəsməməlidir ki, onlar əvvəlcədən, ilk məqamlardan dərin biliyə malik deyillər. Axı belə biliklər dissertasiyanın hazırlanması prosesində, müdafiəyə qədər əldə edilə bilər, və bu bəndin istinad etdiyi məqam da məhz budur. Həmçinin əlavə etmək lazımdır ki, fəlsəfə doktoru elmi dərəcəsinə iddiaçının peşəkarlığı dissertasiya işinin hazırlandığı sahəyə aid ixtisas üzrə namizədlik imtahanının mütləq qaydada verməsi ilə təsdiqlənir.

Bununla əlaqədar olaraq aşağıdakı məqama diqqət yetirək. Fəlsəfə doktoru **(PhD)** hazırlığı elmi işçilərin fasiləsiz istehsalı prosesi deyil. Bunun üçün çoxlu vaxt, səy və resurs tələb olunur. PhD proqramları üçün güclü zəmin effektiv magistr proqramları ilə təmin edilməlidir. Məhz magistratura səviyyəsində tələbələr tədqiqat sahəsində əsas bilik və bacarıqları qazanmalıdırlar.

PhD çox vaxt sosial statusu artırmaq üçün vasitə kimi qəbul olunur.

Təəssüflər olsun ki, fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsinə malik xeyli sayda insan dissertasiya müdafiəsindən sonra elmi tədqiqatlarla və elmlə yetərincə məşğul olmur və

---

"Elmi dərəcələrin və elmi adların verilməsi haqqında Əsasnamə"yə və, ümumuyyətlə, dissertasiyanın yazılması və müdafiəsinə aid AAK-ın başqa sənədlərində müntəzəm olaraq dəyişikliklər edilir.

konfrans, simpozium və özünün yenicə əldə etdiyi elmi nailiyyətlərini nümayiş etdirə biləcək başqa elmi forumlarda iştirak etmir. Buna görə də, elmi dərəcəyə doğru uğurla irəliləməyin ən vacib şərti – dissertasiya yazmaq və müdafiə etmək bacarığıdır.

## 2.2. Doktoranturanın üstünlükləri

***Elm inkişafın ön cəbhəsidir,***
***mədəniyyət isə onun ictimai həyatda***
***buraxdığı izdir.***
***Əbu Turxan***

İlkin elmi dərəcə almağın ən sadə, etibarlı və sınanmış yolu doktoranturaya daxil olmaqdır. Alternativ variant isə – seçdiyiniz ixtisas üzrə dissertasiya müdafiəsini qəbul etmək hüququ olan dissertasiya şurasına malik ali təhsil müəssisəsinə və ya elmi-tədqiqat institutuna müraciət edib iddiaçı kimi oraya qəbul edilməkdir. Bu hətta daha asandır, çünki doktoranturaya qəbul olunmaq üçün nəzərdə tutulan giriş imtahanları vermək lazım gəlmir.

Amma çoxillik təcrübə göstərir ki, doktorantura, əgər əlçatandırsa, yenə də daha yaxşıdır. Doktorantura əyani (əsas işdən ayrılmaqla) və yaxud da qiyabi (əsas işdən ayrılmadan) ola bilər.

Əyani doktoranturanın əsas üstünlüyü çoxlu boş vaxtın olmasıdır ki, doktorant bu vaxtdan dissertasiya üzərində işləmək üçün istifadə edə bilər.

Əyani doktorantura ilə bağlı bəzi məhdudiyyətlər var, məsələn, universitetlərdə və elmi təşkilatlarda doktorantlara verilən təqaüdün nisbətən aşağı olması. Bu məbləğ üç il ərzində layiqli həyat səviyyəsini təmin edə bilmir. Doğrudur, heç kim doktorantlara əlavə işlə məşğul olmağa mane olmur və

onların çoxu bunu uğurla həyata keçirir, məsələn, müəllimliklə və ya daha gəlirli sahələrdə çalışmaqla.

Lakin burada da ikitirəli məsələ meydana çıxır: əgər əlavə işlə məşğul olursan və ya başqa üsullarla gəlir əldə edirsənsə, o zaman boş vaxtın üstünlüyünü itirirmiş olursan. Əyani doktoranturada təhsil haqqının tətbiq olunması isə onun üstünlüklərini daha da məhdudlaşdırır.

Qiyabi doktorantura əyani doktoranturanın əsas üstünlüklərindən məhrumdur, çünki nə kiçik doktorant təqaüdü, nə də boş vaxt təmin etmir. Nəzəri olaraq, qanunla qiyabi doktorantın əlavə tətil hüququ var. Lakin qiyabi doktorantın əsas iş yeri, yəni işəgötürən, nadir hallarda onun əlavə ödənişli və ya hətta ödənişsiz məzuniyyət almasına maraq göstərir, üstəlik iş yerindəki rəhbərliklə mübahisə etmək də məsləhət deyil.

Elmi təşkilata elmi dərəcənin iddiaçısı kimi təhkim olunmuş şəxs sadəcə öz statusunu təsdiqləyir və əlavə olaraq təşkilat ona elmi rəhbər təyin edə, habelə dissertasiya mövzusunu təsdiq edə bilər.

Elmi rəhbər doktorantura proqramı olan təşkilat tərəfindən doktoranta rəhbərlik etdiyi üçün müəyyən miqdarda maddi mükafat alır. Hesab olunur ki, elmi rəhbər dissertanta 80 saat, doktoranta isə ildə 100 saat vaxt ayırır.

Məhz buna görə də, fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən şəxs və onun elmi rəhbəri üçün elmi dərəcəyə gedən yolun əvvəlcə doktoranturaya qəbul edilməklə rəsmiləşdirilməsi arzuolunandır. Bunun üçün isə qəbul imtahanlarını vermək lazımdır.

Böyük elmə doğru atılan ilk addımlarda özünə inamı artırmaq üçün yolun başlanğıcında elmi rəhbərə malik olmaq, eləcə də onun məsləhətlərinə və göstərişlərinə uyğun hərəkət etmək vacibdir. Lakin burada bir məntiqi dilemma yaranır. Elmi rəhbəri müəyyən etmək üçün gələcək elmi fəaliyyət profilini seçmək lazımdır, çünki rəhbər müvafiq sahənin

mütəxəssisidir. Ancaq elmi axtarış sahəsini seçmək üçün rəhbərlə məsləhətləşmək faydalıdır, halbuki rəhbər, hələ ki, yoxdur.

Əlbəttə, əgər rəhbər özü sizə onun doktorantı olmaq təklif edibsə və ya potensial elmi rəhbər digərlərindən aydın üstünlüklərə malikdirsə, onun istiqamətinə uyğun bir tədqiqat sahəsi seçmək olar.

Amma yenə də daha yaxşı olanı budur ki, əvvəlcə öz elmi fəaliyyət sahənizi seçəsiniz. Xüsusən ona görə ki, bu sahə peşəkar təhsil və mövcud elmi maraqlar, həmçinin toplanmış elmi-praktik təcrübə ilə əlaqədardır.

Prinsip etibarilə, doktoranturaya daxil olmaq və dissertasiyanı əvvəllər ali təhsil müəssisəsində əldə edilmiş ixtisas üzrə müdafiə etmək məsləhətdir. Ancaq bu, mütləq deyil. Elmə gedən yol heç yerdə asan olmasa da, əksər hallarda insanlar daha asan yolu seçməyə meyillidirlər.

Bu məqsədlə elmin müxtəlifliyi ilə bağlı məsələlərə bir az aydınlıq gətirməyə çalışacağıq ki, elmi dərəcələrin müxtəlifliyi də bu çoxşaxəliliyə müəyyən qədər uyğun gəlir.

## 2.3. Dissertasiya üzrə elmi sahənin və ixtisasın seçilməsi

***Hər millətin tərəqqisi və fəaliyyətinin***
***başlıca amili elm və əxlaqdır.***
***Abdulla Şaiq***

Əvvəlcə elmin müxtəlif sahələrinin xüsusiyyətləri və üstünlükləri barədə bəzi ümumi qeydlər irəli sürək, lakin bu qeydlərin müzakirə oluna biləcəyini də istisna etməyək.

Elm dünyasında hər şey təbii və ictimai elmlərə bölünür.

Elə elmlər var ki, onlar həm təbii, həm də ictimai elmlərin kəsişməsində yerləşir. Belə elmlərə insan və cəmiyyəti öyrənən humanitar elmlər daxildir.

Amma bəzən humanitar elmlər ictimai elmlərə aid edilir.

Təbiət elmləri, o cümlədən riyaziyyat kimi "dəqiq" elmlər, təbiət və formal məntiqin prinsiplərinə əsaslanan elmlərdir, həmçinin texniki elmlər də bu qrupa aid olunur.

İctimai elmlər cəmiyyət, onun inkişafı, ictimai maraqlar və münasibətlər haqqında elmlərdir. Təbii və ictimai (humanitar) elmlər arasında dəqiq bir sərhəd qoymaq çətin olsa da, aralarında bölünmə xətti mövcuddur.

İddiaçı həmçinin bilməlidir ki, Elmi İşçilərin İxtisaslar Nomenklaturasına əsasən, fəlsəfə doktoru elmi dərəcəsi verilən aşağıdakı elmi sahələr müəyyən edilir, biz onları şərti olaraq "dissertasiya" sahələri adlandıracağıq (bax Cədvəl 1) [2]:

Elmi dərəcələrin verildiyi sahələrin, habelə ixtisasları və elmi fəaliyyət növlərini xarakterizə edən sahələrin mürəkkəb, çoxkomponentli strukturuna uyğun olaraq, ikili seçim etmək lazım gəlir: həm elm sahəsi, həm də ixtisas seçilməlidir. Əvvəlcə, adəti üzrə, dissertasiyanın müdafiə ediləcəyi elm sahəsi (yuxarıda qeyd olunan siyahıya əsasən "dissertasiya" sahəsi) seçilir. Sonra isə bu elm sahəsi daxilində siz dissertasiyanı müdafiə edəcəyiniz konkret ixtisası seçməlisiniz, bu zaman hər elm sahəsi üzrə təsdiq olunmuş ixtisaslar nomenklaturasını rəhbər tutmalısınız. Yəni iki məchullu tənlik həll edilməlidir: hansı elm sahəsi üzrə dissertasiya işi aparılacaq və bu sahə daxilində hansı ixtisas üzrə dissertasiya müdafiə edəcəksiniz.

---

[2] Elmi sahələrin və elmi ixtisasların daha detallı təsnifatı, adətən, AAK-ın ixtisaslar pasportlarında verilir.

**Cədvəl 1**

**Elmi İşçilərin İxtisaslar Nomenklaturasına əsasən, fəlsəfə doktoru elmi dərəcəsi verilən elmi sahələr**

| | |
|---|---|
| - Fizika-riyaziyyat elmləri | - İqtisadiyyat elmləri |
| - Kimya elmləri | - Pedaqogika elmləri |
| - Biologiya elmləri | - Sosiologiya elmləri |
| - Kənd təsərrüfatı elmləri | - Hüquq elmləri |
| - Baytarlıq elmləri | - Siyasi elmlər |
| - Tarix elmləri | - Tibb elmləri |
| - Filologiya elmləri | - Əczaçılıq elmləri |
| - Fəlsəfə elmləri | - Yer haqqında elmlər |
| - İncəsənətşünaslıq elmləri | (geologiya-mineralogiya, coğrafiya) |
| - Mədəniyyətşünaslıq | - Memarlıq |
| - Psixologiya elmləri | - Hərbi elmlər |

İlk baxışdan, elm sahəsinin (növünün), yəni elmi dərəcənin verildiyi sahənin və həmin elm sahəsi çərçivəsində konkret ixtisasın seçilməsində, xüsusən də, texniki, iqtisadiyyat, tibb, pedaqogika kimi geniş yayılmış elmlərə, elmi dərəcə əldə etmək istəyən iddiaçılar arasında ən çox maraq doğuran sahələrə münasibətdə, kifayət qədər geniş seçim azadlığı mövcuddur. Lakin nəzərə almaq lazımdır ki, siz dissertasiya işini konkret elmlər və məhdud sayda ixtisaslar üzrə müdafiəyə qəbul etməyə səlahiyyəti olan dissertasiya şurasında müdafiə edəcəksiniz.

Belə sadə bir həqiqətin sübuta ehtiyacı yoxdur ki, dissertasiya şurası sizin arzularınıza uyğunlaşmayacaq, siz şuranın imkanlarına uyğunlaşmalısınız. Əgər dissertasiyanızı müdafiə edəcəyiniz dissertasiya şurası əvvəlcədən məlumdursa, elmi sahə və ixtisas seçərkən məhz bu şuraya diqqət yetirmək lazımdır. Bu, seçim imkanlarını daraldan ciddi bir məhdudiyyətdir.

Əgər siz dissertasiya işinizi yerinə yetirdiyiniz elmi təşkilatın şurası müvafiq profilə uyğun deyilsə, arzu etdiyiniz

elm sahəsi və ixtisas üzrə dissertasiyaları qəbul edən başqa bir dissertasiya şurasını axtarmaq olar. Lakin özünüz də anlayırsınız ki, bu zaman başqa bir çox problemlər meydana çıxacaq.

Elmdəki inteqrasiya prosesləri ilə əlaqədar tez-tez elə hallar müşahidə olunur ki, dissertasiya mövzusu elmlərin və ixtisasların kəsişməsində yerləşir. Bir dissertasiyanın müdafiəsi əsasında iddiaçıya bir neçə elm sahəsi üzrə elmi dərəcə verilməsi təcrübəsi mövcud deyil, lakin ardıcıl olaraq müxtəlif elmlər üzrə dissertasiyaları müdafiə etmək mümkündür. Ancaq bir elm sahəsi daxilində müxtəlif müvafiq ixtisasların kəsişməsində dissertasiya müdafiəsinə icazə bu şərtlər çərçivəsində verilir ki, dissertasiya şurasının tərkibində bu ixtisasları təmsil edən alimlər yer alsınlar.

Dissertasiya şurası haqqında Əsasnamə dissertasiyanın ixtisasların kəsişməsində müdafiəsini təmin etmək üçün şuraya bir müdafiə üçün çatışmayan sayda əlaqəli ixtisaslar üzrə elmlər doktorlarını daxil etməklə birdəfəlik müdafiələrin təşkil olunması imkanını nəzərdə tutur. Buna görə də, işinizin planlaşdırılan ixtisasın hüdudlarını aşmasından və eyni elm sahəsi daxilindəki digər ixtisasa "qəsb etməkdən" həddən artıq qorxmağa ehtiyac yoxdur.

Ən mürəkkəb vəziyyət isə odur ki, iddiaçı dissertasiya tədqiqatını dissertasiya şurası olmayan bir təşkilatda yerinə yetirir. Belə şəraitdə əvvəlcədən başqa bir təşkilatda şura "gözaltı" etmək və ona uyğunlaşmaq lazımdır.

İndi isə geriyə, ilkin müqəddimə nöqtəsinə qayıdaq: siz hələ də dissertasiya işini yerinə yetirmək üçün tədqiqatların ümumi istiqamətini seçmək imkanına sahibsiniz, yəni, həm "dissertasiya" elm sahəsini, həm də ixtisası seçə bilərsiniz.

Hətta belə seçim məhdud olarsa və yaxud da elm sahəsi üzrə sərt bağlılıq müşahidə edilərsə belə, iddiaçılar dissertasiya işlərinin müxtəlif elmi profillərinə müəyyən dərəcədə xas olan

xüsusiyyətləri və həmin profilə uyğun işlərin uğurla həyata keçirilməsini təmin edən ümumi tələbləri təsəvvür etməlidirlər.

Bu cür məlumatlar müəllifin ekspert qiymətləndirməsini əks etdirir və, təbii ki, digər müəlliflər tərəfindən şübhə altına alına və qəbul edilməyə bilər. Həmin məlumatlar aşağıdakı cədvəldə təqdim edilmişdir (bax Cədvəl 2).

**Cədvəl 2**

**Fərqli elmi profillərə malik dissertasiya işlərinə xas olan xüsusiyyətlər**

| Elmi dərəcə verilən elm sahələri | Bu elmlərə yiyələnmənin əsasları | Həmin elm sahələri üzrə dissertasiyanı müdafiə etmək üçün nə tələb olunur | Elmə əhəmiyyətli töhfə verən işlərin payı, % |
|---|---|---|---|
| Fizika-riyaziyyat elmləri, biologiya, kimya | Məntiq, riyazi aparatla işləmək bacarığı, toplanmış biliklər, eksperiment, təhlil, intuisiya | Təbii ağıl, qabiliyyətlər, mövzunun biliyi, səbr, əzmkarlıq | 60 |
| Texniki elmlər, geologiya-mineralogiya, tibb, əczaçılıq, baytarlıq | Eksperiment, modelləşdirmə, iş təcrübəsi, toplanmış bilik və bacarıqlar, hesablamalar aparmaq bacarığı, təhlil, məntiq | Qabiliyyətlər, biliklər, bacarıqlar, işə maraq, əzmkarlıq | 45 |
| Fəlsəfə, psixologiya, sosiologiya, filologiya, incəsənətşü- | İntuisiya, erudisiya, toplanmış biliklər, əvvəlki işlərin öyrənilməsi, iş | Analitik təfəkkür, təhlilə və ümumiləşdirməyə meyl, mövzunun biliyi, əlverişli şərait | 40 |

| Elmi dərəcə verilən elm sahələri | Bu elmlərə yiyələnmənin əsasları | Həmin elm sahələri üzrə dissertasiyanı müdafiə etmək üçün nə tələb olunur | Elmə əhəmiyyətli töhfə verən işlərin payı, % |
|---|---|---|---|
| naslıq, memarlıq | təcrübəsi, informasiya mənbələri, analiz, sintez, məntiq | | |
| Hərbi, tarix, mədəniyyətşünaslıq, coğrafiya, kənd təsərrüfatı | İntuisiya, təcrübə, mənbələrin təhlili, tarixi analiz, analogiyalar, mənbələrin öyrənilməsi, məntiq | Mövzu haqqında ümumi anlayış, hadisələri təhlil etmək bacarığı, əzmkarlıq | 30 |
| İqtisadiyyat, hüquq, pedaqogika, siyasi elmlər | Analiz, intuisiya, təcrübə, sistemli yanaşma, səbəb-nəticə əlaqələrinin nəzərə alınması, statistika, faktologiya, məntiq | Mövzu haqqında ümumi anlayış, düşüncələri aydın və inandırıcı şəkildə ifadə etmək, məlumatlardan məharətlə istifadə etmək bacarığı | 25 |

Mənbə [51, s.52]

Cədvəlin məzmunu elmi sahənin seçilməsi üçün çox vaxt istifadə olunan əsas strategiyaların bazis, təməl mövqeyini nümayiş etdirir.

Biliklərin hər hansı bir sahəsində yenilikçi tədqiqatlar mövcuddur və eyni zamanda məlum həqiqətlərin boş-boşuna təkrarlanması da müşahidə olunur. Dissertasiya işini yerinə yetirmək və uğurla müdafiə etmək hər hansı bir bilik sahəsində çətindir. Bəzən ictimai elmlər sahəsində aparılan tədqiqatların

əmək tutumu riyaziyyat, fizika, kimya, biologiya, tibb sahələrinə nisbətən daha yüksək olur.

Yuxarıda təqdim olunan cədvəl müxtəlif bilik sahələrində dissertasiya işlərinə xas olan xüsusiyyətləri və müxtəlif elmi sahələrdə elmi dərəcə iddiaçıları üçün xüsusi tələbləri vurğulayır.

## 2.4. Dissertasiya tədqiqati sahəsi və dissertasiya mövzusunun iddiaçının praktiki fəaliyyəti ilə əlaqəsi

***Elm öyrənilən yox, yaşanandır.***
***Yaşanmayan elm, işləməyən pul kimidir***
***Cənab Şənabətdin***

Yuxarıda dissertasiya işini yerinə yetirmək üçün elmin və tədqiqat sahəsinin seçilməsi barədə danışarkən, biz ilk növbədə doktorantın (iddiaçının) müvafiq təhsilinə və tədqiqat sahəsinin aid olduğu elmin profilindən irəli gələn dissertasiya tədqiqatlarının şərtləri və tələblərinə diqqət yetirmişik. Həmçinin dissertasiya şurasının "portfelində" olan ixtisaslar sırasında, işinizi müdafiə etmək niyyətində olduğunuz ixtisasın da mövcudluğu qeyd edilmişdir.

Bununla yanaşı, dissertasiyanın tədqiqat sahəsinin, dissertasiya işinin problematikasının və konkret mövzusunun seçiminə ən mühüm təsir göstərən başqa bir müəyyənedici amil də mövcuddur. Bu, dissertasiya işinin problematikasının iddiaçının praktiki fəaliyyəti ilə uyğunluq dərəcəsidir. Yəni dissertasiya işinin mövzusu iddiaçının daimi və yaxud keçmişdə müəyyən qədər məşğul olduğu fəaliyyət sahəsinin profilinə, xüsusiyyətlərinə, məzmununa nə dərəcədə uyğun gəlir. Belə uyğunluğun olması dissertasiyanın uğurlu müdafiəsi üçün əsas amillərdən biridir.

Elmi dərəcəyə iddiaçının seçdiyi dissertasiya sahəsində praktiki iş təcrübəsinin olmasını uğurlu müdafiənin əsas ilkin şərtlərindən biri kimi qəbul edərək, məqsədə nail olmağa təsir göstərən amilləri aşağıdakı ardıcıllıqla sıralayaq:

1. Dissertasiya mövzusunun, onun tematik yönümünün iddiaçının praktiki fəaliyyətinə, təcrübəsinə, işlədiyi və dissertasiyanı hazırladığı müddətdə iştirak etdiyi sahənin profili ilə uyğunluğu.

2. Ali təhsil müəssisəsində əldə edilmiş ixtisasla uyğun olmaq şərtilə elmi bilik sahəsinin və dissertasiya tədqiqatı sahəsinin seçilməsi.

3. Doktoranturaya qəbul və ya dissertasiya şurası mövcud olan (və ya mövcud olacaq) elmi-tədris müəssisəsinə qoşulmaq ki, bu şura dissertasiya tədqiqatının seçilmiş mövzusuna (tematikasına) uyğun olan ixtisas üzrə işləri müdafiəyə qəbul edəsidir.

4. Seçilmiş elm və bilik sahəsində uzunmüddətli elmi axtarışlara və yorulmaz fəaliyyətə meyllilik. Tədqiqatın nəticələrinə, həmçinin uğurlu dissertasiya müdafiəsi kimi yekun nəticəyə çatmaq üçün iddiaçının ciddi marağının olması.

İdeal halda bütün bu amillərin mövcud olması arzuolunandır və buna can atmaq lazımdır. Ancaq təəssüf ki, bu həmişə belə olmur. Buna görə də, bu amillər onların əhəmiyyətinə və vacibliyinə uyğun olaraq sıralanmışdır.

Prioritetlərin müəyyən edilməsində kitabın müəllifləri yalnız öz çoxillik təcrübələrindən irəli gələn mülahizələri ilə kifayətlənməyiblər. İlk növbədə, sadalanan şərtlərin bəzilərinə əməl edilmədiyi hallarda belə çətin dissertasiya yolunu keçmək üçün potensial imkan nəzərə alınmışdır.

Nə qədər ki, ortaya çıxan maneələri aradan qaldırmaq çətin olursa, bir o qədər də amilin reytinqi yüksəkdir. Bunu təsdiqləmək üçün şərtlərin yerinə yetirilməsinin qısa təhlilini aparaq, axırdan başlayaraq əvvələ doğru hərəkət edək.

Seçilmiş dissertasiya tədqiqatı sahəsinə meyllilik dissertantın öz seçimi ilə müəyyən olunur. Əgər iddiaçı bu problematikaya, mövzuya, tədqiqat sahəsinə maraq göstərmirsə, o, daxilən ona yad olan bu seçimi tərk etməlidir. Əgər seçim daha yüksək səviyyəli amillərlə (siyahıda 1, 2, 3 nömrələr) bağlıdırsa, bu elmi istiqaməti qəbul etmək və ən azından elmi dərəcəyə ən qısa yolla çatmağa imkan verdiyi üçün onu üstün tutmaq lazımdır.

Üçüncü amil dissertasiyanı başqa bir yerdə deyil, "öz" dissertasiya şuranızda müdafiə etmək imkanını təmin edən şərtin yerinə yetirilməsini arzuolunan etsə də, bu, aşılmaz maneələrdən biri qismində çıxış etmir. Birincisi, işi ixtisasların kəsişməsində hazırlamaq və onu həmin şurada əlavə üzvlərin daxil edilməsi ilə birdəfəlik müdafiə etmək mümkündür. Bu imkanı əvvəlki mülahizələrimizdə qeyd etmişdik.

İkincisi, dissertasiyanı "yad" şurada müdafiə etmək məcburiyyəti meydana çıxarsa, bundan faciə düzəltmək lazım deyil. Bu, geniş yayılmış bir haldır və əgər iş hazırlanıb və müdafiə lazımi səviyyədə təşkil olunubsa, ağır nəticələrə səbəb olmur. Üstəlik, bir çox elmi-tədris müəssisələrinin doktorantura proqramı olsa da, dissertasiya şuraları yoxdur və bu halda iddiaçılar təbii olaraq dissertasiyanı müdafiə etmək üçün həmin ixtisas üzrə dissertasiya şurası olan başqa bir təşkilat axtarmağa məcbur olurlar.

İkinci şərt isə o zaman çətin yerinə yetirilir ki, iddiaçının apardığı elmi iş, topladığı praktiki təcrübə, onun nəşrləri və universitetdə əldə etdiyi ixtisas tədqiqat sahəsinə uyğun deyil. Bu, kifayət qədər ağır bir vəziyyətdir, lakin bu maneə ikinci ali təhsil almaq və ya dissertasiya tədqiqat sahəsinə uyğun olan peşəni özünütəhsil və praktiki təlim vasitəsilə aradan qaldırıla bilər.

Real təcrübədə kifayət qədər tez-tez texniki və ya riyaziyyat təhsili olan mütəxəssislər iqtisadiyyat üzrə dissertasiya müdafiə edirlər. Əks hallar da mövcuddur, lakin bunlara çox da rast

gəlinmir. Belə dissertasiyanın müdafiə hüququ əlavə və namizədlik imtahanlarının verilməsi ilə təsdiq edilir. Bu imtahanların proqramlarına həm kursun tipik bölmələri, həm də dissertasiya mövzusuna yaxın bölmələr daxildir.

İndi isə biz ilk, ən vacib şərtə çatdıq ki, bu da, bizim fikrimizcə, yerinə yetirilməsi qaçılmaz olan əsas tələblərdən biridir. Belə ki, elmi dərəcəyə iddiaçı dissertasiyanın mövzusu ilə bağlı olan elm sahəsində kifayət qədər təcrübəyə malik deyilsə, problemi həll etməklə bağlı praktiki təcrübəsi yoxdursa, özünü kimsəsiz bir adaya düşmüş kimi hiss edəcək. O, hər addımını qeyri-müəyyənlik və qorxu müşayiəti ilə atacaq.

Bu cür vəziyyət iddiaçının keçdiyi uzun yol boyunca qarşılaşdığı elm adamları və mütəxəssislər tərəfindən asanlıqla sezilir. Birinci şərtin yerinə yetirilməməsi, mütləq olaraq dissertasiya işinin hazırlanması və müdafiəsi prosesində müxtəlif mərhələlərdə aşağıdakı maneələrə və çətinliklərə gətirib çıxarır:

1) Tədqiq edilən problemin tətbiqi aspektlərinin, işin nəticələrinin praktiki tətbiq sahəsinin və əhəmiyyətinin dissertant tərəfindən dərin başa düşülməməsi;

2) Dissertasiya işinin materiallarını şəxsi təcrübə əsasında əldə olunan məlumatlarla zənginləşdirməkdə çətinliklər;

3) Tədqiqat nəticələrinin praktiki tətbiqində iddiaçının şəxsi töhfəsinin müəyyənləşdirilməsində çətinliklər;

4) Yerinə yetirilən işin nəticələrinin praktik tətbiqi haqqında arayışların alınmasında çətinliklər, çünki bu cür arayışları əldə etməyin ən asan yolu onları iş yerindən əldə edilməsidir;

5) Tədqiqat sahəsində dərin praktiki təcrübəyə malik olan, “incəlikləri” və kənar müşahidədən gizlədilən problemləri dərindən bilən mütəxəssislərin verdikləri sualları cavablandırarkən çıxılmaz vəziyyətə düşmək və qeyri-kafi bilik nümayiş etdirmək riski.

Şübhəsiz ki, ağıllı və bacarıqlı, dissertasiya işinin mövzusu və obyektinə dair müəyyən təsəvvürlərə malik fəal iddiaçı kitabxanalar və İnternet vasitəsilə məsləhətçilərinin köməyi ilə elmi məlumat dənizində kifayət qədər material taparaq məzmun baxımından kifayət edə biləcək səviyyədə layiqli dissertasiya hazırlaya bilər. Lakin əgər belə bir iddiaçı öz peşəsi və praktiki fəaliyyət növü ilə dissertasiya işində tədqiq edilən problemlərdən uzaqdırsa, onda dissertasiya tədqiqatı onun üçün "yad" olacaq, "öz işi" kimi dəyərləndirilə bilməz.

Belə bir dissertasiyanı müzakirəyə çıxarmaq olar. Lakin dissertasiya sahəsində araşdırma aparmış və təcrübəyə malik olan bir auditoriya qarşısında onunla necə çıxış etmək olar? Onun məzmununu necə təqdim etmək və verilən suallara lazım olan dərəcədə bilik və inamla cavab vermək olar?

Buradan sadə bir qənaətə gəlmək olar. Dissertasiyalar daha yaxşı və ya daha pis hazırlana bilər, çünki onların keyfiyyətini birmənalı şəkildə müəyyən etməyin metodları mövcud deyil. İddiaçının məsləhətçilərinin və köməkçilərinin zahiri iştirak dərəcəsini, dissertasiya işində istifadə olunan materialların müxtəlif informasiya mənbələrindən nə dərəcədə götürüldüyünü dəqiq şəkildə müəyyən etmək çətindir, hətta işi hərtərəfli öyrəndikdən sonra belə. Lakin müzakirə prosesində, müəllifin iştirakı ilə işin mahiyyətini necə başa düşdüyünü, araşdırmanın mövzusunu və işin bəzi elementlərini şəxsi fəaliyyəti ilə hansı dərəcədə əlaqələndirdiyini müəyyən etmək elə də çətin deyil.

Beləliklə, dissertasiya işinin uğurla tamamlanması və iddiaçının tədqiqatda şəxsi töhfəsi məsələsinin həlli üçün minimum tələb olunan şərt – dissertasiyanın problematikası və mövzusu ilə bağlı praktik fəaliyyətdə müəllifin bilavasitə iştirakıdır. Bu tələbin yerinə yetirilməsi yekun uğura nail olmaq üçün kifayət deyil, lakin uğurun reallığına inam verir və dissertasiya prosesinin etibarlılığını əhəmiyyətli dərəcədə artırır.

Dissertasiyanı araşdırılan obyektlərdən, proseslərdən, hadisələrdən, münasibətlərdən kənarda yazıb-yaratmaq praktiki olaraq mümkün deyil.

## 2.5. Elmi rəhbər

*Ən dəyərli sədəqə müsəlmanın elm öyrənməsi*
*və onu başqasına öyrətməsidir.*
***Hz. Məhəmməd (s.ə.v.) (peyğəmbər)***

Siz dissertasiyanı hansı elm sahəsi üzrə müdafiə edəcəyinizi seçdikdən sonra, əgər bu vacib məsələ hələ də həll olunmayıbsa və seçdiyiniz elm sahəsi, dissertasiya tədqiqat sahəsi potensial elmi rəhbəriniz ilə razılaşdırılmayıbsa, elmi rəhbər seçimi etməlisiniz.

Keyfiyyətli fəlsəfə doktorlarının hazırlanması üçün **keyfiyyətli dissertasiya rəhbərliyi** olduqca vacib şərtdir.

İddiaçılara tövsiyə. Heç vaxt sizə vaxt ayıra bilməyən elmi rəhbərləri seçməyin. Elmi rəhbər seçərkən, doktorantlarla işləmək üçün həm vaxtı, həm də imkanı olan şəxsləri seçin. Əlbəttə ki, bu imkandan istifadə etmək mümkündürsə.

Elmi rəhbərin diqqət ayırmadığı iddiaçı çətin vəziyyətə düşür, çünki özü dissertasiya ilə həll edilməli olan problemi formalaşdıra bilmir (o cümlədən dissertasiya mövzusunun işlənib-hazırlanması).

Bu normal haldır və buna təəccüblənməyə ehtiyac yoxdur. Problemi və məsələləri düzgün şəkildə formalaşdırmaq bacarığı təcrübə ilə gəlir. Məsələləri düzgün təyin etmək bacarığına sahib olmaq üçün mövzu ilə bağlı çox işləmək, mövzu ətrafında çoxlu ədəbiyyat oxumaq lazımdır.

Elmi rəhbərə olan ehtiyac heç olmasa bu faktla da müəyyən edilir ki, elmi dərəcənin verilməsi üçün attestasiya sənədlərinin arasında elmi rəhbərin rəyi də yer alır.

Elmi rəhbər:

- iddiaçini fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiyalara qoyulan tələblərlə tanış edir;

- iddiaçi ilə birlikdə dissertasiyanın hazırlanması və müdafiəsi planını hazırlayır;

- dissertasiya mövzusunun və işin yerinə yetirilməsi üzrə təqvim cədvəlinin ifadə olunmasının son variantının hazırlanmasında lazımi köməklik göstərir;

- dissertasiya işinə operativ rəhbərliyi həyata keçirir;

- işin hazırlanması və yazılması zamanı iddiaçı ilə mütəmadi məsləhətləşmələr və söhbətlər aparır;

- dissertasiyanın yazılması qrafikinin yerinə yetirilməsinə nəzarət edir;

- iddiaçiya təşkilati və metodik köməklik göstərir;

- iddiaçinin dissertasiyası haqqında yazılı rəy tərtib edir və bununla iddiaçını dissertasiyanın ilkin müdafiəsinə buraxır;

- iddiaçini dissertasiyanın ilkin müdafiəsi və müdafiəsi prosedurları, eləcə də digər təşkilati məsələlərlə bağlı məsləhətlər verir.

Elmi rəhbər adətən dissertasiya işi aparılan təşkilat tərəfindən təyin olunur, bu, iddiaçının doktoranturaya qəbul edilməsi və ya onun iddiaçı kimi qeydə alınması prosesində baş verir.

Elmi rəhbərin namizədliyinin iddiaçı ilə razılaşdırılması proseduru formal qaydada nəzərdə tutulmayıb, lakin bu, o demək deyil ki, iddiaçı kimi qeydiyyata alındıqdan sonra sakit oturub sizə rəhbər təyin olunmasını gözləmək lazımdır.

Rəhbər haqqında hələ qəbuldan əvvəl düşünmək lazımdır, yəni doktoranturaya qəbul olmaq və hansı elm sahəsi və ixtisas üzrə dissertasiyanı müdafiə edəcəyiniz barədə qərar verildikdən dərhal sonra.

Əgər biz artıq elmi rəhbər mövzusu haqqında danışmağa başlamışıqsa, onun barəsində bir neçə söz də deyək, çünki o, elmi dərəcəyə doğru irəliləyişlərdə mərkəzi fiqur və əsas iştirakçıdır. Elmi rəhbər – həm doktorantın, həm də

dissertasiyanın vizit kartı, simasıdır. Elmi rəhbərin düzgün seçilməsi uğurun açarıdır,.

"Seçim" sözü seçim variantlarının mövcudluğunu nəzərdə tutur. Ancaq hər zaman seçim variantları olmur. Çox vaxt doktorantlar və iddiaçılar seçmir, rəhbər onları seçir və ya kimsə doktoranta rəhbər təyin edir.

Lakin əgər sizdə seçim imkanı varsa – hərəkətə keçin! Rəhbər axtararışında olarkən mürəkkəb və birmənalı adlandıra bilmədiyimiz meyarlar, prioritetlər siyahısından çıxış etmək lazımdır. Əgər siz rəhbərin nüfuzu, sanballılığı, əhəmiyyəti və təsir gücü meyarından çıxış edirsinizsə, üstünlük verilən variantlar aşağıdakılardır:

1. Təşkilat (İnstitut) rəhbəri və ya rəhbər müavini, universitetin rektoru və ya prorektoru, müdafiənin keçiriləcəyi dissertasiya şurasının sədri və ya sədr müavini.

2. AAK-ın ekspert şurasının üzvü.

3. Müdafiənin keçiriləcəyi təşkilatın (institutun) dissertasiya şurasının üzvü.

4. Dissertasiya şurasının üzvü olmayan tanınmış alim, elmi nüfuza malik olan şəxs.

Lakin unutmayın ki, rəhbərinizin elmi reytinqi nə qədər yüksəkdirsə, onun sizə vaxt və diqqət ayırmaq imkanı və istəyi bir o qədər də az olacaq. Adətən belə rəhbərlərin çoxlu doktorantları və daha çox başqa işləri olur, buna görə də il ərzində çoxsaylı əlaqələrə, təmaslara ümid etmək olmaz.

Əgər doktorant özü elmi vəzifələrin öhdəsindən gəlməyə, elmi məsələləri həll etməyə qadirdirsə və ya dəqiq məsləhətçilərə, qeyri-rəsmi elmi rəhbərlərə malikdirsə, yuxarıda göstərilən variantlar tamamilə məqbuldur. Digər hallarda isə rəhbərin sizinlə daha sıx işləmək qabiliyyəti və istəyi nəzərə alınmalıdır.

Variantları seçərkən, nəzərə almaq lazımdır ki, elmi rəhbər müvafiq elmi sahədə elmlər doktoru olmalıdır.

Bəzi hallarda ali təhsil müəssisələrinin elmi şuralarının və yaxud elmi-tədqiqat müəssisələrinin, təşkilatlarının elmi-texniki şuralarının qərarı ilə doktorantların hazırlanmasında elmi rəhbərlik üçün, AAK-ın razılığı ilə, müvafiq ixtisas üzrə fəlsəfə doktorları, adətən, dosent (böyük elmi işçi) elmi adı olan şəxslər cəlb oluna bilər.

Yanaşı ixtisaslar üzrə elmi araşdırmalar aparan doktorantlara iki elmi rəhbər və ya rəhbər və məsləhətçi təyin etməyə icazə verilir, onlardan biri fəlsəfə doktoru ola bilər.

Dissertasiyanın iddiaçı qismində hazırlanması zamanı iddiaçının elmi-tədris müəssisəsinə təhkim edilməsi ilə əlaqədar olaraq eyni qaydalar tətbiq olunur. Elmi rəhbər müəssisə və ya təşkilat rəhbəri tərəfindən iddiaçının təyin edilməsi barədə əmrə əsasən təsdiq olunur. İddiaçının yalnız namizədlik imtahanlarını vermək üçün təhkim edilməsi halında elmi rəhbər təsdiqlənmir.

Dissertasiya ideyasını artıq formalaşdıran və dərk edən təşəbbüskar iddiaçılar üçün rəhbər seçiminin əsas meyarı onun insanpərvərliyi, humanistliyidir.

Maraqlıdır ki, sovet elmi dövründə müəyyən müddət ərzində yuxarıdan təyin olunan qaydaya əsasən, elmi rəhbər onun rəhbərliyi altında yerinə yetirilmiş dissertasiya işinin keyfiyyətinə görə məsuliyyət daşıyırdı. Bu, o yerə çatmışdı ki, rəhbərlər, demək olar, özləri iddiaçıların dissertasiyalarını yazmağa məcbur idilər ki, məsuliyyətdən yayınsınlar.

## 2.6. Referat və qəbul imtahanları

***Bilməmək eyib deyil, soruşmamaq eyibdir.***
***Atalar sözü***

Beləliklə, siz gələcək elmi rəhbərinizlə razılığa gəlməyi bacarmısınız, onun elmi rəhbərlik etmək razılığını almısınız. Sonra doktoranturaya qəbul olmaq və ya iddiaçı kimi qeydə

alınmaq üçün bütün lazımi sənədlərin hazırlanmasına başlayırsınız.

Beləliklə, müxtəlif sənədləri doldurmaq, toplamaq, tərtib etmək və redaktə etmək bacarığını öyrənin: bunlar ərizələr, anketlər, tərcümeyi-hallar, surətlər, şəhadətnamələr, arayışlar, siyahılar, tədris planları, proqramlar, hesabatlar, rəylər, yekun rəylər, stenoqramlardır.

Nəzərə alın ki, bu "sənətə" yiyələnmədən elmi uğur görməzsiniz.

Adətən, doktoranturaya qəbul üçün təqdim edilməli olan sənədlər arasında seçilmiş ixtisas üzrə qəbul referatı da yer alır. Təxminən 10-20 səhifəlik icmal mətn yazmaq lazımdır. Ən yaxşısı, bunu araşdırmaq istədiyiniz problemin vəziyyəti haqqında edin. Müasir zəmanəmizdə informasiya bolluğu şəraitində və universitetdə müstəqil işlər, esse yazmaq və magistr dissertasiyasını hazırlamaq təcrübənizi nəzərə alsaq, referat yazmaq elə də böyük bir çətinlik yaratmayacaq.

Əgər siz elmə o qədər vurğunsunuz ki, doktoranturaya qəbuldan əvvəl elmi məruzələrin, məqalələrin müəllifi və ya həmmüəllifi olmusunuzsa, onlar referat əvəzinə tam şəkildə keçərli ola bilər.

Əlbəttə ki, İnternetdən istifadə etmək mümkündür, burada, məlum olduğu kimi, hər cür məlumat tapmaq olar.

İndi isə **qəbul imtahanları** haqqında danışaq. Bu məsələnin üzərində dayanmağı və diqqəti çox cəmləməyi istəməzdik, çünki namizədlik imtahanları problemini daha sonra ətraflı müzakirə edəcəyik.

Qəbul imtahanları maneəsinin uğurla keçməyə əvvəlcədən **dissertasiya mövzusunun** seçilməsi kömək edə bilər. Məhz bu səbəb üçün də məsləhət görürük ki, qəbul referatını yazmazdan və imtahanları verməzdən öncə gələcək elmi rəhbərlə mövzunu müzakirə edib, hələ rəsmi mövzu təsdiq olunmamışdan əvvəl onu simvolik bir istiqamət kimi qəbul edin. Bu mövzu sizin niyyətlərinizi əks etdirir və sizi heç nəyə məcbur etmir. Daha

sonra mövzunu dəyişdirə və yaxud başqa mövzu seçə bilərsiniz.

Doktorantlar (iddiaçılar) üçün mövzular aydın, məsələlər isə tam həll edilə bilən olmalıdır. Həm elmi rəhbər, həm də doktorant həmin məsələləri necə həll edəcəklərini başa düşməlidirlər.

Bir təhlükənin ola biləcəyinə diqqət yetirək: doktorantlar çox dar mövzular seçməyə meyillidirlər – bu mövzular onlara daha sadə görünür.

Bu məsələdə xəbərdarlıq etmək lazımdır. Hər dissertasiya çox böyük intellektual və fiziki resursların sərf olunmasnı tələb edir**.** Heç vaxt heç kəs üçün maraqlı olmayan "dar" mövzulara vaxt itirməyin. Müdafiə edə biləcəyinizdən əvvəl köhnələcək dissertasiya üzərində işləmək vaxt itkisidir.

İşdə müəyyən dərəcədə fundamentallıq elementi olmalıdır – sadəcə rəqəmləri yerinə qoyub parametrləri dəyişməklə, sonra isə kompüterin hər şeyi hesablayıb nəticələri hazır edəcəyi sadə texniki işlərdən qaçın.

İşdə problemə **yeni** bir baxış olmalıdır. Qoy bunun özü elmdə bir sıçrayış qismində çıxış etməsin, amma yenilik mütləq şəkildə olmalıdır.

İstənilən halda dissertasiya heç olmasa **məsələlərin yeni qoyuluşunu**, bəzi məlum məsələlərə yeni baxışları və yaxud da bəzi yeni həlləri ehtiva etməlidir.

Yeniliyə hətta sadə olsa belə, ekonometrik model işləyib hazırlamaqla nail olmaq mümkündür. Bu, təkcə riyaziyyat, iqtisadiyyat və ya politologiya elmlərinə aid deyil, hər hansı bir elmə aiddir. İşinizdə problemə yeni baxış təqdim edən yeni modellər olmalıdır.

**Səylərin və vaxtın planlaşdırılması.** Məsələlərin həlli – bu, hər zaman vaxt sərfidir. Doktorantlar çox vaxt elmlə ciddi məşğul ola bilmirlər. Boş vaxt, boş günlər lazımdır. Məlumdur ki, doktorantların əksəriyyəti işləyir. Əgər boş günləriniz yoxdursa, əvvəl əsas işinizlə məşğul olur və yalnız "sonra"

dissertasiya yazmağa çalışırsınız. Belə yanaşmadan bir şey çıxmaz.

Siz adi iş günündə işdən sonra elmi rəhbərlə məsləhətləşməyə gəlirsiniz, gözlərinizdə yorğunluq olur – bu, vaxtın boşuna sərf olunması deməkdir. Daha az qazanın, amma dissertasiyaya həsr ediləcək boş günləriniz mütləq olmalıdır.

**Nəşrlərin seçilməsi, oxunması və təhlili.** Bütün doktorantların qarşısında duran ən vacib vəzifə – çox oxumaq lazımdır! Əgər oxumursunuzsa, öz sahənizdə nəyisə bildiyinizə iddia edə bilməzsiniz. Bütün əsas ixtisas üzrə jurnallarla tanış olmaq, kitablar, məqalələr oxumaq, o cümlədən internetdən dissertasiya mövzusu üzrə materiallar axtarmaq və oxumaq lazımdır. Bunun üçün isə vaxt lazımdır. Mövzu ilə bağlı ədəbiyyatın yaxşı, hətta mükəmməl biliyi olmadan dissertasiya yazmaq mümkün deyil.

**Elmi rəhbər** ədəbiyyatın, nəzəri materialın və fəaliyyət istiqamətlərinin seçilməsində köməklik göstərməli, hansı elmi jurnalları oxumağı, konkret sahədə hansı əsas məqalələri bilməli olduğunuzu göstərməlidir.

Oxuyarkən tədqiqat sahənizin müəyyən bir obrazını yaratmaq çox vacibdir. Bu obraz sadəcə oxuduğunuz işlərin sadalanması ilə formalaşmır. Məşhur faktlar sizin fikirləriniz və nəticələriniz vasitəsilə özünəməxsus formada təfsir olunmalı, xüsusi bir baxış formalaşmalıdır.

Yaxşı dissertasiyanın başqa bir vacib komponenti iddiaçının yaxşı təhsilə malik olmasıdır. Hər hansı bir elmi işə başlamazdan əvvəl möhkəm baza biliyinə malik olmaq vacibdir. Tədqiqat sahəsi və onun ətrafında dərin və hərtərəfli biliklər olmadan ciddi elmi nəticə əldə edəcəyinizə ümid etməyin.

İmtahanlara qayıdaq. Çox yaxşı haldır ki, hazırda doktoranturaya qəbul zamanı iddiaçılardan xarici dil üzrə namizədlik imtahanı vermək tələb olunur. Aydındır ki, müasir şəraitdə bu çox vacib amildir.

Davam edək. Tutaq ki, doktoranturaya qəbul üçün digər imtahanları uğurla keçmisiniz və qəbul komissiyası sizi doktoranturaya qəbul etmək barədə qərar verib və bu, elmi müəssisə rəhbərinin əmri ilə rəsmiləşdirilib. Eyni zamanda sizin elmi rəhbəriniz də təyin edilib.

# FƏSİL 3. DİSSERTASİYA MÖVZUSU VƏ PLANI, NAMİZƏDLİK İMTAHANLARI

## 3.1. Dissertasiyanın adı (mövzusu)

*Heç bir millət qılınc və tüfənqlə qabağa getməyibdir.*
*Ancaq elmin gücünə tərəqqi etmək mümkündür.*
***Nəriman Nərimanov***

Beləliklə, siz artıq doktorantsınız, bu isə dissertasiya üçün ən ciddi iddia, istəkdir. Əksər hallarda fəlsəfə doktoru ola bilməyən iddiaçılar bunda özləri günahkar olurlar, çünki doktoranturaya qəbul olunma ilə yaranan rahatlıq və laqeydliyin qurbanına çevrilirlər. Necə də olmasın – tam sərbəstlik, işə getmək lazım deyil, səhər tezdən oyanmaq lazım deyil, demək olar ki, heç kim sizinlə maraqlanmır, yalnız ildə bir dəfə doktorantura hesabat doldurmağınızı və növbəti attestasiyadan keçməyinizi xahiş edir.

İşlər belə olduqda, doktorantura dövrü üç illik məzuniyyətə çevrilə bilər. Qiyabiçilər üçün belə vəziyyət xarakterik deyil – onlar işləyirlər və ən yaxşı halda bir ay əlavə məzuniyyətə çıxa bilirlər. Çox da istədikləri kimi vaxt keçirmək mümkün olmur.

Hər iki halda özünüzü ələ alın və son məqsədinizi unutmayın. Doktoranturanın bütün azadlığına baxmayaraq, doktorantura işçiləri, elmi rəhbər və vicdan sizə bütün vaxtınızı boş keçirməyə imkan verməyəcək. Doktoranturanın müdiri isə sizi xaric etməklə hədələyə bilər. Üstəlik, müdafiə etməyən şəxs ömrü boyu uğursuzluq damğasını daşımalı olur.

Ona görə də işə başlamaq lazımdır. Hər bir iddiaçının qarşısında iki əsas vəzifə durur: a) namizədlik imtahanlarını vermək; b) dissertasiya yazmaq və onu müdafiə etmək.

Birinci vəzifə ikinciyə tabedir. Bu sadə həqiqəti bəziləri anlamır və doktorantura illərini namizədlik imtahanlarını

verməyə sərf edərək, qiymətli vaxtlarını boş yerə xərcləyir və nəticədə dissertasiya yazmağa vaxt qalmır. Belə iddiaçılar bü cür düşünürlər: "Axı imtahanları vermədən müdafiəyə buraxmayacaqlar".

Formal məntiqə görə onlar haqlıdırlar. Lakin bacarıqlı doktorant üçün namizədlik imtahanlarını vermək dissertasiya yazmaq və müdafiə etməklə müqayisədə əhəmiyyətsiz, xırda bir şeydir.

Ona görə də, namizədlik imtahanlarını gecikdirmədən, onları bir il və ya iki il ərzində (əgər doktoranturaya qəbuldan əvvəl verilməyibsə) vermək lazımdır. Bununla yanaşı, bütün səyləri, ilk növbədə, dissertasiyanın hazırlanmasına yönəltmək lazımdır.

Hər bir dissertasiya mövzusundan başlayır.

Dissertasiya işinin yazılmasına dissertasiya mövzusunun seçilməsi və təsdiq edilməsi mərhələsi öncüllük edir. İndi artıq rəmzi xarakter daşıyan mövzu deyil, real və rəsmi mövzu seçilməlidir. Nəzərdə tutulur ki, bəzi şərti mövzu doktoranturaya qəbuldan əvvəl mövcud olub. O, elm sahəsinin və ixtisasın seçilməsində nəzərə alınıb, ehtimal ki, qəbul imtahanları zamanı adı çəkilib və yəqin ki, elmi rəhbərlə müzakirə olunub. Lakin bütün bunlar fərziyyələr, proqnozlar və niyyətlər idi ki, onlar müxtəlif amillərin təsiri altında dəyişə bilərdi. Amma iddiaçının vaxtı başlamış kimi, artıq ilkin niyyətlərdən konkret qərarlara keçməyin vaxtı gəldi və bu zaman həm şəxsi niyyətlər, üstünlüklər, həm də kənar məsləhətlər və hətta təlimatlar belə nəzərə alınmalıdır.

İstənilən hər hansı bir dissertasiya işi elmin müəyyən bir sahəsində bəzi problemlərin həllinə yönəlib. Dissertasiya işinin **mövzusu (adı)** elmin hansı sahəsində müəllif tərəfindən həll edilməli olan problemin mövcudluğunu müəyyən edir.

Ad işin mövzusunu əks etdirməlidir. "Bu və ya digər növ qanunauyğunluqların tədqiqi" kimi bir başlıq mənasızdır.

Dissertasiyaya “tədqiqat” sözü ilə başlamaq olmaz. Hər dissertasiya – bir tədqiqatdır.

Dissertasiya mövzusunun ilkin müzakirəsinin və təsdiq edilməsinin üstünlükləri nədən ibarətdir? Müzakirə zamanı adətən mövzuya və məzmuna dair faydalı məsləhətlər verilir, əlavələr və dəyişikliklər edilir.

Ənənəyə görə, iddiaçılar müzakirəyə yalnız işin adını deyil, həm də onun strukturunu – fəsillərin adları şəklində təqdim edirlər. Bununla da mövzu ilə yanaşı, dissertasiyanın bütün ideyası müzakirə olunur. Müzakirə iddiaçı və onun elmi rəhbəri tərəfindən dissertasiyanın bir növ ilkin müdafiəsi kimi qəbul edilir. Burada müxalif rolunu isə şura üzvləri oynayır.

Əmin olmaq olar ki, belə müzakirə faydalıdır və iddiaçıya səylərini düzgün istiqamətə yönəltməyə kömək edir. Bundan əlavə, şura üzvləri təsdiqlənmiş mövzunun keyfiyyətinə görə bir növ məsuliyyət daşıyırlar.

İddiaçı tərəfindən seçilmiş mövzu onun üçün sevimli, öyrəndiyi və müəyyən dərəcədə artıq tədqiq edilmiş bir mövzu olmalıdır. Daha yaxşısı isə budur ki, iddiaçı elə bir mövzuya sahib olsun ki, o mövzuya olan marağı onun ruhuna o qədər yerləşib ki, onun naminə gecə-gündüz çalışmağa, çox vaxt sərf etməyə, həyati zövqlərindən imtina etməyə hazır olsun. Təəssüf ki, belə vəziyyətlə nadir hallarda qarşılaşmaq olur. Elmi fanatizm nadir haldır.

Adi, sıravi bir iddiaçı üçün mövzunun nə olduğu o qədər də vacib deyil, əsas odur ki, o mövzuda işi müdafiə etmək mümkün olsun.

Elmi rəhbərin və mövzunu təsdiqləyən elmi şuranın öz üstünlükləri, zövqləri, baxışları və əqidələri var. Şura üzvləri, əlbəttə ki, dissertasiya mövzularını təcrübəsiz iddiaçıdan daha yaxşı bildikləri fərziyyəsindən çıxış edirlər.

Nəticədə mövzu iddiaçının istəkləri, elmi rəhbərin əqidəsi və mövzunu müzakirə edib təsdiqləyən şəxslərin fikirləri arasında kompromis kimi ortaya çıxır.

Dissertasiya işinin mövzusunun rasional və əsaslandırılmış seçimində mövzunun xüsusi, istisnalıq təşkil edən əhəmiyyəti ondan ibarətdir ki, mövzu işin məzmununu böyük ölçüdə müəyyən edir və dissertasiyanın aktuallıq, yenilik, elmi və tətbiqi dəyər kimi əsas atributlarını özündə cəm şəklində özündə ehtiva edir.

Qeyd etdiklərimizə görə də, dissertasiya işinin mövzusunun formalaşdırılmasına çox ciddi diqqət yetirilməlidir. Mövzunun dəqiqliyinə və mükəmməlliyinə nail olmaq üçün heç bir səy və vaxt sərfindən çəkinmək lazım deyil. Mövzunu düzgün seçmək – işin uğurlu icrasını yarıbayarı təmin etmək deməkdir.

Dissertasiyanın mövzusu onun mahiyyətini əks etdirməlidir, buna görə də mövzu sonradan dissertasiya işinə qoyulacaq tələblərə cavab verməlidir.

Mövzunun qısaca və dürüst şəkildə ifadə edilməsi, onun nəzəri, metodoloji və ya tətbiqi elmi tədqiqatlara və işləmələrə aid edilməsi imkanını nəzərə alaraq, dissertasiyada aparılan tədqiqatın mahiyyətini əks etdirməlidir.

**Dissertasiya mövzusunun** axtarışı, təhlili və seçilməsi, müzakirəsi və dəqiqləşdirilməsi prosesində aşağıdakı tövsiyələrə riayət etmək məqsədəuyğundur:

1. Mövzu əvvəlki dissertasiya işləri və bu problemlə bağlı dərc olunmuş elmi tədqiqat nəticələri ilə müqayisədə irəliləyişləri əks etdirməlidir.

2. Mövzunun formulirovkası onun mahiyyətini, mənalılığını əks etdirməlidir. Mövzunu oxuyan şəxs dərhal onun məzmunlu, problemlə yüklənmiş, istiqamətli və məqsədli olduğunu anlamalıdır.

3. Mövzunun qısaca və dürüst şəkildə ifadə olunmasında, adın lakonikliyinə baxmayaraq, maksimal dərəcədə konkretlilik əldə olunmalıdır.

4. Mövzunun adına müasirlik və aktuallıq vermək lazımdır ki, o, arxaik ifadələrdən, elm tərəfindən artıq keçib getmiş və kənara qoyulmuş anlayışlardan uzaq olsun.

Bu tövsiyələrin hamısını nəzərə almaq və onlara riayət etmək asan deyil. Bu, mövzunun seçilməsi və əsaslandırılmasının başlıca çətinliyidir ki, bu da bir çox alternativlərdən imtina edilməsi və digər variantlara qayıtmaq zərurəti ilə müşayiət olunur. Əlbəttə, mövzu işin yerinə yetirilməsi prosesində dəqiqləşdiriləcək və konkretləşdiriləcək, lakin seçim yekun qərar qismində çıxış etməlidir.

Dissertant üçün mövzunun tamamilə dəyişdirilməsi və elmi rəhbərin əvəzlənməsi qədər böyük bir problem yoxdur. Hər iki hal başlanğıc mövqeyə geri dönmə və son uğur şanslarının xeyli azalması ilə eynilik təşkil edir.

Sonuncu tövsiyəni onun spesifikliyinə görə şərh edək.

Mövzunun dövrün ruhuna, respublika rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin ana xəttinə, əsas istiqamətlərinə uyğun olması çox arzuolunandır.

90-cı illərdə bunlar "yenidənqurma", "radikal islahatlar", "əsaslı dəyişikliklər", "özəlləşdirmə", "liberallaşma", "suverenlik", "bazar münasibətləri", "beynəlxalq əmək bölgüsü" kimi məfhumlar idi.

Yeni əsrin başlanğıcında "qloballaşma", "süni intellekt", "milli maraqlar", "xarici investisiyalar", "iqtisadi təhlükəsizlik", "azad edilmiş ərazilərin dirçəldilməsi", "yaşıl iqtisadiyyat", "alternativ energetika", "rəqəmsallaşma" və bir çox digər məfhumlar ön plana çıxır.

Əgər siz müasir dövrdə ümumi qəbul olunmuş anlayışlara belə əbədi gənc elmi kateqoriyaları əlavə etsəniz, məsələn, "səmərəlilik", "dövlət tənzimlənməsi", "keyfiyyət", "məhsuldarlıq", "qənaət", "optimallıq", "strategiya", "sosial müdafiə", həmçinin bu dövrün ruhunu əks etdirən digər terminləri əlavə etsəniz, qarşılıqlı məzmun uyğunluğu ilə dissertasiya mövzusunun müasir variantlarından biri yaranır. Məsələn: "Dövlət tənzimlənməsi iqtisadi təhlükəsizliyin gücləndirilməsi vasitəsi kimi", "Qarabağ regionuna xarici investisiyaların cəlb edilməsinin səmərəliliyi".

Daha bir vacib qeyd. Dissertasiya mövzusu ilə bağlı şəxsi fikrinizi yumşaq şəkildə müdafiə edərkən, elmi rəhbər və mövzu müzakirələrində iştirak edən tanınmış alimlərlə kəskin mübahisələrə girməməlisiniz. Daha yaxşısı, "şübhəsiz ki, qiymətli məsləhətləri və təklifləri nəzərə alacağam" deməkdir.

Prinsip etibarilə, dissertasiya işinin mövzusunun ümumi formada qısaca və dürüst şəkildə ifadə olunması çox vacibdir, çünki bu mövzu Koordinasiya Şurası tərəfindən təsdiq edildikdən sonra gələcək dissertasiyanın adı olaraq qəbul edilir. Dissertasiyanın fəsillərinin və bölmələrinin adları isə şurada baxılsa da, nəticə etibarilə dissertantın ixtiyarında qalır.

Dissertasiya mövzusunun təsdiqi təkcə işin adını və onun elmi istiqamətini müəyyən etmir. Dissertasiyanın predmeti ilə yanaşı, müdafiə olunacaq elmi ixtisas və, yekun olaraq, buna uyğun alacağınız elmi dərəcə müəyyənləşir. Yuxarıda bu ixtisas haqqında danışılmışdı, lakin yenidən ona qayıtmaq zərurəti yaranır.

Ümumiyyətlə, elmi ixtisas və bununla da doktorant dissertasiyasının profili doktoranturaya qəbul zamanı müəyyən edilir. Daha artığını desək, hər bir doktorantura yalnız müəyyən ixtisaslar üzrə hazırlıq aparmaq hüququna malikdir, dissertasiya şurası isə yalnız müəyyən ixtisaslar üzrə dissertasiyaların müdafiəsini qəbul edə bilər.

Beləliklə, iddiaçı hələ qəbul prosesi zamanı ixtisasa yönəlmiş olur. Amma dissertasiya mövzusunun təsdiq edilməsi və ixtisas üzrə namizədlik imtahanının verilməsi zamanı doktorant öz ixtisasını mahiyyətcə və həqiqətən hiss etməyə başlayır.

İddiaçı qəbul olunduqdan sonra bir neçə ay ərzində, ən geci altı ay müddətində dissertasiya mövzusunun təsdiq edilməsi məsləhət görülür. Əlbəttə, hər şey iddiaçıdan asılı deyil, amma o da müəyyən qədər təsir göstərə bilər. Mövzu rəsmi olaraq təsdiq edilməzdən əvvəl işə başlamaq mümkündür və hətta

lazımdır. Dissertasiya mövzusunun təsdiqi anına qədər sizin artıq qanuni rəsmi elmi rəhbəriniz olmalıdır.

Elmi rəhbər doktorantura tərəfindən təqdim olunmaqla elmi təşkilatın rəhbərliyinin əmri ilə təsdiq edilir. Arzuolunandır ki, bu qərar doktoranturaya qəbul ilə eyni vaxtda verilsin. Biz artıq aydınlaşdırmışıq ki, potensial rəhbər daha əvvəl məlum olur, burada isə rəhbərin doktorantın elmi rəhbəri kimi hüquqi status qazanmasından söhbət gedir.

Müvafiq qərar (təyinat haqqında əmr) sizin üçün qəbul olunmağınız qədər vacibdir. Buna görə də rəhbər hələ təyin olunmayıbsa, doktoranturaya tez-tez müraciət edərək, onun rəsmi şəkildə, əmr ilə nə vaxt təsdiq ediləcəyini öyrənmək lazımdır.

## 3.2. Planın hazirlanması və işçi qrafikin tərtibi

***Elm ilə irəliyə, din ilə doğruya, sənət lə gözəlliyə gedilir.***
***Pəyami Səfa***

Plan – gələcək vəziyyətin modeli və həmin vəziyyətə nail olmaq üçün həyata keçiriləcək tədbirlər silsiləsidir.

Təkcə ölkənin, regionun, firmanın iqtisadiyyatı deyil, hər bir insan da plansız və ya ən azı proqnozsuz, niyyətsiz yaşaya bilməz. Bazar münasibətləri nəticəsində Azərbaycanda planlara olan diqqət azalıb. Lakin təhsil planları hələ də mövcuddur və doktorantura təhsil planları da qüvvədədir.

Rəsmi olaraq tanınmış hər bir elmi dərəcə iddiaçısı şəxsi plana sahib olmalı və həmin plan üzrə hərəkət etməlidir.

Elmi təşkilata dissertasiyanın hazırlanması üçün təhkim edilmiş iddiaçılar fərdi planlarını (dissertasiya hazırlığı planı) elmi rəhbərlə razılaşdıraraq, dissertasiya hazırlığı üçün qəbul olunduqları gündən etibarən üç ay ərzində kafedranın (şöbənin, sektorun, laboratoriyanın) təsdiqinə təqdim etməlidirlər. Fərdi

planı yerinə yetirməyən iddiaçılar doktoranturadan xaric edilməlidirlər.

Doktorant doktoranturada təhsil aldığı müddət ərzində fərdi planı tam yerinə yetirməlidir. Doktorantların fərdi planları ali təhsil müəssisələrinin rektorları (elmi şuraları) və ya elmi müəssisə, təşkilatların rəhbərləri (elmi-texniki şuraları) tərəfindən kafedraların (şöbələrin, sektorların, laboratoriyaların) təqdimatına əsasən ali təhsil müəssisələri və elmi müəssisələr, təşkilatlar tərəfindən müəyyən olunmuş müddətlərdə təsdiq edilir.

Bütün bunlar belədir, lakin fərdi planı vaxtında tərtib etmək və onun yerinə yetirilməsi barədə hər il hesabat vermək daha yaxşıdır.

Digər məsələ isə planlara yaradıcı yanaşmaqdır. Kağız üzərində tərtib edilən planı – hesabat, nəzarət və formal məqamlara riayət etmək üçün tələb olunan planı və dissertasiyanı müdafiə etmək məqsədinə çatmaq üçün real fəaliyyət proqramını təşkil edən mahiyyətli planı ayırd etmək lazımdır.

İddiaçının rəsmi fərdi iş planını tərtib etmək xüsusi çətinlik yaratmır. Yalnız minimal dəqiqlik, səliqə və icra etmək qabiliyyəti tələb olunur. Lakin məzmunlu, real bir plan hazırlamaq və yerinə yetirmək daha çətindir.

Fərdi planın iddiaçının əsl niyyətlərini əks etdirməsi və məzmunlu, həqiqi planla üst-üstə düşməsi üçün xüsusi bir əks göstərişlər yoxdur. Plan həm forma, həm də məzmun baxımından tam uyğun olmalıdır. Ancaq belə bir uyğunluğa nail olmaq adətən mümkün olmur. Birincisi, fərdi plan, çox qısa və lakonik olur, buna tezliklə əmin olacaqsınız.

Fərdi planı 1:100 miqyasında hazırlanmış dissertasiyanın modeli adlandırmaq üçün əsaslar var. Bir neçə səhifədə sonra yüzlərlə səhifə tutacaq məzmunu əks etdirmək lazımdır.

İkincisi, həyat, xüsusilə də elm həyatı, hər zaman bizim planlarımızdan daha zəngindir. İstəsək də, istəməsək də, elmi

planlar məqsədə doğru irəlilədikcə təbii dəyişikliklərə məruz qalır. Biz dissertasiyanın ilkin obrazına və onun tərtib olunma yollarına əlavələr və dəyişikliklər etməklə hərəkət istiqamətini daim korrektə etməli oluruq. Bununla belə, dissertasiya mövzusu dəyişməz qalır.

Belə bir şəraitdə planlaşdırma qaçılmaz olaraq operativ tənzimləmə ilə tamamlanır, və iddiaçı fərdi planı ümumi istiqamət və əsasən hesabatlılıq üçün lazım olan rəsmi sənəd kimi nəzərdən keçirərək, ona ciddi şəkildə riayət etməkdən çox, əsas diqqətini opereativ tənzimləmələrə yönəltmək məcburiyyətindədir.

İndi isə doktorantın fərdi iş planının nümunəvi formasına əsaslanaraq planın tərtib edilməsi və plan formalarının doldurulması prosedurlarını daha konkret şəkildə nəzərdən keçirək.

Plan tərtib edilən zaman artıq elmi ixtisas, dissertasiya mövzusu və elmi rəhbər məlum olur, buna görə fərdi planın üz qabığının doldurulması çətinlik törətmir. Bununla belə, dissertasiya mövzusunun təsdiqi və elmi rəhbərin təyin olunması ilə bağlı gecikmələr baş verə bilər. Bu hallarda, başlanğıcda doldurulmamış sətirlər plan təsdiq qərarları qəbul edildikdən sonra tamamlanır, planın özü isə ilkin olaraq müəyyən edilmiş mövzuya və nəzərdə tutulan rəhbərlə əvvəlcədən razılaşdırılmış məzmuna əsaslanaraq tərtib edilir.

Dissertasiya mövzusunun seçiminə dair izahlı qeydlər mövzunun aktuallığının əsaslandırılmasına gəldikdə çox əhəmiyyətlidir, çünki yazılı şəkildə aktuallığın əsaslandırılmasına həm dissertasiyanın giriş hissəsində, həm də avtoreferatda müraciət etməli olacaqsınız. Buna görə də, dissertasiya mövzusunun təsdiqindən dərhal sonra yeni təəssüratlar əsasında bir-iki səhifəlik izah yazmaq faydalı olar. Burada aşağıdakı sxem üzrə hərəkət etmək lazımdır:

1) dissertasiyanın həsr olunacağı problemin mahiyyəti;

2) problemin elmi və tətbiqi əhəmiyyəti;

3) problemin ilkin (başlanğıc) vəziyyəti;
4) dissertasiya işində problemi necə həll edəcəyiniz;
5) dissertasiya tədqiqatının gözlənilən nəticələri.

Qeyd edək ki, “problem” – iddiaçının qarşılaşacağı əsas və başlıca məfhumdur. Fəlsəfi lüğətlərdə deyildiyi kimi, elmi idrakın bütün gedişi problemlərin qoyuluşundan onların həllinə keçiddir. Bu proses yeni problemlərin yaranması ilə müşayiət olunur. Alim və yaxud bu ada iddia edən şəxs elmi problemi düzgün şəkildə qoymağı bacarmalı, ya da onun həlli yollarını tapıb təklif etməli, və ya problemin həllolunmaz olduğunu isbat etməlidir.

Xalis elm nöqteyi-nəzərindən mənfi nəticə də elmi nəticədir, lakin qoyulmuş problemin həllolunmazlığının isbatına söykənən dissertasiyaların müdafiəsinə icazə almaq – xüsusi seçilmiş şəxslərin işidir. Çünki həqiqi elmi problemin həlli yeni və daha böyük problemlər yaratmalıdır. Bu isə elmin və elmi biliklərin tükənməzliyindən xəbər verir.

Sistemlər nəzəriyyəsi və sistem analizi nöqteyi-nəzərindən problem mövcud vəziyyətlə arzuolunan vəziyyət arasındakı uyğunsuzluqdur. İddiaçının mövqeyinə uyğun olaraq belə bir uyğunsuzluq açıq və aşkardır: hələ ki, onun istədiyi elmi dərəcəsi yoxdur, ancaq o, bu dərəcəyə sahib olmaq istəyir. Amma bu cür uyğunsuzluğun mövcudluğu sizin şəxsi probleminizdir, halbuki dissertasiya şəxsi problemləri deyil, elmi problemləri həll etməyə yönəlib.

Və siz dissertasiyanı elmi dərəcə almaq kimi şəxsi probleminizi həll etmək üçün deyil, yeganə məqsədiniz – elmi problemi həll etmək üçün yazırsınız. Əks halda, şəxsi probleminizin həlli qərarını verməkdə sizin özünüz qədər əhəmiyyətli rola sahib olanlar, yəni dissertasiya şurasının üzvləri, sizi düzgün başa düşməyə bilərlər.

Buna görə də fərdi planda dissertasiya mövzusunu əsaslandırıb izah edərkən, tədqiqat sahəsində mövcud bilik səviyyəsi ilə arzuolunan və tələb olunan səviyyə arasında

uçurumun mövcudluğunu vurğulamalısınız, çünki həll etməyə çalışdığınız elmi problemin mahiyyəti məhz bundan ibarətdir.

Titul vərəqi və izahlı qeydlər məlumat xarakteri daşıyır, bu, fərdi planın təsdiqlənməyən hissəsini təşkil edən sizin yaradıcılığınızın məhsuludur. Təsdiqlənən hissə, əslində planın özü, işin ümumi planına və hər il üçün ayrı-ayrı iş planlarına bölünür ki, onların sayı əyani təhsil alan doktorantlar üçün üçdən, qiyabi təhsil alan doktorantlar üçün isə dörddən çox olmamalıdır.

Ümumi plan olduqca sadədir. Onun "Namizədlik imtahanlarına hazırlıq və imtahanların verilməsi" bölməsində imtahanların verilməsinin planlaşdırılan vaxtlarını göstərmək kifayətdir. Burada hesabat forması aydındır - "İmtahanın verilməsi", ən pis halda – mərhələli şəkildə imtahanların verilməsidir. Daha əvvəl qeyd edildiyi kimi, namizədlik imtahanlarının verilməsini uzatmaq tövsiyə olunmur.

Eyni zamanda, lazımi biliklərə malik olmaq və imtahanların qəbul olunma dövrü ilə bağlı məhdudiyyətlər mövcuddur.

Bu barədə müəyyən edilmiş dövrlər və ya xüsusi təyin edilmiş tarixlər mövcuddur (adətən ildə iki dəfə), bunlar haqqında əvvəlcədən məlumat almaq və imtahanların verilməsini müvafiq olaraq planlaşdırmaq lazımdır. İxtisas üzrə imtahanlar adətən xüsusi proqram əsasında qəbul olunur (və verilir). Bu proqram dissertasiya mövzusunun problematikasını əks etdirir (dissertasiyanın mövzusuna uyğun olaraq). Bu isə o deməkdir ki, imtahan vaxtına qədər dissertasiya işi artıq kifayət qədər yetişmiş olmalıdır.

Ümumi planın "Dissertasiya üzərində iş" bölməsinin tərtib edilməsi, dissertasiya mövzusuna uyğun olaraq işin nəzəri və eksperimental hissəsinin ayrıca göstərilməsini tələb edir. İşin nəzəri hissəsinin məzmununun mümkün qədər qısa şəkildə ifadəsi belə ola bilər: "Mövzunun nəzəri əsaslarının tədqiqi və onun həlli yolları haqqında nəzəri təsəvvürlərin inkişafı". İşin eksperimental hissəsi mövzuya uyğun olaraq ümumi planda

belə xarakterizə olunur: “Müəyyən sahədə eksperimentlərin aparılması”, “eksperimental məlumatların təhlili və emalı”, “variantların hesablanması”, “tədqiq olunan proseslərin modelləşdirilməsi metodları”.

Dissertasiyanın tərtib olunma planı mətnin, cədvəllərin, qrafiklərin, şəkillərin və digər illüstrativ materialların fəsillər üzrə və ümumilikdə hazırlanma müddətlərini əks etdirir.

Ümumi planın “Tədris-metodiki və pedaqoji iş” bölməsi, doktorantın dissertasiyanın hazırlanması prosesində bu fəaliyyət növlərində və onların dissertasiya ilə qarşılıqlı əlaqəsində mümkün iştirakını əks etdirir. Tədris-metodiki materialların yazılması və dissertasiya mövzusu ilə bağlı fənlər üzrə mühazirələrin oxunması yaxud praktiki məşğələlərin aparılması doktorantın aktivinə töhfə olaraq dissertasiyada və avtoreferatda öz əksini tapır və tədqiqat nəticələrinin praktiki tətbiqi kimi nəzərdən keçirilir.

Hər ilin iş planı ümumi plandan yalnız daha yüksək detallaşdırma dərəcəsi, yerinə yetiriləcək işlərin həcmi və məzmununun daha ətraflı təsviri, eləcə də planın hesabat vərəqəsinin əlavə olunması ilə fərqlənir. Burada doktorant konkret olaraq həmin ilin plan tapşırığını hansı müddətdə və hansı formada yerinə yetirdiyini göstərməlidir.

Dissertasiya hazırlığının birinci ilinin iş planı ümumi planla eyni vaxtda, mövzu təsdiqlənən kimi və yaxud hətta onun təsdiqindən əvvəl, doktoranturaya qəbuldan sonrakı ilk aylar ərzində tərtib olunur. Birinci ilin iş planının yerinə yetirilməsi barədə hesabat doktoranturaya qəbul olunduqdan bir il keçdikdən sonra tərtib edilir. Bu hesabatla yanaşı, hazırlığın ikinci ili üçün iş planı da tərtib olunur və elmi rəhbərlə razılaşdırılır.

Bu cür, eyni zamanda gedən hesabat və növbəti ilin işlərini planlaşdırma prosesi doktoranturanın sonuna qədər davam edir. Yekun hesabatda dissertasiyanın mövzusunu göstərməklə onun müdafiəsinə təqdim olunması və ya müdafiə faktı barədə

məlumat verilir. Mövzu, dissertasiyanın hazırlanması prosesində dəqiqləşdirildiyinə və ya dəyişdirildiyinə görə ilkin mövzudan bir qədər fərqli ola bilər.

İlin iş planının "Dissertasiya üzərində nəzəri iş" bölməsində dissertasiyanın mövzusu üzrə ya da onun ayrı-ayrı bölmələri (fəsilləri) üzrə digər müəlliflərin əsərlərinin, materiallarının öyrənilməsi, ümumiləşdirilməsi, təhlili, tədqiq olunan obyekt və proseslərin nəzəri konsepsiyalarının və modellərinin qurulması, nəzəri hesablamaların sxemlərinin formalaşdırılması, nəzəri-hesablama asılılıqlarının müəyyən edilməsi, mövcud nəzəri təsəvvürlərin tənqidi, onların korrektəsi, əlavələri və dəyişdirilməsi, dissertasiyanın əsasını təşkil edən nəzəri şərtlərin, prinsiplərin formalaşdırılması öz əksini tapır.

İş planının "Dissertasiya üzərində eksperimental iş" bölməsində təbii və ya model eksperimentlərinin aparılması üçün nəzərdə tutulan formalar və üsullar, işin eksperimental hissəsinin metodikası, statistik məlumatlardan istifadə, tətbiq olunan ölçmə metodları və alətləri, eksperiment nəticələrinin işlənməsi üsulları, nəzəri proqnozların və eksperimental məlumatların müqayisəsi, eksperiment nəticələrinin təhlili ilə bağlı çıxarılan nəticələr işıqlandırılır.

"Elmi məqalələrin nəşri" bölməsində isə nəşrə hazırlanması və elmi jurnallara, elmi əsərlər toplusuna, seminar və konfrans materiallarına göndərilməsi nəzərdə tutulan məqalələrin adları göstərilir, o cümlədən, məcburi olaraq AAK-ın təsdiq etdiyi siyahıya daxil olan nəşrlərdə çap olunması planlaşdırılır. Doktorantura müddətində bir neçə elmi məqalənin nəşrə təqdim olunması mütləqdir. Bu, doktorantın mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirir.

Cari ilin yekunarına görə doktorantın illik attestasiyasını faktiki olaraq onun elmi rəhbəri həyata keçirir, hesabatda illik attestasiyaya dair aşağıdakı qeydi edir: "Keçən tədris ili ərzində doktorant iş planını uğurla yerinə yetirib. Xarici dil və fəlsəfə

üzrə namizədlik imtahanlarını verib. Plan üzrə nəzərdə tutulmuş nəzəri iş yerinə yetirilib. İlin nəticələrinə əsasən doktorant müsbət attestasiyadan keçib”.

Bundan sonra "Elmi-pedaqoji və elmi kadrların hazırlanması haqqında Əsasnamə"yə əsasən doktorant hər il kafedra (şöbə, sektor, laboratoriya) tərəfindən attestasiyadan keçirilir. Attestasiya daha sonra doktorantın təhsil aldığı elmi təşkilatın direktoru tərəfindən təsdiq olunur.

Göründüyü kimi, doktorantın fərdi iş planının təsvirindən və əlavə olunan formalarından belə nəticə çıxır ki, bu plan olduqca sadədir və onun tərtib olunmasının çətinliyindən şikayətlənmək düzgün deyil, hətta elmi rəhbər bu məsuliyyəti tamamilə doktoranta ötürsə belə.

Tamamilə fərqli və daha çətin məsələ - planın qısa və quru sətirləri arxasında dayanan məqamları tam dəqiqliklə və aydınlıqla təqdim etməkdir. Planın necə həyata keçirilməsi və ayrılmış müddət ərzində və ya daha qısa müddətdə tələb olunan nəticələrə nail olunmasıdır.

Hər şeydən öncə başa düşmək lazımdır ki, doktorantın iş planı doqma, ehkam deyil, fəaliyyət üçün əsasdır, bələdçi xarakter daşıyır və ona yalnız yazılan sözlərə söykənməklə deyil, planın ruhu və mənasına uyğun yaradıcı şəkildə yanaşmaq lazımdır.

Məsələn, planda qeyd olunur ki, ilk il ərzində dissertasiyanın birinci fəslini, ikinci ildə ikinci fəsli, üçüncü ildə isə üçüncü fəsli yazmaq niyyətindəsiniz, bu o demək deyil ki, belə sxemə kor-koranə riayət edilməlidir. Ola bilər ki, ikinci fəsildə müəyyən çətinliklərlə qarşılaşasınız, amma üçüncü fəsil isə asan yazıla bilər və onu daha əvvəl tamamlaya bilərsiniz.

Adətən, dissertasiyanın giriş hissəsi iş başa çatdıqdan sonra nəticələr və tövsiyələrlə birlikdə yazılır.

Ümumiyyətlə, dissertasiyanın fəsilləri və paraqraflarının ardıcıllıqla yazılması nadir hallarda ən səmərəli metod kimi qəbul olunur. Çox vaxt blok və ya modul prinsipi daha uğurlu

olur. Bu zaman işin ümumi tərkibinə uyğun olaraq ayrıca bloklar hazırlanır və sonra yekun kompozisiyaya daxil edilir.

Sonra dissertantın daha hazırlıqlı olduğu digər hissənin formalaşdırılmasına başlanılır. Hissələrdən və bloklardan ibarət olan "inşaat materialı" əsas etibarilə hazır olduqda, öncədən müəyyən edilmiş dissertasiya strukturu əsasında bu hissələrin vahid sistemə yığılmasına başlanır. Bu struktur isə ümumi işin hazırlanması prosesində dəyişikliyə məruz qala bilər.

Dissertasiyanın belə bir qayda ilə formalaşdırılması zamanı fəsillərin, paraqrafların bir-birinə uyğunlaşdırılması, uyğunsuzluqların, ziddiyyətlərin aradan qaldırılması, səbəb-nəticə əlaqələrinin yaradılması qaçılmazdır. Buna baxmayaraq, əksər hallarda bu yolla məqsədə çatmaq, dissertasiyanın fəsillərinin nömrələrinə kor-koranə riayət etməkdən daha sürətli və etibarlı olur.

Bu barədə daha sonra bir qədər ətraflı danışacağıq.

Bununla yanaşı, unutmaq lazım deyil ki, dissertasiyanın strukturu müdafiədən əvvəlki müzakirə və rəy prosesində də dəyişə bilər, rəylər verən şəxslər müəyyən dəyişikliklərə təkid edə bilərlər.

Hazır olmalısınız ki, sizə paraqrafların, hətta bütöv fəsillərin yerini dəyişmək, bəzi hissələri çıxarmaq və yenilərini əlavə etmək məsləhət görülsün.

Dissertasiyanın struktur çevikliyi onun sərt yazı planından imtina edilməsi ilə yanaşı, digər vacib amillər səbəbindən də meydana gəlir. Bunlardan ən əsası dissertasiyanı mütəmadi olaraq uğurlu müdafiənin asılı olduğu şəxslərin irəli sürdüyü tövsiyələrə və tələblərə uyğunlaşdırmaq zərurətidir. Bu baxımdan, iş planına həddindən artıq dəqiqlik gətirmək işin uğuruna fayda vermir. Onsuz da real plan işin icrası zamanı yaranacaq.

Əvvəlki təsvirdən aydın olduğu kimi, doktorantın iş planı hər il elmi rəhbər ilə birgə tərtib olunur. Keçmiş ilin yekunlarına dair hesabatda isə, artıq əmin olduğunuz kimi,

rəhbərin rəyi əks olunur. Beləliklə, illik iki-üç səhifənin doldurulması prosesinin yükünü elmi rəhbər ilə bölüşmək nəzəri cəhətdən mümkündür.

Bu, həmişə mümkün olmur. Bir çox rəhbərlərin öz doktorantlarına ildə on saat belə vaxt ayırmağa imkanı olmur, çünki onlar digər elmi işlərlə məşğul olurlar.

Ona görə də elmi rəhbərin sizə ayırdığı dəyərli vaxtdan düzgün istifadə etməyi bacarın, onun yalnız qısa bir baxış keçirib planı və hesabatı imzalaması üçün yetərli olan vaxtı əvvəlcədən hazırladığınız materialla təmin edin.

Bu vaxta qədər biz doktorantın fərdi iş planından danışdıq ki, bu plan doktoranturada təhsil qaydaları çərçivəsində tərtib olunur və yerinə yetirilir.

Bu, çox vacib və ümumi planlardır ki, iddiaçının elmi dərəcəyə doğru hansı işləri nə vaxt görməli olduğu haqqında ümumi təsəvvür yaradır. Belə istiqamətləndirici planlaşdırma çox daha ətraflı plan-qrafikin tərtib olunması və daim yenilənməsi ilə müşayiət edilməlidir. Bu plan-qrafikə dissertasiyanın uğurla müdafiəsinə doğru aparan hər bir vacib addım daxil olmalıdır[3].

Bu cür plan-qrafikin tərtib olunmasını asanlaşdırmaq üçün sizə onun Əlavə 1-də təqdim olunan maketindən istifadə etməyi tövsiyə edirik. Bu maketdə fəlsəfə doktoru dərəcəsinə nail olmaq üçün yerinə yetirilməli olan bütün fəaliyyət növləri, işlər və tədbirlər praktiki olaraq göstərilib.

Sizə yalnız plan-qrafikə vaxtaşırı nəzər salmaq, növbəti fəaliyyətin yerinə yetirilməsini qeyd etmək və növbəti addımlar üçün planlaşdırılmış tarixi göstərmək qalır. Ayrı-ayrı dəqiqləşdirmələr, düzəlişlər istisna olunmur, lakin bunda qorxulu heç nə yoxdur. Təcrübə göstərir ki, dissertasiyanın

---

[3]Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən, fəlsəfə doktoru olmaq istəyən hər bir şəxs təhsil müddəti 3 il əyani, 4 il qiyabi olmaqla namizədlik imtahanlarını verərək doktoranturaya daxil olmalıdır.

hazırlanması və müdafiəsi ilə bağlı işlər üzrə plan-qrafikin tərtib olunması və yerinə yetirilməsi iddiaçılara təşkilatlandırıcı, intizamlılaşdırıcı təsir göstərir və onların fəaliyyətinə nizam gətirir.

Tövsiyə edilən plan-qrafikdə onun doldurulması və istifadəsi ilə bağlı lazımi məlumatları əks etdirən şərhlər verilir.

### 3.3. Namizədlik imtahanları

***Nadanlar elmə həqarətlə baxır, savadsızlar heyran olur, müdriklər ondan bəhrələnir.***

***F. Bekon***

Dissertasiyanı hazırlamaq və müdafiə etmək haqqında söhbətimizi davam edək. Artıq sizin fərdi iş planınız var. Elmi rəhbər təyin olunub. Dissertasiyanın mövzusu təsdiqlənib. Bu az deyil. Lakin artıq növbəti addım haqqında düşünməyin vaxtıdır – namizədlik imtahanları. Onları gecikdirmək olmaz.

Bir daha vurğulayaq ki, doktorantın həyatında bu mərhələ olduqca təhlükəlidir. Bütün sənədləşmə işləri başa çatıb, bu da təbii olaraq arxayınlaşmaya səbəb olur.

Bir qədər istirahət etmək olar. Ancaq başlıca fəaliyyət balansının “almaq” və “vermək” tərəflərindən ibarət olduğunu qətiyyən və heç vaxt unutmamalısınız. Vermək də vacibdir. Bu vəziyyətdə vermək, namizədlik imtahanlarını vermək deməkdir.

İlk olaraq, namizədlik imtahanlarının verilməsi haqqında rəsmi sənədlərdə nə deyildiyini aydınlaşdıraq. Ali elmi dərəcələrin verilməsi qaydalarına uyğun olaraq, elmi dərəcə iddiaçısı müvafiq namizədlik imtahanlarını verməlidir, onların siyahısı AAK tərəfindən müəyyən edilir.

Eyni Əsasnaməyə görə, doktorant doktorantura müddətində fəlsəfə (elmin tarixi və fəlsəfəsi), xarici dil və ixtisas fənni üzrə namizədlik imtahanlarını verməlidir. Beləliklə, namizədlik

imtahanlarının verilməsi yuxarıda göstərilən qaydalarda nəzərdə tutulmuşdur. Əvvəlki təsvirdən aydın olduğu kimi, namizədlik imtahanlarının verilməsi doktorantın fərdi planının ayrılmaz hissəsidir.

Namizədlik imtahanları ali təhsil müəssisələrində, dövlət akkreditasiyasına malik elmi təşkilatlarda, elmi müəssisələrdə, doktorantura təhsili ilə bağlı lisenziyaya malik təşkilatlarda və Azərbaycan Milli Elmlər Akademiyasının kafedralarında təşkil olunan xüsusi komissiyalar tərəfindən qəbul edilir. Namizədlik imtahanlarını yalnız doktoranturanı keçdiyiniz təşkilatda yaxud iddiaçı qismində təhkim olunduğunuz təşkilatda deyil, digər yerlərdə də vermək mümkündür. Lakin ixtisas fənni üzrə namizədlik imtahanları yalnız həmin ixtisas üzrə doktorantura təhsili verən ali təhsil və elmi müəssisələrdə verilir. Belə ki, doktoranturaya qəbul olunmazdan əvvəl ixtisas fənni üzrə imtahan verməyən doktorant, adətən, bu imtahanı dissertasiyasını müdafiə etməyə hazırlaşdığı təşkilatda verir.

Fəlsəfə və xarici dil üzrə namizədlik imtahanları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş təhsil proqramları əsasında qəbul edilir.

İxtisas fənni üzrə namizədlik imtahanı isə başqa məsələdir.

Təlimatda deyildiyi kimi, bu fənn üzrə proqram iki hissədən ibarətdir: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş ixtisas üzrə minimum proqram, və iddiaçının təhkim olunduğu və orada dissertasiya tədqiqatını apardığı müvafiq kafedra (şöbə, sektor, laboratoriya) tərəfindən hazırlanmış əlavə proqramdır. Tamamilə aydındır ki, dissertasiyanın mövzusuna uyğun olaraq formalaşan xüsusi fənn üzrə proqramın bu hissəsi kafedraya (kafedra, sektor, laboratoriya) öz baxışını təklif edən doktorantın və onun elmi rəhbərinin təsiri altındadır.

Bu barədə bəzi tövsiyələr verərək, onların yaradıcı, qeyri-formal şəkildə qəbul olunacağına ümid edirik.

Namizədlik imtahanlarının verilməsi heç də sadə iş deyil. Burada kifayət qədər və tələb olunan həcmdə biliklərə malik olmadan keçinmək mümkün deyil.

İlk imtahan kimi ön sırada fəlsəfəni qeyd edək. İxtisasdan uzaq adamlar üçün bu imtahan qorxulu görünə bilər. Amma qorxmayın, fəlsəfə və tarix üzrə tam anlamda mütəxəssis olmağa ehtiyac yoxdur.

Birincisi, siz xeyli ixtisar edilmiş və sadələşdirilmiş fəlsəfə kursu üzrə imtahan verirsiniz.

Tam proqram üzrə imtahan yalnız fəlsəfə ixtisası üzrə ixtisaslaşan iddiaçılar üçün nəzərdə tutulur. Onlar üçün bu, ixtisas fənnidir və fəlsəfə üzrə namizədlik imtahanını yalnız bu ixtisas üzrə doktorantura təhsili verən ali təhsil müəssisələrində və elmi təşkilatlarda verirlər. Digərləri isə ali təhsil müəssisəsində, sosial-humanitar elmlər kafedrası olan yerdə (fəlsəfə kafedrasının olması məcburi deyil), tərkibində ən azı bir fəlsəfə elmləri doktoru və bir fəlsəfə elmləri üzrə fəsəfə doktoru olan yerdə imtahan verə bilərlər.

Xarici dil imtahanını vermək bir qədər çətin ola bilər. Hal-hazırda xarici dil imyahanı xüsusi təyin olunmuş mərkəzdə verilir.

Cəmiyyətimizdə insanlara xüsusi diqqət yetirildiyinə görə, iddiaçılar da bu qayğıdan kənarda qalmır. Təhsil və elmi müəssisələrdə, artıq qeyd olunduğu kimi, namizədlik imtahanlarına hazırlıq qrupları təşkil olunur. Bu dərslərə müntəzəm olaraq qatılmaq lazımdır.

Fəlsəfə və xarici dil imtahanlarından əlavə, ixtisas üzrə də namizədlik imtahanı vermək lazımdır (yəni, dissertasiyanızı müdafiə edəcəyiniz ixtisas nəzərdə tutulur).

Bu imtahanı isə müdafiəyə yaxın bir vaxtda vermək daha məqsədəuyğundur.

İdeal halda, proqramın bütün suallarını nəzərdən keçirmək və hər birinə yazılı formada qısa, yığcam cavab hazırlamaq

lazımdır. Belə cavabların konspekt şəklində toplusu imtahan zamanı əvəzsiz kömək edəcək.

İmtahan verənlərin əvvəlcədən cavablandırmalı olduqları suallar barədə məlumatlandırılması və cavaba hazırlaşarkən sərbəst şəkildə mənbədən istifadə etmə imkanının verilməsi imtahanı sadə bir formal prosedura çevirmir, bunun əksini düşünmək qətiyyən lazım deyil. Təcrübəli imtahan götürən əlavə suallar vasitəsilə sizin həqiqi bilik səviyyənizi hər zaman müəyyən edə bilər.

Bu baxımdan bir neçə faydalı məsləhət:

1. İmtahanda nə deyirsinizsə deyin, imtahan götürən şəxsdə cavabınıza dair inamsızlıq təəssüratı yaratmayın.

2. Lüzumsuz söz yığınına yol verməyin. İmtahanın aktiv hissəsinin maksimum müddəti bir nəfərə yarım saatdan çox deyil. Ən yaxşısı 20 dəqiqəyə sığışmaqdır. Deməli, hər sualın cavabına 5 dəqiqədən çox vaxtınız yoxdur. Məsələnin məğzinə uyğun danışın.

3. Cavabı imtahana hazırlaşarkən öncədən hazırladığınız qeydlərin oxuması prosesinə çevirməyin – bu, imtahan götürən şəxslərdə mənfi, darıxdırıcı təəssürat yaradır. Hazırlanmış konspektə nəzər salmaq olar, amma bundan artığına yol verməyin. Cavab yaxşı mənimsənilmiş şifahi monoloq kimi səslənməlidir.

4. İmtahan götürən şəxslərlə yüngül müzakirə aparın, lakin hörmət məsafəsini qoruyun, "pərdəni" saxlayın. Özünüzü ləyaqətlə aparın.

5. Güclü olduğunuz sualların cavablarında mümkün qədər çox "xal toplamağa" çalışın ki, bu yolla digər cavablardakı çatışmazlıqları ört-basdır edə biləsiniz

6. Ümumi erudisiyanızı, mövzu üzrə ədəbiyyatı, elmi mənbələri bildiyinizi, problemə dair müxtəlif fikirlərlə tanış olduğunuzu hər vəchlə vurğulayın və göstərin.

İxtisas üzrə namizədlik imtahanı dissertasiya müdafiəsi öncəsi bir növ qüvvələrin sınağıdır. Nəzərə alın ki, imtahan

götürənlər, adətən, elmi və ya dissertasiya şurasının aparıcı üzvləri olaraq, sizin elmi taleyinizi yalnız imtahan zamanı deyil, sonrakı daha ciddi sınaqda da müəyyən edən insanlar sırasındadırlar. Buna görə də ixtisas imtahanını layiqincə, ən azı “dörd” qiymətlə vermək lazımdır.

Namizədlik imtahanının uğurlu verilməsi müəyyən edilmiş formada vəsiqənin təqdim olunması ilə təsdiqlənir. Belə vəsiqələri vaxtında almaq lazımdır, xüsusilə də imtahanlar dissertasiyanın müdafiə ediləcəyi təşkilatda verilmirsə. Nəzərə alın və unutmayın ki, namizədlik imtahanlarının verilməsi barədə vəsiqə attestasiya işinin tərkibinə daxil edilən sənədlər sırasında yer alır.

# FƏSİL IV. DİSSERTASİYANIN YAZILMASI

## 4.1. Dissertasiya işinin parametrləri

*İnsanların işlərindən məmnun qalmaları*
*üçün üç şərt tələb* **olunur:**
*iş onların bacarığına uyğun olmalı, iş onları*
*yormamalı və mütləq uğurla bitməlidir.*
*C. Röskin, ingilis yazıçısı*

İddiaçılar arasında yaxın keçmişdə belə bir ifadə məşhur idi: "Alim olmaya bilərsən, amma elmlər namizədi (hal-hazırda fəlsəfə doktoru) olmağa borclusan."

Bu cümlənin dərin mənalı olduğunu demək çətindir, amma onun ikinci, çağırış xarakterli hissəsi diqqətəlayiqdir.

Həqiqi alim olmaq çox az insana nəsib olur. Amma alim adını daşımaq mümkündür.

Rəsmiyyətə və qəbul edilmiş statistik normalarına uyğun olaraq, hər bir şəxs, elmi dərəcəyə sahib olduqda, alim və elmi işçi hesab edilir. Elementar məntiq də göstərir ki, elmi dərəcə alim olmağın rəsmi göstəricisidir.

Bu barədə kitabın əvvəlki fəsillərində müəyyən qədər danışılmışdı. Təkrar olaraq həmin həqiqətləri qeyd etməkdə məqsəd başlanğıc aforizmin xüsusi mənasını vurğulamaqdır. Bu aforizm belə izah olunur:

"Əgər insan istedadın çatışmazlığı səbəbindən həqiqi alim ola bilmirsə, dissertasiya müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsini əldə edərsə, o, istər-istəməz, avtomatik olaraq alim olur".

Beləliklə, alim olmaq ya olmamaq sizdən asılı deyil, həm də sizin haqqınızdakı fikirlərdən, elmi nailiyyətlərinizdən asılı deyil, bu, elmi dərəcənin mövcudluğundan asılı olan bir məsələdir. Buna görə də, alim olmaq üçün ilk növbədə fəlsəfə doktoru olmağa məcbursunuz. Ancaq bu halda siz cəmiyyət

tərəfindən tanınmış alim olursunuz və buna görə də səylərinizi dissertasiya hazırlamağa və onu müdafiə etməyə yönəltməlisiniz.

Belə bir məqamı da qeyd etməliyik. Elmi-tədqiqat institutlarında, elmi müəssislərdə, universitetlərdə, ümuiyyətlə elmi işlə məşğul olan, məqalə yazan, dərs deyən çox sayda insan çalışır, və bunların əksəriyyəti müxtəlif səbəblərdən dissertasiya müdafiə etməyib. Onlarıda biz, əlbəttə ki, alimlər sırasına qatmağa borcluyuq.

İddiaçı, xüsusilə fəlsəfə doktoru olmağa borcludur, çünki o, ən azından rəsmi olaraq belə bir niyyətini bildirmiş, bu prosesə bir çox hörmətli insanları cəlb etmiş, maddi, maliyyə, informasiya resursları və zaman xərclərinə səbəb olmuşdur.

Bu şəxslərin üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməməsi yalnız obyektiv, onlardan asılı olmayan səbəblərlə əsaslandırıla bilər.

Hal-hazırda qüvvədə olan qaydalara uyğun olaraq, elmi dərəcə almaq üçün yalnız bir yol mövcuddur – dissertasiyanın müdafiəsi.

Elmi dərəcəyə gedən əsas yol – xüsusi hazırlanmış əlyazma şəklində dissertasiya yazmaqdır.

Gəlin bu əlyazmanın nə olduğunu, nədən ibarət olduğunu və onu necə hazırlamaq, yazmaq və tərtib etmək lazım olduğunu araşdıraq.

Məntiqə görə, dissertasiya işinin strukturundan başlamaq lazım idi, amma strukturun təsvirindən əvvəl dissertasiya əlyazmasının həcm parametrləri haqqında bir neçə məqamı qeyd edək. Dissertasiya işinin həcminə dair rəsmi olaraq ciddi məhdudlaşdırıcı tələblər olmasa da, əslində belə tələblər açıq və ya gizli şəkildə mövcuddur və kifayət qədər əhəmiyyətlidir.

Dissertasiyanın çox kiçik həcmi sanballı təəssüratı yaratmır, çox böyük həcm isə artıq vaxt itkisinə səbəb olur və əlyazmanın ibarət olduğu mətnin “elmi maddənin” yüksək dərəcədə dolğun olub-olmaması ilə bağlı şübhələr yaradır.

Dissertasiya, 1,5 intervalla çap olunmuş, orta həcmi 130—150 səhifəlik mətndən ibarət olur.

İctimai elmlər üzrə dissertasiyaların həcmi, adətən, təbii elmlər üzrə işlərdən bir neçə onluqla ölçülən səhifə həcmində çox olur.

Bütün bunlar haqqında danışmağa məcburuq, baxmayaraq ki, ilk baxışda dissertasiyanın həcmi işin keyfiyyətini təmin etməkdə mühüm rol oynamır. Bununla belə, həcm ilə keyfiyyət arasında əlaqə var, kəmiyyət ilə keyfiyyətin dialektik nisbəti müşahidə olunur. Nəhayət, nə qədər danışsaq da, əlyazma müəyyən informasiya həcmində olmalıdır və bu, səhifələrin sayına görə ölçülür. Dissertantın qarşısında duran məsələ, yuxarıda qeyd olunduğu kimi, tələb olunan həcmi toplamaq və qəbul olunan həddi aşmamaqdır. Çünki həddindən artıq həcmdə olan dissertasiyanı əsas məzmuna zərər vermədən qısaltmaq lazım gələcək, yəni sadəcə lazımsızları çıxarmaq deyil, mətnin sıxılmasını həyata keçirmək gərəkdir ki, bu da olduqca çətin və əməktutumlu, vaxtaparan bir prosesdir.

Həcm yanaşmasının əleyhdarları belə bir əks arqument irəli sürürlər: "Albert Eynşteyn 11 səhifəlik məqalə yazaraq nisbilik nəzəriyyəsinin müəllifi oldu. Adi bir-Sıravi elmi işçiyə isə yüzlərlə səhifə şişirdilmiş, lakin boş mətn yazmaq heç də çətin deyil. Əsas məsələ – keyfiyyətdir, miqdar deyil". Təbii ki, keyfiyyət işin dəyərinin müəyyənedici meyarıdır. Bununla belə, həcmlə bağlı yanaşmanı tənqid edən bu arqumentlər də inandırıcı deyil.

Əvvəla, iddiaçını Eynşteynlə müqayisə etmək yerinə düşməz. Hətta yüz min insandan biri gələcəkdə nisbilik nəzəriyyəsinin müəllifi olsa belə, onu 11 səhifə ilə heç bir elmi qapıdan içəri buraxmayacaqlar. "Bu dissertasiya deyil, ən yaxşı halda bir məqalədir. Göndərin jurnala. Dissertasiya ciddi, sanballı bir iş olmalıdır" deyəcəklər. Və nə qədər ki, miqdarın əleyhinə danışsalar da, hər hansı elmi işin, xüsusilə

dissertasiyanın sanballılığı tez-tez onun həcmi ilə assosiasiya olunur.

İkincisi, tənqidçilərin iddia etdiyi kimi şişirdilmiş elmi işi yaratmaq o qədər də asan deyil.

Yeri gəlmişkən, kitab müəlliflərinə qonorar məhz həcmdən asılı olaraq ödənilir. Elmi tədqiqatların ödənilməsi, hesabatlar və məruzələr şəklində tamamlanması da əslində elmi işlərin həcmi ilə əlaqəlidir. Şübhəsiz ki, bu zaman tələb olunan keyfiyyətə və məzmuna malik olan elmi məlumatın miqdarına görə ödəniş edilir. Lakin informasiya sıxlığı nə qədər yüksək olsa belə, onun məzmununu ifadə etmək üçün müəyyən həcmin tələb olunması qaçılmazdır.

Dissertanta başqalarının əsərlərindən səhifələrlə məlumat köçürməyin heç də çətin olmadığını iddia etməyi də rədd etmək lazımdır.

Başqasının mətnini köçürmək dissertant üçün ən təhlükəli üsullardan biridir. Yaradıcı şəkildə başqasının mətnini təkrar yazmaq isə həm bacarıq, səriştə, yaradıcılıq tələb edir, həm də çox vaxt aparır. Təkcə başqasının mətnini özününkiləşdirmək kifayət deyil, onu dissertasiya mövzusu ilə əlaqələndirmək də lazımdır.

Hazırkı informasiya əsrində – kitabların, jurnalların, elmi işlərin, internetin bolluğu fonunda elm aləmində hiyləgər avantüristlərin elə dissertasiyalar yığa bilmələri mümkündür ki, heç kəs plagiat olduğunu aşkar etməz. Ancaq bu, çox-çox təhlükəli və riskli bir işdir.

Ali Attestasiya Komissiyasının Əsasnaməsinə görə: "Dissertasiya müəllif tərəfindən müstəqil yazılmalı, açıq müdafiə üçün müəllifin irəli sürdüyü yeni elmi nəticələr və müddəalar ehtiva etməli, daxili məntiqi vəhdətə malik olmalı və müəllifin şəxsi elmi töhfəsini təsdiq etməlidir".

Əgər yaradıcı yanaşma sərgilənərək başqalarından alınan fikirlər yer almasa, nə qədər dissertasiyadan məhrum olarıq. Digər müəlliflərin materiallarından və tədqiqat nəticələrindən,

elmi nəşrlərdən istifadə etmək olar və hətta lazımdır. Amma bunu sözbəsöz, hərfi mənada etmək lazım deyil, yoxsa, sitat gətirdiyiniz mətnləri dırnağa almalı və mənbəni göstərməlisiniz.

Başqalarının fikirləri çox xoşunuza gəlibsə, heç kim sizə mane olmur ki, onları öz sözlərinizlə ifadə və mənbəyə istinad edəsiniz.

Dissertasiyanın həcm tələblərinin mövcud olmasına görə kədərlənmək lazım deyil. İnformasiya baxımından çox böyük bir həcm yükü yoxdur.

Çünki adi riyazi hesablama göstərir ki, gündə cəmi bir neçə cümlə yazmaq kifayətdir. 150 səhifəni yazmaq üçün 3 il vaxt ayrılır, bu da 1095 gün deməkdir. Bir səhifə üçün isə bir həftədən çox vaxt ayrılır.

Bir səhifədə təxminən 28 sətir var, deməli, gündə cəmi 4 sətir, yəni təxminən bir yarım cümlə yazmaq kifayətdir. Hətta şənbə və bazar günlərini çıxsaq belə, iş günü ərzində 5-6 sətir yazmaq lazımdır. Yəni iki cümlə. Bu isə çox deyil.

Ancaq doktorantlarımızın təxminən yarısı onlara ayrılmış müddət çərçivəsində dissertasiya yazmağa müvəffəq olmur və ya tələb olunan 150 səhifəni yaza bilmirlər. Əslində, dissertasiya mətninin çatışmazlığı səbəbindən doktorantura çox vaxt nəticəsiz başa çatır, keyfiyyətin aşağı olması isə daha nadir rast gəlinən bir haldır.

Bütün bu deyilənlərdən çıxarılacaq nəticə odur ki, dissertasiya yazarkən səhifə məhsuldarlığının minimal yazma standartlarına əməl edilməlidir:

Gündə azı 5 sətir, həftədə azı bir səhifə, ayda isə azı 5 səhifə. İldə isə azı 50 səhifə yazmaq lazımdır.

Qədim yunan filosofu belə bir nəsihət vermişdir: "Bir gün belə cizgisiz boş keçməsin." Müasir doktorant isə bu qaydaya əməl etməlidir: "Bir gün belə cümləsiz keçməsin." Şübhəsiz ki, xüsusi əziyyət çəkmədən gün ərzində yarım səhifə, hətta bir səhifə yazmaq mümkündür, bu halda isə dissertasiya bir il

ərzində tamamlana bilər. Belə doktorantlara rast gəlinir, amma bu, çox nadir hallarda olur.

Dissertasiyanın həcm ölçüləri və parametrləri ilə bağlı müzakirələri yekunlaşdıraraq qeyd edək ki, girişin təxmini həcmi 10-12 səhifə, bir fəsil üçün 35-50 səhifə, bir fəsildəki paraqraf üçün 10-15 səhifə, nəticələr bölümünün həcmi isə 5-10 səhifə olmalıdır. Fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya adətən 2-4 fəsildən ibarət olur. Həcmi ilə bağlı sərt tələblər yoxdur və dissertanta onu geniş hüdudlarda dəyişmək imkanı verilir.

### 4.2. Dissertasiya işinin tərkibi və məzmunu

***Tədqiqatçının öz işinin əhəmiyyətini dərk etməsi onun üçün xoşbəxtlikdir. Bu, onun həyatında davamlı olaraq verdiyi müxtəlif qurbanlar üçün tam dəyərli bir mükafatdır.***

***Maks Plank***

Beləliklə, biz bu əsərin mərkəzi, əsas hissəsinə sıx şəkildə yaxınlaşdıq. İndi dissertasiya işinin quruluşu, onun ümumi məzmunu və ayrı-ayrı fəsillərin məzmunu, dissertasiya materiallarının məntiqi və ardıcıllığı haqqında danışmağın vaxtı gəlib çatdığını deməliyik.

Dissertasiya mətnini yazarkən daima yadda saxlanılmalı olan birinci və əsas şərt odur ki, dissertasiya tədqiqatı elmi-kvalifikasiya işidir.

Bu o deməkdir ki, dissertasiya mətnindən, elmi məqalələrdən və avtoreferatdan görünməlidir ki, iddiaçı düzgün mülahizə yürütməyə, doğru nəticələr çıxarmağa qadirdir, tədqiqat sahəsi ilə yaxşı tanışdır, terminlərə və elmi dilə hakimdir və formalaşmış elmi tədqiqatçıdır.

Dissertasiya işinin tərtibatı Ali Attestasiya Komissiyasının 29 oktyabr 2019-cu il tarixli Qərarına əsasən, 7 may 2023-cü il tarixli dəyişikliklər nəzərə alınmaqla aparılır.

Anlamaq lazımdır ki, dissertasiya mətni iddiaçının tədqiqat mövzusu üzrə mülahizələrini təşkil edir və bu mülahizələrin məqsədi elmi-tədqiqat işinin nəticələrini təsdiq etməkdir.

Dissertasiyanın ayrı-ayrı bölmələrinin (fəsillər, paraqraflar) mətnləri mənaca tam olmalıdır. Bütün bölmələr məntiqi şəkildə əlaqələndirilməli və işin özü bütövlüyə malik olmalıdır.

Dissertasiyada materialın təqdimatı üçüncü şəxs adından aparılır. Mətnin hazırlanmasında aşağıdakı kompozisiya quruluşuna riayət etmək məqsədəuyğundur: giriş, cədvəllər, qrafiklər və şəkillərlə birlikdə əsas mətn, nəticələr və tövsiyələr, ədəbiyyat siyahısı.

Dissertasiya mətninin və onun tərkib hissələrinin yazılması ilə bağlı tövsiyələrə keçməzdən əvvəl aşağıdakıları qeyd edək.

Bir daha iddiaçıya xatırladırıq ki, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının saytında işin tərtibatına, dissertasiyanın ilkin ekspertizasından müdafiə proseduruna qədər olan prosesə və s. dair tələbləri özündə əks etdirən təlimat materialları dərc olunur ki, biz hər bir iddiaçıya bunlarla tanış olmağı təkidlə tövsiyə edirik. Təlimatlar və tələblər dissertasiyanın yazılması zamanı dəyişə bilər. Buna görə də AAK-nın son tələblərindən mütləq xəbərdar olmaq lazımdır.

Aydındır ki, materialların hazırlanması və dissertasiyanın yazılması təkcə işin ən əsas hissəsi deyil, həm də ən zəhmət tələb edən və eyni zamanda, əsasən yaradıcılıq və qeyri-şablon xarakterinə görə ən çətin hissəsidir.

Əslində, dissertasiya üzərində iş iki fəaliyyət növünün birləşməsinə söykənir.

1. **Struktur-kompozisiya fəaliyyəti** – artıq müəyyən edilmiş mövzuya, işin quruluş məntiqinə və onun hissələri arasındakı qarşılıqlı əlaqələrə uyğun olaraq, dissertasiyanın bölmələr və altbölmələr (fəsillər və paraqraflar) üzrə strukturunun formalaşdırılması prosesidir. Dissertasiyanın hazırlanmasının bu, böyük ölçüdə metodik tərkib hissəsi, işin

struktur komponentlərinin müəyyən edilməsi və seçilməsi ilə yanaşı, onların ümumi məzmununun müəyyən olunmasının da zərurəti ilə əlaqədardır. Bu, dissertasiya əsərinin kompozisiyası ilə onun strukturuna daxil edilmiş elementlərin konkret məzmunu arasında körpü qurmağa imkan verir.

2. **Mahiyyət-məzmunlu fəaliyyət** dissertasiyanın bölmələrinin, fəsillərinin, paraqraflarının məzmununun formalaşdırılmasında, onların təhlil-analitik, yaradıcılıq, innovativ və tətbiqi, tövsiyə xarakterli mətn, qrafik, cədvəl, rəqəmsal materiallarla doldurulmasında özünü göstərir. Mahiyyət-məzmunlu fəaliyyət, struktur-kompozisiya çərçivəsini elə elmi materialla doldurur ki, nəticədə dissertasiyanın məqsədlərinə yönəlmiş və öz hissələrində tədqiq olunan obyektə məxsus səbəb-nəticə əlaqələrinin məntiqinə və vahid tematik ideyaya uyğun olaraq əlaqələndirilmiş bütöv bir əsər formalaşır.

Dissertasiya işinin kompozisiyasının vacibliyi işə təkcə səliqəlik və nizam-intizam verməyində deyil. O, həm də dissertantın elmi yetkinliyi haqqında mühakimə yürütmək üçün onun yaradıcılığının nisbətən müstəqil məhsuludur.

Formalaşmış elmi işçi, tədqiqatçı elə bir dünyagörüşünə, materiallarla işləmək bacarığına malik olmalıdır ki, ardıcıl əlaqəli elmi əsər yarada bilsin. Axı dissertasiya sadəcə elmi deyil, həm də kvalifikasiya işidir və iddiaçı onda həm öz elmi töhfəsini, həm də müxtəlif hissələrdən səliqəli bir əsər yığmaq sənətinə malik olmaq şəklində öz kvalifikasiyasını nümayiş etdirməyə borcludur. İşin struktur-kompozisiya quruluşu dissertantın elmi memar kimi üstünlüklərindən xəbər verir.

Dissertasiyanın strukturu da, adı və mövzusu ilə yanaşı, işin ən daha görünməli, diqqət çəkən atributudur ki, bu da az əhəmiyyətli deyil. Dissertasiya işinin müddəalarının mahiyyətinə nüfuz etmək əhəmiyyətli səylər və vaxt sərfi tələb edir və buna görə də çox az insana əlçatandır. Bu, ən çox işin müəllifinin özünün və müəyyən mənada onun elmi rəhbərinin

və opponentlərinin payına düşür. Ancaq işin struktur quruluşu, kompozisiyası – hər kəsin gözü qarşısındadır. İşin adı, onun bölmələri və yarımbölmələri ilə tanış olmaq üçün məzmunun bir neçə dəqiqəlik baxışı kifayətdir.

Tez-tez belə bir səthi baxış əsasında tənqidçi eyni sürətlə iş haqqında öz fikrini formalaşdırır. Dissertasiyaların keyfiyyətinin həqiqi qiymətləndiricilərinə aydındır ki, işin səthi vərəqlənməsi əsasında aparılan qiymətləndirmə tam və inandırıcı deyil, lakin dissertant tənqidçilərə öz əsəri haqqında səthi mənfi mühakimələr formalaşdırmaq üçün səbəb verməli deyil. Buna görə də dissertasiyanın strukturu ən böyük diqqətlə, maksimal səylə düşünülməli və işlənilməlidir.

Dissertasiyalar üçün aşağıdakı struktur quruluşu tipik səciyyə daşıyır:

1. Mündəricat.
2. Giriş.
3. Dissertasiyanın əsas hissəsinin struktur və məzmunlu bölmələri bir neçə fəsil şəklində (iki-dörd arası).
4. Nəticə (qənaətlər və tövsiyələr şəklində).
5. Dissertasiya mövzusu üzrə ədəbiyyat siyahısı.
6. Əlavələr (lazım olduqda).

Müəyyən dərəcədə şərti olaraq, sadalanan bölmələri strukturu və məzmunu çox halda ənənə və rəsmi sənədlərlə əvvəlcədən müəyyənləşdirilmiş normativ və məzmunu yüksək dərəcədə azadlığa malik, yalnız elmi idrakın məntiqinə və işin icraçısının iradəsinə tabe olan qeyri-normativ bölmələrə ayırmaq olar.

Normativ bölmələrə giriş, nəticə, ədəbiyyat mənbələrinin siyahısı aiddir. Qeyri-normativ bölmələrə isə struktur bölmələri (dissertasiyanın əsas hissəsinin fəsilləri) və əlavələr daxildir.

Bizim normativ adlandırdığımız bölmələr müəyyən, formalaşmış qaydalara, müəyyən şablona uyğun olaraq yazılır, halbuki dissertasiyanın əsas hissəsinin yazılmasında əsasən

qeyri-şablon, yaradıcılıq yanaşması, elmi axtarışın sərgilənməsi zəruridir.

İlk öncə, dissertasiyanın normativ bölmələrinin strukturu və məzmununu nəzərdən keçirək.

**Mündəricatda** dissertasiyada olan bütün bölmələrin (fəsillərin və paraqrafların) siyahısı səhifə nömrələri ilə birlikdə verilir.

Xüsusi diqqət bölmələrin adlarına yetirilməlidir; onlar bölmənin məzmununu yığcam şəkildə əks etdirməli və iki sətirdən artıq olmamalıdır.

Dissertasiyanın **Giriş hissəsi** adətən aşağıdakı ardıcıllıqla yerləşdirilən altbölmələrdən ibarətdir: "Tədqiqat mövzusunun aktuallığı və problemin öyrənilmə dərəcəsi", "Tədqiqatın məqsədi və vəzifələri", "Tədqiqatın obyekti", "Tədqiqatın predmeti", "Tədqiqatın metodları, metodoloji və nəzəri əsasları", "Tədqiqatın informasiya bazası", "Tədqiqatın elmi yeniliyi", "Müdafiəyə çıxarılan əsas müddəalar", "İşin nəzəri və praktiki əhəmiyyəti", "Tədqiqat nəticələrinin aprobasiyası", "İşin yerinə yetirildiyi təşkilatın adı", "Dissertasiyanın ümumi həcmi və strukturu".

Prinsip etibarı ilə, girişin bu strukturundan müəyyən kənarlaşmalar mümkündür, misal üçün, tədqiqatın informasiya bazası heç də hər zaman ayrıca göstərilmir və tədqiqatın metodoloji əsasına daxil edilə bilər. Lakin bu kanonik struktura riayət etmək daha məqsədəuyğundur.

İndi isə dissertasiyanın giriş hissəsinin hər bir "altbölməsinin" (bəndinin) məzmununu qısaca xarakterizə edək və eyni zamanda təxmini həcmini göstərək.

Hər bir dissertasiya **aktual** mövzuda yazılmalıdır.

Tədqiqat mövzusunun aktuallığı (bir-iki səhifə) dissertasiyada araşdırılan problemin elmi və tətbiqi əhəmiyyətini dəstəkləyən müddəaları, dəlilləri, əsaslandırmaları ehtiva edir.

Dissertasiyanın girişinin bu hissəsini yazarkən, doktorantın fərdi planında yer alan mövzunun seçilməsi və təsdiqi prosesində dissertasiya mövzusunun aktuallığının əsaslandırılmasından istifadə etmək lazımdır. Bundan əlavə, dissertasiyanın hazırlanması prosesində aparılmış tədqiqatın aktuallığını göstərən əlavə arqumentlər də ortaya çıxır.

Elmi-texniki tərəqqi, elmin özü sürətlə inkişaf edir, irəliləyir. Respublika qarşısında duran çağırışlara cavab vermək lazımdır. Respublikanın sosial-iqtisadi inkişafının hər mərhələsində həll edilməli olan yeni problemlər meydana çıxır.

Əgər dissertasiyada həll olunan məsələ hazırkı anda və mövcud vəziyyətdə elm və xalq təsərrüfatı tərəfindən tələb olunursa, onda dissertasiya aktual mövzuda yerinə yetirilmiş hesab olunur.

Əgər iddiaçı sadəcə formal olaraq tədqiqat mövzusunun aktuallığını qeyd edirsə, bu, mövzunun əsaslandırılması üçün kifayət deyil.

Fəlsəfə doktoru dərəcəsinin iddiaçısı tədqiqat sahəsindəki vəziyyətin aparılmış təhlilinə əsaslanaraq, bu mövzunun nə üçün məhz indi tədqiq edilməli olduğunun izahını verməlidir.

Tədqiqat mövzusunun aktuallığı adətən iki istiqamət üzrə əsaslandırılır. Belə ki, ədəbiyyat mənbələri və elmi-tədqiqat işləri əsasında tədqiqat sahəsindəki vəziyyətin analizi bir sıra məsələlərin kifayət qədər öyrənilmədiyi nəticəsinə gəlməyə imkan verir, tədqiqatların vaxtında aparılması isə bu boşluqları aradan qaldıra bilər.

Və ya, iddiaçı tərəfindən aparılan elmi tədqiqatlar dissertasiyada əldə edilmiş yeni məlumatlar əsasında tələbat yaranmış praktiki məsələnin həllinə imkan verə bilər.

AAK-ın tələblərindən çıxış edərək və bütün elm sahələrində aparılan tədqiqatların yüksək səviyyəsini, habelə müdafiə olunan dissertasiyaların sayını nəzərə alaraq, dissertasiya tədqiqatı mövzusunun aktuallığının əsaslandırılması dissertasiyanın ilkin müzakirəsi və müdafiəsi zamanı həlledici

əhəmiyyətə malik olacaqdır. Çünki AAK-nın elmi dərəcələrin verilməsi qaydaları haqqında Əsasnaməsinə uyğun olaraq, rəyçilər və rəsmi opponentlər dissertasiyanın və dissertasiya mövzusu üzrə nəşr edilmiş işlərin öyrənilməsi əsasında dissertasiya şurasına təqdim etdikləri yazılı rəydə mütləq dissertasiya mövzusunun aktuallığını qiymətləndirirlər.

Məhz sizin dissertasiyanızın mövzusunun aktuallığını necə əsaslandırmağı daha yaxşı anlamaq üçün, bizim vəsaitimizdən əlavə, ixtisasınız üzrə bir neçə (6-10 sayda) dissertasiya və avtoreferat oxumağı qətiyyətlə tövsiyə edirik.

Qeyd edək ki, işin yerinə yetirilməsinin birinci mərhələsində mövzunun aktuallığını əsaslandırmaq lazım idisə, tamamlanma fazasında artıq təkcə dissertasiya mövzusunun, predmetinin aktuallığı haqqında deyil, həm də aparılmış tədqiqatın özünün aktuallığı haqqında yazmaq daha düzgündür. Aktuallıq, işdə həll olunan elmi və eyni zamanda tətbiqi problemlə ən sıx əlaqədədir və məhz ondan çıxış etmək lazımdır.

**Problemin öyrənilmə dərəcəsi (elmi işlənmə səviyyəsi)** dissertasiyanın giriş hissəsinin məcburi elementidir.

Giriş hissəsinin bu bəndinin məqsədi iddiaçının elmi dünyagörüşünü nümayiş etdirməkdir. Burada iddiaçı öz tədqiqat mövzusunun yerli və xarici alimlər tərəfindən nə dərəcədə tədqiq edildiyi barədə məlumatlılığını göstərir. Siz inandırıcı şəkildə göstərməlisiniz ki, digər alimlərin bu sahəni öyrənməsinə baxmayaraq, dissertasiya tədqiqatı aparılmazdan öncə elmin və təcrübənin maraqları naminə mütləq doldurulmalı olan bir boşluq mövcud idi. Bu çətin missiyanı üzərinizə götürərək və bu boşluğu dolduraraq, əhəmiyyətli bir iş görmüş olursunuz ki, bu da dissertasiyada yerinə yetirilən tədqiqatın aktuallığını müəyyən edir.

Mövzunun elmi işlənmə dərəcəsi girişdə iddiaçı tərəfindən tədqiq olunan məsələyə aidiyyəti olan müəlliflərin siyahısı, onların nəzərdən keçirdiyi məsələlərin qısa xarakteristikası, habelə onlar tərəfindən bu tədqiqat istiqamətində baxılmamış

və iddiaçının fikrincə araşdırılması zəruri olan sualların xarakteristikası ilə əks olunur.

Tədqiqatçıların siyahısına ən tanınmış alimlər daxil olunur; əgər siyahı böyük alınırsa, onda hamısını sadalamaq əvəzinə, siyahıdan sonra "və başqaları" ifadəsi əlavə edilə bilər. Tədqiqatçıların soyadları əlifba sırası ilə verilir.

Beləliklə, mövzunun elmi işlənmə dərəcəsi dissertasiya tədqiqatının biliklərin konkret sahəsində yerini müəyyən edir. Girişin bu bəndi tədqiq olunan sahədəki boşluqların siyahısını müəyyən edir ki, onların doldurulması zərurəti iddiaçının tədqiqat vəzifələrinin dairəsini təyin edir.

Əgər problem ilk dəfə nəzərdən keçirilirsə və tədqiq olunan suallar üzrə ədəbiyyat mənbələri mövcud deyilsə, bunu mütləq qeyd etmək lazımdır.

Əgər dissertasiya tədqiqatında tədqiq olunan problemin bir neçə istiqaməti araşdırılırsa, müəllifləri nəzərdən keçirdikləri suallar və mövcud boşluqları göstərməklə istiqamətlər üzrə qruplaşdırmaq lazımdır.

Adəti üzrə mövzunun elmi probleminin işlənmə dərəcəsinin təsviri 2-3 altbölməyə bölünür. Burada əvvəlcə daha əvvəlki dövrlərdə bu tədqiqatlarla məşğul olan alimlər, sonra isə müasir dövrün tədqiqatçıları qeyd edilir.

Bundan əlavə, adətən, müzakirə olunan problemi tədqiq etmiş xarici alimləri ayrıca bir qrupa ayırırlar.

Dissertasiyanın müdafiə olunacağı dissertasiya şurasının, dissertasiyada tədqiq olunan problematika üzrə əsərləri olan üzvlərini tədqiqatçıların siyahısına daxil etmək zəruridir.

Mövzunun elmi işlənmə dərəcəsini **tədqiqatçıların siyahısı** hissəsində təsvir edərkən adətən aşağıdakı ifadələrdən istifadə olunur:

- ... effektivliyinin artırılması problemlərinə *(alimlərin soyadları, adları)* kimi müəlliflərin əsərləri həsr edilmişdir;

- Problemin öyrənilməsinə əhəmiyyətli töhfəni *(alimlərin soyadları, adları)* vermişlər;

- Son illərdə ... probleminə *(alimlərin soyadları, adları)* diqqət ayırmışlar;

- …probleminin həllinə müəyyən təsiri *(alimlərin soyadları, adları)* göstərmişlər.

Mövzunun elmi işlənmə dərəcəsini **əvvəlki tədqiqatların qısa xarakteristikası** hissəsində təsvir edərkən, adətən aşağıdakı ifadələrdən istifadə olunur:

- Onların əsərləri *(elm sahəsi)* fundamental əsaslarını ehtiva edir;

- Onların əsərləri *(elm sahəsi)* öyrənilməsinə əhəmiyyətli dərəcədə töhfə vermişdir;

- Bu işlərdə *(elm sahəsi)* xarakteri əks olunur.

Mövzunun elmi işlənmə dərəcəsini **boşluqların xarakteristikası hissəsində** təsvir edərkən adətən aşağıdakı ifadələrdən istifadə olunur:

- Lakin bu alimlərin əsərlərində *(elm sahəsinin konkret məsələləri)* nəzərdən keçirilmir;

- Bu işlər *(elm sahəsinin konkret məsələləri)* həlli üçün tam şəkildə tətbiq oluna bilməz, çünki ...;

- Bu tədqiqatlarda böyük ölçüdə yalnız *(elm sahəsinin konkret məsələləri)* əhatə edir, *(elm sahəsinin digər konkret məsələləri)* nəzərə alınmır.

**Tədqiqatın məqsədi və vəzifələri** altbölümü (bir səhifəyə qədər) dissertasiyanın əsas probleminin həllində məqsədin formalaşdırılmasını özündə ehtiva edir ki, bu məqsədə nail olduqda nəzəriyyə və təcrübəyə əhəmiyyətli töhfənin verilməsi təmin olunur. Problemin həllinin mahiyyətinin konkret təsviri və nəticədə verilən töhfə dissertasiyanın məqsədinin ifadəsini təşkil edir.

Məqsəd ifadə olunduqdan sonra dissertasiyanın **vəzifələri** müəyyən edilir. Tədqiqatın vəzifələri qoyulmuş məqsədə nail olmaq üçün tədqiqatın əsas mərhələlərini, onun reallaşdırılması planını, hərəkətlərin addım-addım icra alqoritmini və s.

müəyyən edir. Hər bir mərhələyə adətən ayrı bir vəzifə həsr olunur (7-8 vəzifə).

Bunlar ya ümumi problemdən irəli gələn alt problemlərin həlli, ya da problemin ayrı-ayrı aspektlərinin analizi, ümumiləşdirilməsi, aşkar edilməsi, əsaslandırılması, işlənməsi, qiymətləndirilməsi və s. üzrə vəzifələrdir ki, bunların həlli problemin özünün həllinə gətirib çıxarır.

Məqsəd "Nəyi əldə etmək (almaq) istəyirəm?" sualına cavab verir, vəzifə isə "Bunun üçün nə edirəm? Nə vasitəsilə nail oluram?" sualının cavablandırılmasını təmin edir.

**Məqsəd** yalnız bir ola bilər. Vəzifələr isə bir neçə olmalıdır. Buna görə də "Tədqiqatın **əsas** məqsədi ... ibarətdir" yazmaq düzgün deyil.

Dissertasiyanın vəzifələrini formalaşdırmağın yollarından biri dissertasiyanın paraqraflarının adlarına yönəlmək ola bilər. Başqa sözlə, hər bir paraqraf dissertasiyanın məqsədinə nail olmaq üçün iddiaçının işdə həll etdiyi bir vəzifəni ifadə edir.

Bu vəzifələrin həllinin təsviri dissertasiyanın **fəsil və paraqraflarının məzmununu təşkil edəcək**, onların adları qoyulmuş vəzifələrlə ahəngdarlıq təşkil edəcəkdir.

Vəzifələrin formalaşdırılmasında aşağıdakı nitqi ifadələrdən istifadə olunur:

- "*...(nəinsə)* mahiyyətini açmaq", "... formalaşdırmaq və əsaslandırmaq", ".... aşkar etmək", "... nəzərdən keçirmək", "...təhlil etmək", "...tədqiq etmək", "...işləyib hazırlamaq", "....yerini müəyyən etmək".

Beləliklə, əgər paraqrafın adı "Respublikanın tikinti sektorunun müasir mərhələdə inkişaf meyllərinin tədqiqi"dirsə, onda vəzifəni belə formalaşdırmaq olar: "Respublikanın tikinti sektorunun müasir mərhələdə inkişaf meyllərini tədqiq etmək (və ya təhlil etmək)".

Çox vaxt iddiaçılar vəzifələri formalaşdırarkən "...öyrənmək" terminindən istifadə edirlər. Əlbəttə, biz bütün həyatımız boyu öyrənirik. Lakin fəlsəfə doktoru elmi

dərəcəsinə iddia edən dissertasiyaya gəldikdə, bu termini istifadə etmək tövsiyə olunmur. “Öyrənirlər” ifadəsi məktəblərdə və ali təhsil müəssisələrində oxuyanlara aiddir. Dissertasiyada isə “tədqiq etmək...” terminindən istifadə etmək düzgündür.

Aşağıda **tədqiqatın məqsədi və vəzifələrinin nümunələri** verilmişdir.

“Tədqiqatın məqsədi vergi siyasətinin həyata keçirilməsində və ərazilərin məkan inkişafının təmin edilməsində vergi mexanizminin yerinin müəyyən edilməsindən ibarətdir.”

“Tədqiqatın vəzifələri”:

1. Satış həcmlərinin proqnozlaşdırılmasının əsas prinsiplərini və metodlarını tədqiq etmək.

2. Modellər kompleksinə əsaslanan proqnozlaşdırma alqoritminin tətbiq edilməsi imkanlarını araşdırmaq.

3. Satış həcminin orta müddətli proqnozunu işləyib hazırlamaq və əldə edilmiş nəticələri şərh etmək.

4. Satış həcmlərinin proqnozlaşdırılması üçün modellər kompleksinin praktik tətbiqinin nəticələrini, əldə edilmiş proqnozların keyfiyyətinin ənənəvi metodlarla müqayisəsi yolu ilə qiymətləndirmək.

Tədqiqatın **obyekti və predmetinin** təsviri lakonik, yəni yığcam xarakter daşımalı və yarım səhifəlik mətnə sığmalıdır.

Dissertasiyanın yazılması zamanı dissertasiyanın obyekti (tədqiqatın obyekti) və dissertasiyanın predmeti (tədqiqatın predmeti)nin formalaşdırılmasına və dərk olunmasına olduqca ciddi diqqət yetirmək lazımdır.

Dissertasiya tədqiqatı çərçivəsində müəllif konkret tədqiqat obyektini seçməli və tədqiqatın predmetini formalaşdırmalıdır.

Tədqiqatın **obyekti** tədqiq olunan problemin aşkar edildiyi və mövcud olduğu elmi araşdırmalar sahəsini təmsil edir. Bu, problemın yarandığı qanunauyğunluqlar, əlaqələr, münasibətlər, fəaliyyət növləri sistemidir.

Bu, iddiaçı tərəfindən tədqiq olunan elm sahəsinin müəyyən bir hissəsi, indiyə qədər həll olunmamış problemin mövcudluğunun səbəbi olan proseslər və hadisələrdir.

Daha sadə dillə desək, tədqiqatın obyekti – tədqiqatın həyata keçirildiyi fəaliyyət və inkişaf nümunəsi olan təşkilat, müəssisə, sahə və s.-dir.

Məsələn, iqtisadiyyat sahəsi, iqtisadiyyatda qiymətqoyma sistemi, sosiologiyada dövlət və cəmiyyət arasındakı münasibətlər, texnikada enerjinin çevrilməsi prosesləri, pedaqogikada şagirdlərin yaradıcı fəaliyyətinin inkişafı, tibb elmlərində müəyyən irsi xəstəliklərin müalicəsi və s.

Adətən, dissertasiyada obyektin bütövlükdə deyil, yalnız onun bir hissəsi, məsələn, obyektin bəzi elementləri, onların qarşılıqlı əlaqəsi və bir-birinə təsiri və s. tədqiq olunur. Obyektin tədqiq olunan hissəsi "tədqiqatın predmeti" anlayışı ilə müəyyən edilir. Yəni, tədqiqatın predmeti dedikdə, obyektin nəzəri və ya praktiki nöqteyi-nəzərdən əhəmiyyətli olan keyfiyyətləri, xüsusiyyətləri və ya tərəfləri başa düşülür.

"Tədqiqatın predmeti" daha dar və konkretdir. Onun ifadəsi sayəsində dissertasiyada tədqiqatın obyekti olan ümumi sistemdən sistemin bir hissəsi və ya sistemdə baş verən, birbaşa tədqiqat predmeti olan proses ayrıca baxılır.

Məsələn, qiymətqoymanın ümumi sistemində kommersiya banklarının xidmətlərinə olan qiymətqoyma ayrıca göstərilə bilər; dövlət və cəmiyyət arasındakı münasibətlərdə - münasibətlərin xüsusi forması kimi maddi münasibətlərin təbiəti; çevrilmə proseslərində nüvə enerjisinin elektrik enerjisinə çevrilməsi; şagirdlərin yaradıcı fəaliyyətinin inkişafında – şagirdlərin fizika üzrə bilikləri yaradıcı mənimsəməsinin aktivləşdirilməsinə pedaqoji təsir, tibbdə - konkret xəstəliyin müalicə metodları.

Məhz tədqiqat predmeti dissertasiya işinin yönəldiyi sahədir və nəticə etibarilə dissertasiyanın mövzusunda birbaşa şəkildə əks olunur.

Bir daha vurğulayaq ki, **tədqiqat predmetinin tədqiqatın obyektindən** əsas fərqi ondadır ki, tədqiqatın predmeti tədqiqatın obyektinin bir hissəsidir.

Hər bir tədqiqat obyektində bir neçə tədqiqat predmeti ola bilər və tədqiqatçının onlardan birinə yönəlməsi, bu dissertasiyada digər tədqiqat predmetlərinin tədqiqatçının maraqlarından kənarda qalması deməkdir.

İqtisadiyyat üzrə dissertasiyada tədqiqatın məqsədi, vəzifələri, obyekti və predmetinin ifadəsinə nümunə gətirək**.**

Dissertasiyanın mövzusu – "Şəhərin ticarət müəssisəsinin əsas kapitalının idarə edilməsinin təkmilləşdirilməsi ("Bahar" MMC nümunəsində)".

Tədqiqatın məqsədi: əsas kapitalın idarə edilməsinin nəzəri aspektlərini araşdırmaq və konkret müəssisədə onun idarə edilməsinin təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlamaq.

Vəzifələr (bəziləri):

- əsas kapitalın idarə olunmasının nəzəri əsaslarını nəzərdən keçirmək;
- "Bahar" MMC-də əsas kapitalın idarə olunmasının cari vəziyyətini araşdırmaq;
- müəssisənin əsas kapitalının idarə olunmasını təkmilləşdirmək üçün tədbirlər hazırlamaq.

Tədqiqat obyekti: "Bahar" MMC-nin əsas kapitalı.

Tədqiqat predmeti: təşkilatın əsas kapitalının hərəkəti ilə bağlı iqtisadi münasibətlər.

Girişin növbəti vacib hissəsi – **Dissertasiya tədqiqatının metodoloji əsası və tədqiqat metodlarıdır.**

Bəzi hallarda səylə çalışan doktorantlar hər fəslin sonunda aralıq qənaətlər təqdim edirlər. Bu cür nəticələrin mövcudluğu dissertasiya işinin yekun “Nəticə”sinin yazılmasını sadələşdirir.

Nəticə adətən üç səhifədən başlayaraq beş-altı çap səhifəsini ehtiva edən mətn həcmində olur. Lakin əsas məsələ bu deyil, nəticənin ümumiləşdirilmiş formada işin əsas nəticələrini əks etdirməsindədir.

Dissertasiya tədqiqatından irəli gələn nəticə və tövsiyələrə xüsusi diqqət yetirilməlidir və nəticələrin qısaca, habelə dürüst şəkildə ifadə olunmasına maksimum səy göstərilməlidir, çünki:

a) onlar işin səmərəliliyini və əhəmiyyətini əks etdirir;

b) nəticə və tövsiyələr avtoreferata, demək olar ki, dissertasiya ilə eyni formada daxil edilir, buna görə də onlar avtoreferatla tanış olan şəxslərin diqqət mərkəzində olacaqdır;

c) ilkin və yekun müdafiə zamanı bir çox suallar məhz nəticələr və tövsiyələr əsasında verilir;

d) Nəticədə olan materiallar, ifadələr dissertasiyanın müdafiəyə qəbul edilməsi və elmi dərəcənin verilməsi haqqında qərarların hazırlanması prosesində "tikinti materialı" kimi istifadə olunur.

Qənaətlər qısa, dəqiq, inamlı və konkret olmalıdır. Tövsiyələr mümkün qədər predmetli və ünvanlı şəkildə ifadə olunmalıdır.

**Ədəbiyyat siyahısının** tərtib edilmə qaydaları xeyli dərəcədə daha sadədir.

Biblioqrafik siyahı, adətən, ədəbiyyat mənbələrinin müəlliflərinin soyadlarına uyğun olaraq əlifba sırası ilə tərtib

edilir. Əgər mənbənin müəllifi siyahıda göstərilməmişdirsə (müəlliflərin çox olduğu hallarda, müxtəlif müəlliflərin məqalələr toplusu və ya fərdi müəllifliyi olmayan materiallar), mənbələrin adları əlifba sırasına uyğun düzülür.

Biblioqrafik siyahılara, adətən, məlumat kitabçaları, elmi-kütləvi nəşrlər, qəzet məqalələri daxil edilmir (qəzet jurnal tipli olduqda və ya həcmi və əhəmiyyəti baxımından xüsusi hallarda qəzet məqalələri istisna ola bilər).

Prinsip etibarilə, mənbələrlə və ədəbiyyatla iş hələ mövzunun seçilməsi prosesində başlamalıdır. Bu iş dissertasiya planının təsdiqindən sonra xüsusi əhəmiyyət kəsb edir.

İddiaçı, bir qayda olaraq, tələb olunan ədəbiyyatı müstəqil şəkildə seçir. Elmi rəhbərin rolu əsasən mənbələrin və nəşr növlərinin seçilməsində tövsiyələr və məsləhətlər verməkdən ibarətdir.

Mənbələrlə iş zamanı, ilk növbədə, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları, Dövlət Proqramları, respublikanın və ayrı-ayrı sahələrin, regionların inkişafına dair Milli Strategiyalar və digər normativ aktlar qeyd olunur.

Daha sonra tədqiqat mövzusuna dair Azərbaycanda və xaricdə nəşr olunmuş elmi və ixtisaslaşmış ədəbiyyat təqdim olunur. Müəyyən problemə dair bir neçə nəşr mövcud olduqda, son 3-4 il ərzində dərc olunmuş, mövzunun son mövqeyini əks etdirən daha yeni nəşri seçmək məqsədəuyğundur.

Mənbələrin təqdimatının ardıcıllığı və onlara dair sair məsələlər tam şəkildə AAk-ın Təlimatında izah edilir.

Son mərhələ isə tədqiqat mövzusuna dair məlumatların təhlili və müqayisəsi üçün statistik məlumatlarla tanışlıqdır.

Mənbə və ədəbiyyatın genişliyi və tamlığı, zəruri olanları seçmək bacarığı, ən başlıcası isə müxtəlif faktiki və statistik məlumatların, elmin müxtəlif sahələrinin inkişafını xarakterizə edən göstəricilərin müqayisəsi və təhlili iddiaçının

tədqiqatlarının keyfiyyətinin və ədəbiyyatla işləmək bacarıqlarının ən mühüm göstəricisidir.

Dissertasiya işində ədəbiyyat siyahısı ilə bağlı ən ciddi problem siyahıda göstərilən hər bir mənbənin dissertasiya mətnində qeyd olunması zərurəti ilə bağlıdır ki, bu da mənbələrə istinadların mövcudluğu ilə təsdiq edilir. Mənbəyə istinadda, xüsusilə sitat formasında olan mənimsəmədə, səhifə nömrəsi göstərilməlidir.

Dissertasiya işlərində, adətən, biblioqrafik siyahıya əsas mətndə istinad olmayan və dissertant tərəfindən faktiki olaraq istifadə olunmayan mənbələr daxil edilmir.

Reallıqda bu tələb tez-tez pozulur. Dissertant görür ki, işdə mənbələrə birbaşa istinadların sayı azdır və ya xeyli çoxdur, lakin istinadlar eyni mənbələrə edilir, buna görə də mənbələr siyahısının kifayət edəcək sayda təmsil olunmayacağından ehtiyat etməyə başlayır. Bu arada belə bir əminlik yayılmışdır ki, dissertasiya işinin sanballı görünməsi üçün siyahıda ən azı 100 adda mənbə olmalıdır. Nəticədə iddiaçı dissertasiya mövzusuna dair mətnində birbaşa istinad olmayan mənbələri siyahıya əlavə edir.

Çətin ki, bu cür kənarlaşma sitat gətirmə (istinad) qaydalarının pozulması kimi hesab etmək düzgün olardı, çünki dissertant tərəfindən belə hesab olunur ki, o, bu mənbədən istifadə etmiş, onun məzmunu ilə tanış olmuş və mənbənin məzmununun dissertasiya işinin məzmunu ilə əlaqəsini aşkar etmişdir.

Bir qayda olaraq, dissertasiyalarda xarici mənbələrə istinadlar edilir və həmin mənbələr biblioqrafik siyahıya daxil edilir. İnternet mənbələrini də siyahıya daxil etmək qəbul edilmişdir.

Dissertasiya mətnində mənbəyə istinad, mənbənin əlifba sırasına uyğun nömrəsinin dairəvi və ya dördbucaq mötərizədə göstərilməsi yolu ilə mənbənin məzmunu təqdim edildikdən sonra və ya müəllifin soyadı göstərildikdən sonra edilir.

**Dissertasiyanın əlavələri.**

Dissertasiya tədqiqatının hazırlanması prosesində iddiaçının bir sıra materialları toplanır ki, müəllifin fikrincə, bu materiallar elmi ictimaiyyətə təqdim edilməlidir. Lakin bu materiallar böyük həcmə malik olduğuna və dissertasiyanın həcmini normativ göstəricilərdən xeyli çox artırdığına görə dissertasiya mətninə daxil edilə bilmir. Bu cür materialları məzmun yükünə görə qruplaşdırmaq və dissertasiyaya əlavələr formasında daxil etmək məqsədəuyğundur.

Əlavələrə adətən mətn daxil edilmir. Əlavələrdə, bir qayda olaraq, əlavə və məlumat xarakterli materiallar, cədvəllər və qrafiklər şəklində müşahidələrin, eksperimental tədqiqatların nəticələri, aralıq hesablamalar və müəllif tərəfindən tədqiqatlar zamanı əldə olunan və istifadə edilən digər köməkçi materiallar təqdim olunur.

Əlavələr dissertasiyanın müstəqil hissəsidir. Onlar ədəbiyyat siyahısından sonra yer alır. Əlavələr, həmçinin ədəbiyyat siyahısı da olduğu kimi, dissertasiyanın əsas həcminə daxil edilmir.

Əlavələr dissertasiyanın davamı kimi onun sonrakı vərəqlərində tərtib edilir və vərəqlərin nömrələnməsi davam etdirilir. Hər bir əlavəyə yeni səhifədən başlanmalı və səhifənin yuxarı hissəsində «Əlavə» sözü və onun nömrəsi qeyd edilməlidir. Əlavənin başlığı olmalıdır və bu, mətnin ortasında, ayrıca sətirdə yazılır.

Dissertasiya mətnində bütün əlavələrə istinadlar olmalıdır. Əlavələr dissertasiya mətnində onlara olan istinadların sırasına uyğun yerləşdirilir.

### 4.3. Dıssertasiyanın əsas hissəsinin (fəsillərin və altfəsillərin) hazırlanması

#### 4.3.1. Dissertasiya işinin əsas məzmununun strukturlaşdırılması

*Düzgün yolla gedən topal, yolundan*
*çıxmış tez yerişli adamı ötər.*
***F. Bekon***

Dissertasiyanın əsas hissəsi onun bölmələrində, fəsillərində və paraqraflarında əks olunur. Burada işin faktiki məzmunu təqdim edilir, həmçinin nəticələr və tövsiyələr ifadə olunur. Bu, həm həcminə, həm də məzmununa görə işin əsas hissəsidir. Bu hissə ümumi işin 80-90%-ni təşkil edir və yalnız-artıq girişdə bəlli olan işin mahiyyətini deyil, həm də onun detallı məzmununu və daxili məntiqi quruluşunu əks etdirir.

Daha əvvəl də qeyd olunduğu kimi, dissertasiyanın əsas hissəsi normativ əsasda deyil, yaradıcı əsasda qurulur. Onun formalaşmasına sərt şəkildə müəyyən edilmiş qaydalar, universal göstərişlər və normalar ən az tətbiq olunur.

Dissertasiyanın əsas hissəsinin yazılmasına aid olan ən tipik qanunauyğunluqları və xüsusiyyətləri ifadə etməyə çalışaq. Lakin bu zaman ayrı-ayrı elmi sahələr və ixtisaslar üzrə işlərin hazırlanmasının spesifikası ilə şərtləndirilən detallara varmayaq.

Dissertasiyanın bölmələrinin yazılmasına başlayarkən işin ümumi strukturunu fəsillər və paraqraflar üzrə quruluşda görmək lazımdır. Bu baxış artıq mövcud olmalıdır, çünki dissertasiya mövzusu hazırlanarkən və təsdiq olunarkən onun strukturu da nəzərə çarpır.

Fərdi iş planını tərtib edərkən doktorant dissertasiyanın məzmununu, onun bölmələrinin yerləşdirilməsini və aralarındakı əlaqəni ümumi şəkildə təsəvvür etmək

məcburiyyətindədir. Buna görə də, doktorant dissertasiyanın ayrı-ayrı fəsillərinin yazılmasına başladıqda, işin ümumi təsviri artıq onun şüurunda və təsəvvüründə aydın şəkildə formalaşmalıdır.

Əgər bu mərhələyə qədər işin ümumi baxışı bir qədər yayğın və qeyri-müəyyən olubsa, indi işə başlamağın vaxtıdır və dissertasiyanın fəsillər və paraqraflar üzrə strukturunu dəqiqlik və aydınlıqla formalaşdırmaq lazımdır.

Buradan qətiyyən belə nəticə çıxmır ki, işi məhz bu ardıcıllıqla yazacaqsınız. Yuxarıda qeyd edildiyi və sonrakı izahatlarda qeyd olunacağı kimi, dissertasiyanın elementləri bəzən işin gələcək məzmun cədvəlindəki yerləşdirilməsindən fərqli ardıcıllıqla hazırlanır. Lakin dissertasiya işinin "binasının bloklarını" inşa etməyə başlamağın vaxtı gəlib çatdığı üçün belə bir binanın görünüşünü və quruluşunu təsəvvür etməlisiniz. Əks halda bu blokları vahid bütöv konstruksiyaya birləşdirmək çətin olacaqdır.

Xüsusilə xoşagəlməz olacaq ki, işin hissələri lazım olan həcmdə hazırlanmış, lakin onları birləşdirib dissertasiya yaratmaq mümkün olmamışdır, çünki ümumi konsepsiya ilə əlaqəsi olmayan müxtəlif elementlərdən ibarət bir dəst mövcuddur.

Təəssüflər olsun ki, bu cür sistemsiz, məzmun cəhətdən struktursuz dissertasiya işlərinə rast gəlmək olur. Hətta bu cür işlərdə ayrı-ayrı “parçaların” məzmunu yenilik və elmi dəyərə malik olsa belə, ümumilikdə bu cür dissertasiya tədqiqatları bütöv bir iş kimi qəbul edilə bilməz.

Bu isə o deməkdir ki, artıq yekun mərhələdə dissertasiyanın əsas hissəsinin detallı quruluşuna keçmək vaxtıdır. Fəsilləri, paraqrafları, onların məzmununu və işin məntiqinə uyğun olaraq yerləşməsini, ayrı-ayrı hissələr arasındakı əlaqələri müəyyən etmək lazımdır. Mövzunun seçilməsindən sonra dissertasiyanın qurulmasında əsas çətinlik məhz bu cür “arxitekturanın” (quruluşun) yaradılmasından ibarətdir.

Dissertasiya işlərinin müxtəlif quruluş tipləri mövcuddur. Binaların və tikililərin arxitekturası kimi, üslubların sayı sonsuzdur və hər dissertant öz arxitektura üslubuna əməl etmək hüququna malikdir. Orijinal bir dissertasiya üslubu icad etmək, tarixi təcrübə ilə işlənib hazırlanmış yanaşmaların kombinasiyasını istifadə etməkdən daha çətindir.

Əlbəttə, dissertasiyaların qurulmasında müəyyən yanaşmalar formalaşmışdır və bunlara əməl etmək olar və müəyyən dərəcədə edilməlidir də.

Dissertasiya işinin əsas məzmununun strukturlaşdırılmasına dair ən geniş yayılmış yanaşmaları ümumi şəkildə nəzərdən keçirək ki, iddiaçıya elmi işin qurulmasında üslub seçmək imkanı verək.

Dissertasiyanın müxtəlif kompozisiya sxemlərini ayırmaq üçün əsas meyyar qismində dissertasiya fəsillərinin seçilməsi və yerləşdirilməsinə dair yanaşmanı xarakterizə edən təsnifatlaşdırma əlaməti seçilib.

**A. Sistemli-problematik strukturlaşdırma** dissertasiyanın bütün strukturunun birbaşa və tam olaraq işdə həll olunan elmi problem üzərində "qurulmasını" nəzərdə tutur, yəni problem yalnız başlanğıc mövqe deyil, həm də bütün işi əhatə edir. Dissertasiya aşağıdakı sxemə malik olur: "problemin mahiyyəti və onun formalaşdırılması - problemin həlli üçün təklif olunan yollar - problemin həllinin nəticələrinin təsdiqi və praktiki əhəmiyyəti".

Belə kompozisiyanın sistemliliyi problemin tərkib hissələrə bölünməsi, ayrı-ayrı altproblemlərin həll edilməsi və altproblemlərin həllindən problemin ümumi həllinə gəlməklə ifadə olunur.

Dissertasiyanın əsas məzmununun sistemli-problemli prinsipə əsaslanan təxmini maketini tərtib edək:

Fəsil I. Problemin vəziyyətinin tənqidi təhlili.

1.1. Problemin ilkin vəziyyətini nəzərə alaraq onun geniş şəkildə qoyuluşu.

1.2. Digər müəlliflərin problemə və onun həlli yollarına baxışları. Əvvəlki işlərin təhlili.

1.3. Dissertasiyada aparılan tədqiqatların proqramının və qəbul edilmiş tədqiqat metodunun əsaslandırılması.

1.4. Problemin həlli üçün ümumi ideya – nəzəri və metodik əsaslandırma.

Fəsil II. Problemin təklif olunan həlli yolları.

2.1. Problemin altproblemlərə bölünməsi.

2.2. Altproblemlərin həllinin üsul və yolları.

2.3. Altproblemlərin həll nəticələrinin birləşdirilməsi və bunun əsasında problemin ümumi həllinin təklifi.

Fəsil III. Tədqiqat nəticələrinin yoxlanılması və təsdiqi.

3.1. Problemin təklif olunan həlli yolunun iddiaçının öz hesablamalarına, təcrübələrinə, eksperimentlərə və məlumatlara əsaslanaraq yoxlanılması.

3.2. Dissertasiyada əldə olunmuş, özünün doğruluğunu, tərəqqisini və perspektivliyini təsdiq edən nəticələrin digər mövcud məlumatlarla müqayisəsi.

3.3. Problemin həlli nəticələrinin praktik tətbiqi.

3.4. Dissertasiya tədqiqatının nəticələrinin nəzəriyyə və praktika üçün açdığı perspektivlər.

Təbii ki, problemin xarakterindən, elmin sahəsindən, ixtisasdan asılı olaraq, fəsillərin və paraqrafların məzmunu dəyişə bilir, fərqlənir, lakin dissertasiyanın qurulmasının ümumi prinsipləri bütövlükdə qorunub saxlanılır.

**B. Dissertasiya işinin qurulmasına dair nəzəri-tətbiqi yanaşma** aşağıdakı prinsiplər əsasında onun ayrı-ayrı hissələrə bölünməsindən ibarətdir: “tədqiq olunan mövzunun nəzəri əsasları – araşdırılan problemin tətbiqi aspektləri – praktik tövsiyələr”.

Bu qəbildən olan işlər nəzəriyyədən praktik təcrübəyə gedən yol salır. Bu zaman dissertantın töhfəsi tədqiq olunan obyektlər, proseslər və hadisələr haqqında mövcud nəzəri anlayışların inkişafı və dəyişdirilməsindən ibarət ola bilər,

lakin bu daha çox nəzəri müddəaların yaradıcı tətbiqi əsasında tətbiqi fəaliyyətin keyfiyyətini və səmərəliliyini artıraraq nəzəriyyə ilə praktika arasında körpü qurmaqdan ibarətdir.

**C. Dissertasiyanın proqram strukturu** tətbiqi problemin həllinə yönəlmiş, layihənin, proqramın elmi əsaslandırılmasını ehtiva edən işlərdə istifadə olunur. Bu cür işlər aydın şəkildə praktik yönümlüdür. Onlarda həll olunan elmi problemlər bütövlükdə müxtəlif fəaliyyət sahələrində qəbul edilən və ya qəbul edilməli olan qərarların elmi əsasını qoymaq məqsədinə tabe edilir. Bu yanaşma belə işləri obyektlərin, proseslərin, hadisələrin, fəaliyyət sahələrinin, insanların, cəmiyyətin idarə olunması ilə yaxınlaşdırır.

İş "layihənin məqsədlərinin elmi əsaslandırılması – onun həyata keçirilməsi yollarının və üsullarının axtarışı – resurslardan səmərəli istifadə təminatı – yüksək səmərəliliyin əldə edilməsi" prinsipi əsasında qurulur ki, bu da "məqsədlər – yollar – vasitələr" kimi məşhur proqram düsturuna uyğun gəlir və hədəf kompleks proqramlarının əsasını təşkil edir.

Bu yanaşma daha çox iqtisadi və idarəetmə problemlərinə xas olsa da, müxtəlif elmi sahələrdə və xüsusilə elmlərin kəsişməsində hazırlanan dissertasiyalara tətbiq oluna bilər.

**D. Dissertasiyanın nəzəri-metodik quruluşu** nəzəri-tətbiqi yanaşma ilə müəyyən bir oxşarlığa malikdir, lakin ondan quruluş formulu ilə fərqlənir ki, bu da ən ümumi formasında "nəzəriyyə – metodologiya – metodika – texnologiya" kimi görünüşə malikdir.

Belə işlərin əsasında ən ümumi nəzəri konsepsiyalardan tətbiqi məsələlərin həlli üçün konkret metodika və texnologiyalara qədər tədricən "enmə" yer alır ki, bu da dissertasiya işinin təməlində durur və onun həll etdiyi problemi ehtiva edir. Bu, geniş mənada, əsasən metodoloji yönümlü tədqiqatdır, çünki nəticədə o, müxtəlif fəaliyyət növlərinin, o cümlədən maddi və mənəvi istehsalın, idarəetmənin, təhsilin, tərbiyənin, müalicənin, eksperimentin, layihələndirmənin,

tədqiqatın, məlumatların emalının, hərbi əməliyyatların, ətraf mühitin mühafizəsinin, memarlığın, incəsənətin və hətta idmanın metod və texnologiyalarının yaradılması və mənimsənilməsinə istiqamətlənir. Beləliklə, bu cür dissertasiya quruluşu praktiki olaraq elmin istənilən sahəsində metodik tədqiqatlara tətbiq oluna bilər.

Tədqiq olunan problemin ümumilik dərəcəsindən asılı olaraq, belə struktura malik dissertasiya işləri ya onların həlli bütöv metodika və texnologiya toplusunun yaradılmasına imkan verən qlobal nəzəri-metodoloji problemlərə, ya da daha dar miqyasda metodik və texnoloji problemlərə meyllənir. Birinci qrupa aid işləri, əksər hallarda, işlənib hazırlanmış nəzəri-metodoloji əsasların və prinsiplərin geniş tətbiq oluna biləcəyini və əhəmiyyətini sadəcə konkret metodika və texnologiyalar vasitəsilə göstərən dissertasiyalar təmsil edir.

İkinci qrup isə, adətən, fəlsəfə doktoru elmi dərəcəsinə iddia edən dissertasiya işlərindən ibarətdir ki, burada işin nəzəri-metodoloji hissəsi müəllifin tədqiqatın bu sahəsinə aid baza nəzəri və metodoloji müddəaları bildiyini təsdiq edir. Halbuki metodik və ya texnoloji hissə, bəzən isə hər ikisi birlikdə işin konkret elmi töhfəsinin mahiyyətini, elmi problemin həllini əks etdirir.

**E.** Nəhayət, dissertasiyanın əsas hissəsinin qurulmasının açar sistemyaradıcı əlaməti qismində **zaman, tarixi dövriləşmə** ola bilər. Bu yanaşma, hadisələrin və ya elmi baxışların inkişaf mərhələləri ilə əlaqəli işlər üçün səciyyəvi xarakter daşıyır.

Belə işlər ya tarixi xarakter daşıyan işlərdir, ya da elmin müxtəlif sahələrində aparılan və elmi problemin həllinin qaçılmaz olaraq tarixi genezislə əlaqəli olduğu işlərdir.

Dissertasiya işlərinin struktur quruluşu tiplərinin təqdim olunmuş təsviri onların mümkün müxtəlifliyini tükətmir, lakin bu, dissertasiyanın mövzusuna uyğun olaraq öz işinizin strukturunu dərk edilmiş şəkildə qurmaq üçün kifayətdir. Belə

düşüncəli şəkildə qurulan struktur, həm işin tipini (fundamental tədqiqat, metodoloji iş, metodik işləmə, axtarış tədqiqatı, tətbiqi tədqiqat, eksperimental iş), həm də bölmələr arasındakı daxili əlaqələri əks etdirərək, siz artıq gələcək dissertasiyanın tam bir obrazını yaratmış olursunuz və onun predmeti barədə aydın təsəvvür əldə edirsiniz.

### 4.3.2. İlkin məlumatların toplanması və emalı

***Elmi beləkdən qəbrədək öyrənmək lazımdır.***
***Sədi Şirazi***

İlkin məlumatların (faktiki materialların) toplanması dissertasiyanın hazırlanmasının vacib mərhələsidir. İşin keyfiyyəti və qənaətlərin obyektivliyi, çox hallarda, tədqiqatın mövzusu və obyektin fəaliyyəti üzrə faktiki materialın nə dərəcədə düzgün və tam seçilib təhlil olunmasından asılı olacaqdır.

Yalnız çoxsaylı (bəzən ziddiyyətli) faktların tədqiqi, onların müqayisəsi və təhlili tədqiq olunan hadisə və ya obyektin inkişaf qanunauyğunluqlarını, əsas meyllərini, onların məntiqi qarşılıqlı əlaqələrini, həmçinin inkişaf dinamikasının iqtisadi və hüquqi əhəmiyyətini aşkara çıxarmağa imkan verir. Gətirilən faktlar və rəqəmsal materiallar etibarlı olmalıdır.

İddiaçı işdə tədqiq olunan proseslərin və hadisələrin əsas meyllərini aşkar etməli və təqdim etməli, onları ən tipik nümunələr və praktiki hesablamalarla dəstəkləməli, həmçinin tətbiq olunan tədqiqat metodlarını əsaslandırmalı və iqtisadi, maliyyə, idarəetmə və statistik təhlilin ən effektiv metodlarını seçməlidir.

İlkin məlumatların sistemləşdirilməsi, təhlili və emalı dissertasiyada cədvəllər, diaqramlar, qrafiklər və sxemlərin geniş şəkildə istifadəsini nəzərdə tutur. Bu vasitələr işdə təqdim olunan materialın daha aydın görünməsinə kömək

etməklə yanaşı, tədqiq edilən hadisə və proseslərin mahiyyətini daha inandırıcı şəkildə açıb göstərir.

İlkin məlumatların toplanması və təhlili dissertasiyanın hazırlanmasında daha çox əməktutumlu mərhələdir. Buna görə də bu mərhələ iddiaçının və elmi rəhbərin xüsusi diqqət mərkəzində olmalıdır.

Bu bölmənin sonunda yenidən dissertasiya strukturunun formalaşdırılması məsələsinə qayıdaq.

Yuxarıda mövzunun düzgün seçiminin dissertasiya işinin uğurla yerinə yetirilməsinin yarısını təşkil etdiyi fikri irəli sürülmüşdür. Daha çox əsas var ki, dissertasiya strukturunun diqqətlə və dərindən düşünülmüş şəkildə formalaşdırılması artıq uğurun dörddə üçünü təmin edir.

Bu cür kompozisiya sxemini qurarkən, siz istər-istəməz dissertasiyanın hər bir böyük hissəsi, onun yeri və məzmun yükü haqqında təsəvvür əldə edirsiniz. Beləliklə, iki səhifəlik məzmunda artıq işin ümumi obrazı kifayət qədər aydın görünür, eyni zamanda işin mövzusunun iki cümləsi işin ideyasını təcəssüm etdirir.

Qalır yalnız hər birinin məzmun yükü artıq məlum olan planlaşdırılmış paraqrafı detallı şəkildə yazmaq, bunu kağıza köçürmək, və bunlardan onlarla səhifəlik mətn, cədvəllər, şəkillər və qrafiklər yaratmaq.

Bu, uzun və diqqət tələb edən bir işdir, lakin onun əhəmiyyətli hissəsi rutin xarakter daşıyır. Artıq formalaşmış fikirləri əks etdirən söz və ifadələrin seçilməsi, işlənmiş ideyaları təsdiqləyən və dəstəkləyən məlumatların axtarılması, yetişməkdə olan qənaətlər üçün inandırıcı arqumentlərin və əsaslandırmaların hazırlanması baş verir.

Sadəcə diqqətli, inadkar və qətiyyətli iş və fikirlərinizi sistemli şəkildə ifadə etmə bacarığı lazımdır.

Adətən elmi işlər yazmaq təcrübəsi olmayan müəllifin yazmalı olduğu səhifələrin qarşısında aşılmaz bir qorxusu

yaranır. Bir paraqrafın onlarla səhifəlik məzmunu müəllifə adətən bir uçurum kimi görünür.

Hətta elmi məqalə yazmağa başlayan təcrübəli bir müəllif də, işin məzmunu haqqında artıq dəqiq təsəvvürə malik olsa da, əvvəlcə düşünür: “Axı burada nə yazmaq olar? Bu ideyanı bir neçə sözlə ifadə etmək olar.” Ancaq yazmağa başladıqca, mövzunun mahiyyətinə və detallarına daha dərindən nüfuz etdikcə, öz-özünlə mübahisə etdikcə görürsən ki, 10 səhifə azdır, hətta bəzən 15-20 səhifə belə yetmir.

Məsələn, hazırkı 4.3-cü bölmədə, “Dissertasiyanın əsas hissəsinin hazırlanması” adlandırılan bu bölmədə cəmi beş fərqli dissertasiya strukturlaşdırma növü başlıq və paraqraflar üzrə təqdim edilmişdir. Elə gəlirdi ki, iki-üç səhifəlik material olacaq, amma yazdıqca anlanılır ki, mətn 10 səhifəlik maşın yazısı həcmindən çoxdur və deməyi istənilən, deyilməli olan hər şey tam ifadə edilməyib.

İlkin iri həcmli strukturlaşdırmadan sonra genişləndirilmiş, daha dərin strukturlaşdırma metodunun tətbiqi çox faydalıdır. Növbəti paraqrafı yazarkən, onun başlığına, mahiyyətinə, dissertasiya işindəki yerinə, digər bölmələrlə əlaqəsinə, dissertasiyanın mövzusu və həll edilən problemə uyğunluğuna əsaslanaraq, əvvəlcə bu paraqrafda nə barədə yazmalı olduğunuzu qeyd edin, yəni onun şərti strukturunu, müzakirə edilən məsələlərin dairəsi kimi formalaşdırın.

Bu məsələlər arasında aşağıdakılar ola bilər:

1) bu paraqrafın mövzusu ilə bağlı digər tədqiqatlardan, eləcə də işinizin əvvəlki hissəsindən nə məlumdur, dissertasiyanın əsas ideyasından nə irəli gəlir?

2) işin ümumi konsepsiyasından irəli gələn sizin mövzuyla bağlı öz mövqeyiniz nədir?

3) təklif olunan mövqeyin, seçilmiş variantın və müdafiə olunan müddəaların lehinə olan dəlillər hansılardır?

4) sizin mövqeyinizi və təklif olunan yanaşmaları hansı faktlar və mövcud elmi müddəalarla əsaslandırmaq olar?

5) siz tərəfdən irəli sürülmüş müddəalara hansı etirazlar və şübhələr yarana bilər, bunlar necə və nəyin əsasında təkzib edilir?

6) bu bölmənin məzmunu dissertasiyada nəzərdən keçirilən ümumi elmi problemin həllinə necə töhfə verir?

7) mövzunun nəticələrinə və işin qənaətlərinə əhəmiyyətli dərəcədə təsir göstərən, bu paraqrafın predmetinin hansı detallarını daha geniş işıqlandırmaq lazımdır?

8) bu paraqrafda təqdim olunan müddəalar işin sonrakı bölmələrinə necə təsir göstərir və tədqiqat xəttinin davamını necə müəyyən edir?

9) paraqrafin adı və mövzuya uyğunluğu baxımından məzmunun tamlığını təmin etmək üçün bu paraqrafda, mütləq şəkildə, daha nə olmalıdır?

10) bu paraqrafda təqdim edilən materiallardan hansı nəticə hasil olunur? Hər sual üzrə geniş cavab yazmaq bir səhifə belə olsa, paraqraf üçün tələb olunan informativ səhifəlik həcmi toplamağa kifayət edər. Bundan əlavə, hər bir paraqraf öz mövzusunun spesifik xüsusiyyətlərindən irəli gələn və suallara verilən cavablardan kənara çıxan əlavə məzmunla da zəngindir, hansından, əlbəttə ki, yan keçmək olmaz.

Nəticədə, işə konkret yanaşdıqda, "Nə yazmalı?" problemi özünün ilkin qorxulu xarakterini itirir.

Çox vaxt dissertasiyanın əsas hissəsinin yazılmasının sonunda dissertant o qədər yazmağa alışır, sözlərin, ifadələrin və mətnin "şişirdilməsi" sənətinə elə yiyələnir ki, dissertasiya həddən artıq həcmi aşır və artıq yazılmış materialdan qurtulmaq, onu sıxıb çıxarmaq lazım gəlir.

Yuxarıda qeyd olunduğu kimi, belə bir əməliyyat dissertasiya işinin yazılmasından bəzən daha çətin olur. Buna görə də dissertasiyada elmi fikirlərin cəmləşmə dərəcəsinə ciddi nəzarət etmək, eyni zamanda aydınlığa, anlaşıqlılığa, təqdimat tərzinə diqqət yetirmək lazımdır.

## 4.4. DISSERTASİYA YAZILMASININ TEXNOLOGİYASI VƏ TƏŞKİLİ

### 4.4.1. Dissertasiya bölmələrinin yazılması ardıcıllığına yanaşmalar

***Elmdə insanda heyranlıq yaradan bir şey var.***
***Az miqdarda faktlara malik olaraq, onun köməyi ilə***
***inanılmaz sayda fakt və fərziyyə irəli sürmək***
***və sonra dünyanı gözlənilməz açıqlama***
***ilə təəccübləndirmək olar.***
***Mark Tven.***

Texnologiya, məlum olduğu kimi, istənilən işin yerinə yetirilməsi prosedurlarının ardıcıllığı və məzmunu, işin təşkili isə icraçıların fəaliyyətinin nizama salınması, iş əməliyyatlarının zaman üzrə paylanması və onların bir-biri ilə uzlaşdırılması deməkdir.

Yaxşı dissertasiya işinin hazırlanması sənəti təkcə onun məzmununun doldurulmasında deyil. Eyni zamanda, iddiaçı dissertasiyanın hazırlanma texnologiyasına yiyələnməlidir və bu da uğurun vacib şərtlərindən biri kimi görünür.

Başqa sözlə desək, keyfiyyətli dissertasiya hazırlamaq üçün nəyi və necə etmək lazım olduğunu bilmək lazımdır.

Bundan əvvəlki hissədə dissertasiyanın hazırlanmasına xas olan texnoloji xüsusiyyət qeyd olunmuşdu. Texnoloji proses mütləq ardıcıl olmamalıdır. Bacarıqlı iddiaçı əvvəlcə giriş, sonra birinci fəsil, daha sonra ikinci fəsil və s. ardıcıllıqla yazmağa başlamaz.

Dissertasiyanın fəsilləri və paraqraflarının ardıcıl şəkildə yazılması əsasında qurulmuş texnoloji üsul əlverişli deyil, çünki işin müəyyən nöqtəsində maneə yaranarsa, bu maneə aradan qaldırılana qədər iş tamamilə dayandırılır. Nəticədə isə xeyli vaxt itkisi baş verir.

Ardıcıl texnologiya yalnız o halda tətbiq olunur ki, dissertant çətinliklə qarşılaşdıqda yaxud da materialın daha dərin və variantlı işlənməsinin zəruriliyini müəyyən etdikdə, həmin material üzərində işi dayandırıb növbəti materialın hazırlanmasına keçid edir. Bu prosesdə yaranan problemlər, "ağ ləkələr" sonradan, ilham gəldikdə və ya çatışmayan məlumatlar toplandıqda doldurulur.

Daha rasional yanaşma isə hissəli-bütöv, yəni, modul yanaşmasıdır.

Bu, o deməkdir ki, ayrı-ayrı hissələri, blokları (modulları) elə yaratmaq lazımdır ki, onları birləşdirərək bütöv bir mətn əldə etmək mümkün olsun, hissələri bir-birinə uyğunlaşdıraraq yerinə qoymaq lazımdır. Bloklar mövzuya, dissertasiyanın məzmununun maketinə, fəsillərin və paraqrafların həcmi haqqında təsəvvürə uyğun olaraq seçilir. Başqa sözlə desək, seçmə üsul həyata keçirilir.

İlk öncə diqqəti əhəmiyyətli vaxt tələb edən, informasiya və digər maneələri aradan qaldırmaqla bağlı olan hissələrə, elementlərə yönəldin.

Materialları, işin bir hissəsini əldə etdikdən sonra onu dissertasiyanın tikinti materialları və yarımfabrikatları anbarını təmsil edən bir qovluğa yığın. Vaxt olduqca, hissələrin ümumi iş sxeminə uyğun olaraq məzmun və həcm baxımından uyğunluğunu yoxlayın və tədricən bir-birinə birləşdirin. Bu prosesi mozaika toplamaq kimi davam etdirmək lazımdır ki, demək olar, bütün şəkil tamamlanana qədər iş davam etsin. Giriş və nəticə isə sonra yazılır, yəni dissertasiya şəklinin çərçivəyə salınması kimi hazırlanır.

### 4.4.2. Mənbələr və informasiya materialları ilə iş

***Təhsil çoxlu sayda oxumağı bacaran insanlar yetişdirdi, lakin onların çoxu nəyin oxunmağa layiq olduğunu müəyyən edə bilmir.***
***C. Grevlin, ingilis yazıçısı.***

Dissertasiyanın hazırlanmasının informasiya mənbələri ilə işləməklə bağlı olan hissəsi özünü qabarıq surətdə nəzərə çarpdıran xüsusi texnoloji özəlliklərə, xüsusiyyətlərə malikdir. Bu hissə bir neçə səbəbə görə qabaqlayıcı səciyyəyə malik olmalıdır.

Əvvəla, işə başlamazdan öncə başqalarının nə yazdığını və nə etdiyini anlamaq lazımdır. Yalnız bundan sonra dissertasiya mövzusu üzrə nəyin hələ edilmədiyi və dissertantın özü tərəfindən yaradılmalı olduğu aydınlaşmağa başlayır.

İkincisi, ilkin mənbələr və informasiya materialları üzərində işləyərkən, digər müəlliflərin əsərlərindən yaradıcı şəkildə nəyi götürmək və öz işinizə müqayisə, qarşı qoyma, inkişaf və ya dəyişmə bazası qismində daxil etməyin mümkün və zəruri olduğu müəyyən olunur.

Üçüncüsü, dissertasiya mövzusu üzrə digər müəlliflərin işlərinin təhlili mütləq sizin dissertasiya işinizin tərkib hissəsi kimi yer almalıdır.

Dördüncüsü, informasiya mənbələrində dissertasiyanı təsvir etmək, hesablama və qiymətləndirmə aparmaq üçün lazım olan rəqəmsal məlumatlar, faktlar tapılır.

Və, nəhayət, dissertasiya mövzusu üzrə biblioqrafik siyahının doldurulması bu əsərlərlə heç olmasa səthi tanışlığı tələb edir.

Dissertasiya hazırlanmasının ilkin mərhələlərində mövzu ilə bağlı elmi ədəbiyyat üzərində işləməyi tövsiyə edərək, eyni

zamanda sizi xəbərdar etməliyik ki, dissertasiyanı müdafiə etdiyiniz zaman ədəbiyyat icmalı artıq köhnəlmiş ola bilər.

Elmin aktual sahələrində problemlə bağlı yeni məqalələr və kitablar kifayət qədər tez-tez, bəzən bir neçə aylıq fasilələrlə ortaya çıxır. Hər halda, dissertasiyanın yazılması iki-üç il və ya daha çox vaxt aparırsa, erkən icmalınıza daxil olmayan yeni mənbələrin yaranacağını gözləmək lazımdır. Buna görə də dissertasiya mövzusuna dair tədqiqatların səviyyəsi barədə ümumi təsəvvür əldə etdikdən və mənbələrin ilkin icmalını tərtib etdikdən sonra bu işi bununla da tamamlamaq olmaz. Daha sonra mütəmadi olaraq dərc olunan nəşrləri izləmək, digər müəlliflərin tədqiqatlarının vəziyyəti haqqında məlumatlılığı qorumaq və dissertasiya işinin müvafiq materiallarını yeniləmək lazımdır.

Bununla belə, həmin bu çətinliyə baxmayaraq, başlamaq üçün dissertasiyanın mövzusuna yaxın olan və artıq dərc edilmiş işlərin, elmi məruzələrin, digər müəlliflərin dissertasiyalarının, eləcə də ədəbiyyat mənbələrinin öyrənilməsi lazımdır.

Bu prosesin intensivliyi və əmək tutumluluğu yalnız ilkin mərhələdə yüksək olur, çünki həmin mərhələdə iri həcmdə məlumatların diqqətlə axtarışı və emalı tələb olunur. Bunun üçün kitabxanalarda, oxu zallarında, evdə, iş yerində çox vaxt keçirmək lazım gələcək. Daha sonra bu işin gərginliyi azalacaq və müşahidə ilə əvəzlənəcək, hətta, bəzən, maraqla növbəti nəşr ilə tanış olarkən, o, artıq sizə yad, anlaşılmaz və çətin qəbul edilən olmayacaq.

İnformasiya mənbələrinin sistemli seçiminə və öyrənilməsinə başlayarkən siz məlumat “dənizinə” baş vurursunuz. Hər bir ayrıca götürülmüş iş – qum təpəsindəki bircə qum dənəciyi kimidir. Hətta ən məşhur və əhəmiyyətli əsərlər də elmi zənginliyi tam əhatə edə bilmir.

Bəs, işlərin çoxluğu ilə dissertasiyanın mövzusuna uyğun, əlçatan və görünən məhdud bir əsərlər çevrəsini seçmək

zərurəti arasında dar keçidi necə tapmaq olar? Bu problemin həlli axtarış sahəsinin genişləndirilməsi və daraldılması, hər yeni məlumat toplusunun növbəti dəstəsinin ələnməsi və lazım olan hissələrin seçilməsi ilə həyata keçirilən texnologiya əsasında əldə edilir. Beləliklə, hər bir elmi tədqiqatda təbii olaraq mövcud olan analiz və sintez birləşir.

Axtarış sahəsi əvvəlcə kitabxana kataloqları, biblioqrafik nəşrlər, referativ toplular, ekspres-məlumatlar, informasiya vərəqləri və icmalları vasitəsilə formalaşdırılır və daha sonra genişləndirilir. Lakin bu olduqca mürəkkəb və əmək tutumlu bir yoldur. Daha sadə üsul kitaba, jurnala, məqaləyə və ya daha əvvəl yazılmış dissertasiyaya müraciət etməkdir. Burada istifadə edilmiş ədəbiyyata istinadlar və ya hətta biblioqrafik siyahılar mövcuddur.

Bundan sonra isə axtarışın zəncirvari genişlənməsi baş verir ki, burada hər yeni mənbə sizin dissertasiya mövzusu üzrə nəşrlər haqqında təsəvvürlərinizi genişləndirir.

Bir qədər fərqli, daha sadələşdirilmiş yanaşma isə axtarış sahəsini əvvəlcədən daraldır və elmi məlumatların bütün kütləsinə deyil, yalnız maraqlandığınız elmi sahəyə aid məlumatlar dərc edən ixtisaslaşmış jurnallara, qəzetlərə və digər dövri nəşrlərə müraciət etməkdən ibarətdir. Son 3-5 il ərzində çıxan ixtisaslaşmış jurnalları və son bir il ərzində dərc olunan qəzetləri vərəqləmək kifayətdir ki, dissertasiya işinin problematikası üzrə bilik, informasiya və məlumat mənbələri ilə zəngin olan bilgilər sahəsi haqqında yaxşı təsəvvür əldə edəsiniz.

Əgər dissertasiyanın mövzusu statistik məlumatların təhlili ilə əlaqədardırsa, beynəlxalq, ölkə və ya regional səviyyəli statistik topluları ilə, həmçinin sosioloji tədqiqatlarla tanışlıq qaçılmazdır. Siz, ola bilsin ki, öz məlumatlarınızı da əlavə edəcəksiniz.

Üzərində seçim etdiyiniz ixtisasa aid olan və illərlə köhnəlmək bilməyən fundamental əsərlər, monoqrafiyalar,

dərsliklərə gəldikdə isə, dissertasiyanı yazmağa başlamazdan öncə nəinki onların mövcudluğu barədə bilməli, hətta onlarla mümkün qədər yaxından tanış olmalısınız. Axı əks halda qəbul imtahanlarını və namizədlik imtahanlarını necə verə bilərdiniz?

Şübhəsiz ki, ən əhəmiyyətli mənbələrin axtarışında sizə elmi rəhbərlər, məsləhətçilər və oxşar, yaxın mövzularda dissertasiya yazan həmkarlar kömək edəcəklər.

Mütəmadi olaraq kitab mağazalarına, köşklərə, kitab sərgilərinə baş çəkmək də lazımdır.

İnformasiya mənbələrinin müəyyənləşdirilməsinin və onlarla tanış olmağın başqa yolları da mövcuddur. Son vaxtlar Azərbaycanda xarici elmi ədəbiyyat kifayət qədər geniş miqyasda tərcümə olunub və nəşr edilir. İnternetdən mütləq istifadə etmək, eləcə də lazımi kitabları və məqalələri almaq lazımdır.

İndi isə məlumatın "ələkdən keçirilməsi", onu yalnız dissertasiya yazma prosesində istifadə üçün lazım olan məlumat kimi ayırıb saxlamaq barədə bir neçə kəlmə deməyin vaxtıdır. Bu cür məlumat seçimi və onun ümumiləşdirilməsi iki-üç mərhələdə həyata keçirilir və bu prosesdə lazım olan biliklərin sintezi baş verir.

İlk seçim proseduru maraqlandığınız elmi sahədə nəşr olunmuş işlərdən dissertasiya mövzusu və həll olunan problem ilə birbaşa əlaqəli olan işlərin seçilməsindən ibarətdir, çünki həmin işlər dissertasiyanın mövzusuna, habelə dissertasiya işində həll olunan problemə bilavasitə aiddir. Qalanları isə adlarının, annotasiyalarının və ya referatlarının oxunmasından sonra diqqət mərkəzindən kənarlaşdırılmalıdır.

İkinci prosedur isə seçilmiş işlərdən dissertasiya işində bu və ya digər şəkildə istifadə olunacaq ayrı-ayrı materialların seçilməsidir.

Belə materialları seçmək üçün işin və bölmələrinin məzmununa və başlıqlarına qısa nəzər salmaq kifayətdir.

Daha sonra dissertasiyada sitat gətiriləcək və ya birbaşa istinad olunacaq abzaslar və ifadələr çıxarılır, eləcə də dissertasiya mətnində nəzərə alınmalı və ya əks etdirilməli olan müddəaların qısa xülasələri yazılır. Bu cür mənbələr dissertasiya işinin biblioqrafik siyahısına daxil etmək və onlara mətndə sonrakı istinadlar üçün təsbit olunur.

Təcrübə göstərir ki, dissertasiya işində birbaşa olaraq 10-20 mənbədən olan materiallar və məlumatlar istifadə olunur, təxminən 50-100 mənbəyə istinad edilir. Bu cür informasiya bazası yaratmaq üçün bir neçə yüz ədəbiyyat mənbəsinin adlarını, annotasiyalarını, başlıqlarını, məzmununu və referatlarını nəzərdən keçirmək tələb olunur, bu isə sürətli oxuma və məzmunlu mətn ilə lazımsız "qabıq" arasında fərq qoymaq sənətinə yiyələnmiş iddiaçı üçün tamamilə mümkündür.

Dissertasiya üzərində işin informasiya tərkibi haqqında danışarkən və bu işi texnologiya ilə birgə nəzərdən keçirərkən informasiya texnologiyalarının tətbiqindən yan keçmək olmaz. İnternetdən istifadə informasiya əldə etmə imkanlarını ölçüyəgəlməz dərəcədə genişləndirir. Məlumatın əldə edilməsi və işlənməsi sürəti dissertasiya işinin tərtibatını həm qısaldır, həm də onun keyfiyyətini artırır. Hazırda kompüter texnikası və texnologiyasından istifadə etmədən dissertasiya hazırlamaq sadəcə olaraq mümkün deyil.

Dissertasiya üzərində işin texnoloji prosesi çox mühüm bir əlavə istiqaməti əhatə edir ki, bu, adətən elmi dərəcəyə iddiaçılar tərəfindən kifayət qədər diqqət yetirilməyən bir məsələdir, çünki bu prosedurlar birbaşa dissertasiyanın yazılmasına aid olmayan texnoloji proseslərdir.

Elmi dərəcələrin verilməsi qaydalarına əsasən, dissertasiyanın əsas elmi nəticələri elmi nəşrlərdə, o cümlədən AAK tərəfindən tövsiyə edilən nəşrlərdə dərc olunmalıdır. Bu tələbin ilk hissəsinin yerinə yetirilməsi dissertasiya işinin

mövzusu üzrə dissertasiya müdafiəsinə qədər yetər sayda elmi nəşrlərə malik olmaq zərurətinə çevrilir.

Belə bir tələbin miqdar göstəriciləri dəqiq müəyyən edilməmişdir, lakin real təcrübədə müəyyən bir qayda formalaşmışdır. Belə ki, fəlsəfə doktoru dissertasiyasının müdafiəsi üçün ümumi həcmi bir-iki çap vərəqi (20-40 səhifə maşınla yazılmış mətn) təşkil edən üç-beş məqalə dərc etmək lazımdır, bu isə təxminən dissertasiyanın dörddə birinə bərabərdir.

Elmi dərəcələrin verilməsi qaydalarına uyğun olaraq, dissertasiyanın əsas elmi nəticələrini əks etdirən dərc olunmuş işlərə bərabər tutulan sənədlər bunlardır: kəşflər üzrə diplomlar və müəlliflik şəhadətnamələri, ixtira patentləri, sənaye nümunələrinə patentlər; dövlət elmi-texniki informasiya sisteminin təşkilatlarında yatırılmış və elmi jurnallarda annotasiya edilmiş işlərin əlyazmaları, respublika və beynəlxalq konfransların və simpoziumların materiallarında dərc olunmuş işlər, elektron elmi nəşrlərdəki məqalələr.

Dissertasiyanın əsas elmi nəticələri AAK-ın tövsiyə etdiyi siyahıda göstərilən respublikada və xaricdə nəşr edilən resenziyalı elmi jurnallarda və nəşrlərdə dərc olunmalıdır.

Dərc olunacaq kitab, monoqrafiya, dərslik və dərs vəsaitlərinin, kitabçaların tirajı məsələsi isə hələ də açıq və mühüm bir sual olaraq qalmaqda davam edir. Son zamanlar Azərbaycanda çoxsaylı özəl nəşriyyatların meydana çıxmasından sonra kitabçanı və hətta kitabı öz hesabınıza nəşr etdirmək çətin deyil. Dissertasiyanın nəticələrinin elmi nəşrlərdə dərc olunması tələbini əsaslandıran məqam budur ki, həmin işlərlə geniş elmi ictimaiyyət tanış olsun, onlar mütəxəssislərin nəzərinə çatsın və cavab reaksiyası doğursun.

Bu baxımdan, dissertasiyanın nəticələrinin dərc olunması tələbi tam əsaslı hesab edilməlidir.

Normal, təbii vəziyyətdə məqalələrin dərc olunması məsələsi dissertasiyanın ayrı-ayrı materialları hazır olduqca

məqalələrin tərtib edilməsi və onların əsasında həll olunur. Belə məqalələr vaxtında dərc olunmaq üçün elmi jurnallara göndərilir, elmi konfranslarda məruzələr və təqdimatlar şəklində təqdim edilir və onların tezisləri məruzə məcmuələrində dərc olunur, ali təhsil müəssisələrinin və elmi təşkilatların elmi işlər toplusunda dərc olunur, müəllif kollektivinin kitablarının fəsilləri olur və ayrı-ayrı broşüralar şəklində dərc edilə bilər.

Bütövlükdə dissertasiyanı və yaxud da onun başlıca hissəsini əhatə edən iri həcmli tədqiqat nəticələri, dissertasiya işinin tərtibatından əvvəlki mərhələdə bir araya vəhdət şəklində gətirilmiş nəticələr, ciddi elmi nəşrlərdə müəllif monoqrafiyasının əlyazması üçün əsas ola bilər. Belə bir müraciət qabaqcadan həyata keçirilməlidir ki, kitab dissertasiyanın müdafiəsi anına qədər işıq üzü görsün.

Həcmi təxminən 10 çap vərəqi olan kiçik bir kitabı yumşaq cilddə bir neçə ay ərzində nəşr etmək olar.

İndi isə dissertasiyanın hazırlanmasının təşkilati aspektlərinə nəzər salaq.

İlk baxışda dissertasiya üzərində işin təşkil edilməsi probleminin qoyuluşu uydurma görünə bilər. İnsanın özünü təşkil etməsi gərəkdir.

Doktorantın fərdi planı var ki, bu planı yerinə yetirmək və hətta artıqlaması ilə yerinə yetirmək lazımdır. Bütün bunlar belədir. Eyni zamanda, bəzi incə təşkilati məqamlar ortaya çıxır ki, bunlar barədə danışmaq adətən qəbul olunmur, baxmayaraq ki, onlar həqiqətən mövcuddur və dissertasiya işinin hazırlanma prosesinə təsir edir. Məsələn, dissertant öz elmi rəhbərini, tabe olduğu şöbəni, kafedranı, işini müdafiəyə qəbul edən dissertasiya şurasını, təyin olunmuş rəyçiləri necə təşkil edə bilər? Axı bu şəxslər üzərində dissertantın nəzarəti yoxdur. O, yalnız xahiş edə bilər.

Daha incə problemlər də var ki, bunlardan yan keçmək istəməzdik. Artıq qeyd edildiyi kimi, dissertasiyanın müstəsna

olaraq şəxsi yazılmalı olduğu və elmi sahəyə şəxsi töhfəni göstərməli olduğu tələbi var ki, bu tələb prinsipcə əsaslıdır.

Dissertasiyada təqdim olunan elmi ideyaların, müddəaların müəllifliyinin həqiqiliyi tələbi ilə bağlı mübahisə aparmaq olmaz, plagiat qəbuledilməzdir və ən sərt və ciddi şəkildə təqib olunmalıdır.

Məhz buna görə də, daha sonra dissertasiyanın hazırlanması ilə bağlı təşkilati problemləri qeyd edəcəyik ki, bunları iddiaçı təkbaşına həll edə bilmir və digər şəxslərin elmi-təşkilati xidmətlərinə müraciət etmək məcburiyyətində qalır. Axı məsləhətləşmək, işi çap etmək, elmi nəşrlərdə çap olunmaq, mətni redaktə etmək, rəyçilərin qeydlərinə uyğun olaraq dissertasiya materiallarının məzmununu tamamlamaq və dəyişdirmək, eləcə də iddiaçının təkbaşına öhdəsindən gələ bilmədiyi digər məsələlərlə məşğul olmaq lazımdır.

Əlbəttə, əgər iddiaçının ona müəyyən məsələlərdə kömək edə biləcək elmi rəhbəri varsa, bu yaxşıdır. Lakin bundan daha artığına sonadək bel bağlamaq məsləhət deyil.

# FƏSİL V. DİSSERTASİYA İŞİNİN MÜDAFİƏYƏ HAZIRLANMASI

## 5.1. Dissertasiyanın müdafiəyə hazırlanmasının prosedur tərəfi

*Elm – bu, bir qulluq deyil, həyat amalıdır.*
***Norbert Viner***

Beləliklə, güman edək ki, uzun və yorulmaz əməyiniz nəticəsində dissertasiya işinizin əsas hissələri, yəni fəsillər və paraqraflar, ilkin planlaşdırılmış və ya bir qədər düzəldilmiş struktur əsasında hazırlanmışdır. Namizədlik imtahanları uğurla verilib və ya sonuncu imtahan yaxın zamanda veriləcək.

İndi dissertasiyanı vahid bir mətn halında toplamaq və onu müdafiə üçün lazım olan bütün əlavə aksesuarlarla, elementlərlə təchiz etmək vaxtıdır.

Bu mərhələdə elmi yaradıcılıqdan çox çeviklik, səbr və inadkarlıq tələb edən bir sıra xeyli sayda prosedurlar həyata keçirilməlidir.

Əlavə 1-də verilmiş dissertasiyanın hazırlanması və müdafiəsi üzrə işlərin plan-cədvəlinə nəzər saldıqda, dissertasiyanın ilkin tamamlanmasından sonra yerinə yetirilməli olan işlərin sayının, əvvəlki mərhələlərdə görülən işlərdən çox olduğunu görəcəksiniz.

Şübhəsiz ki, bu işlərin icra müddəti və zəhməti, əmək tutumu əvvəlki mərhələlərlə müqayisədə daha azdır, lakin dissertasiyanın yazılmasından müdafiə prosesinin hazırlığına keçid etdikcə qayğıların və çətinliklərin sayı artır.

Dissertasiya yolunun son fazasında dissertasiya işinin hazırlanmasının prosedur tərəfi ön plana çıxır, çünki müxtəlif maneələrdən keçmədən finiş xəttinə çıxmaq mümkün olmayacaq.

Hər şeydən öncə, qarşılaşacağınız maneələrin nələr olduğunu və onları necə aradan qaldırmağı bilmək vacibdir.

Əvvəlcədən tərtib etdiyiniz ətraflı iş planına ciddi şəkildə əməl edin. Nəzərə alın ki, elmi taleyinizi nə rəhbəriniz, nə kafedra, nə də dissertasiya şurası deyil, dissertasiyaların müdafiəsi qaydalarına nəzarət edən AAK həll edəcəkdir.

Əlbəttə, dissertasiya üzərində iş zamanı AAK-ın saytında yerləşdirilən qaydalara riayət etməyi bu kitabın əvvəlindən dönə-dönə məsləhət görürdük. Dissertasiya işinin son mərhələsində isə bu tələbin (tövsiyə yox!) əhəmiyyəti yüzqat artır və AAK-ın təlimatları iddiaçının fəaliyyətində əsas yol göstəricisinə çevrilir və AAK özü gizli bir dirijor rolunu oynayır.

Bu təşkilatın elmin astanasında təmizləyici kimi olduqca çətin rol oynadığını qəbul etməliyik. AAK-ın bütün tövsiyələri mübahisəsiz olmasa da və onların köməyi ilə həmişə elmə yalançı alimlərin daxil olmasının qarşısı alına bilməsə də, belə qaydalar olmadan vəziyyət daha pis olardı.

Elm dünyasına can atanlar üçün bu sərt qaydalara əməl etmək nə qədər çətin olsa da, müəyyən edilmiş qaydalara riayət etmək və prosedur qaydalarını yerinə yetirmək lazım gələcək.

Gəlin növbəti addımlarınızın proqramını ümumi şəkildə formalaşdıraq ki, bu proqramı mütləq yerinə yetirməlisiniz.

Dissertasiya işinin müdafiəyə hazırlanmasının sonrakı mərhələləri bunlardır:

1) dissertasiyanın mətnini tam şəkildə hazırlamaq, mətni redaktə etmək və işi mövcud qaydalara uyğun tərtib etmək;

2) dissertasiya işinin avtoreferatının ilkin maketini hazırlamaq;

3) dissertasiya işini işlədiyiniz yerdə ilkin ekspertizaya və rəyçilərə təqdim etmək;

4) ilkin rəy zamanı bildirilən iradlara uyğun olaraq dissertasiyanı və avtoreferatı düzəlişlər etməklə tamamlamaq.

5) dissertasiya işini, avtoreferatı və zəruri sənədləri müdafiə yerində dissertasiya şurasına təqdim etmək, işin baxılması və müdafiəyə qəbul edilməsi, avtoreferatın çoxaldılması və yayılması, eyni zamanda opponentlərin təsdiq edilməsi barədə qərarın verilməsi üçün;

6) avtoreferatı çoxaldıb rəy alınması üçün göndərmək;

7) dissertasiya işini və avtoreferatı rəsmi opponentlərə rəy üçün təqdim etmək;

8) elmi rəhbərin rəyi, rəsmi opponentlərin dissertasiya işinə dair rəyləri, avtoreferata olan rəylər, işin nəticələrinin istifadə edilməsi barədə arayışları əldə etmək;

9) müdafiə zamanı dissertasiya şurası qarşısında çıxış üçün məruzə (prezentasiya) hazırlamaq, opponentlərin rəylərində və avtoreferata dair rəylərdə dissertasiyanın və avtoreferatın məzmununa aid qeydlərə cavablar hazırlamaq;

10) dissertasiyanın müdafiə proseduru və reqlamenti ilə tanış olmaq;

11) dissertasiya şurasının iclasında işin müzakirəsinə, mümkün suallara və tənqidi çıxışlara hazırlaşmaq.

Bu prosedurların ümumilikdə həyata keçirilməsi labüd olsa da, ayrı-ayrı prosedurların məzmunu və müəyyən qədər də onların ardıcıllığı dissertantın və dissertasiya işinin icrasına cavabdeh olan şəxslərin istəyindən asılı olaraq dəyişə bilər. Məsələn, işin aparıldığı təşkilatda avtoreferatın ilkin baxışda təqdim edilməsi tələb olunmur. Avtoreferat dissertasiya şurasına işin təqdim edilməsi anına qədər tamamlanmış ola bilər.

Bununla belə, fikrimizcə, dissertasiyanın və avtoreferatın yazılmasını və tamamlanmasını paralel olaraq aparmaq və onları dissertasiyanın son hazırlıq mərhələsində eyni qaydada əlavə və düzəlişlərlə təmin etmək məqsədəuyğundur.

Dissertasiya işinin müdafiəyə hazırlanması prosedurlarını mövcud təlimatlarla birbaşa müəyyən edilmiş hissədə yerinə yetirərkən qalan hallarda çeviklik göstərmək və prosesi

ləngitməkdən və onun uğursuzluğa uğrama ehtimalının artmasından yayınmaq üçün hadisələrin gedişatını tənzimləmək lazımdır.

Belə tənzimləmənin mürəkkəbliyi ondan ibarətdir ki, dissertasiyanın müdafiəyə hazırlanmasına dissertantın özü deyil, əsasən doktorantura, dissertasiya şurası, köməkçi xidmətlərin aparatları təsir göstərir.

Çox vacibdir! İstəklərinizdən və qabiliyyətlərinizdən asılı olmayaraq, insanlarla dil tapmağı, onları işinizin irəliləməsinə kömək etməyə inandırmaq bacarığına yiyələnmək lazımdır.

Elmi rəhbərinizdən kömək istəyin. Müdafiə öncəsi maneələri dəf etməkdə sizə kimlərin kömək edə biləcəyini düşünün. Lakin ağlabatan həddən kənara çıxmayın. İnadkarlıq israra çevrilməməlidir.

Prinsip etibarilə, siz təkcə xahiş etmək yox, həm də tələb etmək hüququna maliksiniz ki, kimlərinsə etməli olduğu işi düzgün şəkildə yerinə yetirsinlər.

Lakin dissertasiyanın tərtibatı və müdafiəsi ilə bağlı prosedurlar baxımından əksər dissertasiya şuralarında belə prosedurların mümkün qədər çoxunun iddiaçı və onun elmi rəhbərinin üzərinə qoyulması ilə bağlı yazılmamış qaydalar mövcuddur. Əgər sonuncu öz tapşırıqlarının yükünü dissertantın üzərinə atarsa, dissertant müdafiə öncəsi qayğıların ağır yükünü təkbaşına daşıyır.

Bəlkə də, doktorantura işçiləri, dissertasiya şurasının elmi katibi, həmçinin kafedranın (şöbənin, laboratoriyanın) əməkdaşları da müəyyən məsələlərdə kömək edə bilərlər.

## 5.2. Dissertasiyanın tərtibatı

***Tələbələrinə elm arzusu aşılamayan müəllim soyuq dəmir döyən dəmirçi kimidir.***
***Haras Mann***

Dissertasiya üzərində işin son mərhələsi müxtəlif xarakterli bir çox prosedurları əhatə edir. Biz bu prosedurları ümumi olaraq "tərtibat" adlandırırıq. Bu adlandırma ona görədir ki, məzmunca dissertasiya əsasən artıq hazırdır. Qarşıda materialların birləşdirilməsi, onların uyğunlaşdırılması, kiçik əlavələr və dəyişikliklərin edilməsi, elmi rəhbərin və sizin xahişinizlə işi ümumilikdə nəzərdən keçirmiş rəyçilərin qeyd etdikləri iradlara, təkliflərə uyğun olaraq düzəlişlərin edilməsi, həmçinin dar mənada tərtibat prosedurları durur.

Beləliklə, "tərtibat" adlanan ümumiləşdirici bir anlayışı, əsərin ümumi çərçivədə tamamlanmış görünüşünü yaratmaq üçün nəzərdə tutulmuş müxtəlif fəaliyyətlərin məcmusu kimi başa düşmək lazımdır. Biz "ümumi çərçivədə tamamlanmış" deyirik, çünki dissertasiyanın müzakirəsi hələ qarşıdadır və onun əsasında müəyyən dərəcədə əsaslı düzəlişlərin edilməsi lazım gələcək.

Yalnız yekun dəyişikliklər edildikdən, dissertasiya cildlənib müdafiəyə təqdim edildikdən sonra işin tamamilə başa çatdığını hesab etmək olar.

Bu, daha çox avtoreferata da aiddir. Ciddi və dəqiq desək, avtoreferat dissertasiya yalnız tam hazır olduqdan sonra yekun şəklində tərtib edilməlidir. Aşağıda göstərildiyi kimi, tam yazılmış dissertasiya mövcud olduğu halda, avtoreferatın hazırlanması ciddi çətinliklər yaratmayacaq. Lakin bu, dissertasiyanın məzmununu yığcam şəkildə ifadə etmək bacarığını tələb edir.

Gəlin, dissertasiya əlyazmasının və avtoreferatın müdafiədən əvvəl rəsmi və qeyri-rəsmi baxışa hazırlanması

mərhələsində tərtibat və məzmunla bağlı prosedurlara daha ətraflı nəzər salaq. Bu mərhələnin əsas xüsusiyyəti ondan ibarətdir ki, əlyazmalar toplu və tərtib olunmuş formada hazırlanmalıdır, çünki onlar tamamlanmış iş kimi nəzərdən keçiriləcəkdir. Rəyçilərin qeydlərinə və təkliflərinə uyğun olaraq, onların əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi lazım gələcəyi ehtimal olunsa da, bu, çox da böyük önəm kəsb etmir. Siz bu mərhələdə tamamlanmış hesab etdiyiniz əlyazmaları təqdim etməlisiniz.

Dissertasiyanın tam tərtibatı AAK təlimatlarında ətraflı şəkildə təsvir edilmişdir. Daha əvvəl qeyd etdiyimiz kimi, bu təlimatlar AAK-ın rəsmi internet saytında yerləşdirilib.

Burada isə biz qısaca olaraq aşağıdakıları qeyd edəcəyik.

Dissertasiyanın titul vərəqi müəyyən edilmiş qaydalara uyğun tərtib edilir və yazıların məzmunu və yerləşdirilməsi formaya görə əvvəlcədən müəyyən edilmişdir.

Dissertasiya işi əlyazma olduğundan, o, printerdə çap olunmuş əlyazmaların tərtibat qaydalarına uyğun tərtib edilməlidir. Mətn A4 standart formatında (210 x 297 mm) kağız üzərində, 14 ölçülü Times New Roman şrifti, 1,5 interval ilə çap edilir, səhifədə 28-30 sətir, sətirdə isə 60-65 işarə olmalıdır.

Tövsiyə olunan səhifə kənarları: yuxarı və aşağı – 20 mm, sağ – 10 mm, sol – 30 mm. Başlıq 2 interval aralıqla yerləşdrilir.

Titul vərəqindən sonra dissertasiyanın mündəricatı yerləşdirilir. Burada işin materialları ardıcıl şəkildə göstərilir, o cümlədən giriş, əsas mətnin fəsilləri, paraqrafları və altparaqrafları, nəticə, ədəbiyyat siyahısı və əlavələr qeyd olunur.

Fəsillərin, paraqrafların, alt-paraqrafların indeksləşdirmə sxeminə əsasən çoxpilləli rəqəmli nömrələmə ilə tərtib edilməsi məqsədəuyğundur (məsələn, 2.3 ikinci fəsildə üçüncü

paraqrafın nömrəsini, 2.3.1 isə ikinci fəsildə üçüncü paraqrafın birinci alt-paraqrafının nömrəsini göstərir).

Şəkil və cədvəllərin nömrələnməsi ya iş boyu ardıcıl ola bilər, yaxud da ikiqat rubrikasiya ilə fəsillərə bağlana bilər: fəsil nömrəsi – şəkil (ya cədvəl) nömrəsi.

Düsturların nömrələnməsinin fəsillər üzrə aparılması daha məqsədəuyğundur.

Dissertasiya işinin əsas mətninin tərtibatı ilə bağlı mülahizələrə keçərkən qeyd edək ki, içindəki şəkillər, cədvəllər, qrafiklər, sxemlər, digər illüstrasiyalar və düsturlar ümumi qəbul edilmiş qaydalara uyğun şəkildə göstərilməli və ehtiyac olduqda ayrıca vərəqlərdə yerləşdirilməlidir. İllüstrativ materiallara dair əsas tələblər – dəqiqlik, aydınlıq və tamlıq, bütövlülükdür. Bu materiallar onların məzmununu və mənasını başa düşməyə kömək edəcək zəruri izahlarla təmin edilməlidir.

Riyazi düsturlar və asılılıqlar istifadə olunan simvolların mənasının mütləq göstərilməsi ilə yazılmalı, çap edilməlidir. Ayrı-ayrı terminlər, adlar, mənası xarici dildə daha yaxşı başa düşülən ifadələr orijinalın dilində təqdim edilə bilər.

Dissertasiyanın əsas bölmələrinin məzmununda digər müəlliflərin işlərindən birbaşa və ya dolayı şəkildə alınmış məlumatları ehtiva edən hissələri, həmin məlumatların mənbələrinə istinadlarla müşayiət olunmalıdır, və dissertasiyanın sonunda verilmiş biblioqrafik siyahıdakı mənbənin nömrəsi göstərilməlidir. Məsələn, dissertasiyada belə bir qeyd verilə bilər: “Statistik məlumatlara əsasən, bu xəstəlikdən əziyyət çəkənlərin sayı 2024-cü ildə əhalinin hər min nəfərinə görə 21 nəfər təşkil edirdi”[36]. Bu zaman ədəbiyyat siyahısında 36 nömrəli mənbə altında həmin məlumatın götürüldüyü mənbə göstərilməlidir.

Təbii ki, dissertasiya işinin tərtibatı qaydalarına riayət edilməli olsa da, əsas diqqət materialların məntiqi quruluşuna və yerləşdirilməsinə, təqdim olunan məsələlərin mahiyyətinin açılmasına, irəli sürülən iddiaların dəqiqliyinə və sübutların

inandırıcılığına, eləcə də ifadə tərzi və üslubuna yönəldilməlidir.

Bu mərhələdə dissertasiyanın strukturu artıq dəqiq şəkildə təsvir olunub və fəsillər və paraqraflar (bölmələr və alt-bölmələr) şəklində yerləşdirildiyi üçün hazırlanmış materialları bu struktura üzvi surətdə daxil etmək qalır. Bu zaman qalan kiçik boşluqları doldurmaq, mövcud mətni işin ayrı-ayrı hissələri arasında keçid körpülərini əlaqələndirici materiallarla formalaşdırmaq lazım gələcək.

Bu cür yekun birləşdirmə prosesində mətnin yenidən oxunması zamanı bəyənmədiyiniz, kifayət qədər aydın olmayan yerlər, səhvlər, qeyri-dəqiqliklər və ya çatışmazlıqlar aşkar edə bilərsiniz. Bütün bunları düzəltmək, redaktə etmək və tamamlamaq lazım gələcək.

Dissertasiyanın giriş hissəsinin və ədəbiyyat siyahısının tərtib olunması barədə əvvəlki fəsildə bəhs edilmişdi. İndi həmin tövsiyələri həyata keçirmək qalır. Bu halda nəzərə almaq lazımdır ki, dissertasiya mövzusunun aktuallığı, məqsədləri və vəzifələri, predmeti və obyekti, elmi yeniliyi mövzunun təsdiqlənməsi mərhələsindən başlayaraq əsaslandırılmalı idi, işin məzmunu, əldə olunan nəticələr, müdafiəyə çıxarılan müddəalar, onların aprobasiyası və istifadəsi isə işin tamamlanması mərhələsində aydın olmuşdur. Girişin tərtibatı, çox güman ki, bu mərhələdə yalnız texniki çətinliklər yarada bilər.

Bu çətinlikləri aradan qaladırmağa məcburuq, unutmadan ki, giriş işin bütün ideyalarının təmərküzüdür. Girişin sonunda işin əsas nəticələrinin nə vaxt və harada təqdim edildiyi, onların harada və nə qədər nəşr edildiyi qeyd olunmalı, həmçinin sonrakı fəsillərdə ifadə olunan işin məzmunu qısaca xarakterizə edilməlidir.

Məhz yekun mərhələdə formalaşan Nəticə hissəsinin tərtibi məsələsi isə daha mürəkkəbdir. Onun dissertasiyada yeri və rolu haqqında yuxarıda bəhs edilmişdi.

Bir daha vurğulayaq ki, nəticə hissəsinin materialları ifadə tərzinin ən yüksək “sıxlığı” ilə təqdim edilməli və aparılan tədqiqat nəticəsində əldə olunan nəticələri, qənaətləri, və tövsiyələri əks etdirməlidir. İşin son mərhələsində bu üç elementin hamısı aydın şəkildə ifadə edilməlidir.

Qənaətlər sizin elmi mövqeyinizi, tədqiqat işiniz zamanı formalaşan baxışınızı əks etdirir. Nəticələr – dissertasiyada qoyulan məqsədə nail olma və vəzifələrin həlli prosesinin yekun sonluğudur. Tövsiyələr isə işin nəticələrinin istifadəsi, onların tətbiq sahələri və gələcək tədqiqatların inkişafı barədə təklifləri ifadə edir.

İndi, işin son mərhələsində, özünüzə və başqalarına iki sadə həqiqəti sübut etməlisiniz:

a) elmi problem həqiqətən öz həllini tapıb;

b) problemin həlli nəticəsində əldə olunan qənaətlər elm və praktika üçün böyük əhəmiyyət kəsb edir.

Bu faktların həm işdə, həm də sizin şüurunuzda təsdiqi dissertasiya işinin dəyərinin qarşınızda duran müdafiəsi prosesində möhkəm mövqe tutmağınıza imkan verəcəkdir.

Nəticə hissəsini yazarkən bir çox dissertantlar fəsillərin və paraqrafların dissertasiyada yerləşdirilmə sırasına uyğun olaraq ardıcıl təqdimata riayət edirlər. Bu yanaşma qəbulediləndir, lakin problemyönümlü yanaşma prinsipinə riayət etmək daha məqsədəuyğundur. Bu prinsip, işin hansı bölməsində tədqiqatın bu hissəsinin mahiyyətinin və onun nəticələrinin ifadə edilməsindən asılı olmayaraq, dissertasiyada həll edilmiş problemlərin, altproblemlərin, vəzifələrin siyahısına əsaslanır.

Əvvəlki fəsildə deyilənlərə əlavə olaraq ədəbiyyat siyahısı haqqında bir neçə qeydi nəzərinizə çatdırmaq istərdik. Bu siyahı dissertasiyanın hazırlanması dövrü ərzində davamlı olaraq genişlənəcəkdir. Buna görə də siyahıda olan işlərin nömrələnməsi dəyişəcəkdir. İşin tərtib edilməsi zamanı dissertasiya mətnində ədəbiyyat mənbələrinə verilən istinad nömrələrinin düzgünlüyünü diqqətlə yoxlamaq lazımdır.

Ondan da pisi odur ki, işin sonrakı müzakirələri zamanı, dissertasiya şurasının tərkibi müəyyənləşdikdə və rəsmi opponentlər təyin edildikdə, siyahıya yeni adların təcili əlavə edilməsi lazım gələcəkdir. Buna görə də, dissertasiya hələ cildlənib müdafiəyə təqdim edilməzdən əvvəl, mənbələrin nömrələrini qələmlə qeyd edib, vaxtaşırı silərək yenilənmiş məlumatlarla əvəz etmək daha məqsədəuyğundur.

Nəzərə alın ki, ədəbiyyat siyahısına siz öz adınızı da əlavə etməli, dissertasiya mövzusunda nəşr etdiyiniz işləri daxil etməlisiniz. Bundan əlavə, dissertasiyanın mətnində öz işlərinizə istinad etmək hüququna da maliksiniz.

Dissertasiyaya əlavələr dissertantın istəyinə uyğun olaraq formalaşdırılır, əgər o, müəyyən detalların dissertasiyanın əsas hissəsindən kənarda verilməsini lazım bilirsə. Hər bir əlavənin öz nömrəsi olmalıdır.

İndi isə dissertasiyanın dili və onun mətninin ədəbi üslubu haqqında danışaq. Hərçənd ki, dissertasiya ədəbi-bədii əsər deyil və onu çox az adam oxuyur, buna baxmayaraq, dissertasiyanın dil-üslub mədəniyyəti onun müəllifinin ümumi mədəniyyəti haqqında ən yaxşı məlumat verən göstəricidir.

Məlumdur ki, elmi əsərlərin üslubunda yazmağı bacarmaq üçün sadəcə bir neçə səhifə tövsiyəni sürətlə oxumaq kifayət deyil və mədəni dildə yazma bacarığını qazanmaq illərin və ciddi təcrübənin nəticəsidir. Bununla belə, dissertasiyanı mədəni şəkildə yazmaq üçün yazıçı olmaq vacib deyil. Fikirlərinizi düzgün və aydın şəkildə ifadə etməyiniz kifayətdir ki, bu da çoxları üçün əlçatandır.

Təəssüf ki, ümumi nitq və yazı mədəniyyətinin aşağı düşməsini müşahidə edirik, lüğətin dəbdə olan "yeni ərsəyə gətirilmiş" sözlərlə çirkləndirilməsi, çoxdanışma, yad sözlərin yerli-yersiz istifadəsi geniş yayılıb. Bu qüsurlar elmi əsərlərə də nüfuz etmişdir və dissertasiyalarda daha çox müşahidə olunur, çünki çap olunmuş işlərdən fərqli olaraq, dissertasiyalar çox nadir hallarda ədəbi redaktorlar tərəfindən nəzərdən

keçirilir və düzəliş edilir. Üstəlik, dil-ədəbi səhvlər dissertasiyanın ciddi qüsurları kimi qəbul edilmir. Yalnız nadir hallarda rəyçilər (opponentlər) dil səviyyəsinin aşağı olması və dissertasiya işinin stilistik qüsurları barədə qeydlər edirlər.

Müəllifin fikirlərini dissertasiyada şəxsiyyətsiz bir üslubda ifadə etmək bacarığı bir o qədər prinsipial olmasa da, yenə də vacibdir. Yəni öz fikirlərinizi çatdırarkən "mən" sözündən istifadə etməmək, həmçinin özünüzə müraciət edərkən "biz" sözünü minimal dərəcədə işlətməkdən çəkinmək lazımdır. Eyni zamanda, təlimatların tələb etdiyi kimi, şəxsi töhfənizi mütləq şəkildə vurğulamalısınız.

Burada belə ifadələr köməyinizə gəlir: "müəllif tərəfindən müəyyən edilmişdir", "dissertantın fikrincə", "dissertasiyada aparılan tədqiqatlar nəticəsində", "dissertasiyada metod işlənib hazırlanmışdır", "bizim fikrimizcə", "bu, müəllifin şəxsi töhfəsidir" və s.

Dissertasiya işinin stilistik cəhətdən mükəmməl olmasının vacib şərtlərindən biri səbəb-nəticə əlaqələrinin və ifadədə məntiqi ardıcıllığın gözlənilməsidir ki, bu da işin oxucusuna məlumatları asanlıqla başa düşməyə, nəyin nədən irəli gəldiyini anlamağa imkan verir.

Bəs iddiaçı özünün dil-üslub mədəniyyətində boşluqların olduğunu aydın hiss edir və mövcud vaxt ərzində bunu düzəltmək mümkün deyilsə, nə etmək lazımdır? Nəzəri cəhətdən elmi rəhbər kömək edə bilər, əgər o, həmçinin elmi-ədəbi redaktor funksiyasını yerinə yetirməyə qadir və istəklidirsə.

Lakin bu əməktutumlu bir işdir. Buna görə də elmi rəhbərdən kömək gözləməyə dəyməz, çünki dissertantın dil bacarıqlarının yetərsizliyinə görə elmi rəhbər heç bir mənəvi məsuliyyət daşımamalıdır.

Əgər iş ədəbi baxımdan çox zəif yazılıbsa və doktorant yaranan problemi müstəqil şəkildə həll edə bilmirsə, kənardan cəlb edilən ədəbi redaktorun köməyindən istifadə etmək böyük

bir günah deyil. Bizim fikrimizcə, bu, dissertasiyanın yalnız müəllif tərəfindən yazılması prinsipini pozmur, çünki söhbət elmi yox, yalnız ədəbi redaktə prosesindən gedir, hansı ki, bu, nəşriyyat təcrübəsində geniş yayılmışdır və elmi işlərin müəllifliyi ilə heç bir əlaqəsi yoxdur.

### 5.3. Dissertasiyanın avtoreferatı

***"Alim" sözündə bəzən insanın özünün nələrisə öyrəndiyi deyil, sadəcə ona çox şey öyrədildiyi mənası yer alır.***
***H. Lixtenberq, alman yazıçısı***

İşin tamamlanma mərhələsində və müdafiəyə təqdim edilməsində avtoreferat artıq dissertasiyanın məcburi hissəsi olmaqla yanaşı, həm də onun rəsmi ifadəsi, bir növ vizit kartına çevrilir.

Bir çox əhəmiyyətli hallarda, işin gedişinə və taleyinə təsir edən məqamlarda, iş haqqında yalnız avtoreferata əsasən mühakimə yürüdülür.

Elmi dərəcələrin verilməsi qaydalarında qeyd edilir ki, dissertasiyalar üzrə, dissertasiya şurasının icazəsi ilə, fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya avtoreferatı əlyazma hüququ ilə, bir çap vərəqi həcmində, Azərbaycan dilində, həmçinin ingilis dilində çap edilməlidir. Əgər dissertasiya və buna müvafiq olaraq avtoreferat rus dilində yazılıbsa, avtoreferat həm Azərbaycan, həm də ingilis dilində çap edilməlidir.

Avtoreferatda dissertasiyanın əsas ideya və nəticələri, müəllifin tədqiqata verdiyi töhfə, araşdırmanın yenilik dərəcəsi və əldə olunan nəticələrin praktiki əhəmiyyəti göstərilməlidir."

Yuxarıda söylənilən fikirdə avtoreferat haqqında ən vacib məqamlar vurğulanmışdır. İndi isə onun hazırlanması,

yazılması və istifadəsi barədə praktiki tövsiyələrlə tamamlamaq qalır.

Sırf formal nöqteyi-nəzərdən, avtoreferat, prosesin son mərhələsində, dissertasiya ilə birlikdə dissertasiya şurasına təqdim edilərək onun çapına (daha dəqiq desək, çoxaldılmasına) və rəylərin alınması üçün göndərilməsinə icazə verildiyi zaman "səhnəyə çıxır".

Lakin, əslində, avtoreferat bir qədər əvvəl ortaya çıxır, çünki onun çap olunmasından öncə mətnin yazılması lazımdır ki, bu da asanlıqla başa gələn bir məsələ deyil.

Avtoreferatın həcmi dissertasiyanın həcminin təxminən 15%-ni təşkil edir, buna görə də, əgər dissertasiyanın yazılması iki il çəkirsə, avtoreferat mətninin hazırlanmasına təxminən iki-üç ay ayırmaq lazımdır.

Real olaraq, avtoreferatın yazılma müddətini dissertasiyadakı bəzi fraqmentləri tamamilə avtoreferata daxil edərək xeyli azaltmaq mümkündür. Lakin yenə də avtoreferatın hazırlanması vaxt tələb edir, çünki demək olar ki, hər bir ifadəni diqqətlə düşünmək lazımdır, çünki avtoreferatı oxuyacaq insanların sayı dissertasiyanın oxucularından 10-20 dəfə çox olacaq. Bu insanlar dissertasiya haqqında yalnız avtoreferata əsaslanaraq mühakimə yürüdəcəklər.

Ən yaxşısı avtoreferatın əsas mətnini dissertasiyanın ilkin baxılmaq üçün hazırlanması ilə paralel şəkildə hazırlamaqdır ki, dissertasiya və avtoreferat üzərində işin ilkin yekunu zaman baxımından təxminən eyni vaxtda başa çatsın. Lakin avtoreferat, dissertasiyadan fərqli olaraq, təlimatlara əsasən ilkin baxış üçün təqdim olunan materiallara daxil edilmir, buna görə də dissertant avtoreferatın yazılmasını daha sonrakı dövrə təxirə salmağa psixoloji olaraq meylli olur.

Əgər dissertasiyanın ilkin baxışı uğurlu keçərsə, onu artıq heç bir xüsusi gecikmə olmadan müdafiəyə təqdim etmək məqsədi ilə dissertasiya şurasına təqdim etmək olar. Bu dəfə dissertasiya tam hazır avtoreferatla birlikdə təqdim edilməlidir.

Əgər avtoreferat hələ hazır deyilsə, onu hazırlamaq üçün lazım olan vaxt müdafiədən əvvəlki dövrdə gecikməyə səbəb olur.

Avtoreferatın hazırlanması bir daha sizin elmi kvalifikasiyanızı vurğulayır və dissertasiya işinin ilkin və yekun müdafiəsinə əla bir məşq prosesi qismində xidmət edir.

Avtoreferatı hazırlayarkən iddiaçı eyni zamanda həm müəllif, həm də redaktor rolunda çıxış edir. Buna görə də avtoreferatın sənəd kimi əhəmiyyəti bundadır ki, onda göstərilən məlumatlar əsasında dissertasiyanın səviyyəsi və onun müəllifinin elmi kvalifikasiyası, o cümlədən onun elmi işinin nəticələrini rəsmiləşdirmə bacarığı haqqında fikir və mülahizələr yürüdülür.

Bu vacib qeydlərdən sonra avtoreferatın təsvirinə və onun tərtib olunması prosesinə keçək.

Avtoreferatın tərtib olunmasına dair iddiaçını yenidən AAK-ın rəsmi saytında yerləşdirilən Təlimat və tövsiyələrə müraciət etməyə yönəldirik.

Yadda saxlamaq lazımdır ki, avtoreferat dissertasiya şurasının dissertasiya işini müdafiəyə qəbul etmək qərarından əvvəl tərtib edilirsə, avtoreferatın üz qabığının arxa tərəfindəki bəzi qrafalar hələ doldurula bilməz, çünki nə opponentlər, nə müdafiənin yeri, nə də tarixi məlum deyil. Bu sizi narahat etməməlidir. Hələlik bu qrafaları boş buraxın.

Bəzən belə olur ki, müdafiənin tarixi və vaxtı artıq çoxaldılmış avtoreferat mətninə birbaşa ünvanlara göndərilməzdən əvvəl yazılır. Buna baxmayaraq, avtoreferata bir neçə sətir əlavə etmək və ya orada bəzi düzəlişlər etmək, arxa tərəfdəki qrafaları doldurmaq üçün dəqiq məlumatların alınmasını gözləməkdən və yalnız bundan sonra avtoreferatın mətninin yazılmasına və tərtibatına başlamaqdan daha asandır.

Bundan əlavə, avtoreferatın hazırlanmasının iki mərhələsi və müvafiq olaraq iki forması var. Birinci mərhələdə avtoreferat bir neçə nüsxədə ilkin əlyazma şəklində hazırlanır,

bunun əsasında ikinci mərhələdə o, onlarla nüsxədə çoxaldılaraq göndərilməli olan broşura formasında tərtib edilir.

Əslində avtoreferat əlyazma hüququ ilə çap olunmuş broşur adlanır, lakin avtoreferatın məzmunu onun yazılması zamanı, yəni birinci mərhələdə formalaşır. Buna görə də məhz bu mərhələnin sürətləndirilməsinə çalışmaq lazımdır. Avtoreferat mətninin hazırlanması şəklində birinci mərhələ kifayət qədər əvvəlcədən həyata keçirilməlidir.

İndi isə avtoreferatın strukturu, məzmunu və onun hazırlanma texnologiyası ilə bağlı əsas məsələyə keçək.

Mövcud qaydalara uyğun olaraq avtoreferat dörd hissədən ibarətdir:

1. İşin ümumi xarakteristikası.
2. İşin əsas məzmunu.
3. Nəticə (qənaətlər və tövsiyələr).
4. Dissertasiya işinin mövzusu üzrə müəllifin nəşrlərinin siyahısı.

Bu cür strukturlaşma avtoreferatların tərtib olunması üzrə çoxillik təcrübə əsasında formalaşıb.

İşin ümumi xarakteristikası iş haqqında ümumi məlumatları, məsələn, mövzunun aktuallığı, məqsəd və vəzifələri, tədqiqatın predmeti və obyekti, elmi-metodoloji bazası, əldə olunmuş nəticələrin yeniliyinin əsaslandırılması və sübut edilməsi, işin nəticələrinin əhəmiyyəti və tətbiq olunma dəyərinin qiymətləndirilməsi, işin praktiki yoxlanılması və istifadəsi, müdafiəyə çıxarılan ən vacib müddəalar, dissertasiya işinin strukturu və həcmi haqqında məlumatlar, tədqiqat nəticələrinin elmi mətbuatda sınaqdan keçirilməsi məlumatlarını özündə əks etdirir.

Diqqətli oxucu asanlıqla dissertasiya işinin **giriş** hissəsi ilə avtoreferatın məzmununun demək olar ki, tam uyğunluğunu aşkar edəcək. Bu uyğunluq iddiaçının əlinə avtoreferatın birinci hissəsinin yazılması üçün sadə bir açar verir. Dissertasiyanın mətnindən artıq hazır olan giriş hissəsini əsasən təkrar etmək,

ayrı-ayrı ifadələri, mətnin bəzi hissələrini dəyişdirərək və əlavə edərək, forma və məqsəd etibarı ilə fərqli elmi sənəd hazırlandığını nəzərə almaq lazımdır.

Daha radikal dəyişikliklər etmək də mümkündür və istisna olunmur, lakin bu, obyektiv zərurət deyil.

Avtoreferatın "İşin ümumi xarakteristikası" bölümünün həcmi təxminən 5-10 səhifəlik maşınla yazılmış mətn təşkil edir.

Ən böyük çətinlik avtoreferatın ikinci hissəsində, yəni "İşin əsas məzmunu"nun yığcam formada izah edilməsindədir. Burada yüksək səviyyədə sintez bacarığı, ən vacib məqamların seçilməsi və az əhəmiyyətli olanların ixtisarı tələb olunur. Qeyd etmək lazımdır ki, dissertasiya materiallarının avtoreferatda yerləşdirilməsi üçün tələb olunan "presslənmə əmsalı" kifayət qədər yüksəkdir. Bu əmsal təxminən 10 vahid səviyyəsindədir, yəni dissertasiya mətninin hər 7-10 səhifəsi üçün avtoreferatda təxminən bir səhifə yer tutur. Ümumilikdə, avtoreferatda işin məzmununun təsvirinə 10-15 səhifə həsr olunur.

Bir çox iddiaçılar avtoreferatda dissertasiyanın əsas məzmununu izah edərkən işin materiallarını təqdimetmə ardıcıllığına ciddi şəkildə riayət edir və "dissertasiyanın birinci fəslində", "dissertasiyanın ikinci fəslində" və s. ifadələrdən geniş istifadə edirlər.

Bu yanaşma məqbuldur, lakin ayrı-ayrı fəsillərdə hansı məzmunun yer aldığını sadalamaqla yanaşı, izahedici şərhlər də vermək tələb olunur. Bu şərhlər hər bir fəslin ümumi ideyaya, yəni vahid problemin həllinə xidmət etdiyini sübut etməli və inandırmalıdır. Bundan əlavə, bu yanaşmada, müəyyən bölmənin yerinə yetirilməsindən əldə olunmuş nəticələri göstərmək lazım olan yerlərdə mətnin miniatür surətini çıxarmaqdan onsuz da uzaqlaşmaq lazım gələcək.

İşin əsas məzmununun ifadəsində daha müasir və qabaqcıl yanaşma problemli əsasda qurulan, dissertasiyanın

materiallarının ardıcıllığına və mündəricata sərt şəkildə bağlı olmayan bir üslubdur. Bu üslub dissertasiya tədqiqatı zamanı müəllif tərəfindən əldə olunan nəticələrə (elmi yeniliklərə və ya müdafiəyə çıxarılan əsas müddəalara) əsaslanır.

Bu cür ifadə tərzi ortaya qoyulduqda ilkin olaraq araşdırılan, dissertasiyada müəyyən dərəcədə həll olunan əsas problemlər və vəzifələr önə çıxır. Belə əsas problemlərin ətrafında məsələlərin qoyuluşu, tədqiqat metodikası, əvvəlki işlərin təhlili, dissertantın mövqeyi, məsələlərin həlli üçün tətbiq olunan üsullar, əldə olunan nəticələr və onların təcrübədə yoxlanılmasını xarakterizə edən materiallar qruplaşdırılır. Bu zaman həmin materiallar dissertasiyada harada və necə yerləşdirildiyindən asılı olmayaraq təqdim olunur.

Avtoreferatın hansı kompozisiyada tərtib edilməsindən asılı olmayaraq, onun daxilində dissertasiya tədqiqatının nəzəri (analitik), metodoloji (metodik), tətbiqi (praktiki, eksperimental) hissələrinin məzmununu ümumiləşdirərək təqdim etmək məqsədəuyğundur.

Dissertantın avtoreferatda dissertasiya məzmununu təqdim etmək üçün yüksək dərəcədə sərbəstliyə malik olması ona işin güclü tərəflərini daha qabarıq şəkildə təqdim etməyə imkan verir.

Avtoreferatın nəticə hissəsi dissertasiyanın müvafiq bölməsini təkrarlaya bilər, yalnız o halda ki, həcmi bir neçə səhifədən çox olmamalıdır. Əks halda, ən vacib nəticələri və tövsiyələri saxlamaq şərtilə, dissertasiyanın yekun hissəsini avtoreferat üçün məqbul həcmə qədər ixtisar etmək lazım gəlir.

Bundan əlavə, əgər avtoreferatda işin əsas məzmunu dissertasiya tədqiqatı nəticəsində əldə olunan nəticələrə (elmi yeniliklərə və ya müdafiəyə çıxarılan əsas müddəalara) uyğun qurulubsa, nəticə hissəsini ifadə etmək artıq mənasız olur. Ən mühüm, doktorantın fikrincə, vacib olan məqamları vurğulamaqla, onu minimuma qədər ixtisar etmək mümkündür.

Nəticədən sonra avtoreferata dissertasiya işinin mövzusu üzrə müəllifin nəşr olunmuş işlərinin siyahısı əlavə olunur. Bu siyahı dissertasiyadakı bibliografik siyahı kimi tərtib edilir, lakin bir qədər fərqlənir.

Birincisi, siyahıya yalnız dissertasiya mövzusuna aid çap olunmuş işlər (və onlara bərabər tutulanlar) daxil edilir. İkincisi, hər bir nəşrdə onun bir müəllif tərəfindən və ya həmmüəlliflikdə yerinə yetirildiyi qeyd olunmalıdır. Bu, siyahının müəllifin dissertasiya mövzusuna aid olan nəşrlərinin həcmindəki dəqiqliyi müəyyən etməyə və bunun dissertasiyanın girişində və avtoreferatın əsas müddəalarında bəyan edilən məlumatlara uyğun olub-olmadığını göstərməyə imkan verir.

Demək olar ki, avtoreferatın əlyazması hazırdır. Ancaq bu hələ avtoreferat deyil, sadəcə əlyazmadır, çünki avtoreferat yalnız çoxaldılaraq broşur şəklində rəsmi olaraq nəşr edildikdən və göndərilməyə hazır olduqdan sonra tamamlanmış hesab olunur. Üstəlik, avtoreferatın əlyazması dissertasiyanın özündə iddiaçı tərəfindən işin müzakirəsi zamanı edilən dəyişikliklərə uyğun olaraq düzəldilməlidir.

## Dissertasiya və dissertasiyanın avtoreferatına dair rəylər.

Rəy toplamazdan əvvəl dissertasiya işinizi plagiat (başqa şəxslərin elmi işlərindən götürmə) olub-olmadığını yoxlamaq lazımdır. Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq, plagiatın miqdarı dissertasiyanın ümumi həcminin 5 %-indən çox olmamalıdır.

Bunun üçün iddiaçı dissertasiyada ilkin mənbələrə istinad etməlidir.

Dissertasiyaya və dissertasiyanın avtoreferatına dair zəruri rəyləri toplamaq – reqlamentə salınmış ənənəvi prosedurlardan biridir. Bu rəylərin məqsədi və mənası müdafiənin ictimaiyyət qarşısında həyata keçirilməsini təmin etməkdir.

Dissertasiyaya verilən rəylər müdafiə üçün məcburidir. Dissertasiyaya verilən rəylərdən birini elmi rəhbər hazırlayır.

Elmi rəhbərin rəyindən əlavə, iddiaçı üç rəsmi opponentin rəylərini də toplamalıdır.

Dissertasiyaya verilən rəylərdən əlavə, iddiaçı öz dissertasiyasının avtoreferatına da mütəxəssislərdən rəylər toplamaq hüququna malikdir. Bu mütəxəssislər dissertasiya tədqiqatının aid olduğu sahə üzrə ixtisaslaşmış şəxslərdir.

Adətən dissertasiyanın avtoreferatına 2-5 arası rəy toplanır. Bununla yanaşı, son AAK təlimatlarına əsasən, avtoreferata dair rəylər artıq məcburi hesab olunmur.

### 5.4. Dissertasiya işinin ilkin ekspertizası (ilkin müdafiəsi)

***Elmi təfəkkürdə həmişə poeziya elementi olur.***
***Albert Eynşteyn***

Yuxarıda göstərilən dissertasiya işinin müdafiəyə hazırlıq mərhələlərinin siyahısına əsasən, üçüncü mərhələ başlayır ki, burada dissertasiya müdafiəyə çıxarılmazdan əvvəl ilkin ekspertizadan keçməlidir. Dissertasiya təcrübəsində bu mərhələ adətən müdafiə öncəsi və ya ilkin müdafiə adlanır.

İlkin müdafiə dissertasiya üzərində işin keyfiyyətcə yeni mərhələsini xarakterizə edir və bu barədə xüsusi danışmaq lazımdır. Artıq qismən əvvəlki ifadədə qeyd olunduğu kimi, dissertasiya müdafiəsi ilə elmi dərəcə əldə etmək prosesi iki fazadan ibarətdir:

a) dissertantın fərdi fəaliyyəti, nəticədə dissertasiya işinin hazırlanması başa çatır, və

b) dissertantın işinin iddia olunan elmi dərəcəyə layiq olduğunu sübut etməyə çalışdığı ictimai fəaliyyət.

İlkin müdafiə dissertantın bu rolda ilk dəfə ictimaiyyət qarşısına çıxdığı mərhələdir. Təbii ki, ilkin müdafiəyə qədər dissertant elmi işinin ayrı-ayrı fraqmentlərini müxtəlif elmi

auditoriyalarda konfranslarda, kafedra iclaslarında təqdim edə bilərdi, lakin o, həmin vaxt tam yekunlaşmış bir iş adına iddialı dissertasiyanın müəllifi kimi çıxış etmirdi.

İctimai mərhələyə keçid iddiaçını dissertasiyanın və avtoreferatın məzmunu ilə tanış olan və dissertasiya prosesinə müəyyən formada cəlb olunan çox sayda şəxslərlə elmi əlaqələr qurmağa təşviq və hətta məcbur edir.

Hələ ilkin mərhələlərdə iddiaçılar yaxın mövzuda işlər görən həmkarları ilə əlaqələr qurmalıdırlar. Elmi seminarlar və konfranslar bu cür əlaqələrin qurulmasında effektiv vasitədir. Dissertasiya üzərində iş başa çatdıqca, açıq müzakirələrə və digər dissertasiya işlərinin müdafiəsinə qatılmaq vaxtıdır.

Əlaqələr və ünsiyyət elmi dünyagörüşü, üfüqləri genişləndirir, əlavə biliklərlə zənginləşdirir, işin məzmununu ifadə etmək bacarığını inkişaf etdirir və dissertasiya prosesinə cəlb edilməsi obyektiv zərurətlə şərtləndirilən şəxslər haqqında lazım olan məlumatları əldə etməyə kömək edir.

Bu halda normal insan ünsiyyəti nəzərdə tutulur ki, bu da qarşılıqlı maraq və ümumi maraqlarla dəstəklənə bilər. Elmi əlaqələr prosesində dissertant dissertasiya proqramını uğurla tamamlamaq üçün mühüm rol oynayan tanınma səviyyəsini artırır.

Dissertasiya üzərində işin artıq ictimai mərhələyə keçdiyinə əmin olduqdan sonra, dissertant dissertasiyanın ilkin baxışının rəsmi qaydaları ilə tanış olmalıdır. Elmi dərəcələrin verilməsi qaydalarının müvafiq bəndində göstərilir ki, dissertasiyanın aparıldığı və ya iddiaçının bağlı olduğu təşkilat təqdim edilmiş dissertasiyanı ilkin ekspertizadan keçirir və dissertasiyada əldə olunan nəticələrdə müəllifin şəxsi iştirakını, aparılan tədqiqatların nəticələrinin etibarlılığı dərəcəsini, onların yeniliyini və praktik əhəmiyyətini, iddiaçının elmi işlərinin dəyərini, dissertasiyanın aid olduğu ixtisası, iddiaçının dərc olunmuş işlərində dissertasiya materiallarının tam şəkildə əks olunmasını əks etdirən rəy verir.

Bu, bir daha işə ictimai xarakter verilməsinin zəruriliyini göstərir.

Başqa sözlə desək, dissertant elmi təşkilatda işləməli və ya ən azı dissertant olmasa da, elmi dərəcə iddiaçısı kimi belə bir təşkilata vaxtında bağlanmalıdır ki, bu təşkilat onun işini ekspertizadan keçirə bilsin.

Nəzəri olaraq işin aparıldığı təşkilatla iddiaçının bağlı olduğu təşkilat və dissertasiyanın müdafiəsinin həyata keçiriləcəyi, müvafiq ixtisas üzrə dissertasiya şurasına malik təşkilat eyni olmaya bilər və bu nadir hallarda müşahidə olunur. Dissertasiyanın hazırlandığı təşkilatın dissertasiyanın titul səhifəsində və avtoreferatın üz qabığının arxa tərəfində göstərilməsi zərurəti ilə yanaşı, avtoreferatda müdafiənin həyata keçiriləcəyi şura və təşkilatın da qeyd olunması belə bir fərqin mümkünlüyünə sübutdur.

İstinad etdiyimiz əsasnaməni ümumilikdə şərh etməzdən əvvəl qeyd edək ki, dissertasiyanın rəsmi baxışı üçün işin hazırlanacağı və ya iddiaçının rəsmi olaraq bağlı olduğu təşkilatın mövcud olması tələb olunur, yəni "kənardan" işlər ekspertizaya təqdim oluna bilməz. Sadəcə onları təqdim edəcək bir yer yoxdur.

Yuxarıda göstərilən Elmi dərəcələrin verilməsi qaydaları haqqında Əsasnamənin məzmununa əsasən, ilkin müdafiə (ilkin ekspertiza) dissertasiyanın hazırlandığı təşkilatda və ya iddiaçının bağlı olduğu təşkilatda aparılır və dissertasiyanın hansı təşkilatda müdafiə olunmasından asılı olmayaraq həyata keçirilir.

Bu zaman müdafiənin keçiriləcəyi təşkilatda ikinci dəfə ilkin müdafiə nəzərdə tutulmur və buna ehtiyac yoxdur.

Yuxarıda sitat gətirilən Elmi dərəcələrin verilməsi qaydaları haqqında Əsasnamədə ilkin ekspertiza prosedurları izah olunmasa da, əslində bu prosedurlar formalaşıb və əsasən yerinə yetirilir.

Adətən iş kafedrada və yaxud dissertasiya profili üzrə şöbədə, əlaqədar bölmələrin mütəxəssislərinin iştirakı ilə müzakirə olunur. Kafedra (şöbə, laboratoriya) müdiri, elmi rəhbərin iştirakı və zərurət olduqda təşkilatın rəhbərliyinin, doktoranturanın dəstəyi ilə, dissertasiya işinin mövzusuna uyğun ixtisaslaşmış, elmi dərəcəyə (elmi ada) malik iki-üç rəyçi təyin edir. Əksər hallarda bu rəyçilər ilkin müdafiənin keçirildiyi təşkilatın əməkdaşları olur, lakin rəyçilər kənardan da dəvət oluna bilər. İlkin müdafiənin tarixi əvvəlcədən təyin olunur və bu barədə iştirakçılara və iştirak etmək istəyənlərə məlumat verilir.

İlkin ekspertiza (ilkin müdafiə) proseduru dissertasiya müdafiəsinin sadələşdirilmiş şəkildə imitasiyası əsasında həyata keçirilir və aşağıdakı əməliyyatları əhatə edir:

1. Dissertantın dissertasiya işi haqqında məlumatı (15-20 dəqiqə).
2. Dissertasiya işi ilə xüsusi tanış olan rəyçilərin çıxışları.
3. Dissertantın rəyçilərin qeydləri, iradları və təkliflərinə cavabları.
4. Dissertantın müzakirədə iştirak edənlərin suallarına cavabları.
5. Müzakirədə iştirak edənlərin çıxışları.
6. Müzakirənin nəticələrinin yekunlaşdırılması və səsvermə yolu ilə rəyin qəbul edilməsi.

İlkin müdafiənin bütün proseduru videokamera ilə qeydə alınır və dissertasiya müdafiəsindən sonra digər sənədlərlə birlikdə AAK-a təqdim olunur.

İclas protokolla rəsmiləşdirilir və bu protokolun çıxarışı dissertasiya işinin növbəti mərhələyə keçməsi üçün lazım olan sənəd sayılır. İclas protokolunun çıxarışı iclasa sədrlik edən şəxs tərəfindən imzalanır, ilkin müdafiənin keçirildiyi təşkilatın rəhbəri tərəfindən təsdiqlənir və möhürlənərək dissertanta verilir.

Əgər dissertasiya işinin təkrar nəzərdən keçirilməsini tələb edən əhəmiyyətli düzəlişlər edilmədən müdafiəyə tövsiyə olunduğu qeyd edilərsə, rəy müsbət hesab olunur. Dissertanta bəzi düzəlişlərin edilməsi zərurəti göstərilə bilər və bu düzəlişlərdən sonra iş müdafiəyə tövsiyə olunur.

Belə düzəlişlərin edilməsi faktını bəzən rəyçilər də təsdiq edir.

İşin yenidən nəzərdən keçirilməsini tələb edən əhəmiyyətli əlavə və dəyişikliklərin edilməsi qərarının qəbul olunması da mümkündür, ən ağır halda isə işin tamamilə yenidən işlənməsi barədə qərar verilir.

İclas protokolunun çıxarışında aşağıdakılar qeyd olunur:

1) protokolun nömrəsi və iclasın tarixi;

2) dissertasiyanın mövzusu və müəllifi haqqında məlumatlar;

3) rəyçilər haqqında məlumatlar;

4) işin müdafiəyə tövsiyə olunması barədə qərar;

5) mövzunun aktuallığının təsdiqi;

6) dissertantın şəxsi nəticələrinin qısa təsviri;

7) işdə yer alan elmi müddəaların, qənaətlərin və tövsiyələrin əsaslılığının sübutu;

8) dissertasiyanın yeniliyi və praktik dəyərinin təsdiqi;

9) dissertasiya işinin elmi nəşrlərlə dəstəklənməsi haqqında məlumatlar;

10) dissertasiya işinin müdafiəyə tövsiyə edildiyi ixtisasa uyğunluğunun təsdiqi.

İlkin müdafiəyə müdafiədən az olmayan səviyyədə hazırlaşmaq lazımdır.

Əvvəla, bu, premyeranın baş tutması üçün zəruri olan bir növ baş məşqdir. İkincisi, ən çox hallarda dissertasiya məhz ilkin müdafiədə əsaslı şəkildə nəzərdən keçirilir və faydalı qeydlər irəli sürülə bilər ki, bu da işi təkmilləşdirmək və gələcəkdə riski azaltmaq baxımından faydalıdır.

Bundan əlavə, ilkin müdafiə sizin elmi rəhbərinizin və sizin şəxsi nəzarətiniz altında olur, halbuki bunu, müdafiə ilə bağlı eyni dərəcədə əminliklə demək mümkün deyil. Buna görə də, nə qədər ki, siz prosesin idarə olunmasında iştirak edirsiniz, əsas hadisələr baş verməyə başladıqda möhkəm dayana biləcəyiniz etibarlı bir təməl qoymalısınız.

İlkin müdafiəyə qədər dissertasiyanı tam hazırlamaq və rəyçiləri təmin edəcək sayda nüsxələr hazırlamaq lazımdır. Özünüz üçün, elmi rəhbəriniz üçün və iclasda iştirak edən maraqlanan şəxslər üçün bir-iki nüsxə saxlamaq məqsədəuyğundur.

Avtoreferatın maketini ilkin ekspertizaya hazırlamaq məqsədəuyğundur. Onun mövcudluğu, iclas iştirakçılarının dissertasiya işi ilə daha operativ tanış olmasına kömək edəcək, çünki dissertasiya nüsxələrini çoxaltmaq, avtoreferatla müqayisədə daha çətindir. Buna görə də, ilkin müdafiəyə həm dissertasiya nüsxəsini, həm də avtoreferatın nüsxəsini iştirakçıların tanış olması üçün yetərli sayda təqdim etmək daha məqsədəuyğundur.

İlkin müdafiə anından etibarən bütün sənədləri əvvəlcədən öz tərəfinizdən hazırlayacağınızı dərk etməlisiniz.

Doktorantura işçiləri və təcrübəli həmkarlar sizə məsləhətlər verəcək və yaxud əvvəlki iddiaçıların sənəd tərtibatı nümunələrini təqdim edəcəklər.

Beləliklə, iclas iştirakçılarının siyahısını hazırlayın, hər biri ilə iştirak barədə razılaşın, ilkin müdafiənin zamanının vaxtlı-vaxtında təyin olunmasını təmin edin, müzakirənin keçiriləcəyi yer barədə razılaşın, sonuncudan bir gün qabaq və son gündə iştirakın təmin olunduğuna əmin olun, videoyazını təmin edin. Protokolun və protokol çıxarışının düzgün tərtibatına da nəzarət edin.

İlkin müdafiə zamanı özünüzə tənqidi yanaşın. Əgər dissertasiyanın çatışmazlıqları asanlıqla aradan qaldırıla bilirsə

və işin ümumi keyfiyyətini şübhə altına almırsa, onları qəbul etmək cəsarətini göstərin.

Çalışın ki, yekun qərar aşağıdakı cümlə ilə bitirilsin: "İclas dissertasiyanın müzakirə zamanı irəli sürülmüş qeydlər, iradlar və təkliflər əsasında yenidən işlənməsini və sonra işin təkrar nəzərdən keçirilmədən müdafiəyə qəbul edilməsini tövsiyə edir".

Əgər ilkin müdafiə zamanı proseslər istədiyiniz kimi getmirsə və rəyçilərin və digər iştirakçıların iradlarına qarşı dayana bilmirsinizsə, nəticəyə belə bir cümlə də əlavə edə bilərsiniz: "Rəyçilərə düzəlişlərin işə daxil edilməsini yoxlamaq tapşırılsın".

Ən pis halda, işi yenidən nəzərdən keçirmək zərurəti ilə razılaşmalı olacaqsınız, bu isə çox arzuolunmazdır, çünki ləngimələrə səbəb olacaq və müdafiədən öncəki mövqeyin zəifləməsinə gətirib çıxaracaq.

İlkin müdafiədə çıxışınız zamanı təvazökar, lakin inamlı olun. Bu hələ müdafiə deyil, qarşınızda dissertasiyanın taleyini qəti olaraq həll edən insanlar yoxdur. Buna görə də daha cəsarətli olmağa, öz mövqeyinizi qorumağa, işinizi tənqid edənlərlə mübahisə etməyə daha çox cəhd göstərə bilərsiniz. Elmi rəhbərinizi də köməyə çağırın, çünki onun iclasdakı iştirakı son dərəcə vacibdir, xüsusən də o, bu auditoriyada tanınmış bir nüfuz sahibidirsə.

Yuxarıda qeyd edilən məsləhət və tövsiyələrə əməl etmək, iddiaçının minimal zəruri təşkilatçılıq və məsuliyyət səviyyəsinə malik olması halda, dissertasiyanın ilkin ekspertizasının uğurla keçirilməsini təmin edir və bununla da dissertasiyanın müdafiəsi yolunda irəliləmək imkanı yaradır.

İlkin müdafiə prosesində əldə edilən uğur gecikmədən dissertant tərəfindən işin keyfiyyətini artıran dəyişikliklərin operativ şəkildə dissertasiyaya və avtoreferata daxil edilməsi ilə möhkəmləndirilməlidir.

Müzakirə zamanı səsləndirilən təkliflərdən yalnız işin keyfiyyətini həqiqətən yaxşılaşdıran, səhvləri aradan qaldıran, boşluqları dolduran, işlə tanış olan ekspertlərin obyektiv tələblərini əks etdirən təklifləri tam şəkildə nəzərə almaq lazımdır. Emosiyalardan, səriştəsizlikdən və işin məzmununu bilməməkdən irəli gələn digər irad və təkliflərə isə sadəcə diqqət yetirmək lazım deyil. İşi yazanın bu irad və təkliflərlə razılaşmaq və ya razılaşmamaq hüququ var.

### 5.5. İşin Dissertasiya şurasına təqdim edilməsi və şurada ilkin baxış

***Elm adamlarının qiymətini bilməyən, onlara layıq olmadıqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər.***
***Volter***

Dissertasiyanın ilkin ekspertizasından (müdafiəsindən) müvəffəqiyyətlə keçməsi haqqında protokol alındıqdan, işə zəruri dəyişikliklər və əlavələr edildikdən, avtoreferat tərtib edildikdən sonra, dissertasiya müdafiəsi proqramını yerinə yetirməyin növbəti mərhələsinə keçmək olar.

Söhbət dissertasiya işinin müdafiəsinin aparılacağı Dissertasiya Şurasında ilkin baxış üçün təqdim edilməsindən gedir. Belə şuranın seçimi, əksər hallarda, iddiaçının hazırlıq keçdiyi və ya onun təhkim olunduğu təşkilat tərəfindən əvvəlcədən müəyyən edilir.

Əgər bu təşkilatlarda müvafiq ixtisas üzrə dissertasiya şurası varsa, bu barədə heç fikirləşməyə dəyməz. Əks halda, yəni, təşkilatda tələb olunan profilli dissertasiya şurası mövcud deyilsə, o zaman iddiaçı bu halda Azərbaycanın hər hansı dissertasiya şurasına müraciət edə bilər ki, həmin şura həmin ixtisas üzrə dissertasiyaların müdafiəsini qəbul etsin.

Dissertasiya Şurasına müraciət iddiaçının Dissertasiya Şurası sədrinə ünvanladığı Ərizə formasında olur. Ərizə sərbəst formada tərtib edilir, lakin iddiaçının kimliyi, iddia edilən elmi dərəcə, dissertasiyanın mövzusu, işin hansı yerdə yerinə yetirildiyi, elmi rəhbər haqqında məlumatı əhatə etməlidir. Ərizədə dissertasiyanın ilk dəfə müdafiəyə təqdim olunduğu da qeyd edilməlidir.

Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

1) iddiaçının iş yerindən təsdiq edilmiş, fotoşəkilli kadr uçotu şəxsi vərəqi (2 nüsxə);

2) fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün iddiaçının ali təhsil haqqında sənədinin təsdiqlənmiş surəti;

3) namizədlik imtahanlarının verilməsi haqqında vəsiqə (1 əd.);

4) iddiaçının elmi işlərinin siyahısı;

5) dissertasiya işinin yekun formada və tam şəkildə tərtib edilmiş, rəsmiləşdirilmiş nüsxələri təşkilatın kitabxanasına, rəsmi opponentlərə, eləcə də müdafiədən sonra M.F.Axundov adına Milli Kitabxanaya və Dissertasiya Şurasında bir-iki nüsxə saxlamaq üçün kifayət qədər miqdarda nüsxələri.

Təcrübə göstərir ki, Dissertasiya Şurasına ən azı dörd nüsxə dissertasiya təqdim edilməlidir (beşi daha məqsədəuyğundur);

6) dissertasiya işinin nüsxələrinin sayına təxminən bərabər miqdarda, lakin 4-5-dən az olmayan avtoreferatın əlyazma nüsxələri hazırlanmalıdır. Çünki iki nüsxə kitabxanaya təqdim olunacaq. Gələcəkdə, dissertasiya şurası dissertasiyanı müdafiəyə qəbul etdikdən və rəsmi opponentləri təyin etdikdən sonra, avtoreferatın lazımi sayda nüsxələri tamamlanmalı və yayılmağa hazır olmalıdır. Mövcud qaydalara uyğun olaraq, dissertasiyanın bütün nüsxələri və avtoreferatın əsas nüsxələri iddiaçı tərəfindən dissertasiyanın titul vərəqində və avtoreferatın üz qabığında imzalanmalıdır;

7) dissertasiyanın yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu təşkilatın protokolu (rəyi) (1 nüsxə). Bu,

dissertasiyanın uğurlu ilkin müdafiəsinin sənədləşdirilmiş təsdiqindən başqa bir şey deyil. Qeyd edildiyi kimi, rəy kafedra (laboratoriya, sektor, şöbə) iclasının protokolundan geniş çıxarış şəklində tərtib olunur, təşkilat rəhbəri tərəfindən imzalanır və təşkilatın möhürü ilə təsdiqlənir.

Qeyd edək ki, bu məsələlərin hamısı barədə iddiaçıya **dissertasiya şurasının elmi katibi** hərtərəfli məlumat verməlidir. Bu kitabın müəllifləri sadəcə olaraq, iddiaçını işin mahiyyəti ilə tanış edir ki, o, vəziyyətə özü nəzarət edə bilsin.

Qeyd edək ki, dissertasiya şurası iddiaçıdan dissertasiya mövzusu üzrə əsas elmi işlərini təqdim etməyi və onları şura üzvlərinin və gələcək rəsmi opponentlərin nəzərdən keçirməsi üçün tələb edə bilər.

Beləliklə, siz dissertasiya şurasına dissertasiyanın ilkin baxışı və müdafiəyə qəbul edilməsi üçün zəruri sənədlərin hamısını təqdim etmisiniz. İndi iş dissertasiya şurasındadır. Şuranın sədri, onun müavinləri və elmi katibi işə növbəti mərhələdə yön verməlidirlər. Dissertasiya şurası bütün ilkin baxış prosedurlarını həyata keçirməyə və işi müdafiəyə qəbul etmək və ya qəbuldan imtina etmək barədə əsaslandırılmış qərar qəbul etməyə borcludur.

Qaydalar dissertasiyanın dissertasiya şurasında ilkin baxışı üçün olduqca mürəkkəb və çoxpilləli prosedur nəzərdə tutur.

Əvvəlcə şura ilk iclasını keçirməlidir, bu iclasda şura üzvləri dissertasiya işinin mövzusu və ixtisası üzrə şuraya daxil olduğu barədə məlumatlandırılırlar.

Əgər sənədlər və ixtisasla bağlı digər məsələlər üzrə heç bir etiraz olmazsa, iş dissertasiyaların müdafiəsi üzrə Dissertasiya Şurasının Elmi Seminarına təqdim edilir.

Elmi seminarda dissertasiyanın müdafiədən əvvəl son “sınağı” keçirilir.

İddiaçının dissertasiya işinin elmi seminarda müzakirəsi proseduru ümumilikdə ilkin müdafiə proseduru ilə üst-üstə düşür:

1. Dissertantın dissertasiya işi haqqında məlumat verməsi (15-20 dəqiqə).

2. Dissertasiya işi ilə xüsusi olaraq tanış olmuş rəyçilərin çıxışları.

3. Dissertantın rəyçilərin qeydləri, iradları və təkliflərinə cavabları.

4. Müzakirədə iştirak edənlərin dissertanta sualları və suallarına cavablar.

5. Müzakirədə iştirak edənlərin çıxışları.

6. Müzakirənin yekunlaşdırıılması və nəticələrin çıxarılması, gizli səsvermə ilə qərar qəbul edilməsi.

Bütün elmi seminar proseduru videokamera vasitəsilə qeydə alınır və sonra, digər sənədlərlə birlikdə, dissertasiyanın müdafiəsindən sonra, AAK-a təqdim olunur.

İclasa dair protokol tərtib edilir, və bu protokoldan çıxarış dissertasiya işinin gələcək mərhələdə hərəkəti üçün zəruri olan rəsmi sənədləşdirilməsidir. Protokoldan çıxarış seminar rəhbəri tərəfindən imzalanır, möhürlə təsdiqlənir, və bu sənəd dissertanta təqdim olunur.

Nəticə o halda müsbət hesab edilir ki, dissertasiya işinin təkrar baxılmasını tələb etməyən ciddi düzəlişlər olmadan müdafiəyə tövsiyə olunsun. Dissertanta işin ayrı-ayrı hissələrində təkmilləşdirmə zərurəti göstərilə bilər ki, bunlar yerinə yetirildikdən sonra işin müdafiəyə tövsiyə olunması mümkündür.

Belə düzəlişlərin həyata keçirilməsi faktını bəzən rəyçilər təsdiq edirlər.

Bəzi hallarda mümkündür ki, işin yenidən seminarda nəzərdən keçirilməsini tələb edən ciddi əlavələrin və dəyişikliklərin reallaşdırılması haqqında qərar qəbul olunsun.

Ən ağır halda isə, işin tamamilə yenidən yazılması qərara alınır.

Əgər seminar dissertasiyanı müdafiəyə tövsiyə edirsə, onda bütün müşayiətedici sənədlər (ilkin müdafiə və seminar

materialları) iddiaçı tərəfindən Müdafiə üzrə Dissertasiya Şurasına təqdim edilir.

Növbəti mərhələdə, Dissertasiya Şurası dissertasiya mövzusuna uyğun olan üç şura üzvündən ibarət komissiya təşkil edir, və onlara dissertasiya və avtoreferatla tanış olmaq və dissertasiyanın müvafiq elmi sahələrinə uyğun olub-olmadığı barədə rəy hazırlamaq, müəllifin nəşr etdiyi işlərdə dissertasiya materiallarının tam əks olunub-olunmaması, onların elm və praktika üçün əhəmiyyəti barədə məlumat vermək və rəsmi opponentlərin təyin edilməsi təklifi ilə çıxış etmək tapşırılır.

Əgər komissiya dissertasiya mövzusu üzrə kifayət qədər ixtisaslaşmış mütəxəssisin Dissertasiya Şurasında olmadığını müəyyən edərsə, o, yalnız bir iclasda, yəni müdafiəyə həsr olunmuş iclasda iştirak etmək üçün əlavə üzvlərin şuraya daxil olunmasını tövsiyə edir.

Dissertasiya Şurası tərəfindən təyin edilmiş komissiya, zərurət olduqda, Dissertasiya Şurası yaradılmış təşkilatın mütəxəssislərini cəlb edərək tələb olunan rəyi hazırlayır.

Hazırlanmış rəy komissiya tərəfindən Dissertasiya Şurasına təqdim edilir. Müdafiə yekunlarına əsasən, həmin komissiyaya Dissertasiya Şurasının Yekun rəyinin layihəsini hazırlamaq tapşırığı da verilir.

Komissiyanın rəyi Dissertasiya Şurasının növbəti (ikinci) iclasında dinlənilir və iclasa iddiaçı dəvət olunur. Komissiya sədri işin müdafiəyə qəbul edilməsinin məqsədəuyğunluğu, rəsmi opponentlərin təyini ilə bağlı öz rəyini bildirir.

Dissertasiya Şurası işi müdafiəyə qəbul etmək barədə müsbət qərar qəbul etdikdə, belə qərarda aşağıdakılar göstərilir:

a) müdafiə tarixi (avtoreferatın göndərilməsindən ən azı bir ay sonra);

b) rəsmi opponentlərin təsdiqlənmiş siyahısı;

c) dissertasiyanın avtoreferatını əlyazma hüququ ilə, Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş

təşkilatlara və dissertasiya şurası tərəfindən mütəxəssislərin tövsiyələrinə uyğun olaraq müəyyən edilmiş əlavə siyahıya yayılmasını təmin edəcək tirajda çap etməyə icazə.

Xatırladaq ki, Elmi dərəcələrin verilməsi qaydaları haqqında Əsasnaməyə əsasən, dissertasiyanın müdafiəsi iddiaçının dissertasiyanın əsas nəticələrini əks etdirən işlərinin nəşrindən ən azı bir ay sonra həyata keçirilə bilər.

Elmi etikaya uyğun olaraq, Dissertasiya Şurası rəsmi opponentləri təyin etmək qərarına gəlməzdən əvvəl onların veriləcək missiyanı yerinə yetirmək üçün ilkin razılığını almalıdır. Dissertasiya Şurasının müraciəti yazılı formada ifadə edilir.

Rəsmi opponentlərin əməyi dövlət tarifləri ilə müəyyən edilmiş qaydada ödənilir və rəylərin hazırlanmasına çəkilən xərcləri kompensasiya edir.

Dissertasiya Şurasına təqdim edilmiş dissertasiya işinin materiallarının ilkin baxışı proseduruna qayıtsaq qeyt etmək lazımdır ki, real təcrübədə bu prosedurlar təlimatlarda nəzərdə tutulduğu qədər formal deyildir, bu isə, sözgəlişi, işin komissiya səviyyəsidə təhlilinin keyfiyyətinə zərər vermir. Dissertasiyanın müdafiəyə qəbul edilməsi qərarını qəbul etmək üçün şuranın iclası mütləqdir, lakin bu iclas operativ qaydada keçirilə bilər.

Fikrimizcə, dissertantın özü və onun elmi rəhbərinin dissertasiyanın Dissertasiya Şurasında ilkin baxışında iştirak etməsi tamamilə məqbul və hətta faydalıdır.

Rəsmi opponentlər haqqında bir sıra əlavə qeydlər edək.

Bu əsas fiqurlar (elmi rəhbərlə yanaşı), müdafiə prosesinin son mərhələsində səhnəyə çıxır, lakin müdafiədə əsas rol oynayırlar. Buna görə də onları seçərkən xüsusi diqqət yetirilməlidir.

Rəsmi opponentlərin seçilməsi və təyin edilməsi məsələsində formal cəhət də var – Elmi dərəcələrin verilməsi qaydaları haqqında Əsasnamənin tələblərinə əməl olunması

zəruridir, və qeyri-formal cəhət – yəni bu vəzifəni qəbul etməyə hazır olan, məsuliyyətli və layiqli şəxsləri tapmaq.

Mövcud qaydalara əsasən, dissertasiya şuraları dissertasiya işinə rəsmi opponentləri müvafiq elmi sahə və ixtisas üzrə ixtisaslı alimlər arasından təyin edirlər.

Dissertasiyaya 3 rəsmi opponent təyin edilir ki, onlardan biri mütləq elmlər doktoru olmalıdır, ikinci və üçüncü isə fəlsəfə doktorları ola bilərlər.

Rəsmi opponentlər AAK-ın üzvləri, AAK-ın ekspert şuralarının rəhbərləri, dissertasiya işinə baxılan dissertasiya şuralarının sədrləri, sədr müavinləri və elmi katibləri, iddiaçının elmi rəhbərləri, iddiaçının dissertasiya mövzusuna aid dərc olunmuş işlərinin həmmüəllifləri, eləcə də dissertasiyanın yerinə yetirildiyi və ya iddiaçının işlədiyi universitetlərin rektorları və prorektorları, təşkilat rəhbərləri və onların müavinləri, kafedralar, laboratoriyalar, sektorlar, şöbələrdə çalışan əməkdaşlar, həmçinin iddiaçının sifarişçi və ya icraçı (həmmüəllif) olduğu elmi-tədqiqat işlərinin aparıldığı təşkilatların əməkdaşları ola bilməz.

Rəsmi opponentlər müxtəlif təşkilatların əməkdaşları olmalıdırlar.

Məhz bu tələblərə, sonradan yaranacaq anlaşılmazlıqların qarşısını almaq üçün, mütləq şəkildə əməl edilməlidir.

Opponent, öz roluna uyğun olaraq, dissertasiya işini diqqətlə oxumalı və ona rəy yazmalıdır.

Bəs rəsmi opponent qismində kimi seçmək lazımdır, bir halda ki, belə bir seçim var? Bu suala cavab vermək üçün opponentin müdafiə zamanı yeri və rolunu başa düşmək vacibdir.

Lüğətlərə əsasən opponent – tənqidlə çıxış edən şəxs, mübahisədə rəqibdir. Bu yanaşma sizin rəqiblərinizə, sizə qarşı olan şəxslərə şamil edilə bilər, lakin rəsmi opponentlərə aid deyil.

İddiaçı ilk növbədə öz rəsmi opponentlərindən deyil, özündən başqa heç kimin elmdə uğur qazana bilməyəcəyini düşünən bəzi təkəbbürlü alimlərdən çəkinməlidir.

Qərəzsiz, obyektiv olan rəsmi opponent rəqib deyil, əksinə iddiaçının əsas müttəfiqi, onun real dayağıdır.

Amma, iş bundadır ki, opponent öz roluna uyğun olaraq əsas tənqidçi kimi çıxış edir, dissertasiyanın zəif cəhətlərini üzə çıxarmaq qabiliyyətinə malikdir, lakin eyni zamanda o, işin üstünlüklərini də qiymətləndirə bilən şəxsdir.

Nəzərə alın ki:

a) vicdanlı opponent ona xoş gəlməyən işə opponetlik etməkdən sadəcə imtina edər;

b) opponetlik etməyə razılaşmış şəxs iddiaçıya və onun işinə elə əvvəlcədən müsbət münasibət bəsləyir;

c) rəsmi opponentin dissertasiyanı “batırmaq” marağı yoxdur, tənqidi bir rəylə kifayətlənərək, tələb olunan elmi dərəcənin verilməsinin mümkünlüyü qənaətini qeyd edir.

Elmi dərəcələrin verilməsi qaydalarına əsasən, iddiaçının istəyinə uyğun olaraq, rəsmi opponentlərin mənfi rəyləri olsa belə, Dissertasiya Şurası dissertasiyanın müdafiəsini keçirməlidir.

Beləliklə, opponentinizin sizin müttəfiqiniz olacağını gözləmək lazımdır. O, ilk növbədə, sizi dissertasiya şurasının üzvlərinin hücumlarından qoruyacaq və sizin öz səhvlərinizin peşmanedici nəticələrindən uzaq tutacaq. Bu mülahizələri nəzərə alaraq, nüfuzlu, tanınmış, adlı-sanlı opponentlər axtarmaq lazımdır.

Yuxarıda deyilənlərə əsaslanaraq qeyd edək ki, yüksək nəciblik və dərin intellektuallıq indiki azərbaycanlı alimlərin əksəriyyətinə xasdır.

Kitabın müəllifləri tam əmindirlər ki, elmlə məşğul olan, demək olar ki, bütün insanlar, vəzifələrindən, dərəcələrindən, titullarından asılı olmayaraq, daxili dürüstlüyə, qarşılıqlı

rəğbətə malikdirlər, bu isə ən yaradıcı və sirlərlə dolu bilik prosesinə mənsubluğun nəticəsidir.

Alimlərimiz bir-biri ilə razılaşmamağa, mübahisə etməyə və müzakirələr aparmağa meyllidirlər, lakin yalnız mənasız, heç nəyə yaramayan insanlar zərər verə bilirlər. Onlar elm adamı deyil, elm adını murdarlayanlardır.

# FƏSİL VI. DİSSERTASİYANIN MÜDAFİƏSİ

Dissertant elmi dərəcə əldə etmək üçün işinin son mərhələsi haqqında nə bilməlidir? Əvvəlcə bəzi formal məlumatları qeyd edək.

Dissertasiyanın müdafiəsindən ən azı bir ay əvvəl, avtoreferat və müdafiə haqqında elanın mətnləri dissertasiya şurasının təşkil edildiyi təşkilatın veb saytında, internet şəbəkəsində yerləşdirilməlidir.

Avtoreferat dissertasiyanın müdafiəsindən ən gec bir ay əvvəl göndərilməlidir. Bu şərtə ciddi əməl etmək lazımdır.

Rəsmi opponentlərin yazılı rəylərinin surətləri müdafiədən ən azı on gün əvvəl dissertasiyanı müdafiə edəcək şəxsə təqdim edilməlidir. Çünki iddiaçı rəsmi opponentlərin tənqidi qeydləri ilə tanış olmalı və dissertasiya şurasının iclasında müdafiə prosesində səsləndiriləcək bu qeydlərə cavab hazırlamalıdır.

Problemlərin qarşısını almaq üçün avtoreferatı müdafiədən bir aydan daha əvvəl göndərmək məsləhətdir.

## 6.1. Rəylərin toplanması prosesi

***"Bilənlərdən soruşaraq biliyə can at, əgər bilmirsənsə"***
***(Surə Ənbiya, Peyğəmbərlər, Ayə 7)***

Dissertasiya işinin müdafiəyə hazırlanması prosesinə qayıdaq. Dissertasiya şurası işi müdafiəyə qəbul etdikdən sonra aşağıdakı məqamlar həyata keçirilməlidir:

a) dissertasiyanın avtoreferatı tələb olunan sayda nüsxələrdə çoxaldılmalı, müdafiə tarixi qeyd edilməklə, dissertasiya şurasının elmi katibi, elmi seminarın rəhbəri və Dissertasiya şurasının sədri tərəfindən imzalanmalı, iddiaçı tərəfindən vizalanmalı və məcburi və əlavə siyahılarda olan ünvanlara göndərilməlidir; əlavə siyahıya rəylərini almağa ümid etdiyiniz təşkilatlar və şəxslər daxil edilir;

b) dissertasiya işi tələb olunan sayda nüsxələrdə (4-5) çoxaldılmalı, cildlənməli və iddiaçı tərəfindən üz qabığında imzalanmalıdır;

c) dissertasiya işi və avtoreferat rəsmi opponentlərə şəxsən təqdim edilməlidir.

Dissertant bu prosedurların icrasına şəxsən nəzarət etməli, lazım gələrsə, onların həyata keçirilməsinə kömək etməli və iştirak etməlidir.

Müdafiəyə qədər qalan müddət ərzində dissertasiya şurasına təqdim etmək üçün aşağıdakı sənədləri almaq və çatdırmaq lazımdır:

1) dissertasiya işində aparılmış tədqiqatın nəticələrinin müxtəlif təşkilatlarda tətbiqi və istifadəsi haqqında arayışlar (əgər bu arayışlar varsa);

2) Əsasnamənin tələblərinə uyğun tərtib edilmiş rəsmi opponentlərin rəyləri (iki nüsxədə olması məsləhətdir), onların şəxsi imzaları ilə təsdiq edilmiş, opponentin işlədiyi təşkilatın möhürü və ya notarial qaydada təsdiq olunmuş;

3) elmi rəhbərin iddiaçının dissertasiyanın hazırlanması dövründəki fəaliyyəti haqqında rəyi;

4) avtoreferata rəy (əgər varsa) hər biri iki nüsxədə olmaqla, tərtib edənlərin möhürlə təsdiq edilmiş imzaları ilə təmin olunmuş şəkildə.

Bu sənədlərin hər biri əvvəlcə tərtib edilməli, sonra lazımi prosedurdan keçirilməli, imzalar toplanmalı, mövcud qaydalara uyğun olaraq rəsmiləşdirilməli və təyinat üzrə təqdim edilməlidir.

**Müdafiənin baş tutması üçün zəruri olan rəylərin məzmunu və onların tərtib qaydalarından danışaq.**

Əsasnaməyə uyğun olaraq, rəsmi opponentin yazılı rəyi mütləq aşağıdakıları qiymətləndirilməni ehtiva etməlidir:

a) dissertasiya mövzusunun aktuallığının qiymətləndirilməsi;

b) dissertasiyada irəli sürülən elmi müddəaların, nəticələrin, qənaətlərin və tövsiyələrin əsaslandırılma dərəcəsi;

c) işin nəticələrinin, qənaətlərinin, müddəalarının və tövsiyələrinin etibarlılığı və yeniliyi.

Bir çox rəsmi opponentlər rəyləri məhz bu sxemə uyğun tərtib edirlər, lakin bəziləri rəyə dissertasiya işinin bölmələrinin qısa xülasəsini, şərhlərlə birlikdə və iddiaçının ən mühüm nailiyyətlərini vurğulamaqla daxil etməyə üstünlük verirlər.

Belə qəbul olunub ki, rəsmi opponentin rəyi tənqidi hissəni ehtiva etməlidir, bu hissə adətən işin məzmunu və nəticələri haqqında geniş şərhlərdən sonra gəlir.

Bu cür tənqidi hissə bir neçə geniş bənddən ibarət olur, burada işin mahiyyət-məzununa, metodikasına və üslubuna aid olan əhəmiyyətli çatışmazlıqlar, opponentin fikrincə, iddiaçı tərəfindən buraxılmış səhvlər göstərilir.

Bir qayda olaraq, opponent rəydə daha sonra qeyd edir ki, işdə buraxılan səhvlər dissertasiyanın keyfiyyətini əhəmiyyətli dərəcədə azaltmır və işin ümumi müsbət qiymətləndirilməsinə təsir göstərmir.

Burada opponentin qarşısında mürəkkəb bir vəzifə durur: bir tərəfdən dissertasiyanın çatışmazlıqlarını aşkar etmək, digər tərəfdən isə onları məqbul həddə məhdudlaşdırmaq.

Rəsmi opponentin rəyini yekun qənaət tamamlayır. Burada dissertasiya işinin aktual mövzu üzrə yekunlaşdırılmış tədqiqat olduğu, nəticələrinin nəzəri və praktiki əhəmiyyət daşıdığı, böyük elmi problemin və tətbiqi məsələnin həllini göstərdiyi bildirilir.

Bundan sonra müsbət rəy üçün mütləq olan qənaət verilir: “dissertasiya işi fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün AAK-ın tələblərinə cavab verir və işdə göstərilən ixtisas üzrə tələblərə uyğun gəlir”. İddiaçının müvafiq elmi dərəcənin verilməsinə layiq olduğu qeyd edilir.

Rəsmi opponentin rəyində həmçinin dissertasiya işində aparılan tədqiqatın əsas nəticələrinin elmi nəşrlərdə dərc edildiyi və avtoreferatın dissertasiyanın məzmununu obyektiv və tam şəkildə əks etdirdiyi qeyd edilməlidir. Rəsmi opponentin dissertasiya işinə verdiyi sanballı rəylərin həcmi 5-7 səhifə təşkil edir.

**Müsbət rəy nümunəsi**

**_S.A.A._-nın «Azərbaycan Respublikasının ASK-də sahibkarlığın formalaşması və inkişafı» mövzusunda 5312.01 «Sahə iqtisadiyyatı» ixtisası üzrə iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinə**

**RƏY**

*S.A.A.*-nın dissertasiya işinin mövzusu aktualdır və (*iddiaçının seçdiyi sahə*) müasir sosial-iqtisadi inkişaf şəraitində onun qoyuluşu əsaslandırılmış və qanunauyğundur.

Müəllif tərəfindən müəyyən edilmiş tədqiqatın məqsəd və vəzifələri, predmeti, obyekti məntiqi baxımdan ziddiyyət təşkil etmir və metodoloji və nəzəri bazaya uyğun gəlir.

Dissertasiya işinin əsas struktur komponentləri: giriş, iki fəsil, nəticə, biblioqrafik siyahı və əlavələr struktur baxımından qarşılıqlı əlaqəlidir, məzmunlu və məntiqi şəkildə bir-birini tamamlayır.

Alınmış nəticələrin dəqiqliyi və etibarlılığı işin ilkin parametrlərinin metodoloji əsaslandırılması, tədqiqatın predmetinə, vəzifələrinə və məntiqinə uyğun metodların tətbiqi, seçmə həcminin reprezentativliyi, statistik əhəmiyyəti və qənaətlərin ziddiyyətsizliyi ilə təmin edilir.

Tədqiqatın elmi yeniliyi aşağıdakıları ehtiva edir: (…).

Tədqiqatın praktiki əhəmiyyəti ondadır ki, (…).

Tədqiqatın nəzəri əhəmiyyəti isə (…) ilə bağlıdır.

Müəllif tərəfindən tədqiqatda qarşıya qoyulmuş vəzifələr həll edilmişdir, məqsədə nail olunmuşdur və qənaətlər nəzəri və praktiki əhəmiyyətli məsələlərə kifayət qədər uyğunluğu təmin edir, bu da aparılmış tədqiqatın etibarlılığını şərtləndirir.

Rəy verilən işin şübhəsiz elmi və praktiki dəyərinə baxmayaraq, işdə bəzi çatışmazlıqlar mövcuddur, o cümlədən:

1. İşdə təhsil alanların təhsilə davam etməyə hazırlığının müxtəlif yanaşmaları təsvir edilmişdir. Lakin, təklif olunan modelin qurulmasının əsasında bu yanaşmalardan hansının durduğu göstərilməmişdir.

2. Dissertasiyada tələbələrin peşə təhsili almağa hazırlığının göstəriciləri, səviyyələri və qiymətləndirmə meyarları kimi anlayışları daha aydın şəkildə fərqləndirilməlidir.

3. Tədqiqatda müəllif «proqram kompleksi» və «proqramlar kompleksi» terminlərindən istifadə edir. Bu anlayışlar arasında fərqin olub-olmaması aydın deyil.

Qeyd edək ki, çatışmazlıqlar və iradlar istənilən qədər ola bilər.

Rəydə avtoreferatın və dərc edilmiş işlərin dissertasiyanın məzmununa uyğun olduğu qeyd edilir.

"İradlara baxmayaraq, dissertasiya vahid, müstəqil və tam elmi-kvalifikasiya işidir. Burada Azərbaycan Respublikasının ASK-də sahibkarlığın inkişafı üçün əhəmiyyətli bir problemin həlli təqdim edilmişdir. İş fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün AAK-ın tələblərinə uyğun gəlir və onun müəllifi *A.A.S.*, 5312.01 "Sahə iqtisadiyyatı" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsinin verilməsinə layiqdir".

**Rəsmi opponent (Resenzent)**

**Rəy verən şəxsin iş yeri, vəzifəsi, elmi adı, elmi dərəcəsi**
**A.A.S.**

Tədqiqatın nəticələrinin tətbiqi və praktiki istifadəsinin təsdiqi kimi tanınan «tətbiq haqqında arayış»ları haqqında ayrıca danışmaq lazımdır.

Sayı 1-dən 3-ə qədər ola bilən belə arayışlar dissertasiya şurasına təqdim edilə bilər. Dissertasiya işinin nəticələrinin istifadəsi bu halda kifayət qədər geniş şəkildə başa düşülür və aşağıdakılardan ibarət ola bilər: dissertasiya materiallarının iddiaçı və ya digər mütəxəssislər tərəfindən mühazirələr zamanı istifadəsi; dissertasiya işinin materiallarının müxtəlif təşkilatların əvvəlki elmi hesabatlarına və ya məruzələrinə daxil edilməsi; dissertasiya mövzusuna dair elmi nəşrlərdə əks etdirilmiş müddəaların istənilən təsdiq edilmiş istifadəsi.

Təsdiq dissertasiya işinin nəticələrindən istifadə edən təşkilat tərəfindən dissertasiya şurasına təqdim edilən arayış və ya məktub şəklində rəsmiləşdirilir və bu arayışda materialların, nəticələrin və dissertasiya işinin müddəalarının həmin təşkilatda tətbiq edildiyi sahələr göstərilir.

Son zamanlar "tətbiq haqqında arayış"ın təqdim olunması məcburi deyildir.

Avtoreferata rəylər dissertasiya işinə rəylərlə müqayisədə adətən daha sadə şəkildə verilir, çünki avtoreferata rəylərin həcmi dissertasiya işinə verilən rəylərdən təxminən beş dəfə azdır (2-3 səhifə) və onların hazırlanmasında bu qədər ciddi normativ tələblərə riayət edilməsinə ehtiyac yoxdur. Lakin əgər opponentlər və əsas təşkilat rəylər təqdim etməyə məcburdursa, avtoreferat üzrə rəy yazmaq məsələsi tamamilə könüllü bir missiyadır.

Son dövrlərdə avtoreferata rəylər sənədlər siyahısında artıq məcburi xarakter daşımız, yəni onların olmaması da mümkündür.

Eyni zamanda, siyahı üzrə göndərilmiş avtoreferatların biri və yaxud da bir neçəsi mütəxəssislərin əlinə keçərək, onların marağını cəlb edə bilər və onlar heç bir xarici təşviq olmadan,

avtoreferat üzrə rəylər yazıb, imzalayıb və təsdiq edib, dissertasiya şurasına göndərə bilərlər.

## 6.2. Dissertasiya müdfiəsinin təşkili işin təşkilində – uğurun rəhnidir

***Nə qədər böyük və mürəkkəb bir mövzu müzakirə olunursa, izah tərzi bir o qədər də sadə və sərbəst olmalıdır.***
***Stendal***

Bir çox uğursuzluqların səbəbi işin pis təşkil olunmasındadır. Daxili nizam-intizamsızlıq, məsuliyyətsizlik, uzaqgörənliyin olmaması, aşağı ixtisaslı və qeyri-peşəkar menecment o nəticəyə gətirib çıxarır ki, uğur üçün lazım olan çoxsaylı ilkin şərtlər və amillərin mövcud olmasına baxmayaraq, biz anlaya bilmədiyimiz uğursuzluqlar, işin pozulması, aşağı keyfiyyət və zəif nəticələr əldə edirik.

Bu, böyük ölçüdə dissertasiya müdafiəsinə, xüsusilə müdafiənin keçiriləcəyi dissertasiya şurasının iclasının keçirilməsi ilə əlaqəli olan son mərhələyə aiddir.

Müdafiədən bir ay əvvəl yerinə yetirilməli olan çoxsaylı böyük və kiçik işlər, saysız-hesabsız rəsmiyyətçilik və təxirəsalınmaz operativ tədbirlər sizdən yalnız öz fəal hərəkətlərinizi deyil, həm də müdafiə prosesinə birbaşa və ya dolayısı ilə cəlb olunmuş bir çox şəxsin aktivləşdirilməsini tələb edəcək.

Vəziyyət müdafiəyə bir-iki həftə qalmış daha da kəskinləşəcək, çünki siz bir-birinin ardınca hazırlıq prosesinin hansısa bir yerdə plana uyğun getmədiyini və işin gedişatına və nəticəsinə təhlükə yaradan gözlənilməz halların meydana gəldiyini aşkar edəcəksiniz.

Müstəqil olaraq bütün bu maneələri dəf etmək, müdafiə gününə qədər artan gərginliyi təkbaşına aradan qaldırmaq çox çətin olacaq. Buna görə də müdafiədən təxminən iki həftə

əvvəl həmkarlarınızdan, dostlarınızdan ibarət “dissertasiya müdafiəsinə dəstək komitəsi” formalaşdırın və komitə üzvləri arasında vəzifələri və funksiyaları bölüşdürün. Dissertasiya şurasının iclasının keçiriləcəyi yerə (zal) cavabdeh, opponentlərin və elmi rəhbərin müdafiəyə çatdırılmasına cavabdeh (əgər ehtiyac yaranarsa), maddi-texniki təminat (məsələn, mineral su), rəylərin təcili çatdırılması, materialların çap olunması üzrə məsul şəxsləri təyin edin.

Elmi təşkilatçılıqdan məhrum olan müdafiə o deməkdir ki, siz işin bütövlükdə pozulma riskinə məruz qala bilərsiniz.

Ətrafınızdakıların sizin müdafiənizin böyük bir hadisə olduğunu və daim yadda saxlamalı olduğu kimi aldadıcı bir hissdən uzaqlaşın. Sizin üçün bu, taleyüklü bir gündür, lakin başqaları üçün adi bir hadisədir. Dissertasiya şurasının sədrinin, onun müavinlərinin, elmi katibin, şura üzvlərinin yalnız rəyləri əldə etmək, şuranı və opponentləri toplamaq, müdafiəni keçirmək haqqında düşündüklərini, sizin nöqteyi-nəzərinizdən bunu ehtimal etmək təbii olsa da, çox vaxt səhv bir yanaşmadır.

Çox güman ki, dissertasiya şurasının bəzi üzvlərinin təyin olunmuş saatda başqa iclaslarda iştirak etməli, konfrans və ya “dəyirmi masa”larda çıxış etməli, ya da mühazirə oxumalı olacaqlar.

Halbuki, elmi dərəcələrin verilməsi qaydalarının tələblərinə əsasən, dissertasiya şurasının iclası yalnız onun tərkibinin üçdə iki hissəsi iştirak edərsə, səlahiyyətli sayılır. Buna görə, bu məsələni də nəzarətdə saxlamaq lazımdır.

Rəsmi opponentlərlə bağlı vəziyyət daha mürəkkəbdir. Onların müdafiədə iştirakı qaçılmazdır, çünki opponentlər rəyləri ilə şəxsən çıxış etməli və müdafiə prosesində birbaşa iştirak etməlidirlər.

Əsasnamədə deyildiyi kimi, rəsmi opponentlər dissertasiyanın müdafiəsində iştirak etməyə borcludurlar. Müsbət rəy vermiş yalnız bir rəsmi opponentin əsaslı səbəbdən

iştirakı olmadan dissertasiya müdafiəsinin keçirilməsinə icazə verilir. Bu halda, dissertasiya şurasının iclasında həmin opponentin rəyi tam şəkildə səsləndirilir.

Zəruri hallarda, dissertant opponentləri şuranın iclasına öz nəqliyyatı ilə çatdırmalıdır. Bu arada, bu, onlara qarşı şəxsi hörmətinizi bir daha göstərmək üçün bir fürsətdir.

Opponent rəylərindən əlavə, şuranın iclasında ən azı üç üzvün çıxış etməsi və eyni zamanda müdafiəyə gələnlər arasında çıxış etmək istəyənlərin də söz alması vacibdir.

Bu, bir ənənədir və ona riayət etmək, dəqiq desək, ondan kənarlaşmamaq məsləhətdir.

Unutmayın ki, dissertasiya müdafiəsi dəqiq bir saat mexanizmi kimi işləməlidir, hər hansı bir pozuntu yolverilməzdir.

Ən yaxşısı, öz müdafiənizdən əvvəl şuranın bir-iki iclasında şəxsən iştirak etməkdir. Bunu demək olar ki, bütün ciddi iddiaçılar edirlər və bu qaydaya əməl etmək sizin öz xeyrinizə olacaqdır. Şuranın tərkibi ilə əvvəlcədən tanış olmaq, müdafiə proseduru, şura üzvlərinin, dissertantın və opponentlərin müdafiə zamanı davranışlarını öyrənmək sizə əvəzsiz xidmət göstərəcək və öz müdafiənizə hazırlıq prosesini xeyli asanlaşdıracaqdır.

## 6.3. İddiaçının özünü müdafiəyə hazırlaması

> ***"Kim elm öyrənmək yoluna qədəm qoyarsa,***
> ***Uca Allah onu Cənnətə aparan yola hidayət edər"***
> ***(hədis)***

Əvvəlki bölmədə iddiaçının özünün, elmi rəhbərinin, şuranın elmi katibinin və digər şəxslərin köməyi ilə opponentlərin, şura üzvlərinin və dissertasiya prosesinin iştirakçılarının hərəkətlərini necə təşkil etməli olduğu haqqında danışılmışdı ki, proses müəyyən edilmiş qaydalara və

normalara uyğun baş versin. Eyni zamanda, təkcə başqalarını deyil, özünüzü də müdafiəyə hazırlamaq lazımdır və bu işə səy və vaxt sərf etmək tələb olunur.

Artıq dissertasiya və avtoreferat hazırdır, opponentlərin dissertasiya işinə dair rəyləri gəlib çatır, dissertasiyanın nəticələrinin tətbiqi ilə bağlı arayışlar toplanmışdır.

İndi isə birbaşa müdafiə prosesinə, yəni onun əsas iştirakçısı rolunu oynamağa hazırlıq vaxtıdır. Bu rolun necə oynanması, çox zaman şura üzvlərinin “lehinə” və yaxud “əleyhinə” verdikləri səslər şəklində yekun nəticəyə təsir edir.

Şuranın iclasında əsas müddəaların və əldə olunmuş nəticələrin açıqlanacağı təqdimat (prezentasiya) və çıxışınızın mətnini hazırlamağın vaxtı gəlib çatıb.

Bu qısa məruzə, 15-20 dəqiqəlik (daha çox deyil) çıxış üçün nəzərdə tutulub və çıxışınızın qısa xülasəsi kimi mühüm əhəmiyyət daşıyır, çünki o, dissertasiya şurasının iclasının stenoqramına daxil ediləcək, bununla da dissertasiya işinin materiallarına daxil edilərək, AAK-da sizin elmi gələcəyinizin müəyyənləşdirilməsində rol oynaya bilər.

Çıxış mətni ilə paralel olaraq, təqdimatda göstəriləcək cədvəllər, sxemlər, diaqramlar, qrafiklər şəklində çıxışa aid illüstrativ materialları da düşünmək və hazırlamaq lazımdır.

Çıxış mətninin həcmi ayrılan vaxtla sərt şəkildə əlaqəlidir. Materialın orta sürətlə təqdim olunması zamanı standart səhifədəki (1800 işarə) mətnin çatdırılması üçün təxminən iki dəqiqə vaxt tələb olunur. Buna görə də çıxış mətninizin həcmi 7-8 səhifədən çox olmamalıdır.

Nəzərə almaq lazımdır ki, iddiaçı öz yazılı mətnindən kənara çıxaraq danışdıqda (bu olduqca təbiidir), o, bu mətnin hüdudlarını aşır, nəticədə real çıxış vaxtı hesablanan kəmiyyətdən 5, bəzən də 10 dəqiqə çox olur.

İlkin baxışdan belə bir təəssürat yaranır ki, beş dəqiqə həyatımızda nədir ki? Amma dissertant üçün çıxışa ayrılmış vaxtın aşılması mənfi rol oynaya bilər. Şura üzvləri çıxış

vaxtının aşılmasını mənfi qarşılayırlar, çünki bu, iddiaçının müdafiə proseduruna zəif hazırlaşdığını göstərir.

Çıxışın məzmunu avtoreferatın qısaldılmış variantı kimi ola bilər, nəzərə almaq lazımdır ki, məruzə avtoreferatdan 2-3, hətta 4 dəfə qısa olacaq.

Bununla belə, avtoreferatın sadəcə təkrarı qətiyyən qəbuledilməzdir. Bunu nəzərə almaq lazımdır ki, şura üzvləri, opponentlər və hətta müdafiədə iştirak edənlərin bir hissəsi avtoreferatı iclasdan əvvəl alıblar və onunla tanış olmağa imkanları olub, üstəlik, müdafiə zamanı avtoreferatın mətni onların qarşısında olur.

Lakin məsələ başqa cürdür. Avtoreferatın sadə təkrarı, yenidən oxunulması işin ən mühüm nəticələrini vurğulamağa, onun orijinallığını önə çəkməyə, spesifikasını göstərməyə, şura üzvlərinin diqqətini işin yeniliyinə və müəllifin şəxsi töhfəsinə cəlb etməyə imkan vermir.

Əgər çıxışın əsasına dissertasiyanın yeniliyinin və ya müdafiəyə çıxarılan əsas müddəalarının geniş və yaradıcı formada təqdimatı qoyularsa, bu məsələlər iddiaçı tərəfindən daha yaxşı həll edilər.

Çıxışın ilk üçdə birini tədqiqatın məqsəd və vəzifələrinin qoyulmasına, onun aktuallığının əsaslandırılmasına və tətbiq olunan tədqiqat metodlarının orijinallığını vurğulamağa həsr etmək məqsədəuyğundur.

Çıxışın ikinci hissəsində isə işin əsas məqamlarını vurğulamaq, tədqiqat zamanı hansı yeniliklərin əldə olunduğunu izah etmək, onları əsaslandırmaq və iddiaçının əldə edilən nəticələrə verdiyi şəxsi töhfəni nümayiş etdirmək lazımdır.

Çox vaxt iddiaçının məruzəsinin əsas vaxtını dissertasiyanın məzmununu fəsillər və paraqraflar üzrə təqdimatına sərf etməyə çalışdığını müşahidə edirik, bu isə çoxlu vaxt aparır. Nəticədə dinləyicilər anlamırlar ki, **dissertasiyanın müəllifi özü nə edib**, o, elmə və təcrübəyə hansı yenilikləri gətirib və

işin əsas nəticələri nədən ibarətdir. Bundan əlavə, yenidən vurğulamaq lazımdır ki, şura üzvləri artıq bir ay əvvəl avtoreferatla tanış olublar və onlara fəsillərin məzmununu yenidən xatırlatmağa ehtiyac yoxdur.

Dissertasiya şurasının iclasında çıxışın mətnini müdafiədən bir qədər əvvəl hazırlamaq lazımdır, çünki müdafiəyə qədər olan son günlər digər işlərə sərf olunacaq. Bundan başqa, artıq yazılmış məruzə üzərində yenidən işləmək, onu sanki kağızdan çıxarıb, öz yaddaşınıza köçürmək lazım gələcək ki, çıxışı kağızdan oxumaq əvəzinə, mətnə daim baxmadan, sanki onu bədahətən yaradaraq, təbii şəkildə təqdim edə biləsiniz.

Müdafiəyə öncəki hazırlığın son mərhələlərindən biri rəsmi opponentlərin rəylərindəki iradlara cavabların hazırlanmasıdır. Daha əvvəl qeyd edildiyi kimi, rəsmi opponentlərin rəyləri (surətləri) iddiaçıya ən geci dissertasiyanın müdafiəsindən 10 gün əvvəl təqdim edilməsi tələb olunur.

Bu müddət, rəylərdə irəli sürülən irad və təkliflərin mahiyyətinə varmaq, onlara öz reaksiyanızı işləyib hazırlamaq və opponentlərin fikirləri ilə razılaşmaq, razılaşmamaq və ya qismən razılaşmaq mövqeyinizi yazılı şəkildə ifadə etmək üçün tamamilə kifayətdir.

Tənqidi qeydlərlə razılaşmadığınız halda, belə razılaşmamanın səbəblərini əsaslandırmaq, öz fikrinizin lehinə arqumentlər gətirmək və rəyçilərin tənqidlərini əsassız hesab edərək onları rədd etməyə çalışmaq lazımdır.

İddiaçının opponentlərin rəylərindəki suallara, iradlara və təkliflərə cavabları yazılı şəkildə hazırlanır. Birincisi, bu, dissertasiya müdafiəsi zamanı bu cavabların hazır olmasını təmin edir, ikincisi isə, dissertasiya şurasının iclasının stenoqramının hazırlanmasını asanlaşdırır. Üstəlik, cavabların yazılması onların dərindən düşünülməsinə kömək edir.

Rəyçilərin iradlarına cavablar həddən artıq uzun, çoxhəcmli olmamalıdır. Yazılı formada onlar yarım səhifə həcmində olmalıdır. Yazıya əlavə edilən qeydlərlə birlikdə, bu cavabların

hər birinə təxminən iki dəqiqə vaxt sərf edilməlidir. Unutmayın ki, hər bir opponent rəyində 6-8 tənqidi irad irəli sürür, buna avtoreferata rəylərdəki iradları da əlavə etsək (əgər varsa), daha beşə qədər irad da yığılacaq.

Beləliklə, ümumilikdə təxminən 15 irad olacaq, bu da hələ dissertasiya şurasının üzvləri və iclasda iştirak edənlər tərəfindən verilən sualları nəzərə almasaq belə.

Opponentlərin iradlarına cavab verməyə yarım saatdan çox vaxt ayıra bilməyəcəyiniz üçün (bu, müdafiə prosedurunun ümumi qaydaları ilə müəyyən edilir), nəticə etibarilə hər cavaba orta hesabla iki dəqiqə vaxtınız olacaq. Eyni zamanda, ədalətli tənqidi qeydlərlə razılaşdığınız halda, bu razılığı bildirmək üçün on saniyə kifayətdir və bu, sizə daha vacib iradlara, əks arqumentləriniz olduğu hallara daha ətraflı cavab vermək imkanı yaradır.

Cavablarınızda arqumentlərinizi konkret rəqəmlər, faktlar, başqa alimlərin fikirləri və elmi nəşrlərdə dərc edilmiş məlumatlarla dəstəkləyərək onları daha inandırıcı etməyə çalışın.

Müdafiədə, barəsində xüsusi danışılmalı daha bir vacib sənəd tələb olunacaq. Yuxarıda qeyd etdiyimiz kimi, bu, Dissertasiya şurasının dissertasiya üzrə Yekun rəyidir, hansı ki, dissertasiya müdafiəsindən sonra şura üzvlərinin açıq səsverməsi ilə qəbul edilir. Qaydalara uyğun olaraq, rəydə iddiaçı tərəfindən şəxsən əldə edilmiş ən mühüm elmi nəticələr, onların etibarlılığı və yeniliyi, nəzəriyyə və təcrübə üçün əhəmiyyəti, dissertasiya tədqiqatının nəticələrinin istifadəsi ilə bağlı tövsiyələr, həmçinin dissertasiyanın hansı tələblərə uyğun olaraq qiymətləndirilməsi qeyd olunur.

Dəqiq desək, elmi dərəcələrin verilməsi qaydalarına və dissertasiya şurası haqqında Əsasnaməyə uyğun olaraq, dissertasiya işinə dair Yekun rəy işin müdafiəyə qəbul edilməsi zamanı, şura üzvlərindən ibarət olan və daha əvvəl yaradılmış komissiya tərəfindən hazırlanmalıdır. Bu rəy dissertasiyanın

uğurlu müdafiəsindən sonra açıq səsvermə ilə şura tərəfindən qəbul edilir və adətən rəyin ayrı-ayrı bəndləri üzrə müzakirələrə səbəb olur. Rəy AAK-a göndərilir və buna görə də bu sənədə xüsusi diqqət yetirilir.

Bu, ən qısa və eyni zamanda, ən yığcam sənəddir ki, dissertasiya mövzusu, əldə edilmiş nəticələr, onların yeniliyi və etibarlılığı, praktiki əhəmiyyəti haqqında kifayət qədər dolğun təsəvvür yaradır. Buna görə də, təbiidir ki, AAK ekspertləri dissertasiya haqqında məhz dissertasiya şurasının, həcmi iki-üç səhifə ilə məhdudlaşan rəyinə əsasən, qərar verməyi üstün tuturlar. Xüsusilə vacib olan rəyin iddiaçının şəxsi töhfəsinin mövcudluğunu, tədqiqat nəticələrinin əsaslandırılmasını və yeniliyini təsdiqləyən hissələridir. Bu hissələr son dərəcə dəqiq, konkret məzmunla dolu olmalı və dissertasiya mətninə istinadən səhifə nömrələri göstərilməklə təqdim edilməlidir.

Düşünmək olar ki, dissertasiya şurasının yekun rəy layihəsinin hazırlanması, layihənin şura üzvlərinə təqdim edilməsi, müzakirə olunması və qəbul edilməsi prosesinin iddiaçıya heç bir dəxli yoxdur. Bu, dissertasiya şurasının, onun sədrinin və təyin olunmuş komissiya üzvlərinin daxili işidir.

Lakin iddiaçıya dissertasiyanın müdafiəsi ilə bağlı olan hər şeylə məşğul olmaq lazım gəlir. İddiaçının dissertasiya şurasının rəy layihəsinin hazırlanmasında iştirakdan yayınması mümkün olmur. Üstəlik, bu sənəd olmadan şuranın iclası da keçirilə bilməz.

Əlbəttə, müxtəlif şuralarda vəziyyət fərqli olur, lakin hər ehtimala qarşı, iddiaçının və elmi rəhbərin hər şey üçün cavabdeh olduğu kritik vəziyyəti də nəzərdən keçirmək lazımdır.

## 6.4. Dissertasiyanın müdafiəsi proseduru

*Nəzakət və təvazökarlıq insanın həqiqi maarifliliyindən xəbər verir.*
***Onore de Balzak***

**Müdafiə zamanı iddiaçının davranışı**

Yuxarıda biz müdafiə prosedurları mövzusuna toxunmuşduq. İndi isə iddiaçının müdafiə zamanı davranışı ilə bağlı müəyyən məqamlara aydınlıq gətirmək istərdik. Müdafiənin uğuru çox vaxt prosesdəki davranışınızla müəyyən olunur.

Müdafiə zamanı davranış qaydalarını əvvəlcədən hazırlamaq və öyrənmək lazımdır. Sizin üçün tarixi olan dissertasiya şurasının 1,5-2 saat davam edən iclası ərzində o qədər həyəcanlı olacaqsınız ki, necə davranmaq lazım olduğunu düşünməyə vaxtınız olmayacaq.

Davranış tərzinizi düşünün və özünüzü lazımi fəaliyyət modelinə proqramlaşdırın.

Müdafiə prosesində şurada çıxışınız və suallara cavablarınız zamanı, yekun çıxışdan sonra şura üzvlərində iddiaçının təvazökarlığı və ləyaqəti barədə təəssürat yaranmalıdır.

Fikirlərinizi inandırıcı və səmimi şəkildə çatdırmağa çalışın, lakin həddini aşmaq və özünüzü alçaltmaq qətiyyən yolverilməzdir. Özünə inam, əminlik və müstəqillik təvazökarlıqla yanaşı bərabər şəkildə nümayiş etdirilməlidir.

İfrata varmayın, təşvişə düşmək, söz tapmamaq, ya da tamamilə donub qalmaq düzgün deyil. Bununla şura üzvlərini təsirləndirmək mümkündür, lakin eyni zamanda, onların gözündə elm cəbhəsinin döyüşçüsü kimi hörmətinizi itirə bilərsiniz.

Gələcəyin alimi layiqli şəkildə mübarizə aparmağı bacarmalıdır.

**Çıxış.** Daha əvvəl qeyd edildiyi kimi, çıxışınız üçün təqdimat hazırlamaq lazımdır. Adətən, iddiaçının müdafiədə çıxışına 15-20 dəqiqə vaxt ayrılır. Ən yaxşısı 16-17 dəqiqəlik çıxış etməkdir. Buna görə də çıxışınızı bir neçə dəfə əvvəlcədən təkrar edin və vaxta diqqət yetirin. Çıxışınızı səsli şəkildə, əlinizdə saatla təkrar etmək lazımdır. **Mütləq səsli** şəkildə, yalnız fikrən deyil. Bu, mətni strukturlaşdırmağa və çıxışınızda nələri demədiyinizi anlamağa kömək edir.

**Çıxış mətniniz** "ətraflı təfərrüatlara yer vermədən" prinsipi ilə qurulmalıdır. 17 dəqiqə ərzində siz heç bir halda detallı izahlar verə bilməyəcəksiniz. Hətta sizin üçün çox dəyərli olan bəzi nəticələr varsa belə - çünki bu nəticələr sizin şəxsi töhfənizdir, - onlar müdafiədə səsləndirmək üçün deyil. Onlar elmi seminara aiddir, burada sizin işinizi bilən yaxın həmkarlarınızla müzakirələr üçün saat yarım vaxtınız olur.

Lakin dissertasiya müdafiəsi üçün bu yaramır. Sizin təqdimatınızdakı slaydlarda **əsas nəticələr** əks etdirilməlidir və bu nəticələr izahlarla müşayiət olunmalıdır.

Çox vaxt iddiaçının hər hansı bir anlayışı izah etmədən məruzəsində istifadə etdiyi hallar olur. Bu, ciddi bir səhvdir. Siz danışdığınız hər bir anlayışı əvvəlcədən izah etməlisiniz. Həmçinin, artıq hamıya məlum olan ümumi məsələlərə toxunmaq lazım deyil.

**Suallara cavablar.** Bu başdan deyək ki, Sizə verilən sualları mütləq qeyd edin. Belə bir hal olur ki, iddiqaçı tərəfdən verilən sual artıq başa düşüləndə, o, sualı verən şəxsi kəsərək cavab verməyə başlayır. Bunu qətiyyən etmək olmaz! Sualın tam olaraq bitməsini gözləyin.

Bəzən belə olur ki, şura üzvü sual verməzdən əvvəl 5 dəqiqə sual ətrafında danışır. Sakitcə "hekayənin" bitməsini gözləyin. Şura üzvünün sözünü kəsmək olmaz. Bunu yalnız Şura sədri edə bilər. Sonra "təşəkkür edirəm" deyin. "Nə gözəl sual idi" kimi ifadələrdən sui-istifadə etməyin. Birbaşa cavaba keçin. Heç bir halda sual verən şəxsə başa salmayın ki, o,

məruzənizdən heç nə başa düşməyib. Hətta şura üzvləri də sizin dissertasiyanız barədə siz bildiyiniz hər şeyi bilməyə borclu deyillər.

Nəzərə alın ki, hər kəsin işinizi başa düşməsini və heyran qalmasını tələb etmək lazım deyil. İnsanlar bəzən fərqli düşünürlər. Ona görə də, sualın mənası sizə aydın olmasa belə, şura üzvünün sizin dediklərinizi səhv başa düşdüyünü deməyi ağlınıza belə gətirməyin. Sualı başa düşmədiyiniz halda belə, cavabınız belə olmalıdır: "Əgər mən sizi düzgün başa düşdümsə, onda..." – və sonra cavabınızı verirsiniz. Bəzən, çox nadir hallarda (bunun üçün vəziyyəti incə hiss etmək lazımdır), sual verəni yarımçıq dayandırmaq və nəyisə dəqiqləşdirmək olar. Amma heç bir halda «sual-cavab»ı Şura iclasında diskussiyaya çevirmək olmaz. Bu, hamını çox əsəbiləşdirir.

Elmi dərəcələrin verilməsi qaydalarında göstərilir ki, dissertasiyanın ictimai müdafiəsi elmi müzakirə xarakteri daşımalı və yüksək tələbkarlıq, prinsipiallıq və elmi etikanın qorunması şəraitində keçməlidir. Bu zaman dissertasiyada yer alan elmi və praktiki xarakterli bütün nəticə və tövsiyələrin etibarlılığı və əsaslılığı ciddi təhlilə məruz qalmalıdır.

Bu, müdafiə prosesinin məzmununa qoyulan tələblərdir və onların yerinə yetirilməsi, demək olar ki, müdafiə zamanı Şura sədri və üzvləri, elmi katib, rəsmi opponentlər və iştirak edənlərin davranışlarından asılıdır. Sözgəlişi, iddiaçının özü də ciddi bir fiqurdur. Müdafiə zamanı onun davranışından çox şey asılıdır – müzakirələrin səviyyəsi, elmi atmosfer, müdafiənin polemik xarakteri, dissertasiya işinin əsas müddəalarının təhlilin dərinliyi və açıqlanması.

Dissertasiya müdafiəsi zamanı Şura iclasının keçirilməsi proseduru dissertasiya şurası haqqında AAK-ın sənədlərində o qədər dəqiq və ətraflı izah edilmişdir ki, onu başqa şəkildə izah etməyə ehtiyac yoxdur. Buna görə də, ən vacib müdafiə prosedurlarını təsvir edən hissələrin üzərində fokuslanmaqla kifayətlənəcəyik və onlara qısa şərhlər əlavə edəcəyik.

1. Dissertasiya müdafiəsi zamanı dissertasiya şurasının iclası şura sədrinin rəhbərliyi altında, onun olmadığı halda isə sədrin müavininin rəhbərliyi ilə keçirilir.

2. Dissertasiya şurasının iclası başlamazdan əvvəl şura üzvlərinə daha əvvəl yaradılmış komissiya tərəfindən hazırlanmış rəy layihəsi təqdim olunur.

3. İclas açılarkən sədr şura üzvlərinə iclasın səlahiyyətli olduğunu elan edir (üzvlərin üçdə iki hissəsinin və ixtisas üzrə tələb olunan sayda elmlər doktorunun iştirakı). Şura üzvlərinin iclasda iştirak etməsi iclasın stenoqramında əks etdirilməlidir.

4. Şura iclası açıldıqdan sonra sədr iddiaçının dissertasiya müdafiəsini elan edir, dissertasiyanın adını və rəsmi opponentlərin adlarını bildirir. Sonra söz elmi katibə verilir, o isə iddiaçı tərəfindən təqdim olunmuş sənədlərin əsas məzmununu və onların müəyyən edilmiş tələblərə uyğunluğunu qısa şəkildə bildirir.

5. İddiaçı dissertasiyanın mahiyyəti və əsas müddəalarını təqdim edir.

6. Daha sonra rəsmi opponentlər çıxış edir. Opponentlərin çıxışından sonra iddiaçı onların rəylərində olan tənqidi qeydlərə cavab vermək üçün söz alır. İddiaçının istəyinə uyğun olaraq, cavablar hər opponentin çıxışından sonra verilə bilər.

7. Daha sonra iclasda iştirak edənlər iddiaçıya suallar verirlər. İddiaçı isə bu suallara ya ayrı-ayrılıqda, ya da bütün suallara bir yerdə cavab vermək hüququna malikdir.

8. İddiaçının cavablarından sonra söz elmi rəhbərə verilir ki, o, iddiaçının dissertasiyanı hazırladığı zaman gördüyü işlər haqqında rəyini bildirsin.

9. Elmi katib avtoreferat üzrə şuraya daxil olan rəyləri oxuyur. Dissertasiya və ya avtoreferat üzrə xeyli sayda müsbət rəy olduğu halda, elmi katib şura üzvlərinin razılığı ilə bu rəylərin oxunması əvəzinə, onlara dair icmal verir və orada iradları qeyd edir.

Mənfi rəylər tam şəkildə oxunur.

10. Avtoreferata verilmiş rəylər oxunduqdan sonra iddiaçıya rəylərdə göstərilən iradlara cavab vermək üçün söz verilir.

11. İddiaçının cavablarından sonra müzakirə açılır, burada həm şura üzvləri, həm də müdafiədə iştirak edənlər iştirak edə bilərlər.

Şura sədri müzakirələrin nəticəsini yekunlaşdırır.

12. İddiaçının yekun çıxışından sonra şura üzvləri elmi dərəcənin verilməsi ilə bağlı gizli səsvermə keçirirlər.

Dissertasiya şurasının qərarı o halda müsbət hesab olunur ki, əgər iclasda iştirak edən və həlledici səs hüququ olan üzvlərin üçdə ikisi lehinə səs veribsə.

13. Səsvermə komissiyasının protokolu təsdiq edildikdən sonra, elmi dərəcənin verilməsi barədə müsbət qərar qəbul edildikdə, şura yekun rəy layihəsini müzakirə edir. Rəy, iclasda iştirak edən şura üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir və bu rəy iddiaçıya elan edilir. Bununla da şura iclası başa çatmış hesab olunur.

14. Dissertasiyanın müdafiəsinin nəticələri üzrə müsbət qərar qəbul edildiyi halda, dissertasiya şurası 30 gün ərzində nəzərdə tutulmuş attestasiya işinin materiallarını və doktorluq dissertasiyasının birinci nüsxələrini AAK-ın ekspert şurasında baxılması üçün göndərir.

15. Dissertasiya müdafiəsinin nəticələrinə görə dissertasiya şurasının mənfi qərarı qəbul edildikdə, iddiaçıya müdafiəyə təqdim etdiyi sənədlər geri qaytarılır. Dissertasiya şurası bir ay ərzində AAK-a dissertasiyanın rədd edildiyini göstərən məktub, uçot kartı, avtoreferat və şura iclasının stenoqramını əlavə edərək məlumat verir.

16. İddiaçı dissertasiyanı istənilən mərhələdə geri götürmək hüququna malikdir – dissertasiya şurasında gizli səsvermə başlamazdan əvvəl, AAK-da isə fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi barədə qərar qəbul olunana qədər.

Siz, şübhəsiz ki, dissertasiyanın müdafiəsi prosesində iddiaçı ilə digər iştirakçılar arasında prinsip etibarı ilə fərqli

yanaşma ilə obyektiv olaraq şərtləndirilən ciddi bir ziddiyyətlə qarşılaşacaqsınız.

İddiaçı üçün bu, illər ərzində çəkilən tədqiqat zəhmətinin, dissertasiyada və avtoreferatda toplanmış titanik səylərin 15-20 dəqiqəlik məruzəyə sığdırılaraq dissertasiya şurasının mühakiməsinə verildiyi tarixi 1,5-2 saatdır.

Lakin digər iştirakçılar üçün bu, növbəti iclasdır, burada növbəti iddiaçı, yəqin ki, uğur qazanacaq, əgər özünü düzgün aparmağı bacararsa və şura üzvlərini layiqli dissertasiya yazdığına inandıra bilsə. Bu qaçılmaz ziddiyyəti nəzərə alaraq, siz yalnız yaxşı dissertasiya hazırlamalı deyil, həm də onu uğurla müdafiə etməyi bacarmalısınız.

Bir daha təcrübəsiz iddiaçının tipik səhvi barədə xəbərdarlıq edirik – vaxtı boş yerə dissertasiyanın məzmununu ətraflı təkrarlamaqla keçirmək, seytnota düşərək nəticələri və qənaətləri tələsik təqdim etmək. Bu, bütün mənzərəni pozur. Təfərrüatları bilmək istəyən şəxs sizə özü sual verəcək. Ümumi mənzərəni, problemi və əldə edilən nəticələri aydın şəkildə təsvir etməyi bacarın, qalanını kənarda saxlayın.

Vaxt rejiminə çox ciddi riayət edin. Çıxışınıza ayrılan 20 dəqiqədən bir dəqiqə də artıq istifadə etməyin.

Əgər danışmaq üçün böyük arzunuz varsa, bunu şura üzvlərinin və çıxışınızdan sonra iştirakçıların verdiyi suallara cavab verərkən edin.

İddiaçıların beyninə hopmuş və taleyüklü bir səhvə çevrilə biləcək psixoloji yanlışlıqdan qurtulun. Onların yanlış düşüncəsi belədir: nə qədər ətraflı danışsalar, dissertasiya şurasının üzvlərini bir o qədər öz tərəflərinə çəkəcəklər.

Dəqiq, qısa və özünə inamla danışmaq bacarığı şura üzvlərini, hətta işinizin ümumi ideyası ilə tam razılaşmayanları belə, sizin tərəfinizə çəkməyə qadir olan bir amildir.

Bu deyilənləri nəzərə alaraq, müdriklik və cəsarət tapıb, kimdən gəlməsindən asılı olmayaraq tənqidi qeydlərlə ümumilikdə razılaşın, əgər bu qeydlər bütün işinizi və elmi

dərəcənin verilməsi imkanını şübhə altına qoymursa. Şura üzvlərinə tənqidi qeydləri gələcək işinizdə nəzərə alacağınıza söz verin.

Müdafiənizin uğuru asılı olduğu insanlar yalnız çıxışınıza və suallara verdiyiniz cavablara əsaslanmır, təkcə buna görə mülahizələr irəli sürmür. Şura üzvləri daha çox sizin elmi rəhbərinizə, onlara yaxşı tanış olan opponentlərə və həmkarlarının fikirlərinə güvənirlər. Sizin əsas vəzifəniz — yanlış davranışla özünüzü gözdən salmamaq və işiniz və şəxsiyyətiniz barədə başqaları tərəfindən bildirilmiş müsbət fikirləri zədələməməkdir. Bu mənada, təmkinlilik və özünə inam ən yaxşı reseptdir.

Həmçinin, iddiaçıların çıxışlarında müşahidə olunan həddən artıq təşəkkür və minnətdarlıq ifadələrinə ehtiyac yoxdur. Eyni zamanda, elmi rəhbərə, opponentlərə və şura üzvlərinə təvazökar formada bildirilən təşəkkür sözləri tamamilə yerindədir.

Yekun sözünüz maksimum dərəcədə qısa olmalıdır.

Bütün bunlar, əslində, müdafiəni uğurla keçirmək üçün bilməli olduğunuz məqamlardır.

## SÖZARDI

***Düşünmədən öyrənmək – faydasızdır,***
***öyrənmədən düşünmək – təhlükəlidir.***
***Konfutsi***

Bu kitabda dissertasiyaların müdafiəsi və elmi dərəcələrin verilməsi ilə bağlı çox şeydən bəhs edilmişdir. Lakin əlbəttə ki, həyat ümumilikdə, xüsusən də elmi həyat, haqqında düşündüyümüzdən daha zəngin və daha dolğundur, buna görə də bəzi şeylər sətirlərdən kənarda qaldı.

Uğurlu müdafiədən sonra dissertasiya ilə bağlı bütün zəruri materiallar şuranın elmi katibi tərəfindən AAK-a təqdim edilir.

Orada dissertasiya, ilkin müdafiə, seminar və müdafiə materialları AAK-ın Ekspert Şurasının üzvləri tərəfindən nəzərdən keçirilir. Ekspert şurası tərkibindən rəyçilər təyin edilir.

Daha sonra AAK-ın Ekspert Şurası dissertasiyanı araşdırır və öz iclasına iddiaçını dəvət edir. İclasda Ekspert Şurasının üzvlərinin rəyləri dinlənilir. İddiaçı rəyçilərin iradlarına və digər ekspertlərin suallarına cavab verir.

Əgər dissertasiya işi tələblərə uyğun hazırlanıbsa və siz bunu Ekspert şurası üzvlərinə sübut edə bilirsinizsə, AAK-ın Ekspert Şurası müsbət qərar qəbul edir.

Əgər iddiaçı öz işini "müdafiə" edə bilməsə, mənfi qərar qəbul olunur və bu qərar da iclasın sonunda elan edilir.

# ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Azərbaycan” nəşriyyatı, 2016 il.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 19 iyun 2009-cu il.
3. Azərbaycan 2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin Sərancamı. 2 fevral 2021 il.
4. Azərbaycan Respublikasında elm və təhsl sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı, 28.07.2022 il.
5. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29.10.2019-cu il tarixli Qərarı ilə təsdiq edilmişdir.
6. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29.06.2019-cu il tarixli Qərarı ilə təsdiq edilmiş, 07.05.2021 və 30.06.2021-ci il, 18.11.2022, 09.12.2022-ci il, 06.10.2023-cü il tarixli Qərarları ilə dəyişikliklər edilmişdir.
7. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bülleteni, Xüsusi buraxılış, Bakı, 2010.
8. “Dissertasiyanın tərtibi Qaydası”.

“Dissertasiya Şuralarının yaradılması fəaliyyətini təşkili barədə Təlimat”.

9. “Disüsertasiyanın tərtibi Qaydası”.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29.10.2019-cu il tarixli Qərarı ilə təsdiq edilmişdir.

10. Elmi dərəcələrin verilməsi haqqında "Əsasnamə". Azərbaycan Respublikası Prezidentinin 11.07.2019 il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
11. Elm adların veriməsi haqqında Əsasnamə. Azərbaycan Respublikası Prezidenti İ.Əliyev, 2019, 11.06.2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmişdir. .
12. Elmi dərəcələrin verilməsi haqqında Əsasnamə. Azərbaycan Respublikası Prezidenti İ.Əliyev. 11.07.2019 il.
13. Əliyev Ə.B., Dövlət və elm. Elmin zirvələrini fəth etmə yolları. Bakı, "MSV NƏŞR", 2024, 244 səh.

## Rus dilində

14. Андреев Г.И. Основы научной работы и оформления результатов научной деятельности: учеб. пособие для подготовки аспирантов и соискателей различ. учен. степеней / Г.И. Андреев, С.А. Смирнов, В.А. Тихомиров. - М.: Финансы и статистика, 2014. - 268 с.
15. Безуглов, И. Г. Основы научного исследования: учеб. пособие для аспирантов и студентов-дипломников / И. Г. Безуглов, В. В. Лебединский, А. И. Безуглов ; Моск. открытый соц. ун-т. - М.: Академ. Проект, 2018. - 94 с. - (Gaudeamus).
16. Будущее образования: глобальная повестка. Доклад ОЭСР, 2022. www.edu 2035.com
17. В помощь соискателям ученой степени и научным руководителям. Об исследовательских подходах диссертационной работы // Бюллетень диссертационных советов ТГУ имени Г.Р. Державина. – Тамбов, 2009 – Вып. 3. – С. 287-289.
18. В помощь соискателям ученой степени и научным руководителям. О композиции диссертационной работы // Бюллетень диссертационных советов ТГУ имени Г.Р. Державина. – Тамбов, 2009 – Вып. 4. – С. 374-377.

19. Вербицкий, А. А. Как подготовить диссертацию к защите / А. А. Вербицкий // Высшее образование сегодня. - 2014. - № 4. - С. 54-60.
20. Волков, Ю. Г. Диссертация: подготовка, защита, оформление: практ. пособие / Ю. Г. Волков ; под ред. Н. И. Загузова.- 3-е изд.- М.: Гардарики, 2019. - 185 с.
21. Выскуб, В. Г. Российская общественно-государственная система аттестации научных и научно-педагогических кадров высшей квалификации / В. Г. Выскуб. - М.: Логос, 2015. – 254 с.
22. Данилин, Ю. Как написать и защитить диссертацию (мини-конспект полезной книги) / Ю. Данилин // Эко. - 2013. - № 1. - С. 173-178.
23. Денисов С.Л. Как правильно оформить диссертацию и автореферат: метод. пособие / С. Л. Денисов. - 3-е изд. - М.: ГЭОТАР-Медиа, 2016. - 84 с.
24. Евдокимов В.И. Информационно-научная деятельность по проблемам безопасности в чрезвычайных ситуациях: учеб.-метод. пособие / В.И. Евдокимов. - СПб: Политехника-сервис, 2019. - 178,[2] с.
25. Евдокимов В.И. Оформление диссертации и автореферата диссертации: метод. рек. / В. И. Евдокимов. - СПб.: Политехника-сервис, 2010. - 64 с.
26. Евдокимов В.И. Подготовка медицинской научной работы: метод. пособие / В. И. Евдокимов. - 2-е изд., доп. - СПб.: СпецЛит, 2008. - 222 с.
27. Загузов Н.И. Технология подготовки и защиты кандидатской диссертации: Научно-методическое пособие. — М.: Исследовательский центр, 2003.
28. Захаров А.А. Как написать и защитить диссертацию / А. Захаров, Т. Захарова. - М.: Питер, 2016. - 157 с.
29 Искусственный интеллект и высшее образование: возможности, практики и будущее. Москва, ГУ ВШЭ, 2023, 70 с.

30. Как защитить диссертацию. Нормативно-правовые аспекты: письма. - М.: Компания Спутник+, 2015. - 135 с.
31. Как защитить диссертацию. Нормативно-правовые аспекты: письма. - М.: Компания Спутник+, 2016. - 135 с.
32. Колесникова Н.И. От конспекта к диссертации: учеб. пособие по развитию навыков письмен. речи / Н.И. Колесникова. - М.: Флинта : Наука, 2022. - 288 с.
33. Колесникова, Н. И. Что важно знать о языке и стиле научных текстов / Н. И. Колесникова // Высшее образование в России. - 2020. - № 3. - С. 130–138.
34. Коржуев, А. В. Начинающему аспиранту: избранные фрагменты методологии и истории педагогики / А. В. Коржуев. - М.: Якус-К, 2009. - 96 с. - (Послевузовское педагогическое образование. Дидактика высшей школы)
35. Кузин, Ф. А. Кандидатская диссертация: методика написания, правила оформления и порядок защиты: практ. пособие для аспирантов и соискателей ученой степени / Ф. А. Кузин. - [9-е изд.].- [М.]: Ось-89, [2011]. - 224 с.
36. Кузин Ф.А. Диссертация. Методика написания. Правила оформления. Порядок защиты: Практическое пособие для докторантов, аспирантов и магистров. 2-е изд., доп. — М.: Ось-89, 2011.
37. Кузнецов И.Н. Диссертационные работы: Методика подготовки и оформления: учеб.-метод. пособие для студентов вузов / И. Н. Кузнецов. - 4-е изд., перераб. и доп. - М.: Дашков и К°, 2018. - 488 с.
38. Кузнецов И.Н. Диссертационные работы: методика подготовки и оформления: Учебно-методическое пособие. 3-е изд. — М.: Издательско-торговая корпорация «Дашков и К0», 2007.

39.Липский, С. И. Диссертация как объект научного анализа / С. И. Липский // Вестн. Моск. гос. ун-та культуры и искусств. - 2019. - № 1. - С. 110-115.
40.Мардахаев, Л. О методологии диссертационного исследования / Л. Мардахаев // Альма матер (Вестн. высш. шк.). - 2017. - № 6. - С. 28-35.
41.Медицинская диссертация: современные требования к содержанию и оформлению: руководство / под ред. И. Н. Денисова ; авт.-сост. С. А. Трущелёв. - М.: ГЭОТАР-Медиа, 2018. - 364 с.
42.Методические рекомендации по построению и оформлению диссертаций и авторефератов. — Уфа, 2005.
43.Научные работы: методика подготовки и оформления. – Минск: Амалфея, 2020. - 544 с.
44.Неволина Е.М. Как написать и защитить диссертацию: крат. курс для начинающих исследователей / Е. М. Неволина. - Челябинск: Урал Л.Т.Д., 2021. - 190 с..
45.Нестеров, А. В. Структуризация требований, предъявляемых к диссертационным работам / А. В. Нестеров // Научно-техническая информация. Сер. 2: Информационные процессы и системы. - 2008. -№ 2. - С. 1-6.
46.Облицова З.Г. От выбора темы до защиты диссертации: учеб. пособие для аспирантов / З.Г. Облицова. - М.; Архангельск, 2013. - 58 с.
47. Открывая науку обществу. Тезисы форума популяризаторов науки стран БРИКС. Москва, 2021, 461с.
48.Петров Ю.А. Общая методология мышления: (Для тех, кто хочет качественно написать диссертацию) / Ю.А. Петров, А.А. Захаров. - 2-е изд. - М.: Моск. философ. фонд, 2014. - 56 с.

49. Поташник М.М., Моисеев А.М. Диссертации по управлению образованием: состояние, проблемы, современные требования: Пособие в помощь авторам диссертаций по управлению в сфере образования. — М.: Новая школа, 2018.
50. Псковский П.П. Искусство научной работы: Практическое руководство для аспирантов и соискателей. — М.: МГГА, 2011.
51. Райзберг Б.А. Практическое руководство по написанию и защите диссертаций. — М.: Экономисть, 2016.
52. Резник С.Д. Как защитить свою диссертацию. 2-е изд. — М.: ИНФРА-М, 2006.
53. Семе Г. От мечты к открытию. Как стать ученым: Пер. с англ. — М.: Прогресс, 2008.
54. Соколов, Я. В. Диссертационные исследования по бухгалтерскому учету и аудиту: оценка состояния / Я. В. Соколов // Бухгалтерский учет. - 2018. - № 22. - С. 5-9.
55. Стрельникова А.Г. Правила оформления диссертаций: метод. пособие / А. Г. Стрельникова. - 2-е изд., доп. - СПб.: СпецЛит, 2019. - 75,[1] с. С. 84
56. Фельдштейн, Д. И. О состоянии и путях повышения качества диссертационных исследований по педагогике и психологии / Д. И. Фельдштейн // Бюллетень ВАК Министерства образования и науки РФ. - 2018. - № 2. - С. 6-22.
57. Юрьев, В. М. Наша биография (из опыта работы регионального диссертационного совета ДМ 212.261.01. Т. 2 / В.М. Юрьев, О. А. Степичева, Я. Ю. Радюкова ; Тамб. гос. ун-т им. Г.Р. Державина. – Тамбов: Изд-во ТГУ. - 2018. - 398 с.
58. Юрьев, В. М. Диссертационная работа: методика написания, порядок оформления, подготовка и процедура защиты: учеб.-метод. пособие для соискателей ученых степеней доктора и кандидата наук

/ В. М. Юрьев, В. И. Абдукаримов ; Тамб. гос. ун-т им. Г.Р. Державина ; Тамб. регион. отд-ние ВЭО России. - Тамб.: Изд-во ТГУ, 2017. - 181 с.

# TERMINOLOJI LÜĞƏT

**AAK-ın Ekspert Şurası** – AAK tərkibində müvafiq elmi sahə üzrə yüksək ixtisaslı mütəxəssislərdən ibarət olan şura. Bu şura dissertasiyaların elmi səviyyəsinə, onların elmi və praktik dəyərinə, dissertasiya şuralarının fəaliyyətinə nəzarəti təmin edir, attestasiya zamanı vahid tələblərin həyata keçirilməsini və AAK-ın Kollegiyası və Rəyasət Heyətinə tövsiyələrin hazırlanmasını təmin edir.

**AAK-ın Rəyasət Heyəti** – AAK-ın fəaliyyətinə rəhbərlik edən ali orqan, funksiyaları və səlahiyyətləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə ilə müəyyən edilir.

**Adyunktura** – hərbi təhsil və elmi-tədqiqat təşkilatlarında elmi və elmi-pedaqoji kadrların hazırlanmasının təşkilati forması, doktoranturaya bənzəyir.

**Apellyasiya** — dissertasiya şurasının elmi dərəcənin verilməsi (və ya ləğvi) ilə bağlı qərarının şikayət edilməsi. Apellyasiya iddiaçı, digər şəxslər, təşkilatlar və ya müəssisələr tərəfindən müdafiənin keçirildiyi dissertasiya şurasına təqdim oluna bilər. Apellyasiyaların araşdırılması qaydası Dissertasiya Şurası haqqında Əsasnamədə göstərilmişdir.

**Attestasiya sənədləri** — dissertasiyanın hazırlanması və müdafiəsi prosesində, həmçinin dissertasiyanın özü və avtoreferat daxil olmaqla, müdafiə ilə bağlı tərtib olunan sənədlər.

**Attestasiya sənədlərinin nostrifikasiyası** – elmi dərəcələrin tanınması və ekvivalentliyi ilə bağlı Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış müqavilələr (sazişlər) əsasında digər ölkələrdə Azərbaycan vətəndaşlarına verilmiş elmi dərəcələri təsdiqləyən sənədlərin bərabərləşdirilməsi

**Avtoreferata verilmiş rəylər** – avtoreferata öz istəyinə əsasən həmin avtoreferatı alan təşkilatlar və şəxslər tərəfindən

verilən rəylər; arzuolunan, lakin dissertasiya müdafiəsi üçün məcburi tələb olunmayan atribut.

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK)** – ölkədə elmi kadrların attestasiyası, fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələrinin verilməsinə nəzarət, habelə elmi dərəcələrin verilməsi və dissertasiya müdafiələrinin təşkili haqqında əsasnamələrin hazırlanması ilə məşğul olan əsas təsisatarası orqandır. AAK Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

**Dissertant** – dissertasiya hazırlayan və onu müdafiəyə təqdim edən şəxs.

**Dissertasiya (dissertasiya işi)** – iddiaçı tərəfindən yazılı formada yerinə yetirilmiş elmi kvalifikasiya işi, müdafiəsi əsasında ona müəyyən ixtisas üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi verilir. Dissertasiya aktuallığa, yeniliyə, elmi və tətbiqi əhəmiyyətə malik olmalıdır. Dissertasiya əlyazma, elmi məruzə, monoqrafiya və ya dərslik şəklində təqdim edilə bilər.

**Dissertasiya işinin müdafiəsi zamanı müzakirə olunması** – müdafiədə iştirak edən rəsmi opponentlərin, dissertasiya şurasının üzvlərinin və digər iştirakçıların dissertasiya işi haqqında fikirlərini, tənqidi qeydlərini, iddiaçıya ünvanlanan sualları və müdafiənin nəticələri əsasında şuranın qərarına dair təkliflərini bildirməsi prosesi.

**Dissertasiya işi və avtoreferat üzrə rəsmi opponentlərin rəyləri** – dissertasiyanın, avtoreferatın və mövzuya aid dərc edilmiş işlərin araşdırılması əsasında yazılı rəy şəklində təqdim edilən, dissertasiya müdafiəsinin məcburi atributlarıdır. Rəsmi opponentin rəyində dissertasiya mövzusunun aktuallığı, elmi müddəaların, nəticə və tövsiyələrin əsaslılığı, onların etibarlılığı və yeniliyi qiymətləndirilir və dissertasiyanın Elmi

dərəcələrin verilməsi haqqında Əsasnaməyə uyğunluğu barədə nəticə verilir.

**Dissertasiyanın avtoreferatı** – dissertasiya işinin əsas ideyasının, məzmununun və nəticələrinin müəllif tərəfindən qısa izahı, əlyazması hüququnda tərtib edilir.

**Dissertasiyanın dissertasiya şurasında ilkin baxılması** – dissertasiyanın müdafiəyə qəbulundan əvvəl dissertasiya materiallarına və sənədlərinə baxılması, şura üzvləri arasından seçilmiş, dissertasiyanın profilinə uyğun mütəxəssislərdən ibarət komissiyaya dissertasiya ilə tanış olmaq və onun şuranın profilinə və dissertasiya işlərinə qoyulan tələblərə uyğunluğu barədə rəy vermək, həmçinin rəsmi opponentlərin təyin edilməsi və zərurət yarandıqda şuranın tərkibinə əlavə üzvlərin daxil edilməsi haqqında təklif irəli sürmək tapşırığının verilməsi.

**Dissertasiyanın əsas nəticələrinin elmi nəşrlərdə dərc olunması** – dissertasiyanın müdafiəsindən əvvəl onun materiallarının və nəticələrinin kitablar, jurnallar, elmi işlər məcmuələri, elmi konfranslarda və seminarlarda təqdim olunan məruzə tezisləri şəklində nəşr olunması. Dərc edilmiş işlərə həmçinin kəşflərə dair diplomlar, müəlliflik şəhadətnamələri və ixtiralara dair patentlər, məlumat bazaları, elmi jurnallarda annotasiya edilmiş əsərlərin yatırılmış (депонированные – rus.) əlyazmaları, elmi elektron nəşrlərdə qeydiyyata alınmış nəşrlər aid edilir.

**Dissertasiyanın ilkin müdafiəsi (ilkin ekspertiza)** – dissertasiyanın yerinə yetirildiyi və ya iddiaçının dissertasiyanı hazırlamaq üçün təhkim olunduğu təşkilatda dissertasiya müdafiəyə təqdim olunmazdan öncə dissertasiya işinin müzakirəsi.

**Dissertasiyanın ilkin ekspertizasının nəticələrinə dair rəy** – dissertasiyanın yerinə yetirildiyi və ya iddiaçının təhkim edildiyi təşkilat tərəfindən ilkin ekspertiza (ilkin müdafiə) nəticələrinə əsasən verilmiş rəy. Bu rəy dissertasiyada əks

olunmuş nəticələrin əldə edilməsində müəllifin şəxsi iştirakını, aparılmış tədqiqatların nəticələrinin etibarlılıq dərəcəsini, onların yeniliyini və praktiki əhəmiyyətini; iddiaçının elmi işlərinin dəyərini; dissertasiyanın uyğun olduğu ixtisası; müəllifin dərc etdiyi işlərdə dissertasiya materiallarının tam şəkildə əks olunmasını təsdiq edir. Əgər dissertasiya elmi mühazirə şəklində təqdim olunarsa, rəy işin bu formada müdafiəsinin məqsədəuyğunluğunu təsdiqləməlidir.

**Dissertasiyanın müdafiəsi** – müdafiəyə təqdim edilmiş dissertasiya işinin dissertasiya şurasının iclasında opponentlərin iştirakı ilə rəsmi müzakirəsi və araşdırılması. Müdafiənin nəticələrinə əsasən şura fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi və yaxud elmlər doktoru elmi dərəcəsinin verilməsi haqqında vəsatət barədə müsbət və yaxud da mənfi qərar qəbul edir. Dissertasiyanın müdafiəsi elmi müzakirə xarakteri daşımalı və yüksək tələbkarlıq, prinsipiallıq və elmi etika qaydalarına riayət olunmaqla keçirilməlidir.

**Dissertasiyanın müdafiəyə qəbul edilməsi** – dissertasiya şurası üzvləri arasından təyin edilmiş komissiyanın dissertasiya haqqında təqdim etdiyi rəyə əsasən dissertasiya işinin müdafiəyə qəbul edilməsi barədə dissertasiya şurasının qərarı. Dissertasiyanın müdafiəyə qəbul edilməsi rəsmi opponentlərin, müdafiə tarixinin təyin edilməsi, avtoreferatların göndəriləcəyi əlavə siyahının müəyyən edilməsi və avtoreferatın əlyazma qaydasında çap edilməsinə icazə verilməsi ilə müşayiət olunur. Zəruri hallarda, müəyyən edilmiş qaydada şura tərkibinə əlavə üzvlərin daxil edilməsi barədə qərar da qəbul edilir.

**Dissertasiyanın təsnifat əlamətləri** – dissertasiyanın əsas nəticələrini, nəticələrin yenilik səviyyəsini, dissertasiyanın nəticələrinin dəyərini, dissertasiya mövzusunun digər tədqiqatlarla əlaqəsini, tətbiqi əhəmiyyətə malik olan dissertasiya nəticələrinin tətbiq səviyyəsini və geniş istifadə üçün tövsiyələri xarakterizə edən əlamətlərin cəmi.

**Dissertasiya şurası** – təşkilat nəzdində yaradılmış elmi şura, müəyyən ixtisaslar üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələrinin verilməsi üçün dissertasiyaların müdafiəyə qəbul edilməsi hüququna malik olan elmi orqan.

**Dissertasiya şurası üzvləri arasından seçilmiş komissiyanın müdafiəyə təqdim olunan dissertasiya üzrə Yekun rəyi** – dissertasiya şurası üzvləri arasından seçilmiş komissiya tərəfindən hazırlanmış və şura üzvlərinə dissertasiyanın müdafiəyə qəbul edilməsi barədə qərar qəbul etmək üçün təqdim olunan yazılı rəy. Bu rəydə dissertasiyanın şuranın müdafiə hüququna malik olduğu ixtisaslara və elmi sahələrə uyğunluğu, müəllifin dərc etdiyi işlərdə dissertasiya materiallarının tamlığı, onların elm və təcrübə üçün əhəmiyyəti haqqında nəticələr və dissertasiya üzrə rəsmi opponentlərin təyin olunması ilə bağlı təkliflər, zəruri hallarda isə şura tərkibinə əlavə üzvlərin daxil edilməsi barədə təkliflər yer alır.

**Dissertasiya tədqiqatının nəticələrinin tətbiqi (istifadəsi) haqqında arayış** – dissertasiya şurasına təqdim olunan və iddiaçı tərəfindən əldə edilmiş və dissertasiya işində əks olunmuş müddəaların, tövsiyələrin və nəticələrin təşkilat, müəssisə və ya idarə tərəfindən tətbiq olunduğunu təsdiq edən yazılı sənəd. Arayışda həmin nəticələrin harada və hansı formada istifadə olunduğu göstərilir (tədris prosesində, istehsal fəaliyyətində, elmi tədqiqatlarda, metodiki materiallarda, idarəetmədə, layihə-konstruktor işlərində, sınaq işlərində**).**

**Doktorant –** doktoranturada təhsil alan şəxs**.**

**Doktorantura** – ali təhsildən sonrakı peşəkar təhsil sistemində elmi və elmi-pedaqoji kadrların hazırlanmasının təşkilati formasıdır. Doktoranturada təhsil əyani və qiyabi formada ola bilər**.**

**Elmi ad –** ali təhsil müəssisələrində elmi tədqiqatlarda və pedaqoji fəaliyyətdə yaradıcı iştirakına, elmi kadrların hazırlanmasında iştirakına, elmi nəşrlərin mövcudluğuna, elmin və təhsilin inkişafında əldə etdiyi nəticələrə əsasən elmi

və elmi-pedaqoji işçilərə rəsmi şəkildə verilən ad. Attestatla təsdiqlənir.

Azərbaycanda dosent və professor (ixtisas üzrə və ya kafedra üzrə) elmi adları mövcuddur.

**Elmi dərəcə -** dissertasiyanın müdafiəsi ilə təsdiqlənən və diplomun verilməsi ilə rəsmiləşdirilən elmi kvalifikasiya. Azərbaycanda fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri təsis edilmişdir və verilir.

**Elmi dərəcədən məhrum edilmə -** AAK-ın səlahiyyətləri çərçivəsində, şəxsə daha əvvəl verilmiş elmi dərəcədən məhrum edilməsi barədə qəbul etdiyi qərar. Bu qərar xüsusi hallarda, adətən, dissertasiyanın müdafiəsinin keçirildiyi dissertasiya şurasının vəsatəti əsasında qəbul edilir.

**Elmi dərəcə iddiaçısı** – 1) elmi dərəcənin verilməsi üçün rəsmi şəkildə müraciət edən və bunun üçün zəruri tədbirlər, prosedurlar həyata keçirən, tələb olunan material və sənədləri hazırlayan şəxs; 2) elmi dərəcənin verilməsi üçün dissertasiyanın hazırlanması və müdafiəsi məqsədilə ali təhsil müəssisəsinə və yaxud elmi təşkilata təhkim edilmiş şəxs.

**Elmi dərəcənin bərpası** — əvvəllər elmi dərəcədən məhrum edilmiş şəxslərin elmi dərəcəsinin bərpası barədə qərar. Kifayət qədər əsaslar olduqda, adətən, həmin şəxsi elmi dərəcədən məhrum edən dissertasiya şurasının vəsatəti ilə qəbul edilir.

**Elmi dərəcənin verilməsi ilə bağlı attestasiya işi (iddiaçının attestasiya işi)** – iddiaçı, dissertasiya, dissertasiyanın müdafiəsi haqqında sənədlərin vahid iş şəklində toplanmış dəsti, tərkibi Dissertasiya Şurası haqqında Əsasnaməyə əlavə ilə müəyyən edilir.

**Elmi dərəcənin verilməsi ilə bağlı dissertasiya şurasının müsbət qərarı -** iclasda iştirak edən şura üzvlərinin üçdə iki hissəsindən az olmayanlarının lehinə səs verdiyi, elmi dərəcənin verilməsi ilə bağlı qərar.

**Elmi dərəcəyə iddia** – elmi dərəcənin verilməsi məqsədilə zəruri sənədlərin və materialların hazırlanması, tədbirlərin və prosedurların yerinə yetirilməsi prosesi.

**Elmi işçilərin ixtisaslar pasportu** – dissertasiyaların müdafiə edildiyi ixtisas nomenklaturasına tətbiq olunmaqla, Ali Attestasiya Komissiyası tərəfindən nəşr olunan və ixtisasların və tədqiqat sahələrinin təsvirini ehtiva edən sənəd.

**Elmi ixtisas** – elmi işçiyə müvafiq elmi sahə çərçivəsində elmi dərəcənin verildiyi ixtisas. Elmi işçilərin ixtisas nomenklaturası təsdiq edilmiş qaydalara əsasən müəyyən edilir. Hər bir ixtisasa rəqəmlə şifr verilmişdir, onun birinci hissəsi elmi sahəni və elmi, ikinci hissəsi isə həmin elmdə ixtisası göstərir.

**Elmi məruzə şəklində dissertasiya** – elmi dərəcəyə iddiaçının dərc etdiyi, müvafiq elmi sahədə və geniş mütəxəssislər dairəsində tanınmış, elm və təcrübə üçün mühüm əhəmiyyətə malik olan əvvəlki elmi işlərinin cəmi əsasında hazırlanmış, özünün yerinə yetirdiyi tədqiqat və işləmələrin nəticələrini qısa şəkildə ümumiləşdirən yazılı məruzədir.

**Elmi məsləhətçi** – doktorluq dissertasiyasının hazırlandığı təhsil müəssisəsinin rektoru və ya elmi müəssisənin rəhbəri tərəfindən doktorluq dissertasiyasını yazan üçün təyin olunan, dissertasiya tədqiqatlarının aparılmasında iddaçıya yardım edən elmlər doktoru səviyyəsində məsləhətçidir.

**Elmi rəhbər** – fəlsəfə doktoru elmi dərəcəsinə iddiaçının dissertasiyasının hazırlandığı təhsil müəssisəsinin rektoru və ya elmi müəssisənin rəhbəri tərəfindən iddiaçıya və ya doktoranta (doktoranturaya qəbul zamanı) təyin olunan rəhbər, adətən, bir qayda olaraq, elmlər doktoru, professor olur.

Ayrı-ayrı hallarda dissertasiyanın hazırlandığı təşkilatların elmi şuralarının qərarı ilə müvafiq ixtisas üzrə fəlsəfə doktoru olan, adətən dosent elmi adına malik şəxslər də elmi rəhbər kimi cəlb edilə bilər.

**Elm sahəsi -** müvafiq elmi dərəcənin verildiyi elmi sahə (iqtisadiyyat, fizika-riyaziyyat, kimya, biologiya, texniki və digər elmlər).

**Əlavə rəy (kollektiv rəy)** – dissertasiya şurasında dissertasiyanın müdafiəsi zamanı ekspertizanın keyfiyyətsiz olduğunu müəyyən edən AAK Ekspert Şurasının qərarına əsasən dissertasiyanın və attestasiyaya aid işin digər dissertasiya şurasına göndərilməsi və həmin şura tərəfindən dissertasiyanın Elmi dərəcələrin verilməsi haqqında Əsasnaməyə uyğunluğunu müəyyən etmək üçün əlavə rəyin verilməsi.

**Fəlsəfə doktoru diplomu** – müvafiq elmi dərəcənin verilməsini təsdiq edən sənəd.

**Hesablama komissiyası** – dissertasiya şurasının iclasında şura üzvləri arasından gizli səsvermə prosedurunu keçirmək və səsvermənin nəticələrini protokola salmaq üçün seçilən komissiya.

**İddiaçının elmi vicdansızlığı** – dissertasiyanın təkbaşına yazılması qaydasının iddiaçı tərəfindən bilərəkdən və əhəmiyyətli şəkildə pozulması, dissertasiya işində digər müəlliflərin materiallarından onlara istinad etmədən istifadə edilməsi, açıq-aşkar elmi plagiat.

**İştirak vərəqi** – dissertasiya şurası üzvlərinin iclasda iştirakını təsdiq edən, iclas iştirakçılarının imzalarını və onların səsvermə bülleteni almasını təsdiq edən imzalanmış sənəddir. İştirak vərəqəsinin forması Dissertasiya Şurası haqqında Əsasnaməyə əlavə şəklində təsdiqlənir.

**İxtisasın formulu (düsturu)** – AAK-ın İxtisaslar Pasportunda təqdim edilən və müəyyən elmi ixtisasa uyğun tədqiqatların məzmununun və obyektinin ətraflı təsviri.

**İxtisaslaşma** – elmi ixtisasın funksional xüsusiyyətinə və ya sahə mənsubiyyətinə əsasən onun bir hissəsinin təfərrüatlarının açıqlanması.

**Kvalifikasiya işi** – işin yerinə yetirən şəxsin elmi tədqiqat mövzusu üzrə dərin bilik səviyyəsini, öz fikirlərini ifadə etmə bacarığını və əldə edilmiş nəticələri şərh etmək qabiliyyətini təsdiqləyən iş.

**Kvorum** – dissertasiya müdafiəsi zamanı dissertasiya şurasının iclasında şəxsən iştirak etməli olan üzvlərin minimal sayı. İclasda şura üzvlərinin üçdə ikisindən az olmayan hissəsi iştirak edirsə, Dissertasiya şurasının iclası səlahiyyətli hesab olunur.

**Məcburi paylaşma** – dissertasiya avtoreferatlarının dissertasiya şurası haqqında Əsasnaməyə əlavə olaraq müəyyən edilmiş təşkilatlara məcburi qaydada göndərilməsi.

**Müdafiə edilmiş dissertasiya üzrə dissertasiya şurasının rəyi** – dissertasiya şurasının dissertasiyanın uğurla müdafiə edilməsindən sonra açıq səsvermə yolu ilə qəbul etdiyi yekun rəy. Bu yazılı rəydə şəxsən iddiaçı tərəfindən əldə olunmuş ən mühüm elmi nəticələr, onların etibarlılığı və yeniliyi, dissertasiya tədqiqatının nəticələrinin istifadəsi üzrə tövsiyələr, dissertasiyanın kvalifikasiya xüsusiyyətləri öz əksini tapır.

**Professor, dosent attestatı** — müvafiq elmi adın verilməsini təsdiq edən sənəd.

**Rəsmi opponent** – dissertasiya şurası tərəfindən təyin edilən, müvafiq elmi sahədə səriştəli alimlər arasından seçilən və dissertasiya və avtoreferata yazılı rəy vermək, müdafiə prosesində şəxsən iştirak etmək və rəyin məzmununu təqdim etmək səlahiyyəti olan rəsmi rəyçi.

**Təkrar dissertasiya müdafiəsi** – dissertasiya şurası və ya AAK tərəfindən birinci müdafiə nəticələrinə əsasən mənfi qərar qəbul edildikdən sonra dissertasiya işinin ikinci müdafiəsi. Təkrar müdafiə dissertasiyanın yenidən işlənməsi, opponentlərin və aparıcı təşkilatın dəyişdirilməsi və üç ildən tez olmamaq şərtilə keçirilə bilər.

# ƏLAVƏLƏR

## ƏLAVƏ 1

### Dissertasiyanın hazırlanması və müdafiəsinə dair iş plan-qrafiki

Bu Əlavədə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın hazırlanması, yazılması, tərtib edilməsi, müdafiəyə təqdim edilməsi və müdafiəsi ilə bağlı işlərin aparılması üçün nümunəvi plan-qrafik təqdim olunur. Plan-qrafikdə dissertasiya işinin əsas mərhələlərinin, onun ilkin müdafiəsinin və müdafiəsinin gedişində ardıcıl və ya ardıcıl-paralel şəkildə həyata keçirilməli olan əsas əməliyyatlar və prosedurların məzmunu əks etdirilir.

Plan istənilən elmi ixtisas üzrə dissertasiyanın hazırlanması zamanı yerinə yetirilməsi vacib olan ən ümumi işləri əhatə edir, yəni bütün ixtisaslar üçün ümumi xarakter daşıyır.

Plan-qrafikdə işlərin məzmunu ilə yanaşı, onların icraçıları və icra müddətləri də göstərilir, işlərin hansı mövcud əsasnamələrə, təlimatlara, kitabda təqdim olunan nümunələrə uyğun və ya tövsiyə olunan şəkildə yerinə yetirilməli olduğu qeyd olunur, əgər belə əsasnamələr mövcuddursa. İşlərin icra müddətləri iddiaçı tərəfindən fərdi planına uyğun olaraq müəyyən edilir və elmi rəhbərlə razılaşdırılmaqla plan-qrafikə daxil edilir.

Təklif olunan dissertasiya işinin yazılması və müdafiəsi prosesində aparılan işlərin nümunəvi plan-qrafiki işlərin sistemli təşkilini təmin edən bir alət kimi nəzərdə tutulmuşdur. Bunlar işlərin tam olaraq yerinə yetirilməsini təmin etmək, dissertasiyanın hazırlanma texnologiyasının normativ tələblərə uyğunluğuna nail olmaq məqsədi daşıyır. Plan-qrafik dissertasiya prosesinin monitorinq aparatı və prosesin düzgün gedişatını nəzarətdə saxlamaq vasitəsi kimi istifadə edilə bilər.

Bu plan-oriyentir iddiaçının yaradıcılıq təşəbbüsünü

həddindən artıq sərtliklə məhdudlaşdırmamalıdır. Burada formalaşan vəziyyətə uyğun olaraq məzmun, icra və zaman baxımından düzəlişlərə yol verilir.

**Cədvəl 1**

## Dissertasiya işinin yazılması və müdafiəsi prosesində aparılan tipik iş plan-qrafiki

| № | **İşlərin, əməliyyatların, prosedurların məzmunu** | **İcraçılar, iştirakçılar** | İcra müd-dəti |
|---|---|---|---|
| 1 | Dissertasiya işinin hazırlanması ilə bağlı qərarın qəbul edilməsi | İddiaçı, məsləhətçilər | |
| 2 | Dissertasiyanın hazırlanması nəzərdə tutulan elmi sahəsinin və ixtisasın seçilməsi | İddiaçı, məsləhətçilər, nəzərdə tutulan rəhbər | |
| 3 | Nəzərdə tutulan elmi rəhbərlə rəhbərlik haqqında danışıqların aparılması | İddiaçı, nəzərdə tutulan elmi rəhbər | |
| 4 | Disserttasiya işinin yerinə yetiriləcəyi təşkilatın seçilməsi | İddiaçı, nəzərdə tutulan elmi rəhbər | |
| 5 | Doktoranturaya qəbul, elmi dərəcənin iddiaçısı qismində elmi təşkilata təhkim edilməsi haqqında qərarın qəbulu | İddiaçı, nəzərdə tutulan elmi rəhbər | |
| 6 | Giriş referatının, dərc olunmuş elmi işlərin siyahısının hazırlanması | Doktoranturaya daxil olanlar | |
| 7 | Doktoranturaya qəbul imtahanlarının verilməsi | Doktoranturaya daxil olanlar | |
| 8 | Doktoranturaya qəbul, elmi dərəcənin iddiaçısı qismində elmi təşkilata təhkm edilməsi haqqında qərarın qəbulu | Doktoranturaya qəbul edilənlər, iddiaçılar kimi rəsmiləşdirilənlər, onların nəzərdə tutulan elmi rəhbərləri | |
| 19 | Elmi rəhbərin təsdiq edilməsi | Doktorant, nəzərdə tutulan elmi rəhbər, elmi təşkilatın rəhbərliyi | |
| 10 | Dissertasiya işinin mövzusunun seçilməsi | Doktorant, elmi rəhbər | |

| | | | |
|---|---|---|---|
| 11 | Dissertasiya işinin iriləşmiş strukturunun, kompozisiyasının işlənib hazırlanması | İddiaçı, elmi rəhbər | |
| 12 | Dissertasiya işinin mövzusunun təsdiqi, dissertasiya yerinə yetirilən ixtisasın dəqiqləşdirilməsi | Elmi təşkilatın elmi şurası, iddiaçı, elmi rəhbər | |
| 13 | Fərdi planın tərtibi və aparılması | İddiaçı, doktorantura, elmi rəhbər | |
| 14 | İlin yekunları üzrə dövri olaraq attestasiyadan keçmə | Doktorantura, elmi rəhbər, iddiaçı, elmi təşkilatın rəhbərliyi | |
| 15 | Xarici dil üzrə namizədlik imtahanının verilməsi | Doktorant, iddiaçı, komissiya | |
| 16 | Elmin tarixi və fəlsəfəsi üzrə namizədlik imtahanın verilməsi | Doktorant, iddiaçı, komissiya | |
| 17 | Dissertasiya mövzusu üzrə ədəbiyyat üzərində iş. İcmalların hazırlanması | İddiaçı | |
| 18 | Dissertasiya işinin mövzusu üzrə elmi, statistik informasiyanın toplanması və emalı | İddiaçı | |
| 19 | Elmi nəşrlərdə məqalələrin hazırlanması və dərc olunması | İddiaçı, elmi rəhbər | |
| 20 | Elmi seminarlarda, konfranslarda məruzələrlə çıxışlar. Məruzə və tezislərin nəşri | İddiaçı, elmi rəhbər | |
| 21 | Dissertasiyanın ayrı-ayrı fəsillərinin materiallarının hazırlanması | İddiaçı, elmi rəhbər | |
| 22 | Təcrübə işi | İddiaçı, kafedra, şöbə, laboratoriya, elmi rəhbər | |
| 23 | Hesablamaların aparılması, onların nəticələrinin emalı və təhlili | İddiaçı, elmi rəhbər | |
| 24 | Elmi-tədqiqat fəaliyyəti, disseretasiyanın mövzusu ilə bağlı ETİ-də iştirak | İddiaçı, kafedra, şöbə, laboratoriya, elmi rəhbər | |
| 25 | Tədris-pedaqoji fəaliyyət | İddiaçı | |

| | | | |
|---|---|---|---|
| | | | |
| 26 | Dissertasiyanın hazırlanmış materiallarının yerləşdirilməsi, işin fəsillərinə bölüşdürülməsi | İddiaçı | |
| 27 | Disserasiya işinin elmi rəhbərin nəzərdən keçirilməsi üçün təqdim olunması | İddiaçı, elmi rəhbər | |
| 28 | Ədəbiyyat mənbələri siyahısının tərtib olunması, dissertasiya mətnində onlara istinadların yerləşdirilməsi | İddiaçı | |
| 29 | İşin müdafiəyə çıxarıldığı ixtisasın və ixtisaslaşmanın dəqiqləşdirilməsi | İddiaçı, elmi rəhbər, dissertasiya şurasınmın elmi katibi | |
| 30 | Dissertasiya işinə girişin yazılması | İddiaçı, elmi rəhbər | |
| 31 | Nəticənin, qənaətlərin və tövsiyyələrin hazırlanması | İddiaçı, elmi rəhbər | |
| 32 | Dissertasiya işinə əlavələrin tərtib edilməsi | İddiaçı | |
| 33 | Namizədlik imtahanların verilməsinin tamamlanması | İddiaçı | |
| 34 | Üç nüsxədən az olmamaq şərtilə dissertasiya işinin əlyazmasının tərtib edilməsi | iddiaçı | |
| 35 | Təqdimatın ahəngdarlığını təmin etmək, uyğunsuzluqların, təkrarların, səhvlərin, yazı xətalarının aradan qaldırılması üçün əlyazmanın başdan-başa oxunması | İddiaçı | |
| 36 | AAK siyahısı üzrə yer alan nəşrlərdə, eləcə də digər nəşrlərdə dissertasiyanın müdafiəsindən bir ay öncə elmi işlərin dərcinin tamamlanması | İddiaçı, naşir | |
| 37 | Dörd nüsxədən az olmamaq şərtilə dissertasiya avtoreferatının əlyazmasının hazırlanması | İddiaçı | |
| 38 | Dissertasiyanı və avtoreferatın | İddiaçı, elmi rəhbər | |

| | | | |
|---|---|---|---|
| | nəzərdən keçirilməsi üçün elmi rəhbərə təqdim olunması | | |
| 39 | Dissertasiyanın ilkin ekspertizasının (ilkin müdafiəsinin) iddiaçının təhkim olunduğu yaxud dissertasiyanın yerinə yetirildiyi kafedra, şöbə, laboratoriya, təşkilatla razılığın əldə olunması. İki-üç rəyçinin təyin edilməsi. | İddiaçı, elmi rəhbər, iddiaçının təhkim olunduğu yaxud dissertasiyanın yerinə yetirildiyi kafedra, şöbə, laboratoriya, təşkilatın rəhbərliyi | |
| 40 | İşin əlyazmasının (və avtoreferatın) nəzərdən keçirilməsi üçün resenzentlərə, rəyçilərə təqdim edilməsi | İddiaçı | |
| 41 | İddiaçının təhkim olunduğu yaxud dissertasiyanın yerinə yetirildiyi təşkilatın elmi bölməsinin (kafedra, şöbə, laboratoriya) iclasında dissertasiya işinin müzakirəsinin aparılması | İddiaçı, elmi bölmənin rəhbəri, elmi əməkdaşlar, resenzentlər, elmi rəhbər. | |
| 42 | Dissertasiya işinin ilkin ekspertizasının (ilkin müdafiəsinin) keçirilməsi məsələsi üzrə elmi bölmənin iclasının protokolunun rəsmiləşdirilməsi | İddiaçı, elmi bölmənin rəhbəri, iclasın katibi | |
| 43 | İlkin ekspertiza (ilkin müdafiə) gedişatında səsləndirilmiş tövsiyyələrə uyğun olaraq dissertasiyanın tamamlanması | İddiaçı | |
| 44 | Elmi təşkilatın rəhbəri tərəfindən təsdiqlənən elmi bölmənin iclasının protokolundan çıxarış şəklində ilkin ekspertiza (ilkin müdafiə) əsasında dissertasiya işi üzrə rəyin tərtib edilməsi | İlkin müdafiənin keçirildiyi elmi bölmənin rəhbəri, elmi təşkilatın rəhbəri, iddiaçı | |
| 45 | Dissertasiyaya daxil olunmuş əlavə və dəyişikliklərlə birgə avtoreferat əlyazmasının tatamlanması | İddiaçı | |
| 46 | Dissertasiyanın dissertasiya | İddiaçı | |

| | | | |
|---|---|---|---|
| | şurasında ilkin baxışı üçün zəruri olan sənədlərin hazırlanması | | |
| 47 | Dissertasiya işinin yerinə yetirildiyi ixtisasa uyğun olaraq müdafiənin nəzərdə tutulduğu dissertasiya şurasının seçilməsi | İddiaçı, elmi rəhbər, dissertasiya şurasının sədri və elmi katibi | |
| 48 | İxtisas üzrə dissertasiya şurasına lazımi sənədlərin təqdim edilməsi | İddiaçı, dissertasiya şurasının elmi katibi | |
| 49 | İşlə tanışlıq və onun ixtisasa uyğunluğu ilə bağlı rəyin tərtib edilməsi məqsədilə dissertasiya şurasının üzvləri – dissertasiya profili üzrə mütəxəssislərin arasından komissiyanın təyin edilməsi (3 nəfər) | Şuranın sədri və elmi katibi, şura üzvləri | |
| 50 | Rəsmi opponentlərin təyin edilməsi haqqında dissertasiya şurası komissiyasının rəyinin hazırlanması | Komissiya üzvləri, elmi katib, elmi rəhbər | |
| 51 | Müdafiədə iştirak etmək üçün opponentlərin razılığının təsdiqinin əldə olunması | Tövsiyyə olunmuş rəsmi opponentlər | |
| 52 | Dissertasiya işinin müdafiəyə qəbul edilməsi, rəsmi opponentlərin təsdiqlənməsi, müdafiə tarixinin təyin edilməsi, avtoreferatların göndəriləcəyi əlavə siyahının müəyyən olunması, avtoreferatların çap edilməsi və göndərilməsi üçün icazənin verilməsi üzrə dissertasiya şurasının iclasının keçirilməsi. | Dissertasiya şurası, şura sədri və şuranın elmi katibi | |
| 53 | Avtoreferatın tam (əsas və əlavə) göndərilmə siyahısının tərtib edilməsi. | Dissertasiya şurasının elmi katibi, elmi rəhbər, iddiaçı | |
| 54 | Dissertasiya şurasının elmi katibi tərəfindən müdafiə tarixinin göstərilməsi ilə imzalanan dissertasiya işinin avtoreferatının son tərtibatının hazırlanması və çoxaldılması. | İddiaçı, dissertasiya şurasının elmi katibi | |

| | | | |
|---|---|---|---|
| 55 | Dissertasiya işinin son tərtibatının cildlənmiş şəkildə hazırlanması və iddiaçı tərəfindən ilk səhifənin üzərində imzalanması (4-5 nüsxə). | İddiaçı | |
| 56 | Müdafiədən ən azı bir ay əvvəl İnternetdə müdafiə elanı və avtoreferatın yerləşdirilməsi. | Dissertasiya şurasının elmi katibi, iddiaçı, kitabxana | |
| 57 | Avtoreferatın məcburi siyahı üzrə (poçt möhürü ilə təsdiqlənmiş tarix göstərilməklə) və əlavə siyahı üzrə göndərilməsi (müdafiədən ən azı bir ay əvvəl). | Dissertasiya şurasının elmi katibi, iddiaçı, təşkilatın kargüzarlığı | |
| 58 | Dissertasiya işinin və avtoreferatın rəsmi opponentlərə göndərilməsi (və ya çatdırılması). | Dissertasiya şurasının elmi katibi, iddiaçı | |
| 59 | Dissertasiya işinin əsas nəticələrinin tətbiqi (praktik istifadəsi) haqqında arayışların əldə edilməsi. | İddiaçı, iş nəticələrinin tətbiqində iştirak edən təşkilatlar | |
| 60 | Rəsmi opponentlərin rəylərinin dissertasiya şurasına təqdim edilməsi və iddiaçının onlarla tanış edilməsi (müdafiədən 10 gün əvvəl). | Rəsmi opponentlər, dissertasiya şurasının elmi katibi, iddiaçı | |
| 61 | İddiaçının işi haqqında elmi rəhbərin rəyinin tərtib edilməsi. | Elmi rəhbər | |
| 62 | Dissertasiya işinin avtoreferatına yazılı rəylərin hazırlanması və dissertasiya şurasına çatdırılması. | Rəy tərtib edənlər, iddiaçı, dissertasiya şurasının elmi katibi | |
| 63 | Dissertasiya işinin mahiyyətini və əsas müddəalarını əhatə edən, dissertasiya şurasının iclasında çıxış üçün və iclasın stenoqramına daxil edilməsi üçün yazılı formada | İddiaçı, elmi rəhbər, dissertasiya şurasının elmi katibi | |

| | | | |
|---|---|---|---|
| | məruzənin hazırlanması (fəlsəfə doktoru dissertasiyası üçün təxminən 7-8 səhifə və doktorluq dissertasiyası üçün 10 səhifə). | | |
| 64 | Çıxış üçün təqdimatın (prezentasiyanın) (dissertasiya şurasının iclasında istifadə olunacaq sxemlər, cədvəllər, qrafiklər, düsturlar şəklində illüstrasiyaların) hazırlanması. | İddiaçı | |
| 65 | Rəsmi opponentlərin dissertasiyaya verdikləri rəylərdə və avtoreferat rəylərində qeyd olunan tənqidi qeydlərə yazılı cavabların hazırlanması (dissertasiya şurasının iclasında səsləndirilməsi və stenoqrama daxil edilməsi üçün). | İddiaçı, elmi rəhbər, dissertasiya şurasının elmi katibi | |
| 66 | Müdafiədən sonra qəbul ediləcək dissertasiya şurasının dissertasiya üzrə rəy layihəsinin hazırlanması. | Dissertasiya şurasının komissiyası, şura sədri və elmi katib, elmi rəhbər | |
| 67 | Dissertasiya şurasının iclasının səlahiyyətli (kvorum) olması üçün tədbirlərin görülməsi (şura tərkibinin üçdə ikisindən az olmayan iştirakı, yalnız bir opponentin istisna ola bilməsi şərtilə opponentlərin iştirakı). | Dissertasiya şurasının elmi katibi, iddiaçı, elmi rəhbər | |
| 68 | Dissertasiya müdafiəsi prosesində fəaliyyət proqramının hazırlanması və təkmilləşdirilməsi. | İddiaçı, elmi rəhbər | |

**Əlavə 2**

## Elmi idrakda istifadə olunan metodlar

Elmi idrakda istifadə olunan bütün metodlar **ümumi elmi** və **xüsusi** metodlara bölünə bilər.

**Ümumi elmi** metodlara bütün elm sahələrində istifadə olunan metodlar daxildir, bunlar ümumiləşdirmə, deduksiya, abstraksiya, təcrübə (eksperiment) və s.-dir.

**Xüsusi metodlar** isə konkret elm sahəsində tətbiq olunur, məsələn, iqtisadiyyatda isə iqtisadi-riyazi modelləşdirmə metodları, hüquqda hüquqi modelləşdirmə metodu tətbiq olunur və s.

**Ümumi elmi** metodlar iki əsas qrupa bölünür: nəzəri metodlar və eksperimental metodlar. Hər iki qrupun xüsusiyyətlərini birləşdirən metodlar qrupu nəzəri-empirik metodlardır.

Bundan əlavə, tədqiqat metodlarının digər bir neçə təsnifatı da mövcuddur.

**Nəzəri tədqiqat metodlarına** abstraktdan konkretə doğru yüksəliş metodu, formallaşdırma metodu, ideallaşdırma metodu və digərləri daxildir.

**Abstraktdan konkretə doğru yüksəliş metodu** tədqiqat obyektinin şərti olaraq hissələrə bölünməsi, onun xüsusiyyətlərinin çoxlu anlayışlar və xarakteristikalar vasitəsilə təsviri, bu anlayışların, abstarksiyaların və birtərəfli təriflərin düşüncədə sabitləşdirilmiş məcmusuna çevrilməsindən ibarətdir. Daha sonra obyektin özü bərpa edilir və düşüncə prosesində bütün tərəfləri ilə yenidən təsvir olunur.

**İdeallaşdırma metodu.** Bu metod mürəkkəb sistemlərin və proseslərin sadələşdirilməsi üçün istifadə olunur ki, bu da öyrənilən prosesin mahiyyətini anlamağa mane olan obyektlərin xüsusiyyətlərini və əlaqələrini nəzərdən kənarlaşdırmağa imkan verir. Bu məqsədlə, reallıqda mövcud olmayan ideal obyektlər düşüncədə konstruksiya edilir.

**Formallaşdırma metodu** tədqiq olunan obyektin məzmunu və strukturunun işarəvi formada: riyazi simvollar, kimyəvi və fiziki düsturlar və s. ilə təsvir olunmasını nəzərdə tutur.

**Eksperimental tədqiqat metodlarına** modelləşdirmə, müşahidə, müqayisə və digər metodlar daxildir.

**Müşahidə metodu** insanın hiss orqanlarının işinə əsaslanır və tədqiqat obyektinin təbii şəraitdə davranışı haqqında obyektiv məlumat əldə etməyə imkan verir.

**Eksperiment** metodu müəyyən hadisəni xalis formada öyrənməyi nəzərdə tutur və tədqiqat obyektlərinin xüsusiyyətlərini həm təbii, həm də ekstremal şəraitdə araşdırmağa imkan verir. Eksperimentin nəticələrinin yoxlanılması məqsədilə o, təkrar oluna bilər.

**Müqayisə metodu** gerçəkliyin obyekt və hadisələri arasında oxşarlıqları və fərqləri müəyyən etməyə imkan verir.

**Modelləşdirmə metodu** tədqiq olunan obyektin modelinin qurulması və bu model əsasında obyektin xüsusiyyətlərinin öyrənilməsindən ibarətdir.

**Empirik-nəzəri tədqiqat metodlarına** abstraksiya, analogiya, deduksiya və digər metodlar daxildir. Analogiya metodu bir neçə obyekt arasında müəyyən əhəmiyyətli əlamətlərə görə oxşarlığa əsalanaraq, tədqiq olunan obyektlərdən birində konkret əlamətin mövcud olduğunu ehtimal edir.

**Abstraksiya metodu** tədqiqat apararkən obyektin əhəmiyyətsiz xüsusiyyətlərini nəzərdən kənarlaşdırmağa və obyektin ən əhəmiyyətli xüsusiyyətlərinə diqqət yetirməyə imkan verir.

**Deduksiya metodu** induktiv yolla əldə edilmiş qənaətləri nəzəri olaraq əsaslandırmağa, onların hipotetik xarakterini aradan qaldırmağa və onları etibarlı biliklərə çevirməyə imkan verir.

**İnduksiya metodu** empirik məlumatlar əsasında nəzəri biliklərin formalaşdırılmasına imkan verir və təcrübələrə və

eksperimentlərə əsaslanır.

Xüsusi tədqiqat metodları kimi aşağıdakı nümunələr göstərilə bilər:

- iqtisadiyyat – iqtisadi-riyazi modelləşdirmə, marjinal analiz, funksional analiz, iqtisadi konyunkturun tədqiqi üçün statistik metodlar və s.;
- hüquqşünaslıq – hüquqi modelləşdirmə metodu, formal-hüquqi, müqayisəli-hüquqi, hüquqi normaların şərhi metodu və s.;
- psixologiya – söhbət metodu, anket metodu, prosesin və fəaliyyət məhsulunun psixoloji analiz metodu, bioqrafik metod və s.

Humanitar elmlər sahəsində dissertasiya tədqiqatları mütləq qaydada məlumatların toplanmasını və təhlilini nəzərdə tutur. Bu məlumatlar əsasında ilk növbədə tədqiqatın aktuallığı müəyyən edilir, eləcə də tədqiqatın məqsədi və vəzifələri qurulur. Məlumatların təhlili metodlarının istənilən ixtisas üçün vacib olmasına baxmayaraq, müxtəlif ixtisaslar üçün məlumatların təhlili metodlarının əhəmiyyətli fərqləri mövcuddur.

Hazırda məlumatların təhlili metodlarına iki əsas yanaşma mövcuddur: bunlar adətən "statistik" və "humanitar" adlanır.

**Statistik və yaxud kəmiyyət metodları** əsasən sosial-iqtisadi hadisələrin strukturunda, dinamikasında və qarşılıqlı əlaqələrində ortaya çıxan qanunauyğunluqları öyrənən humanitar elmlər sahələrində (iqtisadiyyat və s.) istifadə olunur.

Humanitar və ya keyfiyyət metodları əsasən cəmiyyətin fəaliyyət göstərməsi və inkişafı qanunauyğunluqlarını öyrənən humanitar elmlər sahələrində (politologiya və s.) tətbiq olunur. Qeyd etmək lazımdır ki, bu metodlar tez-tez eyni işdə eyni vaxtda istifadə olunur. Bundan əlavə, bu metodlar eyni ardıcıllıqla həyata keçirilir:

- göstəricilərin və onların toplanma qaydasının müəyyən

edilməsi;

- göstəricilərin toplanması;
- göstəricilərin ümumiləşdirilməsi və lazım olduqda qruplaşdırılması;
- göstəricilərin emalı (işlənməsi).

**Statistik metodlarda** göstəricilərin müəyyən edilməsi tədqiq olunan prosesin xüsusiyyətlərinin öyrənilməsi, göstəricilərin seçilməsi və zərurət yarandıqda onların əhəmiyyət dərəcəsinə görə sıralanması yolu ilə həyata keçirilir. Daha sonra seçilmiş göstəricilərin toplanma qaydası müəyyən edilir. Sonra, zərurət yarandıqda, toplanmış göstəricilər qruplaşdırılır və statistik cədvəllər şəklində tərtib edilir.

Toplanmış göstəricilərin işlənməsi zamanı tədqiqatın məqsədlərindən asılı olaraq, riyazi statistika metodları tətbiq edilir: göstəricilərin mütləq, nisbi və orta qiymətləri, variasiyalar və statistik indekslər istifadə olunur ki, bu da göstəricilər arasındakı əlaqələri və qanunauyğunluqları müəyyən etməklə yanaşı, iqtisadi və sosial hadisələrin nəticələrini qiymətləndirməyə imkan verir.

**Məlumatların əsas statistik təhlili metodları** korrelyasiya analizi, reqressiya analizi, kanonik analiz, orta qiymətlərin müqayisə metodu, tezlik analizi, əlaqələndirmə metodu, uyğunluqların analizi, diskriminant analizi, klaster analizi, faktor analizi, çoxölçülü şkalalanma, təsnifat ağacları, əsas komponentlərin analizi və təsnifat, zaman sıralarıdır.

**Humanitar və yaxud keyfiyyət metodları** iştirakçıların aktiv müşahidəsi (açıq və gizli), intensiv müsahibə (dərin fərdi və qrup müsahibələri) və s. nəzərdə tutur.

**Humanitar metodlar** arasında aşağıdakılar fərqləndirilə bilər:

- sosial eksperiment;
- sorğu metodları;
- sənədlərin təhlili.

**Sosial-humanitar elmlərdə** geniş tətbiq olunan metodlardan biri **sosial eksperimentdir.** Sosial eksperiment tədqiqatçının sosial hadisələrin fəaliyyət faktorlarına gətirdiyi dəyişikliklərin təsirini qiymətləndirməyə imkan verir. Adətən, sosial eksperiment artıq formalaşmış kollektivlərdə (uşaq bağçası, məktəb, institut, işçı kollektivləri) keçirilir.

**Sorğu metodu** məlumatların anket və ya müsahibə yolu ilə toplanmasını nəzərdə tutur ki, bu da tədqiqat prosesində birbaşa iştirak edən şəxslərdən məlumat almağa imkan verir. Sorğular həm şifahi, həm də yazılı formada, əyani və ya qiyabi aparıla bilər, eləcə də sorğuda iştirak edənlərin sayına görə istənilən ölçüdə auditoriya əhatə oluna bilər.

**Sənədlərin təhlili**, burada sənədlər əsas məlumat mənbəyi kimi istifadə olunur, əsasən keçmişdə baş verən və digər metodlarla analiz edilə bilməyən hadisələrin təhlilində tətbiq edilir.



View publication stats